AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FOLKLOR İNSTİTUTU

# AZƏRBAYCAN FOLKLORU KÜLLİYYATI

## XXVII cild

# DASTANLAR

## XVII kitab

BAKI - 2011

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

***AMEA Folklor İnstitutu***
***Elmi Şurasının qərarı ilə nəşr olunur***

**REDAKSİYA HEYƏTİ**

**Muxtar Kazımoğlu**, filologiya üzrə elmlər doktoru **(məsul redaktor)**;
**Tofiq Hacıyev**, AMEA-nın müxbir üzvü, filologiya üzrə elmlər doktoru, professor;
**İsrafil Abbaslı**, filologiya üzrə elmlər doktoru, professor;
**Kamran Əliyev**, filologiya üzrə elmlər doktoru , professor;
**Füzuli Bayat**, filologiya üzrə elmlər doktoru;
**Məhərrəm Cəfərli**, filologiya üzrə elmlər doktoru, professor;
**Oruc Əliyev**, filologiya üzrə fəlsəfə doktoru;
**Elxan Məmmədli**, filologiya üzrə fəlsəfə doktoru;
**Əfzələddin Əsgərli**, filologiya üzrə fəlsəfə doktoru;
**İlkin Rüstəmzadə**, filologiya üzrə fəlsəfə doktoru;
**Əziz Ələkbərli**, filologiya üzrə fəlsəfə doktoru **(məsul katib).**

**TƏRTİB EDƏNİ**: **f.ü.e.d. Muxtar KAZIMOĞLU**

**Azərbaycan folkloru külliyyatı, XXVII cild, Dastanlar (XVII kitab),** Bakı, “Elm və təhsil” nəşriyyatı, 2011, 292 səh.

A $\frac{4603000000}{N\text{-}098\text{-}2011}$ Qrifli nəşr

**©Folklor İnstitutu, 2011**



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# QARATEL VƏ AŞIQ CƏLAL

## USTADNAMƏ

Bilirsənmi bu torpaqda neçə-neçə can yatır.
Varlı-varsız, yaxşı – yaman, hər cürə insan yatır.
Vuran – tutan, asan-kəsən, heç kəsə baş əyməyən,
At minib, qılınc oynadan neçə pəhlivan yatır.

Ey insan kəs, asta yeri, ayaqlama o canı,
Nə bilirsən nəkaradı, bəlkə xalq qəhrəmanı.
O yazıq da çox dolandı bu yalançı dünyanı,
Bəlkə də nakam ölübdür, gözləti giryan yatır.

Bir fəhm qıl, diqqət eylə, orda yatanlar var,
Yalnız gözlə namusunu, nə dövlət-vara bax.
Bacar heç kəsi incitmə, qadiri-qəhhara bax,
Öləndə desinlər, hayıf, nə gözəl insan yatır!

Ustadlar ustadnaməni bir deməzlər, iki deyərlər, biz də deyək iki olsun, dərd düşmənin yükü olsun :

Məclisdə hər cürə insan oturar,
Ağsaqqalın bir üzü də boz gərək.
Əsli zər olmasın qəlbi tez dönər,
Girəndə məclisə qaya göz gərək.

Məclislərdə oturanlar, durarlar,
Danışarlar, hər mətləbi sorarlar,
Özünü gözlə, bir kəlməyəm vurarlar
Ox kimi sancılan cana söz gərək.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ağacanam, Borçalıda mən durdum
Əslim şorəliydi, məkanım yurdum
Hər kimin nəyi var kəndinə verdim,
Kişi odur haqq-hesaba düz gərək.

Ustadlar ustadnaməni iki yox, üç deyərlər, bir də deyək üç olsun. Qoy qarı düşmənin ömrü puç olsun.

Əzəl başdan bu dünyanın
Xalq eyləyən ətası var
Eşq əhlinə tənə olmaz
Çünki haxdan butası var.

Aqil gözlər yol-ərkanı
Adil gözlər gövhər kanı
Zatı pakı yaxşı tanı
Mərd oğlun mərd atası var.

Xəstə Qasım Tikmədaşlı
Könlü tarmar, gözü yaşlı
Söz danışma iki başlı
Yanlış sözün xətası var.

Bəli mənim əzizlərim, sizə hardan xəbər verim, Qazax mahalında İncə dərəsindən. Xanbağından Qapcıllı Paşanın uşaqlarının sünnət toyu idi. Məclisin masabəyi Mehdioğlu Yusif bilirdi ki, Qasımlıdan gələn qonaqların sağlığıdı. Yerbəyerdən badələr qaldırıldı. Qonaqların sağlığına xoş sözlər deyildi. Qonaqların ağsaqqallarından biri öz minnətdarlığını bildirdi:

– Sağlığımıza qeyd etdiyiniz üçün çox sag olun. Bu qədim, Axar-baxarlı Kəmərli kəndində özümüzü doğma hiss



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

edirik. Qonaqsevənsiniz. Icazə versəniz məclisimizin aşığı belə gözəl kənd haqqında bir qoşma oxuyardı.

Təklif hamının ürəyindən oldu. Aşıq Cəlal gümüş telli, sədəfli sazını sinəsinə qaldırdı. “Qəhrəman havasında görək nə dedi:

Kəndinin halını bilmək istəsən,
Sərindir havası, yeli gözəldir
Hər tərəfə baxsan yeniliyi var
Görünür gələcək ili gözəldir.

Yollar üzə gülür, küçə çəkilir,
Cərgə ilə təzə evlər tikilir
Könlüm nə istəsə bura əkilir
Zəhmətkeş əməyi, əli gözəldir.

Hər iki tərəfdə qoşa dağı var
Meşəsi var, bağçası var, bağı var
Hər toyda, məclisdə xoş yığnağı var
Şad gündə yaşayır, eli gözəldir.

Məclis əhli hər bir tərəfdən “sağ ol” dedikcə Aşıq Cəlalın sinəsi coşurdu. Qonaqların bir neçəsi dedi:

Kəmən qayasıyla Eyfli quzeyu
Baxırsan, baxdıqca ucadır boyu
Vələsdi bulağın sərindir suyu
Cəvidim çiçəyi, gülü gözəldir.

Yaxşı səfalıdır Şişdağ, Hayvalı
Bağman, Qaraqaya, Yavşanlı çalı...



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Eli unutmasın Aşıq Cəlalı,
Teli sazı şirin dili gözəldir.

Aşıq Cəlal yorulmaq bilmirdi. Bu sözün arxasında birin də başladı. Elə bu vaxt məclisə süs düşdü ki, Tiflisdən qonaqlar gəlib. Onları mağara dəvət etdilər.

Yemək-içmək, çal-çağır davam etrməkdə olsun. Qonaqlardan biri masabəyindən icazə istədi, masabəyindən üzrxahlıq etdi:

– Hörmətli məclis üzvləri! Bizdə aşığa çantası bir namə var. Yaxşı oldu ki, aşıq Cəlalı bu məclisdə tapdıq. Sizin icazənizlə bu məktub ona çatasıdır.

Məktubu aşığa verdilər. Amma hamının fikri-zikri məktubun yanında idi. Görəsən axı bu nə məktubdur?

Aşıq Cəlal məclisin narahatçılığını duyub dedi:

– Aşıq elin oğludur, deyiblər. Mənim sizdən gizlin nə işim olasıydı?Tanımadığım bir adamdan namə almışam. Adı da Qarateldir. Qaratel adını eşidən məclis daha da maraqlandı. Hamı təklif etdi ki, aşığın eldən gizli nə sözü olar? Qoy aşıq onu elə buradaca oxusun! Aşıq Cəlal məclisə üz tutdu, “Bəhməni” üstə oxumağa başladı.

Eşitmişəm adın Aşıq Cəlaldır.
Söyləyir adını bizim el, Cəlal,
Adını ağlıma bir oğlan saldı
Əgər güvənirsən, bizə gəl Cəlal!

Əgər gələsisən, ləngimə tez gəl
Biliyimi görsən qalarsan məttəl
Ya gəl məni apar, ya sazdan çək əl
Aşıqsansa, bu hikməti bil, Cəlal.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Özüm Qaraçöplü, əslim Təkəli,
Anam Abgülqaya, atam Göyçəli
Ümidvaram, sən də bizə tez gəli,
Adımı soruşsan Qaratel Cəlal.

Söz tamam oldu. Aşıq bir də onu əlavə etdi ki, Qaratel cavabı soruşur ki, sünnüsən, yoxsa şiə. Həm də Aşıq Cəlal mənə bir cavab yaz, gəlirsən gəl, gəlmirsən yerini-yurdunu bildir, mən gəlim. Allahu-əkbər, yaman yerdə axşamladıq.

Ağsaqqal, qarasaqqal hərə bir məsləhət verdi. Biri dedi get onun çağırışına, biri dedi hələ gözlə.

Qaratel xanım özü də deyir ki, gələsi olmasan bildir, mən gəlim. Məktubun cavabı məktub olar. Aşıq Cəlal yerli-yataqlı bir məktub yazsın, elə indi də göndərin ünvanına, vəssəlam!

Bir də ki, toyun-nişanın bu bol vaxtı, neçə sifarişi var aşığın. Oğul evləndirənin, qız köçürdənin diləyi var. Xeyir işlərimizi aşıqsız keçirməyəcəyik ki, sonra gedər.

Hamı razılaşdı.

Aşıq Cəlal zilini zil, bəmini bəm eylədi. Ayağa qalxdı görək "Qaraçı" havası üstdə nə dedi:

Uzaqdan uzağa  əhval soran dost,
Bir gəl sən özün gör, mən nə gündəyəm,
Bəlkə nə evim var, nə olacağım,
Elə şorəkətin şor düzündəyəm?

Məni azad verirsən Kəbi-Qibləyə,
Deyirsən sünnüsən, yoxsa ki, şiə,
Dilim varmaz birinə pis deməyə
Sünnüyəm, şiyəyəm – bircə dindəyəm.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Məclis hərəkətə gəldi:
– Sağ ol!
– Sən yaşa, aşıq!
– Ayə Cəlal, necə gəlməyini de!

Əgər gələr olsa sən bizim elə,
Əvvəl Salahlıda maşını əylə
Burada Vurğundan bir şeir söylə
Mənim eloğlumdur, tərəfindəyəm.

İncəyə keçəndə düşmə nabələd,
Hacı əfəndiyə eylə ziyarət
Bu adət, dilindən kəsmə ibadət,
O türvəyə de ki, əziz bəndəyəm.

Türvəylə vidalaş, Qaymaqlıya keç,
Kərəm bulağından bir sərin su iç
Avdıyı görməyi sən unutma heç,
Ona yaxın yerin bir səmtindəyəm.

Keç asta addımla üzü yuxarı,
Şıxqaya babamın qəbrinə sarı,
Dolan künbəzinə, rəhmət de barı,
Axtar tap, məni onun kəndindəyəm.

Kəndim səfalıdır dağdır hər yanı,
Burda insanların safdır vicdanı,
Elin zəhmətinə hünər dastanı
Toplayıb yazmağın niyyətindəyəm.

Bu yerdə kiminsə dili dinc durmadı:
– Aşıq dağlar amanatı!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aşıq Cəlal bir anlığa dayandı. Nə vaxtdan bəri qonaqların heyranlıqla baxdığı dumanlı Kəmənd qayasına, Yovşanlı çalına, qədim Məlikli bağlarına baxdı. El obasının, doğavar olmasını Qaratelə çatdırmağı lazım bildi: - “Baş Şərili” üstə davam etdi:

Gördüm tapılmıram, bəs çarəsi nə?
Çıx Kəmənd dağının lap zirvəsinə.
Oradan bax kəndin mənzərəsinə,
Onda görəcəksən hansı tindəyəm.

Gəldim. Kəmərliyə, bizim bu kəndə,
Deyim ünvanımı unutma sən də
Kəmənd qayasından bir az enəndə,
Yovşanlı çalının ətəyindəyəm.

Masabəyi Mehdioğlu Yusif dedi:

– Aşıq Cəlal, özün dedin ki, o səni uzaqdan-uzağa eşidib. Yaxşı olar ki, öz yaşını da deyəsən.

Elim bağ-bağçalı, dağlı-qayalı,
Bu yerdə taparsan Aşıq Cəlalı
Baxarsan nə qoca, nə gəncdir halı
Qırx yaşa çatmışam yarı sindəyəm.

Söz tamam oldu. Məktubu sahibinə çatdırmaq üçün həmin adama verdilər. Aradan xeyli vaxt keçdi, necə deyərlər, ay dolandı, il dolandı, günlərin bir günündə yenə bir ismarıc gəldi ki, Aşıq Cəlal, o vaxtdan bəri yolunu gözləyirik.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Daha gözləmək olmazdı. Ertəsi gün səhər tezdən o ev-eşiklə halal-hümbət eləyib yola düşdü. Anası Şahnisənin ürəyi dözmədi:

– Oğul, saçımın birini qara birini ağ görmüşəm, səni boya-başa çatdırana kimi. İndi də yaşlaşmışam. Dünya işidir ki, nə bilmək olar...

Şahnisə arvad önlüyünün ucunu kipriklərinə toxundurdu.

Aşıq iki körpəsini və ömür yoldaşını süzüb dedi:

– Tez gələcəyəm ana!

Anası dedi:

– Bir də, Avdı dayın ismarıc eləyib ki, eşitmişəm. Cəlal ora-bura getmək istəyir, getməsin, əlimizdə xeyir iş var.

Kimə deyirsən. Cəlal elə bil kaman üstə qoyulmuş ox kimi yedi. "Ay Allah" deyib tərpəndi. Atın cilovunu buraxdı.

Qarayazı düzündə bir az dincəlib yoluna davam etmək istəyirdi ki, Gülü kişi yanında da yeddi-səkkiz özü yaşda adam qarşısına çıxdı. Gülü kişi Nazarlıda, həm də ətraf kəndlərdə sayılan adam idi. Qapısından gəlib-gedəni kəsilməzdi. Süfrəsi həmişə açıq olardı. Süfrəmiz həmişə açıq olsun, mənim əzizlərim!

Saz üçün, aşıq üçün, kef-damaq üçündə əvəzi yoxuydu kişinin. Cəlalın məclisində çox olmuşdur. Oydu ki, görən kimi tanıdı. Salam – kəlamdan sonra dedi:

– Aşıq, elə biz toydan-toya, bayramdan bayrama görüşəcəyik.

– Xeyr, Gülü kişi. Yaxşı dostla görüşməz elə toy bayramdır.

Gülü kişi dedi:

– Onda getdik bizə!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Daha məsləhət-məşvərət olmadı. Qapıya çatanda gördülər həyətdə dörd-beş yəhərli at var. Həmişə eviniz qonaqqaralı olsun, içəridəki qonaqlar gələnlərin arasında aşıq olduğunu görüb sevindilər. Yemək-içmək, çal-çağır başladı. Necə deyərlər, hamı mıxı vurub papağını asdı, bilmədilər.

Cəlal da ki, bir meydan açdı gəl görəsən!

Hamı sazdan-sözdən doyandan sonra Gülü işi soruşdu:

– Yaxşı, Aşıq Cəlal, indi de görüm, hardan gəlib hara gedirsən?

– Ayə, sabah soruçardın ta!

Araya gülüşmə düşdü.

Aşıq sazını təzədən götürdü, “Orta Şərili” üstə nə dedi.

Bismilla söyləyib çıxmışam yola,
Seyrə çıxıb doğma eli gəzirəm
Dostlarım könlünü oxşaram sazla
Bəmnən başlayıram, zili gəzirəm.

Gülü kişi dilləndi:

– İnanan daşa dönsün! Xalq gəzməyə İncə dərəsinə gedir. Sən də bura?! Bircə onu düz deyirsən ki, dostların könlünü bəmli-zilli sazınla oxşayırsan.

Cəlal sözün mabədini dedi:

Haqq düşməz dilimdən hər səhər-axşam,
Canım cəfakeşdir, yanır misli şam
Pərvazlanıb yenə qanad açmışam.
Sonam deyib hər bir gölü gəzirəm.

Vədimə, sözümə sadiq kəsdəyəm,
Uğurlar gətirən bir həvəsdəyəm



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aşıq Cəlal deyər səfər üstəyəm
Qaraçöplü Qarateli gəzirəm.

Hamı işdən xəbərdar oldu. Gülü kişi dedi:

– Cəlal, uğurun xeyir olsun. Ancaq qayıdanda burdan gələrsən. Toya bərabər bir yığnaq eyləyəcəm. Nə olub danışarsan, biz də bilərik.

Qonaqlardan sispapaqlı bir nəfər dedi:

– Həftə gedənə qədər bizim bir toy məclisi var, onu keçirsin, sonra gedər.

Razılaşdılar, belə ki, üç gün sonra Qardabanda görüşsünlər.

Bəli, əzizlərim, həmişə güzəranımız toylara düşsün. Üç gün keçdi...

Dedikləri kimi, görüşdülər, ordan da toy məclisinə. Birinci günü qurtardı. El-oba səhərisi günü aşıqdan ağız dolusu danışırdı. Deyirdilər ki, daha bizim xeyir işlərin hamısını Aşıq Cəlal keçirsin.

Toyun ikinci günü başlandı. Məclisin şirin yerində üç nəfər aşıq içəri daxil oldu. Cəlal onların heç birini tanmırdı. Üçü də dedi ki, aşığa sifariş vermək istəyirik. Bu sifariş deyildi, bostana daş atmaq idi. Cəlal isə özünü o yerə qoymayıb sifarişləri tamam-kamal oxudu. İşi belə görən aşıqlar açıq danışmağa başladılar. Biri ayağa qalxdı ki, bu aşıq bizlə deyişməlidi. Nə camaatın, nə də aşığın razılığı olmadan sazlarını içəri gətirdilər. Dəliyəm, zorluyam buna deyərlər ha...

Cəlal hiss edirdi ki, məclis onun tərəfindədir. Bircə ona təsir edən oydu ki, saz-söz sahibi olasan, belə iş tutasan.

Bayaqdan bəri məclisdə boy-buxunu, mərifəti ilə seçilən Kamil adlı bir sürücü Aşıq Cəlala yaxınlaşdı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Aşıq Cəlal, qorxub eləmə, işində ol. Nə kömək lazımdı mənə de!

Cəlal keçmiş ustadların başına gələnləri xatırladı. Bu məsələ uzanmalıydı. Qərara gəldi ki, hər ehtimala qarşı ustadının dalınca adam göndərsin.

Dedi:

– Kamil qardaş sənnən bir xahişim var.

– Buyurun, – dedi, Kamil.

– Gedərsən İncə dərəsinə, aşıq. Avdı Qaymaqlıya deyərsən ki, səni Cəlal Qaratəpədə filan yerdə gözləyir.

Üstəlik bir namə də yazdı və əlavə etdi:

– İşdir Avdı kişini evdə tapmasan, ya gələsi olmasa, bu sözlərimi Şıxlı Dərya Məhəmmədə çatdır.

Kamil getməkdə olsun, mənim əzizlərim, sizə məclisdən danışım.

Deyişmə başladı, nə başladı !

Qoşunla qoşunun döyüşməyinə nə var, aşıqla aşığın deyişməyi zülümdü!

Əvvəlvə Aşıq Xuda qabağa düşdü “Ovşarı” üstündə.

**Aşıq Xuda**

Saz götürüb düşdüm bizim mahala
Niyə gəldin de sən bura, ay nadan
Üç qaşıqla bir aşığın nə işi,
De sən hara, meydan hara, ey nadan.

**Aşıq Cəlal**

Təklif eylədilər məclisə məni
Gətirdilər sizin yerə, ay nadan
Üç aşıqla bacararam çalmağı,
Meydanda çəkərəm nərə, ay nadan.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**Aşıq Xuda**

Qəribsən, qəlbinə dəymirəm hələ,
Özün öz-özünə güvənmə belə
"Cəngi Koroğlu" da çəkərsəm zilə,
Düşərsən burada şərə, ay nadan.

**Aşıq Cəlal**

Aşığa qəribsən demək olarmı,
Saz-söz bilən aşıq darda qalarmı,
Bura öz elimdi, xəbərin varmı
Düşərəmmi intizara, ay nadan?!

**Aşıq Xuda**

Bir daha tərk eylə bu Qardabanı
Qarşıya bax, yaxşı tanı Xudanı
Mənim kimi aşıq varsa, de hanı
Salaram cəngimdə zora, ay nadan?!

**Aşıq Cəlal**

Öz yeri İncədir, Qazax mahalı,
El bilir, tanıyır Aşıq Cəlalı
Dana ha çalışsa yuxammaz kah
Sərçə neylər bir şonqara, ay nadan?!

Söz tamama yetdi. Aşıq Xuda tərimi silə-silə çay içmək istəmədiyini bildirdi. Bir tərəfdən də yoldaşı aşıq Rövşənə göz elədi. Aşıq Rövşənin bayaqdan sümüyü sancmışdı. Özünə toxtaqlıq verib irəli yeridi. Yoxsa aşıq Xuda onu hesaba həsrət qoyardı. "Misri" üstündə aldı aşıq Rövşən görək nə dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**Aşıq Rövşən**

Yer ilə nə işim, ey Aşıq Cəlal,
Səmadan, ulduzdan, günnən söyləyək.
Ərşdəki mələyi sayaq ikimiz,
Fələkləri gəzən ünnən söyləyək.

**Aşıq Cəlal**

Cəm olaq bir yerə, ay Aşıq Rövşən,
Keçmiş ustadlardan dastan söyləyək
Naqabilsən, mələklərnən nə işin?
Təmiz insan olaq, dastan söyləyək.

**Aşıq Rövşən**

Nə üçün mələklər görünməz gözə,
Çəkərlər qələmi əyriyə-düzə.
Kafirdən, yeziddən gələk söz-sözə
Onların çəkdiyi qəmnən söyləyir.

Xuda gözünü ağartdıqca, Aşıq Rövşən gözünü yumub, ağzını açıb, boğazını dağıdırdı. Aşıq Cəlal gördü o eyhamla qanan deyil, sözünü bir az da açıqladı:

Çalış sənətində geri qalma sən,
Tamaha aldanıb pula çalma sən.
Bilməz olub çığır-baxır salma sən,
El bizi dinləyir pəsdən söyləyək.

Aşıq Rövşən bir də oxumağa başlayanda, məclis üzvlərindən biri masabəyindən və ağsaqqallardan üzr istəyib dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Aşıq Rövşən, mənə Zoğal Əhməd deyərlər. Düzünü deyəcək. Bu kişi deyir gəl sənətdən, aşıqlıqdan danışaq, sən mollalıqdan.

Din-ərkan sahibi olanlar saqqal tərpətdilər, yəni Zoğal Əhmədin sözünü təsdiqlədilər. Bu söhbət hər üç aşığa toxundu. Şərtə görə o biri aşıqlar dinmədilər. Amma söz Rövşəni tutmuşdu. Tilov balığı tutan kimi!

– Qulaq asın, qulaq asın... Mən molla – zad deyiləm, elm əhli, sadiq bəndəyəm.

Mən Qaratəpəli Aşıq Rövşənəm,
Bir bağlı qapıyam, doludur sinəm,
Kitabdan, hesabdan düz qanan mənəm,
Tilsimnən, şeytandan, cinnən söyləyək.

Ağsaqqallar başını buladı. Zoğal Əhməd özünü saxlaya bilməyib ayağa qalxdı:

– Ay camaat, biz deyirik həmdən-həmə, bu deyir dəmdən dəmə. Heç sadiqi-bəndə özgənin qismətinə yönələrmi, qonağı incidərmi?!

Aşıq Cəlal davam etdi:

Nahaqdan ortaya salırsan qalı,
Payımı haqq verir, olgunan halı
Həvəsə gətirən Aşıq Cəlalı,
Sazdan-sözdən, şirin səsdən danış.

Yemək-içmək yaddan çıxmışdı. Toy sahibi içəri gəldi.

– Ay qardaş, Allah xətrinə, mənim işimə mane olmayın.

Kimə deyirsən? Üçüncüsü qalxıb irəli yeridi. Adı Namazıydı. Ağına-bozuna baxmadı. Görək nə dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**Aşıq Namaz**

Gəl səndən soruşum, ay Aşıq Cəlal,
Kim cəlladdır hər insana, ver cavab.
Nəynən kəsər ömrün-günün başını,
Qaçmaq olmur heç bir yana ver cavab.

**Aşıq Cəlal**

Əzrayıl cəlladdır, ay Aşıq Namaz,
Qılınc çəkər hər insana, al cavab,
Vaxtla ömür-günün başını,
Qaçmaq olmur heç bir yana, al cavab.

**Aşıq Namaz**

Necə şeydir kənar gəzməz o sərdən,
O nədir ki, heç vaxt düşməz kəsərdən,
Kimlər söhbət açar zordan, hünərdən,
Kimlər qaçar bir pünhana, ver cavab.

**Aşıq Cəlal**

Qəzadır ki, kənar gəzmək o sərdən,
Doğru sözdür heç vaxt düşməz kəsərdən.
Kimlər söhbət açar zordan hünərdən,
Kimlər qaçar bir pünhana ver cavab.

**Aşıq Namaz**

O nədir ki, nə yurdu var, nə yeri,
O necə şeydir ki, nə ölüdür, nə diri?
Aşıq Namaz deyər, söylə bu sirri,
Kimlər düşər imtahana ver cavab.

**Aşıq Cəlal**



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Nahaq işdir nə yurdu var, nə yeri,
O, xəyaldır nə ölüdür, nə diri.
Aşıq Cəlal çoxdan bilir bu sirri,
Aşıq düşər imtahana, al cavab.

Camaatın məsləhəti və aşıqların razılığı ilə deyişmənin dalı sabah axşama qaldı. Sabahlar üzümüzə xeyirliklə açılsın, sabah açıldı.

Hər yerə səs-səda yayıldı. Axşamkı məclis haqqında bilən-bilməyən, toya çağırılan-çağırılmayan hamı eşidib gəldi. Zoğal Əhmədin dili ağzına sığmırdı.

Əlqərəz, aşıqlar məclisə daxil oldular. Yenə bir az hər-bə-zorbadan sonra, Aşıq Cəlala izn verdi ki, əvvəl başlasın. O dedi:

– Aşıq sənətində ustada hörmət  böyük şərtdir. İcazə verin, ustadlar ustadı xəstə Qasımdan bir qatar söz deyim. Aşıqların üçü də cavab versə, söz onlarınkıdır.

Aşıq Cəlal işini bilirdi. O, biliridi ki, belə aşıqların üçü yox, üç yüzü də gəlsə, Xəstə Qasımın bir sözünü araşdıra bilməz. Odur ki, başladı:

Beş yaşından, on beş yaşa yetişdim,
Beşin atdım, beşin tutdum, beşi nə?
Haqq tərəfdən doğru yola yetişdim.
Mail oldum əmbiyalar beşinə.

Aşıqlar bir-birinə baxdılar, daşdan səs çıxdı, onlardan yox. Ağsaqqallar işarə etdilər ki, de gəlsin.

Hansı ovdur öz işində çarəsiz,
Cəsədindən qanlar axır yarasız,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

On beş nədir göydən endi qərarsız,
Beşi üsyan, beşi irfan, beşi nə?!

Məclis əhli başa düşdü ki, üç aşığın heç biri cavab verməyə qadir deyil. Xahiş etdilər ki, aşıq Cəlal işində olsun. O davam etdi:

Ömür bənzər dağ başında dumana,
Qətrə ikən yetişmişəm ümmana,
On beş şey də vacib oldu islama
Beş şəxsiyyət, beş səfiyyət, beşi nə?

Xəstə Qasım qaldı heyrət içində,
İman, iqrar, xub, şəriyyət içində
On beş şey də gəldi səlat içində,
Beş üsulidin, beş firudin, beşi nə?

Hamı əhsən dedi. Bu yerdə həyət-bacaya səs düşdü ki, təzə qonaqlar gəlir. İçəri dəvət etdilər. Baxdılar ki, əlində saz Dərya Məhəmməd arxasında da sürücü Kamil məclisə gəldi. Hörmətli qonağa yer göstərdilər. Aşıqların üçü də əlacsız qalmışdı. Gücləri ona çatıb dedilər ki, yox, necə ki, biz özümüzdən oxumuşuq, qoy o da bacarırsa, öz sözündən oxusun, biz də cavab verək. Aşıq Cəlala da elə bu lazım idi. Sazının zilini zil, bəmini bəm, eyləyib görək nə dedi:

Məndən salam olsun aşıq olana,
Sazda doqquz tel var, o nə istədi?
Var "Divani", "Təcnis" nə vaxt yaranıb?
Onu kəşf eyləyən hansı kəsdədir?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aşıq Cəlal gözlədi ki, aşıqlardan biri cavabını versin . Aşıq Xuda dedi hələ yeni başlamısan, iki-üç dənə de, sonra

Aşıq Cəlal dedi:

Kimdir aşıqlığım əzəl binası,
Nədir aşıq sözünün əsl mənası,
İbtida sənətə kim oldu ası,
Kim heç xoşlamadı, sazı pisdədi.

Əvvəl saz sözünü kim ad eylədi,
Nə vaxt, hansı yerdə icad eylədi
Kim pərdə bağlayıb abad eylədi,
Kimlər onu indiyədək bəslədi.

Telli sazımızda neçə pərdə var,
Hansı tələbkardı, hansı hökmdar.
Aşıqlıq elmini kim etdi aşkar,
Kimlər də oxuyub bilmək istədi.

Elə bil məclis cana gəldi. Hər tərəfdən aşığın ünvanına razılıq bildirən səslər gəldi.

– Sağ ol, aşıq!

– Yaşa, qadan alım!

– Halaldır sənə, yenə de!

Zoğal Əhməd arada bir deyirdi:

– Aşıq Cəlal, dərdin alım, baltanı bir az da dərinə vur!

Get-gedə həvəslənən gənc Aşıq Cəlal dedi:

Kimdən yadigardır qoca “Bəhmanı”,
“Heydarı”, “Hicranı” bir də “Sultanı”?
Biz bilirik ki, yetmiş iki qaydanı,
Neçin zildədi, neçə pisdədi?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Nədir şöhrəti var alıb dünyanı,
Şadlığa çıxarıb hər iki insanı,
O kimlərdir keflə gəzir hər yanı,
Kimlərdir ki, onlar daim yasdadır?

Aşıq gərək düz oxuya, düz çala,
El qədrini bilə, hörməti ola
Hər kim cavab versə Aşıq Cəlala
O, kamildir, sənətində ustadı.

Aşıqlar təslim olduqlarını bildirdilər, suyu süzülə-süzülə getdilər. Dərya Məhəmməd bir əlini qaldırıb camaatı sakitləşdirdikdən sonra dedi:

– Ayə, Cəlal! Bəs məni işdən-gücdən eliyib bura niyə gətiribsən?

Məclisdə iştirak edən ağsaqqal-qarasaqqal dilək elədi ki, bundan sonra toyumuzu, nişanımızı Aşıq Cəlala keçirəcəyik?

Aşıq Cəlal hamıya razılığını bildirdi. Sürücü Kamil dedi:

– Aşıq qardaş, sən hara, mən də ora

Atı Aşıq Məhəmmədə verdilər. Özlərisə, Qaratelin sorağıyla Qaraçöp tərəfə üz tutdular. Yol boyu Cəlal zümzümə edir, hərdən də Kamilə xoş, məzəli əhvalatlar danışırdı. Dağların uca, dərələrin dərin yerinə çatmışdılar ki, birdən hava qaraldı, buludlar tutuldu, şimşəklər şaqqıldadı. Ya rəbb, bir leysan başladı ki, gəl görəsən. Cəllad da, Kamil də bir-birinə qoşulub maşının içindəcə qalmışdılar. Sellər-sular oynayırdı. Elə bil dünyanın axırıydı. Get-gedə yağış azaldı, çən-çisəyin arasından günəş parlamağa başladı. Nəfəsiylə yeri-yurdu isindirməyə başladı. Otlar, çiçəklər başını qaldırdı, soy ağaclar qamətini düzəltdi, quşlar civildəşməyə baş-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

ladı. Sürücü Kamil dedi: Cəlal qardaş, bu nə işdir: O tufan nədir, bu büsat nədir? Aşıq Cəlal dedi:

– Ay Kamil, hamısı Allahın işidir. Qurban olduğum özü bilən yaxşıdır.

Bir qulaq as.

Sonra "Qaytarma" havası üstə dedi:

Xudanın birliyi var onun gücü,
İstəsə dünyanı vara döndərər
İstəsə payızı, baharı yazı,
Zimistan eyləyər, qara döndərər.

İstəsə vaxtında verər yağışlar
Vari-varidatı bizə bağışlar
İstəsə yenidən qiyama başlar,
İşıqlı dünyanı gora döndərər.

Sözün qısası, gəlib yetişdilər Qaraçöp mahalına. Kəndin girəcəyində Mirzəli oğluyla rastlaşdılar. Onun bələdçiliyinnən gəldilər düz Qaratel xanımın evinə. Yeddi obalı Qaraçöpə səs yayıldı ki,bəs deməzsən mi, bir cavan aşıq gəlib, çalıb-oxumağından, söhbətindən, sözündən doymaq olmur. Elə də istəyənlər toplaşdı. Böyük bir məclis düzəldi. Qaratel xanım qabağa yeridi:

– Aşıq Cəlal, yolda başına gələn işdən xəbərdarıq. Bizim eldən həmin toyda iştirak edənlər olub. Məsələni yerli-yataqlı bilirik.

Ancaq mən səni bura dost kimi çağırmışam. Haqqında çox deyib-danışıblar. Yaxşı olardı ki, özün haqqında bir neçə kəlmə çatdırasan bizə.

Cəlal "Ya Allah" deyib ayağa qalxdı. "Orta Sarıtel" havasında görək nə dedi, necə dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Gör necə xoşbəxt insanam,
Bu eldənəm, İncidənəm,
Köküm, soyum, atam-anam,
İncidənəm, İncidənəm.

Məclis elə rahat, elə ahəstə idi ki, elə bil bütün saz-söz sərraflarını bura yığmışdılar. Cəlal isə sazı sinəsinə elə sıxmışdı ki, deyərdin illər ayrısıdır.

Ucaların ucasıdır,
Qocaların qocasıdır
Mərdi mərd tək qucasıdır
Nə xoşgünəm, İncidənəm.

Qonaq gəl bizi görməyə,
Duz-çörəyi düz deməyə
Yurduma dastan deməyə
Dolub sinəm İncidənəm.

Eşidənlər "əhsən" deyirdi. Məclisdəkilər bir-birinə razılıqla baxıb pıçıldaşırdı:

– Ustadına bərəkallah.

– Eşq olsun.

Cəlal məclisin razılığını duyub sözünü axır elədi:

Nə gözəldir bizim mahal,
Gəl bu elin seyrinə dal.
Eşidibsən Aşıq Cəlal,
Bax o mənəm İncidənəm.

Sifarişlər başladı, nə başladı. Kimin ürəyindən, könlündən, könlündən  hansı hava, hansı əhvalat keçirdisə aşığa



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

dedi. Hər şeyi ələyib ələkdən keçirdilər. Mirzəli oğlu əlini papağına apardı.

– Qaratel xanım, Cəlalın bura gəlməyi sənin hünərindir. Sən ona həm sənətdə, həm həyatda qardaş dedin. Amma bu məclisdə sən də sinəni boşaltmalısan.

İncə belli, nazik, şirin dilli Qaratel sazını götürüb ortaya gəldi. Bir neçə qatar söz oxuduqdan sonra dedi:

– Camaat, bilirsiniz ki, mən hər aşığı bəyənmirəm, çoxlarının məclisində xar eyləmişəm. Ancaq Cəlal ayrı candı. Bir qulaq asın:

Sənsən el aşığı, qadir sənətkar,
Deyilsən savaşa uyan, ay Cəlal
Şirin söhbətisən, xoş avazın var,
Olmaz məclisindən dayan, ay Cəlal.

Bilirsən pərdənin barmaq sirrini
Hər havanın yersizini, yerini
"Cəlaloğlu" ilə "İncəgülünü",
Oldun məclislərdə yayan, ay Cəlal.

Obamız, elimiz sevdi təbini
Sən də coşa gəlib açdın qəlbini
"Təblini", "Fəxrini", o "Dilqəm"ini
Olmaz sən tək oxuyan, ay Cəlal.

Kəlmələrin şirinlərin şirini,
Qıvvas kimi axtarırsan dərini
Aşıqlıq elminin hər bir sirrini,
Arayıb axtarıb duyan, ay Cəlal.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Sən səs verdin Qaratelin səsinə,
Hər kəs çatmayırdı onun bəhsinə
Getmə hər qanmazın mərəkəsinə,
Arif məclisində dayan, ay Cəlal.

Söz tamama yetəndə, Cəlal ayağa qalxdı. Razılıq edib getmək istədiyini bildirdi. Heç kim onun getməsinə razı deyildi. Aşığın "Yol uzaq, qəlb yaxın" sözündən sonra çar-naçar razı oldular. Hamıynan halal-hümbət eylədi. Ancaq Qarateldən sazsız, sözsüz ayrılmağı olarmı?! Oydu ki, Cəlal "Cəlili" üstə aldı görək nə dedi:

Gəzək el-obada, yetək murada,
Gəlsin sazım, getsin acım, Qaratel
Ömrü vermə bada, fani dünyada
Qəm nə lazım, aşıq bacım, Qaratel.

Qaratel xanım deyəsən bir az qəhərləndi. Cəlal ona ürək-dirək verib işarə etdi ki, biz indən sonra çox görüşə-cəyik.

Dindir sazı-tarı, çəkmə azarı
Arada ilqarı, unutma barı
Eylə xoş güzarı, gəl bizə sarı
Gülsün yazım, ver xəracım, Qaratel.

Qonağın hörməti bu mahaldadı,
Sən də gəl gör Cəlal necə haldadı
Elimin, obamın gözü yoldadı
Eldir tacım, hər əlacım, Qaratel.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bəli, hamınızı arzunuza, kamınıza istəyən Qaratel və Cəlal sağollaşıb ayrıldılar. Ordan Kamilnən düzəldilər yola. Cəlalın sümüyü sancırdı, evdən çox nigaran idi.

Oydu ki, birbaşa evə getməyi qərara aldı.

Səhər tezdən kəndə çatdı. Həyətin qapısını açdı, içəri girdi. Gördü anası Şahnisə həyətdəki tut ağacının altında zümzümə edə-edə cəhrəsini hərlədir.

Oğlanları Şöhrət və Fərhad üstü-başı toz-torpaqlı qapının ağzında ağlayır. Ev-eşik də bir gündədir ki,... ta nə deyim.

Cəlal anasına yaxınlaşıb dedi:

– Xoş gördük, ay ana!

– Sonra soruşdu:

– Nə olub, bə nədi belə?

Arvad dillənmədi. Gücü gözlərinə çatdı. Cəlal işi duymuşdu. Ax, anam ölsün, a şuğul!

Sən demə, Maşığın arvadı Gülsümə qandırıblar ki, Cəlal bir aşıq qızla evlənib. Daha sən gedə bilərsən, atam öyünə. O da acıqla uşaqları da qoyub çıxıb gedib.

Cəlal uşaqlarına tərəf gəldi, nə qədər çalışdısa onlar nə yaxına gəldi, nə də kiridilər. Cəlal naəlac qalmışdı. İçəri girib balaca cürəni köklədi, böyük oğluna verdi. Onları kiridə bilməyən aşıq özü də onlara qoşuldu, "İbrahimi" havası üstündə görək necə sızıldadı:

**Ata**

Niyə boynunu bükürsən,
Qəlbin pozub yaş tökürsən,
Nədən belə qəm çəkirsən,
Ağlama, balam, ağlama
Qadan mən allam, ağlama.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**Oğul**

Dərdimi bəs kimlər qanar,
Alışıb cəsədim yanar,
Anamdan olmuşam kənar,
Qoy bu məkanım ağlasın
Körpəcə canım ağlasın.

**Ata**

Böyüyüb cavan olarsan,
Bu günü yada salarsan
Çox ağlama tez solarsan,
Ağlama, varım ağlama,
Artır azarım ağlama.

**Oğul**

Niyə belə fikrə daldın,
Balanı anadan aldın?
Körpə ikən dərdə saldın,
Qoy indi dilim ağlasın
Dərdimi elim ağlasın.

**Ata**

Sən məni günahkar tutma,
Dərdim üstünə dərd qatma,
Yenə ananı unutma
Ağlama, ahum, ağlama
Yoxdur günahım ağlama.

**Oğul**

Qoy ayrılıq bizi bölsün,
Dost ağlasın, düşmən gülsün.
Ayrılığı vuran ölsün,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ağlasın gözüm ağlasın
Söhbətim, sözüm ağlasın.

**Ata**

Bu işdə anan günahkarı,
Qoy indi olsun intizar
Sən niyə çəkirsən azar
Ağlama, oğlum, ağlama
Qəndim-noğulum, ağlama.

**Oğul**

Mən gəzmirəm günahklar,
Gəzirəm namusu, arı.
Dünyanəın dövləti, varı,
Baxtım, taleyim ağlasın
Arzum diləyim ağlasın.

**Ata**

Mən deyən sözün üstə qal,
Eyləmə artıq qalmaqal,
Sənə qurban Aşıq Cəlal,
Ağlama, balam, ağlama,
Bax bu Cəlala, ağlama.

**Oğul**

Mən Şöhrəti kim incitdi,
Yaxşı günüm yaman etdi
Dərd sinəmin üstə bitdi,
Bu könlü bərbad ağlasın.
Qardaşım  Fərhad ağlasın.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qonum-qonşu, ağsaqqal-qarasaqqal səsə tökülüşüb gəldilər. Deyilənlərin şaiə olduğunu gördülər. Məsləhətləşdilər ki, gedib Gülsümü gətirsinlər. Elə də oldu. Onları barışdırdılar.

Aradan iki gün keçir üç deyəndə, qapını bir atlı kəsdi:

– Ay ev yiyəsi, ay ev yiyəsi!

Cəlal çuxasını çiyninə salıb həyətə çıxdı. Tanımadığı bir adam ona bir məktub verdi. Hə, Gülü kişi onu oğlunun toy məclisinə dəvət edirdi.

Aşıq Cəlal libasını dəyişib sazını götürüb yola düşdü.

Məclisi gözəl-göyçək yola verdi. Sifarişləri yerinə yetirib başına gələnləri danışdı.

Həmişə toylarda olasınız, mənim əzizlərim, toyun axırında Aşıq Cəlal bu duvaqqapmanı oxudu.

Nazarlarda Gülü kimi,
Aqil insan görməmişəm.
Hər bir işdə tədbirlidir,
O cür qanan görməmişəm.
Çox gəzmişəm bir elə mərd,
Deyim inan görməmişəm.
Koroğluya bənzəri var,
Belə çoban görməmişəm.
Danışdığı söhbətinə,
Heç bir yalan görməmişəm.

Əvvəldən kişi mərd olub,
Hər gün qonaq var evində
Ailəsi xoşbəxt yaşayır,
Yoxdur intizar evində
Çalğıya bağlıdır qəlbi,
Vardır həvəskar evində



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Göz gəzdirəndə görürsən,
Saz, kamança, tar evində.
Onu kimi üzügülər,
Qəlbicavan görməmişəm.

Bulaq üstə məclis qurub,
Qoyunu, malı kəsibdir,
Dost yolunda hörmət üçün,
Qapıda kalı kəsibdir.
Harda bir dalaş olubsa,
Tez qalmaqalı kəsibdir,
Qaçaqların o bol vaxtı,
Yaylaqda yolu kəsibdir.
Neçə namərd məhv eləyib,
Tökülübdür qan, görməmişəm.

Görkəmini deyim sizə,
Burma-burma ağ bığı var
Çiynində yapıncısı,
Qatagilədən papağı var,
Cavanlarda birgə gəzir,
Başında xoş yığnağı var,
El-obanın dayağıdır,
Kəndin yenilməz dağı var.
Halal olsun bu kişiyə
Ondan doyan görməmişəm.

Ağılda, həm kamalda,
Yəqin ona çatan olmaz,
Nazarlı kəndində onun
Öz yerini tutan olmaz.
Mərd adamdır, hörməti var,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ona yalan satan olmaz
Yüzdən artıq yaşı vardır,
İşinə pəl qatan olmaz
Dindirirsən hamı deyir,
Onda nöqsan görməmişəm.

Aşıq Cəlal məclisində
Gülü tək kişi var olsun.
Sazında çal, dilində de,
Hər mahalda qoy car olsun.
Üz çevirib hara getsə
Uğuru xoş güzar olsun
Doğru yola qulluq edir,
Xudam ona həmyar olsun.
İnnən belə yüz yaşasın,
Özü tək can görməmişəm.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## ŞAHSƏMƏDLƏ ŞƏMSİ XANIMIN DASTANI

Bəli, mənim əzizlərim, vaqe olmuş maraqlı bir əhvalat danışacam. Amma, bizim ustadlar dastanı danışmazdan əvvəl ustadnamə deyərlər, mən də icazə verin sizə dastandan əvvəl bir neçə ustadnamə söyləyim, sonra isə bu maraqlı dastana başlayım:

Tərəqqi vaxtında sadə dolan gəz,
Düşmə el gözündən dala, çətindi.
Tərəqqidə tənəzzülü yada sal,
Dəyişilməz haldan-hala, çətindi.

Hər bəşərin bu dünyada namı var,
Ömrün bir səhəri, bir axşamı var.
İşin öz vədəsi, öz məqamı var,
Açmaz zimistanda lalə, çətindi.

Şəmşir kişi, dünya sənə yar deyil,
Özgə yarı insan üçün yar deyil,
Deyirlər ki, yoldan çıxmaq ar deyil,
Qayıdıb gəlməmək yola çətindir.

Ustadlar ustadnaməni bir deməz, iki deyər, biz de deyək iki olsun, düşmənin ömrü gül tək solsun. Alaq dübarə:

Yüz dəfə peyvənd et, yüz dəfə cala,
Kök öz cırlığında cır qalacaqdır.
Alçağı ucaltsan uca dağ qədər,
Yeri gələn kimi alçalacaqdır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Atı at eləmir qızıldan yəhər,
İlan da torpaqdan götürür zəhər.
Min il xarabada qalsa da şəhər,
Yenə qiymətində bil qalacaqdır.

Ustadlar ustadnaməni iki deməz, üç deyər, biz də deyək üç olsun, düşmənin ömrü puç olsun! Alaq dübarə:

Namərd sənin qulluğunda qul olar,
Əli bir tərəfə çatana kimi.
İrişə-irişə gülər üzünə,
İşini sahmana salana kimi.

Adam var görkəmi xeyri bildirər,
Adam var ev yıxar, adam öldürər.
Adam var məclisdə eli güldürər.
Aşıqlar sazını çalana kimi.

Şəmşir gərək mərd ocağın qalasın,
Hər kəs çəkər öz dilinin bəlasın.
Qoy səni şir yesin, şir parçalasın,
Tülkü kölgəsində yatana kimi.

Bəli, mənim əzizlərim, indi sizə haradan xəbər verim, Zərər şəhərindən.

Bu şəhərdə Malik adlı bir padşah varmış. Malik şahın heç bir övladı yox imiş. Günlərin birində padşah fikirlşir ki, bəs mənim taxtı-tacıma kim sahib olacaq. Vəzir padşahın qəmginliyini anlayıb onun dərdini soruşursa da padşah dinməyib cavab vermir. Vəzir əhvalatı duyub deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Şah, qurbanın olum, mənim də sizin kimi züriyyətim yoxdur, gəlin bir neçə müddət gəşdə çıxaq gözümüz-könlümüz açılsın.

Padşah razı olub vəzirlə bərabər gəşdə çıxır. Gəşt əsasında bir bulaq başında hər ikisi istirahətə əyləşib yatırlar. Yuxuda bir dərviş zahir olub, şaha iki alma təklif eləyir və deyir ki, vəzir ilə nuş eləsinlər, inşallah onların da övladı olar.

Şah yuxudan ayılıb, yuxusunu vəzirə söyləyir. Vəzir deyir ki, şah sağ olsun deyəsən, duamız müstəcəb olmuşdur.

Bunlar şad-xürrəm evlərinə qayıdırlar. Doqquz ay, doqquz gün, doqquz saat, doqquz deqiqədən sonra şah və vəzirin hərəsinin bir oğlu olur.

Şah oğlunun adını Şahsəməd, vəzir isə Abdulla qoyur. Bu uşaqlar on beş yaşına çatırlar.

Günlərin bir günü Şahsəməd aləmi-röyada ikən Xızır peyğəmbər ona bir badə təklif eləyir ki, nuş eləsin. Bu badə Ərzah şəhəri padşahının qızı Şəmsi xanımın şirnisidir.

Şahsəməd badəni içən kimi bihuş olur. Abdulla Şahsəmədin bu halını görcək tez şaha xəbər aparırı ki, Şahsəməd bihal düşüb. Şah dərhal taxtdan sıçrayıb oğlunun yanına gedir, onun başını dizinin üstə alıb çox mütəgəyyir olur və oğluna müraciətlə deyir:

***"Dübeyt"***

Batma qəflət yuxusuna
Oyan Şahsəmədim, oyan!
Al dərsini oxuginən
Oyan Şahsəmədim, oyan!

Şahsəməd bu sözləri eşidib huşa gəlir, görək atasına nə cavab verir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ata, dərsimi almışam,
Dindirmə, məni dindirmə!
Özümü oda salmışam,
Dindirmə, məni dindirmə!

***Malik şah***
Bu canım olsun qurbanın,
Nə üçün artdı əfqanın?
Belə azarlanmış canın –
Gəl oyan, Səmədim oyan!

***Şahsəməd***
Göründü gözümə elə can,
Elə cana olum qurban.
Kim versin bu dərdə dərman,
Dindirmə, məni dindirmə!

***Malik şah***
Söylə görüm məkanını,
Ver mənə ol nişanını.
Qurban eyləsin canını
Gəl oyan, Səmədim oyan!

***Şahsəməd***
Ərzandır yarın yuvası,
Malikdir qızın atası.
Şəmsinin Rövşan anası,
Dindirmə, məni dindirmə!

Söz tamam olan kimi atası oğluna öyüd-nəsihət verir ki, belə fikirdən daşınsın.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

***"Dübeyti haqqında"***

Malik olsun sənə qurban.
Həqiqəti mənə söylə!
O, cindir, deyil insan,
Həqiqəti mənə söylə!

***Aldı Şahsəməd***
Şahsəməd deyib ağlasın,
Xəyalın yarla çağlasın!
Qoy dərdə salan dağlasın,
Dindirmə, məni dindirmə.

Şah oğlunu öz otağına çəkib yalvarır ki, gedib yad ölkələrdə nahaqdan dərbədər düşməsin.

***Şahsəməd***
Çünki mən gedər oldum,
Halal eylə, hümmət eylə!
Vətəni tərk edər oldum,
Halal eylə, hümmət eylə!

***Malik şah***
Durum dolanım başına,
Getmə oğul, getmə-getmə!
Gözü yaşlı qoyma məni,
Getmə oğul, getmə-getmə!

***Şahsəməd***
Qurbanam göz yaşına,
Səbr eylə haqqın işinə.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qurbanam qələm qaşına,
Halal eylə, hümmət eylə!

***Malik şah***
Söylə eşidim şirin sözün,
Gözəldir, camalın, gözün,
Açılıb baharın, yazın,
Getmə oğul, getmə-getmə!

***Şahsəməd***
Zəhərə bulaşdı aşım,
Əlvanı geydi qumaşım.
Gəlsin Abdulla qardaşım,
Halal eylə, hümmət eylə!

***Malik şah***
Gəl üzmə, oğul, canımı,
Tökmə gözümdən qanımı.
Gətirrəm Şəmsi xanımı,
Getmə oğul, getmə-getmə!

***Şahsəməd***
Burax, mən özüm gedirəm,
Yara var sözüm, gedirəm,
Burda yox dözüm, gedirəm,
Halal eylə, hümmət eylə!

***Malik şah***
Oğlum, sənə qurban olum,
Cəm olan dərdini alım,
Durum başına dolanım,
Getmə oğul, getmə-getmə!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

***Şahsəməd***

Şahsəmədəm, gözü yaşlı,
Sevgilimdir qara qaşlı.
Gedirəm mən iki başlı,
Halal eylə, hümmət eylə!

***Malik şah***

Gəl qoyma Maliki ağlar,
Gəldi indi belə çağlar,
Həsrət ciyərimi dağlar,
Getmə oğul, getmə-getmə!

Malik şah naəlac qalıb, oğlunun üstə bir çox minnətçi saldırır ki, onu səfərdən daşındırsın. Şahsəməd isə sözünün üstə durub getməli olur. Ən nəhayət, minnətə Abdulla gəlir, götürür görək nə deyir:

Mən sənə minnət eylərəm,
Gəl, getmə qardaşım, getmə!
Sənə çox minnət eylərəm,
Gəl, getmə qardaşım, getmə!

***Şahsəməd***

Gəl mənə minnət eyləmə,
Gedirəm qardaş, gedirəm!
İxtiyar qalmayıb məndə,
Gedirəm, qardaş, gedirəm!

***Abdulla***

Qardaş, belə hicran olar?
Ağlar gözüm, qanlı dolar.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Gözüm yollarında qalar,
Gəl getmə, qardaşım, getmə!

***Şahsəməd***
İş olub əzəl binadan,
Ayrılaram ata-anadan.
Əl çəkməm yaşılbaş sonadan,
Gedirəm, naçar gedirəm.

***Abdulla***
Tökdülər cümlə insanı,
Sonra göndərdilər məni.
Tərk etmə ata-ananı.
Getmə, qardaşım, getmə!

***Şahsəməd***
İnciməsin ata-ana,
Bil, ömrüm getdi talana,
Od düşübdü şirin cana,
Gedirəm, naçar gedirəm!

***Abdulla***
Bil, axır gözümün yaşı,
Eşit Abdulla qardaşı,
Kimnən eyləyim xoş-beşi,
Getmə, qardaşım, getmə!

***Şahsəməd***
İstəyən qalxsın duaya,
Könlüm qalxıb havaya.
İşim qaldı ol mövlayə,
Gedirəm, naçar gedirəm.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

***Abdulla***
Bir fikirləş öz-özünə,
Dostlar bir yerdə gəzinə.
Məni yoldaş et özünə,
Getmə, qardaşım, gəl getmə!

***Şahsəməd***
Şahsəmədəm, gözümdə yaş,
Sənə qurban can ilə baş,
Qərib qardaş, sən ol yoldaş,
Gedirəm, naçar gedirəm.

Deyişmə tamam olandan sonra, bunlar hər ikisi getməli olub yola hazırlaşırlar. Ata-anaları onların dalınca nə qədər israr edirlərsə də, Şahzadə qulaq vermir, yola düşdükdə götürür görək nə deyir:

***"Dübeyt"***

Ay əzizim ata-ana,
Mən gedirəm siz qayıdın!
Qoy yetim mən ol məkana,
Mən gedirəm, siz qayıdın!

***Malik***
Oğul, sən ki, gedər oldun,
Gedirsən get yolun olsun,
Pərvanə tək eşqə daldın,
Gedirsən get, yolun olsun.

***Əsmər xanım***
Sənə qurban olsun ana,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Gedirsən, tez gəl, amandır!
Məni saldın fəğana
Gedirsən, tez gəl, amandır!

***Şahsəməd***
Yolum Ərzan şəhərinə,
Mindim atın yəhərinə.
Dolanam bir təhərinə,
Mən gedirəm, siz qayıdın.

***Malik***
Qurban olsun sənə ata,
Gəl bizi salma zülmətə.
Görüş qaldı qiyamətə,
Gedirsən get, yolun olsun!

***Əsmət xanım***
Qoy xudan versin dayağı,
Sinəmə çəkmişəm dağı.
Keçib ananın çırağı,
Gedirsən tez gəl, amandı!

***Şahsəməd***
Bil, doldu, piyaləm doldu,
Saralıb gül rəngim soldu.
Qürbət eldə yarım qaldı,
Mən gedirəm, siz qayıdın.

***Malik***
Qəmli dərdim döndü baya,
Xoş günlərim getdi zaya.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Zülm etdin ata-anaya,
Gedirsən get, yolun olsun.

***Əsmər xanım***
Ağlayır, yaş tökür gözüm,
Sənsiz ayrı necə dözüm?
İstəmirəm əlim üzüm,
Gedrisən, aman, tez qayıt.

***Şahsəməd***
Xudadan bil əmr oldu,
Şəmsiyə buta verildi.
Bu ayrılıq başa gəldi,
Mən gedirəm, siz qayıdın.

***Malik***
Maliki düşdü fəğana,
Qoyma bizi yana-yana,
Sən gedirsən yol ərkana,
Gedirsən get, yolun olsun.

***Şahsəməd***
Şahsəməd qaldı yollarda,
Butası qərib ellərdə.
Bülbüllər oxur çöllərdə,
Mən gedirəm, siz qayıdın.

***Əsmər xanım***
Əsmərəm, üzdün amanım,
Sənə qurban şirin canım.
Sənsən mənim din, imanım,
Gedirsən, tez gəl, amandır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Söz tamam olduqda hər iki cavan ata-anaları ilə hala-hümmət edib yola çıxırlar. Bir neçə vaxt yol gedəndən sonra Şahsəməd qəribsəyib götürür görək Abdullaya nə deyir:

Üzüldü əlimiz ata-anadan,
Ey mənim dərdimə yanan, a qardaş!
Ölüm fərz olarsa bizə fənadan,
Hər sirri-sözümü qanan, a qardaş!

***Abdulla***
Qardaş, bir səbr eylə haqqın işinə,
Yandırma ciyərim aman, a qardaş!
Çox iş gələr igidlərin başına,
Gətirmə başıma duman, a qardaş!

***Şahsəməd***
Gecə-gündüz duman budur xudadan:
Yetirsin mətləbin bizi yaradan!
Dərdim çoxdu mənim əzəl binadan,
Hər dərdimə sənsən yanan, a qardaş!

***Abdulla***
Gecə-gündüz haqdan oldu ayəti,
Mövlam versin bizə ol xoş nicatı.
Kim bəsləyir bizə etsin hörməti,
İşimiz olubdur yaman, a qardaş!

***Şahsəməd***
Gəlib düşdük uzaq, qərib ellərə
Vaxtsız saldıq özümüzü çöllərə.
Bülbül olub qonaq gülşən-güllərə,
Ömrümüzü etdik talan, a qardaş!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

***Abdulla***
Haqq da bizə edib belə bir ahı,
De, kim çəksin bizə dərdi-dəvahı.
Yetirsin imdada qadir ilahi,
Ağlasın dərdimə çöl-çəmən, qardaş!

***Şahsəməd***
Cavan düşdü eşqə bu həmdəm üzüm,
Eşit, budur sənə bil şirin sözüm:
Heç gülüb açılmır qaş ilə gözüm,
Mən əryan, səndə ki, bil, cavan, qardaş!

***Abdulla***
Eşqi olan tökər gözün yaşını,
Yar yolunda qoyar canla başını,
Bilmək olmaz haqqın qələm işini,
Gəşt eyləyək qəmsiz, gəl fəğan, qardaş!

***Şahsəməd***
Şahsəmədəm, ah çəkibən ağlaram,
Teyləyibən ciyər, bağrım dağlaram!
Hicran çəkib qərib başım, ağlaram,
Sənin fələklədi bil davan, qardaş!

***Abdulla***
Qardaşın Abdulla ağlamaz hərgiz,
Allahın verdiyi gəl bu dərdə döz!
Xudam, bizi yetir son mətləbə tez,
Səbrlə et dərdə, sən dərman, qardaş!

Bunlar sözlərini tamamlayıb yollarına davam edirlər. Az gedir, çox gedirlər, gəlib bir vilayətə çatırlar. Orada bir



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

qarıya rast gəlib ondan hal-əhval sorurlar. Qarı cavab verir ki, bizim şəhərin şahı qızdır. Özü də aşıqdı.

Altmışa yaxın aşıq bağlayıb həbsə alıb. Özü də deyir ki, hər kəs məni deyişmədə bağlasa, o aşığa ərə gedəcəyəm.

Şahzadə ilə Abdulla o günü qarıya qonaq olub səhəri hər ikisi həmin vilayətin şahı Niyar xanımın hüzuruna gedirlər. Bunlar şahın qəsrinə çatan kimi həbsə alınmış aşıqları meydana gətirib asmaq fikrində idilər ki, Şahsəməd sazı köynəyindən çıxarıb basır sinəsinə, "Qafiyə" havasında görək nə deyir:

Ərzim budur sənə, şahların şahı,
Gəl öldürmə sən onları, amandı!
İmdadına yetsin sədri-ilahi,
Gəl öldürmə sən onları, amandı!

Şahlar şahı eyləginən savabı,
Söylə necə verəcəksən savabı?
Yazıqları etdin özünə tabe,
Gəl öldürmə, sən onları, amandı!

Qoydun cavanların qəlbində yası,
Getməz bil ürəklərindən pası,
Sonra qəbul olar haqqın duası,
Gəl öldürmə sən onları, amandı!

Heç bilmək olarmı haqqın işini,
Kəsməginən gəl onların başını.
Tökməginən gözlərinin yaşını,
Gəl öldürmə sən onları, amandı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Şah Niyar xanım aşıqların cümləsini azad edib Şahsəmədi saxlayır və bir neçə gün onu heç söylətmir. Axırda Şahsəməd diltəng şaha xəbər göndərir ki, qulluğundan müraxxəs olmaq istəyirəm.

Niyar xanım  cavab veriri ki, bu təmanna gec başa gələr, səni saxlamaqda məqsədim səninlə deyişməkdir.

Niyar xanım bir məclis arəstə edib Şahsəmədlə deyişməyə üz qoyur. Alır Niyar xanım:

***"Dübeyti" havasında***

Gəl aşıq, sən bu meydana,
Özümü tanıdaram mən.
Yetirə bilməzsən mənə,
Özümü tanıdaram mən!

Şahsəməd hirs ilə götürür görək nə deyir:

Ay qız, gəldin bu meydana,
Bu candan bezaram mən!
Qoydun bizi yana-yana,
Hər işinə dözərəm mən.

***Niyar xanım***

Bil, ağır yükə çəkərəm,
Qanını yerə tökərəm,
Bil sənə bir don tikərəm
Özümü tanıdaram mən.

***Şahsəməd***

Mən elə işdən kənaram.
Eşqin oduna yanaram,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Hər sirr-sözünü qanaram,
Dolanaram başına mən.

***Niyar xanım***
Gəl tanı solyanı, xanı,
Alaram cəsəddən canı,
Kim verər dərdə dərmanı,
Özümü tanıdaram mən.

***Şahsəməd***
Ay qız, gəl səddini tanı,
Gətirrəm yanına qurbanı.
Fələyim verər dərmanı,
Mayıl oldum qaşına mən.

***Niyar xanım***
Ay aşıq, vardır ənənə.
Gəl vermə töhmət sən mənə.
Zülmüm yoxdur müsəlmana,
Özümü tanıdaram mən.

***Şahsəməd***
Yetirdin sən məni cana,
Xəbər verdin din imana.
Sığınaram yaradana,
Qurbanam ol dişinə mən.

***Niyar xanım***
Ovçunun yetib bərəsi
Oxuyur xanə surəsi.
Mən görmüşəm sən görəsi,
Özümü tanıdaram mən.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

***Şahsəməd***

Şahsəmədə de sözünü,
Gəl belə satma nazını!
Əlindən alıb sazını,
Qurbanam ol döşünə mən.

Niyar xanımın acığı tutub Şahsəmədi bir gün zindana saldırır. Bir gündən sonra isə təkrar onu çağırıb tapşırır ki, sənə bir iki bağlama deyəcəyəm, açdın, açmadın boynunu vurduracağam. Şahsəməd razı olub deyişməyə başlayır. Əvvəlcə götürür Niyar xanım görək nə deyir:

***"Qafiyə"***

Aşıq, səndən xəbər alım bir söylə,
Neçə gündə dünyanı yaratdı xuda?
Nədən cəm eyləyib Adəmi qıldı?
De nədən eylədi Havanı peyda?

***Şahsəməd***

Gözəl qız, gəl sənə xəbər verim mən
Altı günə dünyanı yaratdı xuda.
Palçıqdan yarandı Adəm peyğəmbər
Sol qabırğasından Havanı peyda.

***Niyar***

O nədir ki, ərşi tamam bürüdü?
O nədir ki, qarnı üstə süründü?
O nədir ki, düşmən üçün yeridi?
Ondan mənə xəbər ver, aşıq oğlan.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

***Şahsəməd***

O, ilandır ərşi tamam bürüdü,
Cəsədini yer üzündə sürüdü.
Düşmən üçün havalanıb yeridi,
Budur sənə xəbər, a nazlı dilbər.

***Niyar***

Mən Niyaram, sözü eylərəm aşkar,
Sən tək aşıqları çox eşitmişəm zar.
Kimdir dəryada qırx gün tutdu qərar,
Ondan mənə xəbər ver aşıq oğlan.

***Şahsəməd***

Şahsəmədəm, budur sözüm şah Niyar,
Niyə məni ağladırsan zar-zar.
Yunusdu dəryada bil tutdu qərar,
Budur sənə xəbər, a nazlı dilbər.

Söz tamam olur. Bu dəfə Şahsəməd qabağa düşməli olur.

***Şahsəməd***

Ay qız gəl səndən mən xəbər alayım,
Sən necə bilirsən Xudanı, söylə!
Söylə haqq göndərən ol dörd kitabın
Cavabını tapıb bil, mənə söylə!

Niyar xanım bu sualın cavabında aciz qalıb dinmədi. Şahsəməd sazı sinəsinə basıb alır bəndini:

O, kimdir ki, üç yüz altmışdan narı?
O, kimdir ki, binələdi finarı?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Kim aldı boynuna, etdi kənarı?
Bundan bir xəbər ver, a nazlı dilbər.

Şahsəməd gördü Niyar xanım lap pörtüb cavab verə bilmir, aldı dübarə:

Şahsəmədəm, o gün gəldim dünyaya,
Pərvanə tək eşqim doldu dəryaya.
O, kimdir ki, tək gəlmişdir fənaya?
Bundan bir xəbər ver, a nazlı dilbər?

Niyar xanım bu bənddəri də aça bilmədikdə, Şahsəməd bir söz demədən sazı köynəyinə salır.

Niyar xanım Şahsəmədi öz otağına aparıb ona təklif eləyir ki, məni özünə arvad al, mənim əhdim budur, mən öz əhdimə çatmışam. Şahsəməd isə Şahın təklifinə razı olmayıb, bu təklifi rədd etdi. Şah əmr verdi ki, Şahsəmədi tutub zindana salsınlar. Şahsəməd görür yox, bayaqkı hayıfı Niyar xanım indi alacaq. Götürür görək nə deyir:

Padşahım, ərzim eşit, amandı,
İnsana da belə zülm olarmı?
Ariflər sirr sözüm anlayıb qandı,
İnsana da belə zülm olarmı?

Ey fələk, sən eşit mənim dadımı,
Özün gəl verginən əhd muradımı.
Ya silginən dəftərlərdən adımı,
İnsana da belə zülm olarmı?

Niyar xanım bunları eşitcək cəlladlara buyurdu ki, onun boynunu vursunlar.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Şahsəməd gördü yer o yer döyül, Şahın ayağına düşüb başlayır yalvarmağa:

Şahsəmədəm, gözüm qaldı dünyada
Cavan ikən yetişmədim murada,
Ürəyimi döndərmisən sən oda
İnsana da belə zülm olarmı?

Cəlladlar şahın hökmü ilə Şahsəmədi öldürməyə aparmağa başladıqda Şahsəməd üzünü onlara tutub görək nə deyir:

Buyurdular məni cəllada,
Aman  cəllad, öldürmə gəl.
Qoymadı yetəm murada
Aman cəllad, öldürmə gəl.

Kənarda qaldı elimiz,
Danışmır şirin dilimiz,
Gülsüz qaldı bülbülümüz,
Aman cəllad, öldürmə gəl.

Şahsəmədəm, dünyaya gəldim,
Ağladım, göz yaşım sildim.
Özümü odlara saldım,
Aman cəllad, öldürmə gəl!

Cəlladlar Şahsəmədi əli-qolu bağlı apardılar öldürməyə, yolda ağıllarına nə gəldisə cəlladbaşı dedi:

– Əyə, bunu öldürməklə biz də günaha batırıq. Kim biləcək, gəlin buraxaq.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Yolda Şahsəmədi cəlladlar əl-qolunu açıb buraxır, özünə də tapşırırlar ki, nəbadə bu həndəvərlərə ayaq basasan.

Şahsəməd, axşam üstü qarının evinə qayıdıb, Abdullanı da götürüb gedir. Oradan bir baş Ərzan şəhərinə doğru rəvan olurlar. Yol gedərkən başına gələn əhvalatı Abdullaya belə nəql edir:

### ***Dübeyti***

Dostum, sənə olsun müjdə,
Cəllad məni öldürmədi.
Mən qalmışdım yaman gündə,
Cəllad məni öldürmədi.

Budur sənə sözüm axır,
Sevdiyim yollara baxır,
Şəmsi gülüm iyi qoxur,
Cəllad məni öldürmədi.

Xəbəri yaz tez göndərək,
Eşqin odunu söndürək.
Allahıma üz döndərək,
Cəllad məni öldürmədi.

Şahsəməd, şükür Allaha!
Məni saldı böylə raha.
Yalvardım da padışaha,
Amma cəllad öldürmədi.

Söz tamam olur, hər ikisi Allaha dua oxuya-oxuya, sevinə-sevinə yol gedirlər.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bəli, onlar gəlib çatırlar Ərzan şəhərinə.

Burada bir qarının evinə qonaq düşürlər. Qarıya pul-dan-paradan verib bir neçə gün heç yana çıxmırlar.

Qarı bazarlıq eləyib onlara yemək, içmək gətirir. Şahsəmədin səbri tükənir, bir məktub yazıb qarıya verir ki, bunu Şəmsi xanıma çatdır. Qarı naməni qoynunda gizlədib, özünü yetirir Şəmsi xanımın imarətinə. Elə bu dəmdə Şəmsi xanım eyvana çıxıbmış. Qarı him ilə onu çağırıb məktubu verir, özü orada durmayıb, bir tərəfə çəkilib gözləyir. Şəmsi xanım naməni oxuyub hali olduqdan sonra, bir də bir cavab yazıb düz gəlir qarının yanına, bir qədər də ona pul verib deyir:

– Bu kağızı apar həmin oğlana ver.

Qarı balağını yığışdırıb özünü salır komasına.

Şahsəməd səhərdən bəri darıxırdı. Qarının gəldiyini görüb sevinir. Qarı gətirdiyi naməni Şahsəmədə verir. Şahsəməd məktuba baxanda görür qız mətləbini sözlə yazıb. Şahsəməd də bunun əsasında nə tədbir görür:

Gəldi bizə səlam münsif,
Gözlərimiz aydın olsun.
Fələk dərddən azad etdi,
Gözlərimiz aydın olsun.

Babam buyurdu cəllada,
Fikirim qalmayıb dünyada,
Fələk yetirsin murada,
Gözlərimiz aydın olsun.

Məni salmışdın zülmətə,
Getginən babama minnətə,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Məni salmışdın xifətə,
Gözlərimiz aydın olsun.

Haqq yetirsin qoy murada,
Heç kim düşməsin fəryada,
Daha dərdim yox dünyada,
Gözlərimiz aydın olsun.

Dost düşmən üstümə güldü,
Həm sirrim, həm sözüm bildi.
Şəmsi qan yaşın sildi,
Gözlərimiz aydın olsun.

Şahsəməd əhvalatdan halı olub, görür ki, qız elçi göndərməyi təklif edir. Deyir: elə qarı dünya görmüş qarıdı, bunnan yaxşı elçi olar. Qarıyı bəzəndirib-bərdəndirib Ərzan şahına elçiliyə göndərir. Ərzan şahı isə qarıya razılıq verməyib, bildirir ki, qızım Qara bəy adlı bir bəyə nişanlıdı.

Qarı gəlib əhvalatı Şahsəmədə danışır. Şahsəməd gizli bir məktub yazır ki, Şəmsi xanım, Şahbaban səni özgəsinə nişanlayıb, mənə vermədi. İndi əlac sənə qalıb.

Qarı məktubu şəmsi xanıma yetirir. Şəmsi xanım belə qərara gəlir ki, Şahsəmədə qoşulub qaçsın. Odur ki, sözləşirlər.

Günlərin birində Şəmsi xanım fürsət tapıb, qarının evinə gəlir. Daha durmaq məqamı deyildi. Tez oradan baş götürüb qaçırlar.

Şaha xəbər çatır. Qara bəyi çağırıb deyir:

– Qoşun götür, get dallarınca, harda tutdun əl-qolunu bağlayıb gətir buraya.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qara bəy bir böyük qoşun götürüb Şahzadələrin dalınca getməkdə olsun, sizə xəbər verim Şəmsi ilə Şahsəməddən.

Şəmsi ilə Şahsəməd yolda yorulub bir kölgəlikdə yatmışdılar. Bir vaxt qız ayılıb görür ki, bir bölük atlı gəlir. Tez Şahsəmədi oyatmağa, onu hali etməyə başlayır, aldı görək Şəmsi xanım Şahsəmədi necə oyadır:

Babamın yurdundan əlim üzüldü,
Oyan, qalx ayağa, aman sevdiyim!
Qoşun gəlib dörd ətrafa düzüldü
Nə yatmısan, qalx ayağa, sevdiyim.

Şahsəməd yuxuda qızın oxumasını eşidib oyanır, alır görək Şəmsi xanıma nə cavab verir:

Ah çəkibən qan ağlama bu qədər
Çəkmə sinəmə sən dağı, sevdiyim.
Görüm gələn qoşun mənə neyləyər,
Heç gizlənmə dur qabağa, sevdiyim.

***Şəmsi xanım***

Zülümdəyəm, tərk etmişəm elimi,
Qorxuram soldura babam gülümü.
Lal etmişəm şirin deyən dilimi,
nə yatmısan, qalx ayağa, sevdiyim.

***Şahsəməd***

Qorxum yoxdur qara günlü ölümdən,
Kimsə ayırammaz məni gülümdən,
Qızlıncı sıyırram indi belimdən,
Heç gizlənmə, gəl qabağa, sevdiyim.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

***Şəmsi xanım***

Nə dersən, ağırdır onların eli,
Duman təki buraxarlar gur seli,
Xar təki bil qucdurarlar al gülü,
Nə yatmısan, qalx ayağa, sevdiyim.

***Şahsəməd***

Qorxma daha, yetər indi xudamız,
Boş yeriməz qılınc, qalxan, cidamız.
Durub mən qıraram onları təmiz,
Sən gizlənmə, gəl qabağa, sevdiyim.

***Şəmsi xanım***

Çağırram köməyə mövlam Allahı,
İmdada yetişsin qədri İlahi,
Mən çəkirəm dadü fəryadı, ahı,
Nə yatmısan, qalx ayağa, sevdiyim.

***Şahsəməd***

Suvar olub öz atıma yataram,
Cida vurub oynadaram, tutaram.
Şah qoşunun qollarını çataram,
Gəl ağlama qan yaş ilə, sevdiyim!

***Şəmsi xanım***

Şəmsiyəm bu canım sənədir fəda,
Nüsrət versin bizə yaradan-xuda,
Düşmüşük həm elimizdən biz cida
Nə yatmısan, qalx ayağa, sevdiyim.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

***Şahsəməd***

Şahsəmədəm dərsimi mən oxuram,
Sevdiyimin camalına baxıram.
Qılıncı, nizəni yada taxıram
Gəl ağlama, qan yaş ilə, sevdiyim.

Bəli, söz tamam olur. Qara bəy bunlara yetirha-yetirdə Şahsəməd cəld atına minib qarşıya çıxır. Əvvəlcə ona müraciətən görək nə deyir və Qara bəy ona nə cavab verir:

***Şahsəməd***

Gəlmə, ay Qara bəy, gəlmə,
Çək qoşunu, dur qırağa!
Xalqı gəl qırğına salma,
Çək qoşunu dur qırağa!

**Qara bəy**

Getmə oğlan, dayan getmə,
Gəldim sənnən vuruşmağa,
Göndəriblər arxanızca
Gəldim sənnən vuruşmağa.

***Şahsəməd***

Sidqim bağlaram xudaya,
Səni sallam bil qaraya,
İndi taxaram cidaya
Çək qoşunu dur qırağa.

***Qara bəy***

Vardır sədəqəm xudaya.
Sallam səni ahu-vaya.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Səni keçirrəm cidaya,
Gəldim sənnən vuruşmağa.

***Şahsəməd***
Neylər mənə sən tək gürcü,
Çəkibən əyri qılıncı,
Öldürrəm olmaz əlacı,
Çək qoşunu dur qırağa.

***Qara bəy***
Danışırsan oğlan, necə,
Əl ataram mən qılınca.
Öldürrəm gəlməzsən vecə,
Gəldim sənnən vuruşmağa.

***Şahsəməd***
Sürrəm üstünə Qıratı,
Qoymam alasan muradı,
Bilirsənmi əhvalatı,
Çək qoşunu, dur qırağa.

***Qara bəy***
Alıbsan özünü ələ,
Düşübsən bil fitnə-felə,
Qoymam əl vurasan gülə,
Gəldim sənnən vuruşmağa.

***Şahsəməd***
Şahsəmədin var xudası,
Qılınc dağıtmaz yuvası.
Qanmayırsan yaxşı pisi,
Çək qoşunu dur qırağa.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

*Qara bəy*

Qara bəy öldürər səni,
Gürcü oğluyam, bil məni.
Sən də olnan müsəlmanı –
Gəldim sənnən vuruşmağa.

Şahsəməd qılıncını sıyırıb özünü vurur gürcü oğlunun dəstəsinə.

Qoşunun başından girib ayağından çıxır, qılıncdan keçirib Qara bəyi də əsir edir. Abdullaya tapşırır ki, onu aparıb bir ayrı yerdə öldürsün.

Qara bəy görür yox, doğrudan da bu qılınc müsəlmanıdı, onu öldürəcək, düşür ayaqlarına başlayır yalvarmağa ki, onu öldürməsin, buraxsın. Şahsəməd deyir:

– Əyə, gürcü oğlu, sənə demədim ki, çəkil get, indi niyə yalvarırsan?

Alır görək Qara bəy ona nə cavab verir:

Budur ərzim sənə şahların şahı,
Aman eylə, gəl öldürmə sən məni.
Sənə kömək olsun qadir İlahi,
Aman eylə, gəl öldürmə sən məni.

Şahsəməd görür Qara bəy aman istəyir. Alır görək ona nə cavab verir:

Sənə dedim çəkil əzəl binadan,
Öldürəcəm səni, yoxdur çarəsi.
Əl çəkmirsən yaşıl başlı sonadan,
Öldürəcəm, səni yoxdur çarəsi.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

***Qara bəy***
Başına mən dönüm, eşit amandır,
Əlində əsirəm, halım yamandır.
Onsuz da yanıram, odumu söndür,
Aman eylə, gəl öldürmə sən məni.

***Şahsəməd***
Gözünü dikmisən mənim dostuma,
Onunçün gəlmisən indi üstümə.
Sən ki bərk durmusan mənim qəsdimə
Öldürəcəm səni, yoxdur çarəsi.

***Qara bəy***
Bir bəndəyəm soltanım var, xanım var.
Qohum-qardaş elim var, həm günüm var.
Sənə fəda olan şirin canım var.
Aman eylə, gəl öldürmə sən məni!

***Şahsəməd***
Çox sən tək xanları salaram oda,
Kim gəlib yetişər sənə imdada?
Könlünü vermisən ol pərizada,
Öldürəcəm səni, yoxdur çarəsi.

***Qara bəy***
Mən gürcüyəm, müsəlmandı qardaşım,
Çərxi fələk tərsə döndərdi işim.
Sənə qurban olsun bu qanlı başım,
Aman eylə, gəl öldürmə sən məni!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

***Şahsəməd***

Səni xuda qoyub bu qarə gündə,
Çünki bir dərrakə görməyir səndə.
Sən ki, özün gəlib düşübsən bəndə
Öldürəcəm səni, yoxdur çarəsi.

***Qara bəy***

Qara bəyi gəl bağışla Allaha,
Üz çevirir xudam əlhəmdüllaha,
Bu gündən qulunam bil ki mən daha,
Aman eylə, gəl öldürmə sən məni.

Şahsəməd görür ki, bu elə fağırın biridir, məcbur eliyib göndəriblər. Şəmsi xanım da üz vurur ki, o ki, sənə özünü qul bilir. Öldürmə, qoy getsin. Şəmsi xanımın üz vurması da Şahsəmədi lap yumşaldır. Aldı görək son qərarını necə verir:

Qurban ol duası o qibləgaha,
Səni bağışladım o, bir Allaha.
Apar bu xəbəri yetir padişaha,
Öldürmürəm, getsin üzün qarası.

Şahsəməd Qara bəyi azad eləyir. Şad-xürrəm öz vətənlərinə yola düşür. Yolda bir yolçuya rast gəlirlər. Yolçu onun Malik şahın oğlu olduğunu bilib, atını səyirdib şaha muştuluğa gəlir. Şah bu xəbəri eşidib yola pəyandazlar döşədir, başının adamlarıyla oğlunun gəlişini, bir də Abdullanı pişvaz edir. Əsmət xanım oğlunun gəlməsini görüb, boynuna sarmaşır, gəlininin üzündən, gözündən öpür. Neçə vaxtdan bəri onu intizarda qoyduğunu bildirir. Şahsəməd başına gələnləri ata-anasına danışır. Malik şah toy büsatı qurdurur



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

qırx gün, qırx gecə toy vurdurur. Əsmət xanım oğlunun toyunda bir saz götürüb böylə bir gözəlləmə deyir. Aldı Əsmət xanım:

Mən intizarda qalmışdım
Oğul, mübarək olsun!
Cavan ikən qocalmışdım,
Oğul, mübarək olsun!
Toyun çox mübarək olsun!

Qurban yarının qaşına
Həm sənə, həm yoldaşına
Kəklik tək alıb döşünə
Oğul, çox mübarək olsun!
Toyun çox mübarək olsun!

Səndən sonra oldum xəstə,
Dərdim açdım yada, dosta,
Yeriniz var gözüm üstə.
Oğul, çox mübarək olsun!
Toyun çox mübarək olsun!

Mən Əsmətəm, sənin anan,
Həmişə oduna yanan.
Əsmət olsun sənə qurban
Oğul, çox mübarək olsun!
Toyun çox mübarək olsun!

Əsmət xanım sözünü tamam eyləyən kimi, qaravaş Mehri sazı götürüb, görək Əsmət xanıma necə göz aydınlığı verir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ana, gözün aydın olsun,
Gəlibdir, oğlun gəlibdir.
Düşmən yana-yana qalsın,
Gəlibdir, oğlun gəlibdir.

Mən də düşmüşdüm fəğana,
Sən qəsd eyləyəndə cana.
Bir xələt ver indi mana,
Gəlibdir, oğlun, gəlibdir.

Salamat gəlib elinə,
Bülbül qonubdur gülünə.
Mehri qurbandır dilinə.
Gəlibdir, oğlun gəlibdir.

Söz tamam olan kimi, Əsmət xanım öz qaravaşı Mehriyə bir dəst atlasdan paltar verir, onu da sevindirir. Sizi də həmişə sevinəsiz, arzunuza, mətləbinizə çatasınız, şad olun, sağ olun.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## CƏMŞİD – GÜLSABAH

Dastana başlamazdan əvvəl ustadlar ustadnamə deyərlər. Ona görə biz də dastana başlarkən ustadların yolu ilə gedək, ustadnamə deyək:

Eşqin dəryasına atılan, aşiq,
Yeriyə bilməsən, üzəsən gərək!
Vuranda daşlara, dağlara səni,
Göz yaşı tökməyib dözəsən gərək!

Əgər çəkilsən də Məcnun tək dara,
Xəyanət eyləmə əhdə, ilqara.
Yetişmək istəsən sən Leyli yara
Məcnun tək çölləri gəzəsən gərək!

Dolanda başına sevdanın dəmi,
Tap özünə layiq könül həmdəmi.
Çıxsa qismətinə ağıldan kəmi,
Dünyadan əlini üzəsən gərək!

Həsənəm, bilməsəm öz hörmətimi,
Yar da ucuz tutar məhəbbətimi.
Arif adamsansa nəsihətimi,
Qanınla qəlbinə yazasan gərək!

Ustadlar ustadnaməni bir deməz, iki deyər, biz də deyək, iki olsun, düşmənin ömrü gül tək solsun:

Ey boş xəyalların ardınca qaçan,
Bir həqiqət min xəyaldan yaxşıdır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Halal zəhmət ilə qazanılan çit,
Zəhmətsiz geyilən şaldan yaxşıdır.

Həssas yaranmışdır əzəldən ürək,
Yaxşını yamandan seçəsən gərək.
Minnətsiz yediyin quru şor-çörək,
Minnətlə yeyilən baldan yaxşıdır.

Qədir, gözəlliyi yaxından tanı,
Uzaqdan tanımaz insan insanı.
Gözəl o qızdır ki, yoxdur nöqsanı,
Həm sifətdən, həm kamaldan yaxşıdır.

Ustadlar ustanaməni iki deməz, üç deyər, biz də deyək üç olsun, düşmənin ömrü puç olsun:

Zalım ovçu, elə at ki, gülləni,
Dağdan ötsün, marallara dəyməsin.
Razıyam ki, dostum alsın canımı,
Telli saza, bir də tara dəyməsin.

Öz yarını yar düşünər, yar anar,
Saf məhəbbət ünsiyyətdən yaranar.
Qismət olsun yara heyva, yara nar,
Göz dikdiyim bir cüt nara dəyməsin.

Könül nə arıdır, nə də kəpənək,
Güldən-gülə qona ətir çəkərək.
O, qızdan istəyim bircə budur tək,
Düz ilqara, etibara dəyməsin.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Xəbəri hardan söyləyim, İrəvan şəhərindən. İrəvan şəhərində kimdən, Cəlal şahdan.

Cəlal şah bir müddət qaçaqlıq eləmişdi. Qocalandasa qaçaqlıqdan əl çəkir, tövbə eləyib İrəvana qayıdır. Onun igid bir adam olduğunu İrəvan camaatı eşidib bilirdi. Elə bu vaxtlarda İrəvan şahı canını tapşırır rəhmətə gedir. Odur ki, camaat yığılıb gəlir Qaçaq Cəlalın yanına ki, sən həmişə elə camaatın qayğısına qalıbsan, indi də, şahımız ömrünü bizə tapşırıb getdi. Biz də səni özümüzə şah olmağı təklif edirik.

Bu minvalla Cəmşid on beş yaşına çatır. Elə bir pəhlivan oğlan olur ki, gəl görəsən. Ona xudadan bir qüvvə verilmişdi ki, ən yaşlı pəhlivanlar belə ona bac verəsi olurlar.

Günlərin xoş bir günündə Cəmşid pəhlivanlarla güləşir, yorğun-yorğun evə gəlib yatır. Yuxuda onun yuxusuna nurani bir qoca gəlib Bədərxşan şəhərində olan Kafər şahın qızı Gülsabahı ona göstərib tapşırır ki,

– Bax, o qızı sənə buta verirəm, səni də ona. Əgər getsən dalınca, muradına çatarsan.

Cəmşid yuxuda Gülsabahı görüncə bir könüldən min könülə ona aşiq olur. Sərsəm yuxudan qalxıb, çox bikef olur.

İndi sizə deyim Əsmər xanımdan. Cəmşidin bir əmisi qızı varmış adına Əsmər xanım deyərmişlər. Günü ağ olmuş öz əmisi oğlunu elə sevirmiş ki, bir gün onu görməsə ürəyi gedirmiş.

Cəmşid yuxudan yenicə oyanıbmış ki, Əsmər xanım özünü ona yetirib deyir:

– Allah mənə ölüm versin, ay Cəmşid, niyə bikefsən. Dərdin nədi, yoxsa yuxudan kalmı durubsan?

Cəmşid heç bir söz-zad demeyib eşiyə çıxır. Gedib mehtərdən bir at istəyir. Mehtər ona yaxşı bir at seçib verir. Atı yəhərləyib, qılınc qalxanını da belinə bağlayır, atın



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

belinə sıçrayıb minir. Heç kimə bir söz demədən kirimişcə ov adınnan getmək istəyir ki, heç kim bilməsin. Amma Əsmər xanım işi duyur, bilir ki, bu ov işi deyil, tez Cəmşidin atının cilovunu tutub deyir:

– Ay namərd, de görüm məni atıb haraya gedirsən?

Cəmşid deyir:

– Əmi qızı, heç yana, bu saat qayıdıram, bir az kefim pozğundur. Ova çıxıb qayıdıram.

Əsmər xanım deyir:

– Düzünü de, sən ova gedənə oxşamırsan, əgər ova gedirsənsə məni də apar!

Cəmşid görür yox, Əsmər xanım əl çəkənə oxşamır, deyir:

– Əmi qızı, düzünü desəm, rüsxət verərsənmi?

Deyir:

– Əgər uğurlu işdirsə, bir kəlmə demiyəcəm, yox uğursuzdursa bu saat haray-həşir salıb aləmi buraya tökəcəm.

Cəmşid deyir:

– Əmi qızı, onda get sənin sazını mənə gətir deyim.

Əsmər xanım bir uşaq göndərib sazını gətizdirir verir Cəmşidə. Cəmşid sazı sinəsinə basıb, alır görək əmisi qızına nə deyir:

Alışaram tutuşaram, yanaram,
Səməndər tək əysiy olmaz yar məndən.
Bülbül idim öz gülümnən oynardım,
Kənar düşdü baxça məndən, bar məndən.

Əyləşəydim yar yanında binəli,
Ağ əlləri sal qoynuma xınalı.
O cavanın mən oduna yanalı,
Kənar gəzər namus, qeyrət, ar məndən.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Cəmşidəm, ağamdan almışam buta,
İgid odu həm də doğru yol tuta.
O, nakəsdi öz yarını unuda,
Heç də getməz məhəbbəti var, məndən.

Əsmər xanım soruşur ki:

– Ay nakəs, bəs məni niyə unudub gedirsən, bə bilmirsən ki, mən sənsiz bir gün də dura bilmirəm?

Deyir:

– Əsmər xanım, heç yana gedən deyiləm, haraya getsəm, genə buraya qayıdacam. Heç fikir eləmə. Mən getsəm ürəyim od tutub yanar, sənnən də olaram, onnan da. Əsmər xanım soruşur:

– Bəs o kimdi?

Deyir:

– O, Badərxşan şəhərində Kafər Şahın qızıdı, Gülsabah xanımdı.

Əsmər xanım görür olmayacaq, deyir:

– İndi ki, məni gözü yaşlı qoyub gedirsən, onda qulaq as, bir-iki kəlmə də mən deyim, sonra get.

Əsmər xanım pərişan tellərindən üçünü ayırıb saz kimi iki döşünün arasına basıb, alır görək nə deyir:

İndi bildim, bivəfasan, gedirsən,
Məndən salam dua de Gülsabaha.
Mən fəqirin necə tərkin qılırsan,
Məndən salam dua de Gülsabaha.

O, hər səhər çıxan dan ulduzudu,
Bütün aşıqların söhbət-sazıdı.
Bilirdim Gülsabah şahın qızıdı,
Məndən salam dua de Gülsabaha.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Lal eylədin mən Əsmərin dilini,
Əydin qamətini, bükdün belini.
Bəyənmədin mən gözəlin xalını,
Məndən salam dua de Gülsabaha.

Söz tamam olur Əsmər söznən dediyi kimi dilnən də deyir:

– Cəmşid, gəl məni yana-yana qoyub getmə, mənə yazığın gəlsin.

Cəmşid deyir:

– Əmi qızı, sözümüz sözdü, gedəcəm məni saxlama, qoy gedim.

Deyir:

– Onda dayan, qoy bir-iki kəlmə də var, deyim, sonra get.

Alır Əsmər xanım:

Yeri, kəkilli Şahbazım,
Gedər yarım bivəfadır.
Ağ üzündə çapandazım,
Qolları zərri qəfadır.

Cəmşid gördü bunu cavabsız buraxsa olmuyacaq. Sazı sinəsinə basıb görək nə cavab verir:

Eşqin badəsini içdim,
Bilmədim necə sevdadı.
Sərimdən, canımdan keçdim,
Bilmirəm necə sevdadı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

***Əsmər xanım***

Bir belə camal görünməz,
Şanasız zülfün hörülməz.
Yardan ayrılan dirilməz,
Ayrılıq cövrü-cəfadı.

***Cəmşid***

Nə vaxtacan həsrət çəkim,
Didəmdən qanlı yaş töküm.
Əlac etməz loğman həkim,
Ölürəm necə sevdadı!

***Əsmər xanım***

Nə vaxt düşsən yadımıza,
Aləm yanar odumuza.
Əsmər deyər dadımıza,
Yetən Əli-Mustafadı.

***Cəmşid***

And verirəm, sən o tanrı,
Qoy getsin Cəmşidin barı.
Ta görməsəm nazlı yarı,
Ölürəm, necə sevdadı!

Söz tamama yetən kimi, Cəmşid Əsmər xanımla halallaşıb ayrılır. Atını sürüb yoluna rəvan olub gedir. Bir müddət yol getdikdən sonra gəlib bir qalaçaya rast olur.

İndi sizə kimdən deyim qalaça sahibindən. Bu qalaça Aslan şahın qalaçasıdı.

Aslan şah elə qəddar adamıydı ki, əlinə düşən ya talan eləyirdi, ya da öldürərdi.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Cəmşid görür qalaçanın dibi çox sərin, göylük bir yerdi. Elə atdan enim deyəndə şahın adamları onu tutub Aslan şahın yanına aparırlar.

Aslan şah bir qədər hədə-qorxu gəlib, Cəmşidi sıxçalayır ki, sən bilmirsən bura quş gəlsə qanad salar, qatır gəlsə dırnaq! Nə atnan gəlib ədəb-ərkannan qalaçanın yanında at saxlayırsan? Cəmşid deyir:

– Şahım, izin ver, bir-iki bənd sözüm var deyim, neyləyirsən elə. Sazı sinəsinə basıb görək nə deyir:

Qovğadan qurtarmır bəlalı başım,
Fələk necə saldı bəlaya məni.
Tərk etmişəm yoxdu, qohum-qardaşım,
Qürbət yerdə qoydum kələyə məni.

Dostumun bağında süsən bitmədi,
Şeyda bülbül sevdi, gülə yetmədi.
Həsrət qaldım, əlim yara çatmadı,
Saldın çöldən-çölə, səhrayə məni.

Dost bağında qızılgülü dərənlər,
Virana könlümə eşqi hörənlər.
Gecə-gündüz qaçırdığım ərənlər,
Cəmşidəm, yetirin o, yarə məni.

Söz tamam olan kimi Aslan şah deyir:

– Mənə gəl qəzəl oxuma, bu saat səni öldürtdürəcəm.

Deyir:

– Şahım, sizin yerdə elə namərdliknənmi öldürürlər, yoxsa bir yan-yöndəmi varmı?

Şah deyir:

– Sən nəsən ki, məndən yan-yöndəm soruşursan?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Deyir:

– Eybi yox, hər nəyəm, nəyəm. Bir-iki kəlmə də söz deyim, sonra baxarıq Allah ya mənə verər, ya sənə. Alır Cəmşid:

Aslan şah deyir:

– Onda qulaq as əvvəl söz mənimdi.

***Alır Aslan şah***

De bir mənnən cəng etməyə,
Bu diyarda igid hanı?
Dağ kimi tökərəm leşi,
Mənəm Rüstəm qəhrəmanı.

***Alır Cəmşid***

Laf eyləmə, namərd oğlu,
Hərifsən, hərifin tanı.
İgid gərək cəng eyləyə,
İtirməyə adı-sanı.

***Aslan şah***

İndi özümü bildirrəm,
Gözünün yaşın sildirrəm,
Axırda səni öldürrəm,
Səni təki füqəranı.

***Cəmşid***

Səninlə edərəm cəngi,
Mənəm dəryalar nəhəngi,
Şəhərimizdən axar zəngi
Əslimizdi İrəvani.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

***Aslan şah***
Tanıginən, mən Aslanam,
Bu diyarda pəhləvanam.
Sənə bir qılınc çalaram,
Zəngi tək axıdaram qanı.

***Cəmşid***
Cəmşidəm, qanlar eyliyəm,
Lal ol, bağrını teyliyəm.
Mən Cəlal şahın oğluyam
Elimdə deyərlər sanı.

Söz tamam olur. Hər ikisi ayağa durub qılınc çalırlar. Heç biri o birinə doy gələ bilmir.

Təzədən əlbəyaxa olurlar. Cəmşid elə ilk dəfədə Aslan şahın kürəyini yerə vurub, ağzını açana kimi qılıncı sıyırıb başını kəsir.

Aslan şahın dustaqlarını da azad eləyib, yoluna rəvan olur. Cəmşid at sürüb getməkdə olsun, bu tərəfdən bir bəzirgan gəlir. Onlar qabaqlaşırlar. Bəzirgan görür bunun çiynində həm qalxan var, həm də saz. Başa düşür ki, hal əhli olacaq. Başlayır söznən ondan sorğu-sual eləməyə:

***Alır Bəzirgan***
Səbəb nədir bu diyara gəlibsən,
Pərvanə tək özün vurursan nara.
Eşq əlindən saralıbsan, solubsan
Mən qurbanam, namus, qeyrət həm ara.

***Cəmşid***
Ayrı düşdüm vətənimdən, elimdən,
Qəza tutub, mən bu yana gəlmişəm.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bülbül olan kənar olmaz gülündən,
Güldən ötrü bu gülşana gəlmişəm.

***Aldı Bəzirgan***

Doğru danış, mən eşidim dilindən,
Bülbül olan kənar gəzməz gülündən.
Bir xəbər ver ulusundan, elindən,
Tülək tərlan ovun vermiş o sara.

***Cəmşid***

Neylərəm baxçanı, neylərəm barı,
Tərk etmərəm namus, qeyrət, həm arı.
Qəsdim budur görəm o nazlı yarı,
Dərdim budu ol dərmana gəlmişəm.

***Bəzirgan***

Adım Səfər özümdəki tacidar,
Satginən mətahın, mənəm xiridar.
Qəsdim budur görəm o nazlı yarı,
Dərdim budu ol dərmana gəlmişəm.

***Cəmşid***

Mən Cəmşidəm, necə qaldım avara,
Sıdqımı bağladım pərvərdigara.
Pərvanə tək özüm vuraram nara,
Bir qoç idim mən qurbana gəlmişəm.

Söz tamam olur. Cəmşid söznən dediyi kimi dilnən də hal-qəzanı nəql eləyir.

Bəzirgannan xudafizləşib ayrılırlar.

Cəmşid atını sürüb xeyli yol getdikdən sonra, gəlib Bədərxşan şəhərinə çatır. Nabələd olduğunnan, tanımadan,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

bilmədən girir “Gülşən” baxçasına. Sən demə, bu baxça elə Kafər şahın qızı Gülsabahın imiş.

Bu tərəfdən Gülsabah “Gülşən”i hərrənməyə gəlir, görür bir nəfər atlı girib tez ona yaxınlaşır ki, görüm nə canlı, cinlidir ki, izinsiz bu baxçaya girib.

Elə bu halatda Cəmşidin sifəti onun gözünə sataşır. Görür, əyə bu elə onun yuxusunda gördüyü oğlandı kı var.

Tez sevincindən gözləri yaşarır, yasəmən tellərindən üç tel ayırıb, əl dəyməmiş sinəsinə basıb görək Cəmşidə nə deyir:

Tərk eyləyib öz elini,
Bu diyara gələn oğlan,
Əmərsən yarın dilini,
Ləblərindən qanan oğlan!

Cəmşid də qızı tanıyır. O dəqiqə sazı sinəsinə basıb görək nə deyir:

Eşqin badəsini içdim,
Yaman oldu işim mənim.
Sərimdən canımdan keçdim,
Dağıldı huşum mənim.

***Gülsabah***

Qədəm basdım bu gülşana,
Mənəm o yaşılbaş sona.
Xoş gəlibsən Bədərxşana
Kamı dolu alan oğlan.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

***Cəmşid***
Qəm mətahım götürərəm,
Özüm yara yetirərəm.
Ya ölərəm, ya gətirərəm,
Ya kəsərlər başım mənim.

***Gülsabah***
Bir bax fələyin işinə,
Bu zamanın gərdişinə,
Düşdüm hicran atəşinə,
Eşq əlindən yanan oğlan.

***Cəmşid***
Cəmşidəm, çəkərəm ahı,
Oxuram kələmüllahı.
O, gecə gördüyüm şahı,
Zöhr oldu tuşum mənim.

***Gülsabah***
Budur mətləbim dahı,
Çağırram qədri-Allahı
Bu fəqir Gülsabahı,
Sənsən yada salan, oğlan!

Bunlar eyşi-işrətdə olmaqda, xəbər verim şəhər əhlindən. Şəhər əhli eşidir ki, Şahın qızı Gülşən bağında bir oğlana eşqnamə oxuyur. Aləm tökülüb gəlir ki, bihürmət eləsin, oğlanı da öldürüb başını şaha aparsınlar. Elə bu halatda Gülsabah ayılır, tez Cəmşidi şəhərdən qırağa çıxardır. Cəmşid şəhərdən çıxandan sonra yolu azır, haraya gəlib çıxdığını bilmir. Çox qəmgin olur. Sazı çıxardır ki, bir iki xanə



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

söz desin. Elə bu anda Cəmşidin Bəhram adında bir qulu var idi. Onu izləyə-izləyə dalınca gəlib Cəmşidin yanına çıxır.

Qul Bəhram gəlib Cəmşidi tapır, hər ikisi çox sevinirlər. Qul Bəhram ona bələdçilik eləyir.

Alır Cəmşid görək nə deyir:

Ay ağalar, mənim dərdim çoxdur çox,
Nabələdəm o məkana, o elə.
Davasız dərdimə dərman yoxdur yox.
Nabələdəm o məkana, o elə.

***Alır Qul Bəhram***

O sevdadan tərki-vətən olubsan,
Mən bələdəm o məkana, o elə.
Dərd əhlisən, saralıbsan-solubsan,
Mən bələdəm o məkana, o elə.

***Cəmşid***

Dərin-dərin dəryalara dalmışam,
İntizaram qəm əlindən solmuşam,
Atamı anamı ağlar qoymuşam,
Nabələdəm o məkana, o elə.

***Bəhram***

Qorxma, indi səni burdan götürrəm
Götürübən mənzilinə yetirrəm.
Yəqin bil ki, mətləbini gətirrəm
Mən bələdəm o məkana, o elə.

***Cəmşid***

Mən Cəmşidəm, şirin candan bezaram,
Vəsvi halım sevdiyimə yazaram.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

İtirmişəm, səhraları gəzərəm,
Nabələdəm o məkana, o elə.

***Bəhram***

Loğman kimi dərdə dərman yazaram,
Düşmən görsəm, kəsib başın əzərəm.
Səndən ötrü qürbətlikdə gəzərəm,
Mən bələdəm o məkana, o elə.

Bəhram deyir:

– Görürəm sən bir igid, namuslu oğlansan, qorxma, mən sənin üçün gəlmişəm. Cəmşidin Gülsabah yadına düşür, yarası sızlayır, alır görək öz baxtından necə şikayət eləyir:

Nə müddətdi hey gözlədim, aradım.
Mən fəqiri heç kəs yada salan yox.
Gülşənim pozulmuş, virana bağım,
Bülbül tək lal olmuş ahu-naləm yox.

Məndən ayrılıbdı cismi piyala,
Gecə-gündüz mən dalaram xəyala.
Can vermişəm buxağında bir xala,
Bazar kəsad, müştəri çox, alan yox.

Mən Cəmşidəm, axır yetmişəm cana,
Yanmışam atəşə, misli pərvana,
Dolanıb hey gərdiş, keçdi zamana,
Bivəfasan dünya, səndə qalan yox!

Cəmşidlə Bəhram birlikdə Bədərxşan şəhərinə girib, yenə gülşən bağına doğru gəlirlər.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Elə bu halətdə Gülsabah xanım pəncərədən onları görür, tez qələm-kağız götürüb belə bir namə yazır:

Canım Cəmşid, gözüm Cəmşid,
Dolan pünhanə, pünhanə.
Deyim ərzi-halım eşit,
Dolan pünhanə, pünhanə.

Bu dünyada dərdim çoxdu
Gözümdən qanlı yaş axdı.
Kafirlərin rəhmi yoxdu,
Dolan pünhanə, pünhanə.

Şad-xürrəm könül güləndə,
Sən mənə mühman gələndə,
Dan ulduzu ilk gələndə,
Dur gəl pünhanə-pünhanə.

Gülsabah naməni yazıb bir kənizini çağırıb, ona verir, deyir:

– Apar, bax, o gələn oğlana ver, özünə də de ki, bir az ehtiyatlı gəzsinlər.

Qız naməni aparıb Cəmşidə verir. Cəmşid naməni oxuyub işdən hali olan kimi qul Bəhrama deyir:

– Fikrin nədir, nə təhər eyləyək? Bəhram deyir:

– Sənin işin yoxdu, bu saat bir namə yazacam ya meydana gəlsinlər, ya da Gülsabahı sənə versinlər.

Bəhram qələm kağız götürüb yazır ki, ya Gülsabahı Cəmşidə ver, ay Kafər şah oğlu, ya da meydana gəl, davaya hazır ol. Aşağısında bir neçə belə bir söz yazır:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Hanı Kafər şahın oğlu,
Mənimlə meydana gəlsin.
İtirməsin adı-sanı,
Ölməyə mərdanə gəlsin.

İgiddə olsa namus-ar,
Meydanda göstərər hünər.
Kəsərəm baş, vurram minar,
Kəllələri sana, gəlsin.

Hər kəs tutsa doğru yolu,
Daha məndə qalmaz əli.
Bəhramdı – Cəmşidin qulu,
Sığındım sübhanə gəlsin.

Məktubu bir qasid vasitəsilə Kafər şahın oğluna göndərirlər. Kafər şahın oğlu naməni alıb oxuyur, tez yaraqlanıb meydana gəlir.

Cəmşid Kafər şahın oğlunu gələn görüb, sazı sinəsinə basıb deyir:

Sən hərif deyilsən çəkil kənarə,
Bil ki, qılınc vuran qollarım vardır.
Məgər eşitməmisənmi adı-sanımı,
Neçə min, neçə yüz yollarım vardır.

Cəlal şah oğluyam, yerim İrəvan,
Gəncə, həm Qarabağ, Şəki həm Şirvan,
Quba ilə Dərbənd, külli Dağıstan
Bil onu ki, çərkəs qullarım vardır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Adım Cəmşid, indi girrəm meydana,
Fikrin nədi, ay ağlı kəm divana.
Sidqimi bağlaram Şahi mərdana,
Şiri Xurşid kimi sallarım vardır.

Cəmşid nə qədər cəhd eləyirsə ki, Kafər Şahın oğlu davaya razı olmasın görür yox, mümkün deyil. Odur ki, cəng eləyirlər. Cəmşid elə bircə dəfə Kafər şahın oğlunun boğazından yapışıb göyə qaldırıb yerə vurur. Bir də baxırlar ki, oğlanın canı çıxıb. Hər ikisi hücum çəkirlər.Nə qədər qoşun gəlirsə, Bəhramnan Cəmşidə bata bilmir, qaçıb dağılırlar.

Cəmşid özünü yetirir Gülsabah olan otağa, Gülsabahı alır atın tərkinə. Qul Bəhramı da burada camaata şah seçib, iki sevgili vətənə yola düşürlər.

Cəmşid və Gülsabah bir qədər yol gedəndən sonra bir laləzar dağın ətəyinə çatırlar. Yorğun olduqlarından hər iki aşiq-məşuq bir-birinə sarmaşıb yuxuya gedirlər.

Bir müddətdən sonra Cəmşid yuxudan ayılıb, nə görür, sevgilisi yanında yoxdur. Deyir yəqin gəzməyə çıxıb. Durub nə qədər axtarırsa, tapa bilmir. Kor-peşiman yuxuladığı yerə qayıdır. Sazi köynəyindən çıxardıb, qəmgin-qəmgin oxuyur:

Bilmirəm bu necə sevdadı,
Cana doydum, cana doydum.
Köməyim Şahi-Xudadı,
Cana doydum, cana doydum.

Ölərəm, yoxdur cəfası,
Tutu tək mənzil qəfəsi.
Cəfanın oldu həvəsi,
Cana doydum, cana doydum.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Dərs aldım abi-həyatdan,
Mən oxuram həqiqətdə.
Cəmşidəm qəmi-möhnətdən
Cana doydum, cana doydum.

Cəmşid sazı köynəyinə salır, atını da minib baş alır gedir. Amma hara getdiyini heç özü də bilmir. Bir qədər getdikdən sonra qoca bir kişiyə rast gəlib ona salam verir:

Qoca:

– Əleykə əssalam, oğul, Cəmşid, – deyib cavab verdikdə.

– Əmi, siz nə bilirsiniz mən Cəmşidəm, – deyib, qocadan soruşur.

Qoca deyir:

– Necə bilmirəm, sənin sevgilin Gülsabahı da bir dev o dağın başındakı qalaçaya apardığını da görmüşəm.

Cəmşid qocadan təvəqqe eləyir ki, qızı devin əlindən qurtarmaq üçün ona bir yol göstərsin.

Qoca Cəmşidə bir tilsim verir, həqqi də tapşırır ki:

– Bunu cibinə qoy, devin yanına gedəndə onun gözlərinə diqqətlə baxarsan, o zaman devin huşu gücü bilmədən dağılacaq, sevgilini alıb gələrsən.

Cəmşid qocaya minnətdarlığını bildirib, atını sürür düz ləng devin qalaçasına. Dev Cəmşidi görən kimi gəlir. Cəmşid əvvəlcə özünü itirir. Sonra qocanın sözü yadına düşür, yerindən tərpənmədən baxır devin düz gözlərinin içinə.

Dev huşunu itirib yıxılır. Amma, Cəmşid qızı devin yanında görməyib ürəyi cuşa gəlir, alır görək nə deyir:

Nələr gətdin mən fəqirin başına
Gətirib neylədin de Gülsabaha?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Rəhmin gəlsin gözdən axan yaşıma,
Gətirib neylədin de Gülsabaha?

O, gözəlin camalına mayiləm,
Çətindir ki, mən bu dərddən ayılam.
Ya soyulam, ya doğranam, ya öləm,
Gətirdin, neylədin de Gülsabaha?

Cəmşid deyər yalan çıxmaz dilimnən,
Mən bülbülü ayırıbsan gülümnən.
Çox çətindir qurtulasan əlimnən
Gətirdin neylədin de Gülsabaha?

Cəmşid gördü ki, heç kəs çıxmadı. Bu halətdə qız yan otaqdan səs verdi. Cəmşid özünü yetirir Gülsabahla görüşüb, öpüşürlər, oradan çıxıb devin yanına gəlirlər, görürlər ki, dev hələ ayılmayıb. Cəmşid xəncərini çıxardıb devin başını kəsir, atına minib, Gülsabahı tərkinə alır, düz İrəvan deyib üz qoyurlar.

Nağıllarda yol tez başa gələr, xeyli vaxt at sürdükdən sonra gəlib İrəvana çatırlar.

Cəlal şah oğlunun gəldiyini eşidib, qabağına çıxır. Görüşüb öpüşürlər. Cəmşid başına gələnləri yığılanlara nəql eləyir. Cəlal şah yeddi gün, yeddi gecə toy çaldırıb, Gülsabahı Cəmşidə alır. Cəmşid öz toyunda sazı sinəsinə basıb öz sevgilisinə belə bir tərif deyir:

Yarımı tərif edim,
Münəvvər qoyub dünyanı.
Qəmzəsi can əlacı,
Taxtadan salır Süleymanı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qaşları hilala bənzər,
Dilləri bülbülə bənzər,
Bir yanağı gülə bənzər,
Biri seyr edər Gülşanı.

Sənsən Cəmşidin pənahı,
Daha çəkmərəm bil ahı.
Dada yetdi şahlar şahı,
Yaratdı sən tək cavanı.

Söz tamama yetişdi. Hamı gördü doğrudan da Gülsabah tərifsiz gözəldi. Buna görə Əsmər xanım gəlib Gülsabahın üzündən öpdü, Cəmşidin də alnından öpüb deyir:

– Bu günə kimi mən səni başqa cür sevirdim, gətirdiyinə görə varıymışsan. İndən belə daha qardaşımsan.

Beləliklə, Cəmşidnən Gülsabah muradlarına çatırlar. Ömür sürüb, xoş günlər keçirirlər.

Siz də sağ olun, muradınıza çatın, xoş günlər keçirib, aşıqları toyunuza dəvət edin.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## BİKƏS – NAZLI XANIM

Dastana başlamazdan əvvəl ulu dastanlarımız məclislərdə ustadnamə deyərmişlər. Ona görə də biz də ustadlarımızın yolu ilə gedək, dastana başlamazdan əvvəl ustadnamə deyək:

Qadir Allah sən ki, yaratdın ərşi,
Tənabsız çadırı qurdun, nə üçün
Əzəl xəlq eylədin Adəm Həvvanı,
Onları cənnətdən qovdun, nə üçün?

İbrahim heç kəsə qulaq asmadı,
Haqqın ilqarını tutdu, basmadı.
İsmayıla bıçaq çəkdi, kəsmədi,
Sən onun boynunu burdun, nə üçün?

Dəllək Murad deyər əsl söz indi
Basılıbdı sinəsinə köz indi
Mərifət bəhrində çalxan, üz indi.
Ömrünü boş yerə yordun, nə üçün?

Ustadlar ustadnaməni bir deməz, iki deyər, biz də deyək iki olsun, düşmənin ömrü gül tək solsun:

Gəl-gəl sənlə halallaşaq,
Süleymandan qalan dünya!
Əzəl başdan al eylədin,
Sonra oldun yalan, dünya!

Uca-uca dağlar gördüm,
Yeniyetmə bağlar gördüm,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Çoxun səndən ağlar gördüm,
Kimdir sənə gülən dünya!

Həsrət qoydun anaları,
Cüda saldın balaları
Uçurdun çox xanaları,
Saldın neçə talan dünya!

De görüm, kimə talıbsan?
Dərsini kimdən alıbsan?
Səksən yolla dolaşıbsan,
Doxsan yolla dolan, dünya!

Qanlı Köçər ağlar naçar,
Hər qardaş əkdiyini biçər.
Gələn qonaq qonar, köçər,
Kimdir səndə qalan, dünya!

Ustadlar ustadnaməni iki deməz, üç deyər, biz də deyək üç olsun, düşmənin ömrü puç olsun:

Qafil olma, diqqətindən fəhm eylə,
Yaxşını, yamanı tanı həmişə.
İstəsən ki, murazına çatasan,
Abad istə sən dünyanı həmişə.

Narazısız bir gül üzmə butadan
Gen gəz qalmaqaldan, gen gəz xətadan.
İgid oğul törər əsil atadan,
Qoymaz olsun nahaq qanı həmişə.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Mərd igid meydanda qoyar sərini,
Yada salar ustadını, pirini.
Axtarar dayazı, gəzər dərini
Qoyar dost yolunda canı həmişə.

Şamama bitirməz namərdin tağı
Yığılmaz başına ağır yığnağı,
Mərdin qaydasıdır əylər qonağı,
Açar süfrə, tökər qanı həmişə.

Dilində zikr eylə, Əli İmranı,
Odur qiyamətdə haqqın divanı,
Nəcəf, mərifətlə dolan dünyanı
Sən ol xalqın mehribanı həmişə.

Bəli, mənim əzizlərim, indi sizə xəbər verim, Qaradağ mahalından. Qaradağda Həsən sövdəkar adlı bir şəxs yaşamışdır. Həsən sövdəkar özü sonsuz idi. O, bir gün eşidir ki, Təbriz vilayətinə aclıq düşüb, odur ki, Həsən öz mal-dövləti ilə Təbrizə köçür ki, ordakı aclara, zərərdidələrə qardaşlıq əlini uzatsın. Təbrizdə Həsən dövlətini fəqir-füqəraya payladıqdan sonra onun arvadının boynuna övlad düşür. Doqquz ay, doqquz gün və doqquz saatdan sonra Həsən sövdəkarın arvadı bir oğlan uşağı doğur. Uşağa adqoymaq üçün gətirilən qarılardan biri İpək qarı təklif edir ki, oğlanın adını Bikəs qoysunlar.

Bəli, Bikəs on yaşına çatdıqda onu məktəbə verirlər. Oğlanın on beş yaşı tamam olduqda Həsən sövdəkar vəfat edir. Bikəsin anası Xanı oğluna təklif edir ki, atasının mal-mülkünə yiyəlik edərək onun sənətilə məşğul olsun. Bikəs isə məktəbdən çıxmağa razı olmayıb mütaliəylə məşğul olur.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Günlərin bir günündə Bikəs Quran oxuduğu yerdə huş aparır və ağzı köpüklənir, huş aləmində Firəng padşahının qızı Nazlı xanımla vurulur.

Bikəs üç gündən sonra ayılaraq anasından sitatisaz xahiş eləyir. Saz hazır olduqda öz dərdi – dilini anasına belə deyir:

**“Şikəstə” havasında**

Ana, dərdim çoxdu, bilməm neyləyim,
Əziz Allah mənə buta veribdir.
Vurulmuşam, dərdi kimə söyləyim,
Əziz Allah mənə buta veribdir.

Bu başımda qovğası var, qalı var,
Əmmək  üçün ləblərinin balı var,
Bil, başında Firənginin şalı var,
Əziz Allah mənə buta veribdir.

Bizim yerlər ördəklidir, qazlıdır,
Miskin Bikəs Əli cürə sazlıdır,
Firən padşahın qızı – Nazlıdır, -
Əziz Allah mənə buta veribdir.

Xanı oğlunun sözlərindən bir şey başa düşməyib, xəbər alır ki, oğlum, aydın danış, görüm dərdin nədir?

***Alır Bikəs “Kərəmi” havasında***

Anam, Nazlı yarın dərdi-sərindən
Ürəyim şad olmaz, bil, üzüm gülməz.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Əziz anam, bir qovğaya düşmüşəm,
Gəlsə yüz mi9n loğman dərdimi bilməz.

Üzünü göstərib çəkdi kənara,
Bilmirəm olarmı dərdimə çara?
Uzaqdır mənzili, əl çatmır yara,
Vuruldum o yarə, getməsəm, olmaz!

Baxmaq üçün gözlərinin naminə,
Əlac yoxdu sınıq könlün qəminə.
Pərvanətək yanacağam şamına,
Yetməsəm, ay ana, bil üzüm gülməz

Kimlər yetsin mən yazığın dadına,
Ana yanar balasının oduna.
Düşsə nazlı yarın Bikəs yadına,
Ölərəm, yarım da kimsəyə qalmaz.

Bu sözləri eşitcək Xanı başladı ağlamağa, götürür görək oğluna nə cavab verir:

**"Aşıx Abdulla" havasında**

Oğul, Axirətini yandırma oda
Bil ki, buna çatmaz aman, gəl, getmə.
Atanın-ananın bircə balası
Səndən qeyri yoxdur güman, gəl, getmə.

Sən gedərsən solar mənim ərağım,
Günbəgündən artar dərdi-fərağəm.
Bil, gedərsən sənə çatmaz sorağım,
Yaxşı günüm olar yaman, gəl, getmə.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Sənsiz viran qalsın bağçalar, bağlar
Sinəmə çəkilər düyünlü dağlar,
Sən gedərsən, ana Xanı qan ağlar,
Bükülübdür qəddi - əman, gəl getmə.

Bikəs anasının sözlərini dinləyib deyir: anacan, əbəs yerə mənə üz vurma, mən gərək günü bu gün yola rəvan olam. Sevgilimin gözü yoldadır.

Bikəs anası ilə həlal – hümmətləşib yola düşür. Firəng diyarına. Bikəs yola düşməkdə olsun, xəbər verim sizə Firəng padşahının qızı Nazlı xanımdan.

Nazlı xanım Bikəs kimi yuxuda Bikəsi görərək aşiq olmuşdu və bilirdi ki, Bikəs müsəlman olduğu üçün atası onu Bikəsə verməyəcək. Odur ki, yalandan özünü dəliliyə vurur. Ata- anasına xəbər göndərir ki, mənim qollarımı açın, daha mən dəlilik etməyəcəm.

Anası qulluqçu qızları göndərib qızının əlk-qolunu açdırır. Nazlı isə qolları açılan kimi yerdən bir paya götürüb başlayır qızların eninə-uzununa çəkməyə. Bu vay xəbəri anasına çatan kimi anası gəlib qızına öyüd-nəsihət verir ki, qızım, niyə boş yerə həm özünü, həm də bizi əldən salırsan. Allaha şükür, nəyin dərdini çəkirsən? Axı niyə bu günə düşmüsən?

Nazlı cavab verir ki, ana, mən ürək dərdimi açıb desəm, əlac edəcəksənmi? Anası: elərəm – dedikdə qız götürür görək “Qarı nəfəs” havasında deyir, deyək şad olun:

Necə ağlamasın bülbüli şeyda,
Dərilib qönçəsi, gülü dəst olur.
Fələk özü verib piyaləsini
Ağlım sərdə durmur könlüm məst olur.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Anası baş tapmadıqda Nazlı götürür dal bəndini:

Başını düşüb qovğalara – qallara,
Axıban göz yaşım dönüb sellərə,
İntizar gözümü dikdim yollara,
Bəlkəm gələn sevgim mənə dost olur.

Anası qızının dərdini nəhayət başa düşdükdən sonra deyir:

- Ay çəpəlin biri çəpəl, sevgi nədir, atan bilsə dərini boğazından çıxardar.

Nazlı bu sözlərdən qorxaraq dediklərini danır, alır görək nə deyir:

Əbəs-əbəs sözlərimi söylərəm,
Xəncər alıb qara bağrım teylərəm
Nazlı deyər eşqim aşkar eylərəm
Onda da bil, şirin cana qəsd olur.

Nazlı sonra anasına yalvarır ki, atası onun üçün bir paraxod bağlasın ki, o paraxodla dəniz səyahətinə çıxıb dərd-sərini dağıtsın.

Əslində, qəsdi paraxoda minib Bikəs olan səmtə qaçmaq idi.

Firəng padşahı əmr verib, gəmi qayırtdırmaqda olsun. Xəbər verək Bikəsdən. Bikəs Nazlının sorağı ilə Misir vilayətinə gəlib Əlibəy adlı bir şəxsin bağına çıxır. Əlibəy Bikəsdən kim olduğunu soruşduqda.

Bikəs ona saznan – söznən belə cavab verir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

*"Kərəmi" havasında*

Ay ağalar, nazlı yarın dərdindən,
Gecə-gündüz bil, düşmüşəm aha mən
Bilən yoxdur dərdim, qəm düşkünüyəm
Yusif tək çatmışam gözəlgahə mən.

Ay bağalar, dərdim Bikəsin gülü,
Uçubdur sonası, boş qalıb gölü.
Bir qızın dərdindən olmuşam dəli
Tutmuşam, gedirəm doğru rahə mən.

Əlibəy Bikəsə yazığı gəlib onu bir ay öz evində saxlayır. Bikəs burada qalmaqda olsun, indi görək Nazlı nə işlə məşğuldur.

Nazlının atası qızı istədiyi paraxodu bağlatdırıb, paraxod sürməyi də ona öyrədir. Bəli, vaxt gəlib keçir. Paraxod gəlib Misir vilayətinə çatır. Sən demə, bu şəhərdə qırx nəfərdən ibarət həramilər olurmuş. Həramilərin başçısı Tülək Tahirin əmrilə həramilər qayıqlara minərək paraxodun qarşısına çıxırlar ki, onu saxlasınlar. Partaxoda çıxdıqda görürlər ki, paraxodda qırx nəfər qızdan başqa heç bir şey yoxdur. Onu görəndə dəniz sahilində göz-qulaqda olan sərkərdələri Tülək Tahirə bu xəbəri yetirdikdə Tülək Tahir belə əmr verir:

Qırx qız,
Qırx biz.
Adama birin düşürün.

Həramilər hərəsi bir qızı paraxoddan düşürür, axırı isə Nazlı xanım Tülək Tahirə qalır. Tülək Tahir istəyir ki, o dua



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

eləsin, əli-qolu açılsın. Nazlı Tülək Tahirə inanıb dua edib onun qollarını sağaldır. Tülək Tahirin qolları açılan kimi Nazlının altı dəst paltarının altısını da əynindən soyundurub getmək istədikdə Nazlı xanım ondan təvəqqe edir ki, çılpaq halda dənizdə tək buraxmayıb heç olmazsa qul əvəzinə aparıb bazarda satsın. Tülək Tahir Nazlının başına bir qara hərlədir, lakin ona heç kəs müştəri düşmür.

Bikəs isə həmin günü darıxıb bazara çıxır. Gəzə-gəzə bazara gəlib həmin harami başından Nazlını yüz əlli manata alıb Əlibəyin otağına gətirir, amma çadrasını hələ başından açmır. Odur ki, Bikəs sazı döşünə basıb qızdan bu növ sorğu-sual etməyə başlayır:

**"Zarıncı şikəstə" havasında**

Əl tutub mənimlə gələn bircə qız,
Qədəm qoyub otağıma, xoş gəldin!
Sən gələn yollara canım hayandır,
Qədəm qoyub otağıma, xoş gəldin!

**Nazlı xanım**

Qadir Allah, belə yazıb yazımı,
Yolum düşüb sözün namı gəlmişəm.
Tərk etmişəm qohum-qardaş, elimi,
Ağlar qoyub ata-anamı, gəlmişəm.

**Bikəs**

Aç üzünü, qoy görünsün lalası,
Görüm ölsün seyra qubun balası.
Bir əldə tutmusan qəm piyaləsi
Bir əlində dürlü-məzə, xoş gəldin!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**Nazlı xanım**

Gətirdilər Firəngistan elindən,
Baş açmadım küçəsindən, yolundan.
Qurtar məni həraminin əlindən,
Başımı götürün sən sultana gəlmişəm.

**Bikəs**

Əyninə geymisən xasdarın – xasın
Yolundan azanı ilahi kəssin.
Dərdini artırın yazıq Bikəsin
Çatdırın ömrünə yüzə, xoş gəldin.

**Nazlı xanım**

Sən nə bildin mən bir ala gözlüyəm,
Güzgü qabaqlıyam, şəkər sözlüyəm,
Firəng padşahının qızı Nazlıyam,
Kəlmeyi şəhadətə, mən imana gəlmişəm.

Bikəs Nazlı adını eşidən kimi ilan xurma ağacına sarmaşan kimi Nazlı xanımı qucaqlayır, çadrasını götürdükdə, görür onun əndamı çılpaqdır, lakin Bikəsin pulu yox idi ki, ona paltar alsın.

Nazlı isə saçlarının arasından bir ləl çıxarıb Bikəsə verir ki, hər ikisinə paltar alsın.

Bikəs paltarları alıb gətirir və geyinirlər. Bir müddət keçəndən sonra Nazlı xanım bir put ipəkdən bir firəng şalı toxuyur və onu Bikəsin dostu Əlibəyə bağışlayır.

İndi sizə xəbər verim Firəng padşahından. Firəng padşahı qızı padşahı qızı Nazlı xanım  qaçandan sonra üç qardaşını bir nəfər Abdulla deyən adamı və bir də Sehrcadu Gülsüm qarını Nazlı xanımı axtarıb tapmaq üçün göndərir. Və onlara tapşırır ki, qızını harada olursa-olsun, tapıb gətir-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

sinlər. Qızın dalınca çıxanlar gəzə-gəzə gəlib, Əlibəyin dükanının qabağına çatdıqda görürlər ki, həmin Firəng padşahı verən nişanlarda ipək şalı bu dükanın qabağında asılmışdır. Bunlar Əlibəydən nə qədər xahiş edirlərsə də, Əlibəy şalı bir nəfərdən yadigardır.

Bu arada Bikəs gəlib çıxır. Əlibəy Bikəsi göstərib deyir:

- Ay kişilər, bax bu şaldan ancaq bu oğlandan ələ keçirə bilərsiz.

Həmin axtarıcılar Bikəsə müraciət edib təvəqqe eləyirlər ki, həmin şaldan bir ədə gətirsin. Bikəs razı qalıb qayıtmaq istədikdə Abdulla onu saxlayıb deyir:

- Oğlan, əgər yararsa biz qərib adamıq, gecə bizə bir yer verin, gecələyək, sabah sizdən şalı da alıb gedərik və mənzil pulu da verərik.

Bikəs bu təklifə razı qalıb firəngli qonaqları evinə dəvət edir. Firənglilər evə çatdıqda Nazlı xanım bunların qabağına xörək gətirir və üzünə duvax saldığı üçün qonaqları tanımır. Çörək yeyərkən Abdulla Bikəsdən bir içim su istəyir. Bikəs su gətirərkən xörəyinə behişdarı tökür. Bikəs suyu gətirəndən sonra təamdan bir yeyir, iki yeyir, özündən gedib yıxılır. Bikəs bihuş olandan sonra qızın qardaşları və Abdulla Nazlı xanımın saçlarından sürüyüb gətirirlər. O ki, var eninə uzununa çəkirlər ki, başqa millətdən olan bir adama qoşulub qaçmışdır. Yol uzunu Nazlı xanım fikir dəryasına qərq olur ki, nə yolla Bikəsə xəbər göndərsin.

Nazlı xanım xanım bu fikirdə ikən gözü yol kənarından keçib gedən bir çobana sataşır və qardaşlarından su içmək mahnısı ilə çobana yanaşır və ona deyir ki, ay qardaş, sənə sözüm var, onu yerinə yetirə bilərsən?

Çoban da əhli – hal adam imiş. Deyir: buyur, bacı, nə sözün var söylə, dedikdə Nazlı xanım alır görək ne deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**“Vəli canı” havasında**

Sənə qurban olum, qardaşım çoban,
Yarı görsən, söylə, bizim yana gəlməsin
Arı kimi sızıldaşıb bal üstə
Döndərib bağrımı quru cana gəlməsin

Oyanıb yuxudan düşsəm yadına,
Şahlar şahı çatsın onun dadına,
Pərvanə tək mən çəpəlin oduna
Kərəm kimi yane-yane gəlməsin.

Sən görəcəyin tanıyacaqsan onu
Oddan köynəyi var, alovdan donu
Elə bil çatıbdır ömrümün sonu
Qəsdə durub şirin cana gəlməsin.

Öz adım Nazlıdır, Bikəsdir butam
Çərxifələk edib bizə söz, sitəm
Firəng padişahdır, bürcüdür atam
Əbəs yerə, nahaq qana gəlməsin

Sözünü tamam edən kimi Nazlı xanım üzüyünü çıxarıb nişanə üçün çobana verir və özü isə qardaşlarının yanına qayıdıb, gəmiyə minib, vətənə getməli olur. Dərya ilə yol gedərkən gəmiçi Alosmana yaxınlaşaraq öz sevgilisi Bikəsi ona tapşırır:

***“Qoca Kərəmi” havasından***

Sənə qurban olum qardaş Alosman,
Dal gərdəndə gözüyaşlı yarım var.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Gecə - gündüz zarı giryan ağlaram,
Cahan yar, namusum var, arım var.

Bülbül kimi cüyda düşdüm gülümdən,
Seyraqıblar qurtarmasın zülümdən.
Behişadarla xata çıxdı əlimdən
Nazlı deyir Bikəs adlı yarım var

Gəmiçi bu sözlərdən baş tapmadıqda Nazlı xanım dilnən onu başa salır.

Nazlı xanım bu minval ilə gedib atasının yanına çatır.

Bikəs isə üç gündən sonra özünə gəlib görür ki, yer yerində var, Nazlı yerində yoxdur.

Əlibəyin də onun başına gələn işdən xəbəri olmur. Odur ki, Əlibəyə başına gələn qəzavü-qədəri Bikəs belə nəql edir:

***" Aşıq Abdulla " havasında***

Ay ağalar, Nazlı yarın dərdindən,
Qohumdan qardaşdan, eldən ayrıldım
Bülbül kimi həsrət qaldım gülə mən
Of, qucmadım incə beldən qayrıldım.

Bu başımda qovqası var, qalı var,
Əmmək üçün ləblərinin balı var,
Yar başında Firəngistan şalı var,
Dili qənd dodağı baldan ayrıldım.

Bikəs Əlibəylə vidalaşıb bir baş Firəngistana doğru getməyə başlayır. O yerəcən gəlir ki, ta gəlib çatır çobana.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Çoban Bikəsin yəqin yol getməyindən şübhəyə düşüb ondan haraya, nə işə getməsini sual edir. Bikəs isə özünü çobana beylə nişan verir:

***"Qara nəfəs"***

Sənə qurban olum qardaşım çoban,
Mənə söylə nazlı yarı gördünmü?
Sinəsi uzandı, didəsi giryan
Yaş tökəndə vəfadarı gördünmü?

***Alır çoban***

Şükür olsun birliyinə xudanın,
Sevgin dedi bizim yana gəlməsin.
Arı kimi sızıldaşıb bal üstə
Döndərib bağrını qana gəlməsin.

***Bikəs***

Özü tənha yoldaşları beş idi,
Yoxsa ki, qatırlı bəzirgan keçdi,
Sinəsi yaralı gözləri yaşdı
Yaş tökəndə ol vəfadarı gördünmü?

***Əli çoban***

Öz adı Nazlıdı, həm də nişana,
Görməyibən getdi o, yana-yana.
Qiyamət babalım olsun çobana
Sevgim dedi, bizim yana gəlməsin.

Əli çoban Nazlı xanımın üzüyünü Bikəsə verib deyir: Ay oğlan, üç gündür ki, mən gecə-gündüz sənin yolunu gözləyirəm, gözümə yuxu getməyibdir. Yaxşı oldu ki, sən gəlib



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

çıxdın, al bu çomağı qoyunları saxla, mən bir az gözümün acısını alım.

Bikəsin əlacı kəsilib razı olur. Əli çoban isə başını yerə qoyan kimi yuxuya getdi. Qoyunları isə bölük-bölük olub dağılırlar. Bikəs nə qədər cəhd elədisə qoyunların başını bir yerə toplaya bilmir, yubanmadan sazını alıb yoluna rəvan olur. Bir qədər piyada gəlib dərya kənarında limana çatır və orada Firəngistana gedən bir paraxoda biletsiz minir. Bu gəmi də sən demə nə gəmi olsun? Həmin Nazlı xanım gedən gəmi. Gəmi sükançısı Alosman Bikəsi görən kimi Nazlı xanım ona dediyi nişanlarla tanıyır və öz yanında oturdur. Üç-dörd gündən sonra onu sağ və salamat aparıb Nazlı xanım olan şəhərə çatdırır. Bikəs gəmidən düşüb şəhərə çıxıb və bir hamamın qabağında çalıb- oxumağa başlayır.

Xəbəri indi kimdən verim Nazlı xanımdan. Nazlı xanım öz kənizini göndərmişdi ki, bazardan şey-şüy alsın. Həmin kəniz isə Bikəs oxuduğu mərəkəyə gəlib axşama kimi ona qulaq asır və bir də görür ki, özü ilə axşamdan başqa küçədə heç kim qalmayıb. Tez qaçır evə. Nazlı xanım kənizin belə gec gəlməsini görüb deyir: ay çəpəl, mən səni işə göndərmişdim, yoxsa kefə?

- Ay xanım, - mən görəni sən görsəydin, heç indi də qayıtmazdm.

- Ay qız, kimi görmüsən?

- Xanım, bir nəfər gözəl aşıx gəlib bizim hamamımızın qabağında oxuyur, gözəlliyi və oxumağı ilə hamını valeh edirdi.

Nazlı xanım o saat xəyalından keçirir ki, bu adam olsa-olsa Bikəs olacaq. Eyvandan küçəyə baxıb, onun doğrudan da Bikəs olmasını təsdiq edir. Nazlı xanım həmin dəqiqə kənizini əziz bağbanının yanına göndərib sifariş edir ki, həmin aşığı bağda qonax saxlasın və yaxşı hörmət eləsin.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Əziz bağban əlüstü Bikəsi tapıb bağa aparır. Səhəri isə Nazlı xanım əlləri xınalı, başında qırx nəfər incə bel qızla bağa təşrif gətirir və onların qarşısına çıxan Bikəsdən xahiş edir ki, onların şəninə bir neçə kəlmə oxusun.

Alır Bikəs görək "Şəkəngi" havasında nə deyir:

Gözəllərin arasında qan olur,
Düzülüb oraya minalar gəlir.
Uçurub könlümü eyləyib sərxoş
Bəyəm yaşıl başlı sonalar gəlir?

Qurban olum Nazlı yarın məstinə,
Qızıl gül dəstəsin tutub dəstinə,
Laçın kimi sözsüz şikar üstünə,
Yaxıb əllərinə xınalar gəlir.

Nazlı xanımın əmisi qızı Xeyransa deyir: - Əmi qızı Nazlı, deyəsən aşıx sənə qohum çıxıb, o haradan bilir ki, sənin adın Nazlıdır.

- Ay qız, bənd olma, aşıxdı da, ağzına gələni deyir.

Yaxşı qoy görək dal bəndində nə deyəcək?

***Alır Bikəs***

Bizdən salam olsun o Nazlı yara,
Eldən, vilayətdən düşdük avara,
Dedizmi Bikəs, bəd haldı, yara
Yaxıb ağ əllərə xınalar gəlir.

Xeyransa deyir:

- Nazlı, elmi-şuma məlum şüd, demək, aşıx sənin istəklin imiş.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Nazlı Bikəsə himlə başa salır ki, bu dəfə də Xeyransanm üstə oxusun.

Alır Bikəs, "Ağadayı Şəkəngi" havasmda, görək nə deyir:

Başdan-başa geymisən yaşılı,
Qəddinə yaraşır ala, Xeyransa,
Aşıqınam, yandım, eşq ataşına,
Saxla yanında məni qula Xeyransa.

Bir dəst geyinmisən üstən abatdı,
Mələklər də qulluğunda tabatdı,
Dilin şəkər, dodaqların nabatdı,
Ver ləbidən əmim bala, Xeyransa.

Nazlı yarm meylin verməsin yada,
Şarnamam üzdürməsin xuryata.
Bikəs deyir əhdim budur dünyada,
Qolların boynuma sala, Xeyransa.

Belə dedikdə Nazlı xanım qısqanıb çıxır bağdan. Bikəs onun qabağını kəsərək deyir:

- Xanım, sən dedin tərif eylə, mən də elədim. Daha niyə inciyirsən? İndi qulaq ver, gör dal bəndində nə deyirəm.

**Alır "Kərəmi" havasında**

Qadir Allah, yazıların yazanda
Əlbət belə yazıb yazını, xanım.
Ya hürüsən, ya qılmansan, ya pəri
İzin ver mən çəkim nazını, xanım.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Behişdi-alidən çıxmısan məgər,
Gündə məleykələr sənə baş əyər.
Günəş şiksət olar, ay xicəl çəkər,
Əgər görsə , sənin üzünü, xanım.

Bikəsəm, gəl edək, çox mübahisə,
Siyah zülfün dal gərdəndə bir əsə.
Uruma, firəngə, ərəbə, farsa
Dünyaya verməræm gözünü, xanım.

Nazlı xanım Bikəslə barışıb bağbanı öyrədir ki, gecə yarısı Bikəsi onun otağına xəlvəti gətirsin.

Bu tapşırıqdan sonra Nazlı xanım başındakı, qızları dağıdaraq, özü bir xəlvət otağa çəkilib yatır.

Gecədən bir qədər keçəndən sonra Bikəs bağban vasitəsilə otağa girib sevgilisini yatmış görür, başlayır onu sazla oyatmağa:

***"Aşıx Abdulla"havasında***

Sənə qurban olum, a nazlı dilbər,
Mehmanı bu gecə eləsən qayil.
İki çeşmin xurmalanıb məst olub,
Nə yatmısan, Nazlı xumarım,ayıl.

Mən qurbanam nazlı, boyuna sənin,
Qəddinə, qamətinə, boyuna sənin.
Nə geysən yaraşır boyuna sənin
Əgər keçirsən qoluna qızıl hamail.

Bikəsəm gəzirəm yar əhsanıva,
Canımı qoymuşam yar əhsanıva.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bir busə lütf elə ver əhsanıva,
Gəlmişəm qapma sayılam, sayıl.

Nazlı xanım yatdığı yerdə bu sözləri eşitcək iki qolunu açıb Bikəsi ağuşuna alır və deyir:

- Əzizim, sən bir busə istəyirsən, amma mən isə bütün ixtiyarımı, bu gecə sənə verirəm.

Nazlının əl-üzünü hər səhər şəhr-cadu qarı yuyardı. Bu dəfə də Gülsüm qarı Nazlını yuyundurmaq məqsədilə onun otağına girib, görür ki, çarpayıda iki baş dörd ayaq görünür. Cəld Nazlını durğuzub deyir:

- Xanım, su hazırdır, əmrə müntəzir. Yaxşı, soruşmaq ayıb olmasın, bu oğlan kimdir?

- Qonaqdır.

Qarı deyir:

- Qonağını adam bəyəm özü ilə yatırar?

- Əlbəttə, qərib adamı başqa yerdəmi yatırarlar?

- Bəlkə ona başqa yerdə bir sədəmə toxundu, onda kim cavab versin? Bu söhbətdən sonra Nazlı xanım qarıya təklif edir ki, əvvəl qonağın əl-üzünü yusun.

Qarı razı olub Bikəsi bayıra çıxardanda görür ki, çox vəcih gözəl bir oğlandır. Heç misli görükməyən kimi bir ah çəkib deyir:

- Allah, nə olaydı ki, cavanlığımdakı həvəsim olaydı, bu oğlanla bir kef çəkəydim. Sonra da Bikəsə üzünü tutub deyir:

- Oğlan, bilirsən nə var?

- Xeyir, qarı nənə.

- Eşit-gör nə deyirəm: Mən qocalmışam bəyəm, qarı sənin anan-bacındır, - deyib, ürəkdən oxumağa başlayır:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

***"Gəraylı" havasında***

Aman, oğlan, gözüm oğlan,
Oğlan, al məni, al məni.
Sənə qurban özüm, oğlan,
Oğlan, al məni, al məni

***Bikəs***

Aman qarı, gözüm qarı,
Almanam, qarı, almanam.
Muradım versin tanrı,
Almanam, qarı, almanam.

***Gülsüm qarı***

Gözdərivi bil, oydurram,
Yerinə qanlar qoydurram,
Mən sənin boynun vurdurram,
Oğlan, al məni, al məni.

Nazlı xanım təxtindən düşüb keçir yan otağa və çöldəki paltarını geyinib Bikəsin qabağına nahar gətirib qoyur. Özü də dinməz geri qayıdır. Bikəs Nazlını tanıyıb deyir:

- Görəsən padşaha bu qızı bir kimsə nəyə verib? Sonra padşah gəlib taxta çıxanda diqqət edib görür ki, həmən padşah elə öz sevgilisi Nazlı xanımdır. Ona görə götürür "Şikəstə" havasında görək sevgilisi Nazlı xanıma nə deyir:

Sənə qurban olum padşahı-əzəm
Bir mələk surətdən ayrı düşmüşəm,
Əndamı ayinə, qəddi şahmadil,
Siyah tellərindən ayrı düşmüşəm.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Sinəsi mərmərdən, məməsi qardan,
Qızıl güləm, inciмənəm mən yardan.
O, ahu baxışla, huri, qılmandan,
Sən tək növcavandan ayrı düşmüşəm.

Miskin Bikəs deyir əslim Təbrizli,
Loğman-həkim, bir üzlüsən, bir üzlü.
Qoşa xallı, tər buxaqlı, gül üzlü,
Ol siyah tellərdən ayrı düşmüşəm.

Nazlı xanım öz başına gələn macəranı Bikəsə, Bikəs isə quş əhvalatını Nazlı xanıma nəql edir. Sonra isə Nazlı xanım özlərinin sərgüzəştlərini əyan-əşxasa bildirərək şahlıqdan istefa verir. Sədr əzəmlər isə istefanı qəbul edib onun yerinə Bikəsi şah təyin edirlər. Yenidən 7 gün, 7 gecə toy olur. Hər iki sevgili şad-xürrəm yaşamağa başlayırlar. Siz də şad-xürrəm ömür sürün, sağ olun.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## GÜRCÜ QIZI

Bəli, mənim əzizlərim, dastana başlamazdan əvvəl ulu ustadlarımız buyurublar ki, əvvəlcə məclisdə ustadnamə deyilsin. Ona görə də nağıla başlamazdan əvvəl biz də ustadların yolu ilə gedərək hüzurunuza bir neçə ustadnamə deyək:

Sən yüz il olsan da bir bağa bağban,
Axır intiqamı bağ sənə qalmaz.
Nə can qalar cəsədinin içində,
Nə də ki, cəsədin sağ sənə qalmaz.

Dərdini söyləsən görüb, görənə,
Fikrin dağınıqdır, könlüm viranə.
Yüz min yol salasan dağnan arana,
Nə aran, nə də ki, dağ sənə qalmaz.

Bu sözləri fıkir eylədim qəsdən,
Ayrı düşəcəyik vəfalı dostdan.
Olasan dirlikçi, əkəsən bostan,
Nə meyvə, nə də ki bağ sənə qalmaz.

Aşıq Səməd, sən dinməzsən, kirirsən,
Dağcan olsan, qılçan qalmaz, ərirsən.
Daş altında torpaq üstə çürürsən,
Axır sümüklərin sağ sənə qalmaz.

Ustadlar ustadnaməni bir deməz, iki deyər, biz də deyək, ıki olsun, düşmənin ömrü gül tək solsun:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Varlıya dost olub, yoxsula gülmə,
Çox da havalanıb coşma dünyada.
El səni istəyib keçirsə başa,
Ağır ol, alçağa düşmə dünyada.

Oturub durginən qədir bilənnən,
Yaxşı adam - "sən öl" deməz yalandan.
Vəfalı dost olmaz üzə güləndən,
Onun körpüsündən keçmə dünyada.

Bu sözü xoşlayar arifi-əyyar,
Bədəsil insana nə yapış, yalvar!
Qonşuya söyləyər, mahala yayar,
Səryaquba sirrin açma dünyada!

Əsl övlad əkər bir əsil ata,
Ölüncə kimsəyə yetirməz xata.
Gen düşsə də xeyir verər elata,
Onun arxasından qaçma dünyada!

Nəcəf, gəz dünyanı təmiz adınan,
Dost ol tanıdığın əsl zatınan.
Bir dost sənnən ola, sözü yadınan,
Onu düşmənindən seçmə dünyada!

Bəli, ustadlar ustadnaməni iki deməz, üç deyər, biz də deyək, üç olsun, düşmənin ömrü puç olsun:

Bataqlığa uyub gönlüm niyazı,
Tutmağa meyl istər, çalmağa sazı.
Bir sayıl ki, səndən getməz irazı,
Sərf etmə malını, kəm ağıl deyin!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Hər yana əl çaldım mən də bir ulam,
Kimsəyə demədim mən də bir qulam.
Həmişə istədim alladam, alam,
Yeyəsinə verməm, məndə pul, deyin!

Palandaza bənzər o misli hamam,
Günahı məhşərdən bildirdi tamam.
Günahımdan keçdi rəbbiül aləm,
Əkinçi Abbasam, Kəmtər qul deyin!

Qulluğunuza hardan ərz eləyim, Şirvandan. Şirvanda kimdən - Molla Qasımdan. Molla Qasım o molla Qasım idi ki, dəryalar mürəkkəb, ormanlar qələm, dünyalar molla olsaydı onun əmlakını yazıb başa gətirə bilməzdi. Amma bu zalım oğlunun evladı yox idi.

Günlərin bir xoş günü Molla Qasım bazara çıxır, görür ata oğula, ana qıza xırıd edir, hər kəs uşaqlarıyla oynayır. Ona görə məyus olub, evə gəlir. Arvadına yer saldırıb yatır.

Arvadı Molla Qasımın bikefliyini görüb səbəbini soruşur. Molla Qasım əvvəlcə bir söz demir. Arvad gəlib onun yanında oturub deyir:

- A kişi, nə olub qəm dəryasına batıbsan, yeddi uşaqla bir dərədə ha qalmamısan, bir de görək dərdin nədi?

Molla Qasımın dərdi daha da ağırlaşır, bir ah çəkib deyir:

- Eh arvad, neynirəm o var dövləti ki, məndən sonra yadlara qalacaq.

Molla Qasımın arvadı məsələni başa düşüb görür ki, kişi zürriyyətsizlikdən yaralandığını xəbər verir.

Deyir: A kişi, bə bilmirsənmi ki, nakəs adama, xəsis bir şəxsə Allah kərəmi keçməz. İndi mənə qulaq as, gör nə deyirəm. Gəl sən varını, dövlətini üç qism eylə, ac qarınlar



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

doydur, çılpaq əyinlər geydir, qanlı çaylara körpü saldır, borcluyu borcundan qurtar, bəlkə Allah təala bu xeyir-duaların qarşısında sənə zürriyyət əta edə!Molla Qasım xeyli götür-qoy edəndən sonra, ayağa qalxır, pal-paltarını geyib, nəki varı, dövləti varıydı üç qism eləyir. Bütün şəhəri birəbir gözünün qabağına gətirir, nə ki borclular var, siyahıya aldırır, çağırtdırıb borclarından qurtarır. Şəhər ətrafındakı arxların, çayların üstündən körpü saldırır, acların qarnını doydurur, çılpaqlara paltar alıb verir, yetim-yesirə pul paylayır.

O gündən bütün şəhərdə Molla Qasım xeyirxah bir adam kimi hörmət qazanır, hamı ona duacı olur.

Günlərin bir günü, Molla Qasım sübh yerindən durdu, əlinə aftafa alıb dəstəmaza çıxarkən görür ki, bir nəfər dərviş Əlinin qəsidəsini oxuya-oxuya düz ona san gəlir.

Molla Qasım əlini cibinə salıb dərvişə sədəqə vermək istədiyində dərviş deyir:

- Mən pay alan yox, pay verən dərvişlərdənəm, səhv etmə, deyir. Cibindən bir alma çıxarıb Molla Qasıma verib tapşırır ki, almanı hərəm-möhtərəmi ilə yesə, evladı olar.

Molla Qasım almanı alıb sevincək geri qayıdır. Bir də yadına düşür ki, kişini də evə dəvət eləsin, geri dönəndə görür dərviş yoxdur, gedib.

Bunu görən Molla Qasım bərk-bərk dizlərinə vurub:

- Vay kor olasan gözlərim, sınasan dizlərim, ağamı gördüm, onu bir doyunca ziyarət etmədim, - deyib, birbaşa arvadının yanına qayıdır.

- Arvad, bu alma bizə Allah təala tərəfindən pişkhad olunmuşdur, bunu yeyərsək, uşağımız olacaq, -deyəndə, arvadı gülümsəyib deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

- A kişi, dəli olma, əgər alma ilə uşaq olsa, bizim bağın almaları elə hey qarnımızdadır, bə niyə evladımız olmur?

Kişi nə qədər cəhd eləyir, arvad Molla Qasımın sözlərinə bavər verməyir.

Molla Qasım da arvadın cəhdinə fikir verməyib, bıçaqla almanı tən ortadan bölüb deyir:

- Götür, bu almanı mənim gözümün qabağında yeyək. Allah kərimdi, nə olar, olar.

Beləliklə, almanı yeyirlər. Sonra da, baş yastığa qoyub dilək hasil edirlər.

Aradan bir müddət keçmiş Molla Qasım görür ki, arvad baxçada turş alınça qoymadı, ətək-ətək götürüb yeyir.

Dedi:

- Ay arvad, deyəsən işləri düzəltmişik.

Bir aydan sonra bəlli oldu ki, Molla Qasımın arvadı hamilədir.

O, vaxtdan doqquz ay, doqquz gün, doqquz gecə, doqquz saat keçdikdən sonra, arvad barı həmlini yerə qoydu. Muşduluqçu gəldi ki, Molla Qasım, gözün aydın olsun, bir vəcih oğlun oldu.

Molla Qasım muştuluqçuya o qədər var-dövlət verdi ki, muştuluqçu yıxşırıb apara bilməyib, köməkçi çağırdı.

Aləm sevincək tökülüb Molla Qasıma göz aydınlığı verdilər.

Belə qərara alındı ki, uşağın adını dünyagörmüş qarılar qoysunlar.

Şəhərdə nəki, ipək qarı, köpək qarı var idi hamısı yığışır Molla Qasımın evinə.

Bir napak qarı irəli yeriyib deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

- Oğlanın adını özüm qoyacağam, yol verin, - deyib irəli yeriyir. Oğlanın adını Sicimqulu qoyuram ki, Sicim kimi ömrü uzun olsun.

Cahal-cuhal gülüşüb napak qarının neyini atdılar bayıra.

Bu dəfə köpək qarı irəli yeriyib donquldanmağa başladı:

- Onun başı batsın. O ad qoymağı nə bilir, oğlanın adını hələ bura gəlməmişkən Örkənqulu qoymuşam ki, örkən kimi ennicə, dənnicə, boyluca olsun.

Cahıl-cuhal yenə gülüşüb bu qarını da, bayıra itələdilər, dedilər:

- Get, o adı öz oğlun olanda qoyarsan.

Bu dəfə növbə ipək qarıya çatır. İpək qarı əlində təsbeh, belində qurşaq, ayağında sarı başmaq, əyləşdi mərəkənin ortasında dedi:

- Ay Molla Qasım, bu şad günündə bu qarı-quruları niyə döydürürsən, onların nə günahı var, aşıq gördüyünü çağırar, elə bilirlər elə o adlar yaxşıdır, gəl sən mənə qulaq as. Bir molla çağır, uşağa kitab üzü ilə ad tapaq.

Bəli, bu ağıllı fıkrə hamı razı olur. Kəndin hörmətli mollasını çağırıb əhvalatı ona deyirlər. Beləliklə, uşağın adını Məhəmməd qoyurlar. Hamı, Məhəmmədə dua eliyə-eliyə şad, xoş evinə dağılışır.

Məhəmməd böyüyüb yeddi yaşına çatır.

Bu vaxtlarında Məhəmmədi məktəbə verirlər. Aradan bir neçə il keçir.

Bir gün Məhəmmədin anası məktəbin qabağmdan keçəndə görür ki, oğlu bayatı, qəzəl oxuyur. Sevin- cək evə qayıdıb ərinə deyir:

- Kişi, Məhəmmədin gərək ki, yar istəyir, gördüm ki, bavatı, qəzəl oxuyur.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Kişi gülümsünüb deyir:

- Nə olar, ay arvad, daha yaxşı, bu qoca vaxtımızda biz də nəvə, nəticə görərik. Məhəmməd kimi istəsə, ona alarıq.

Səhəri Molla Qasım oğluna xəbər göndərir ki, nə cürə ***qız*** istəyirsə, ona alım.

Gələn elçilərə Məhəmməd belə cavab verir ki, əvvələn mən evlənmirəm. Əgər atam belə məsləhət bilirsə, onda mənə elə bir qız tapsın ki, o, əli nazik, beli nazik, dili nazik, kürək gen olsun. Molla Qasım bu xəbəri eşidəndə bu nişanda qızı nə qədər fikirləşir, nə qədər gəzirsə, o şəhərdə tapa bilməyir.

Molla Qasım arvadına deyir:

- Arvad, bir az mənə yol tədarükü gör, eşitmişəm Gürcüstan gözəllər məkanıdı. Gərək gedim Məhəmməd dediyi nişanda qızı ordan tapıb gətirəm.

Arvad yol tədarükü görüb, kişiyə azuqə hazırlayır.

Xoş bir gündə Molla Qasım Gürcüstana yola düşür.

Başlayır Tiflis şəhərində o qapı mənim, bu qapı sənin gəzməyə.

Bir neçə gün gəzdikdən sonra bir eyvanda Məhəmməd nişan verdiyi bir qıza rast gəlir.

Həmin evi nişanlayıb, o gecəsi qonşuluqda bir qarıya qonaq olur.

Qızı qarıya nişan verdikdə qarı deyir:

- O, qız Gürcüstan padşahının qızıdı.

Deyir:

- Qarı, gəlsənə o qızı mənim oğluma alasan!

Qarının Molla Qasımdan çox xoşu gəlmişdi, amma dərdini deyə bilmirdi. Fürsətdən istifadə eləyib deyir:

- Əgər sən məni özünə alarsansa, mən də o qızı sənin oğluna istərəm.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Molla Qasım deyir:

- Baş üstə, qarı, niyə almıram, təki iş düzəlsin.

Qarı, altdan geyinib, üstən qıfıllanır, bəzənir, birbaşa özünü yetirir Gürcüstan padşahının sarayının qabağına. Ədəb-ərkanla oturur elçi daşının üstündə. O, saat padşaha xəbər gedir ki, bir qarı gəlib elçi daşının üstə oturub.

Padşah bir söz demədən qarını hüzuruna çağırtdırır.

Padşah qarıdan sual edir ki, niyə elçi daşının üstə oturur, dəlimi olub?

Qarı cavab verir ki:

- Padşah sağ olsun, dəli niyə oluram, qızını oğluma istəməyə gəlmişəm.

Deyir:

- Ay qarı, səndə elə qüvvə hardandı ki, mənim qızıma yeyə durasan? Mən qızımı verəndə özü ağırlığında qızıl alacağam.

Qarı bilir ki, Molla Qasım nəinki qızın özü ağırlığında, hətta iki qızın ağırlığında da qızıl istəsə, verəsidi. Odur ki, deyir:

- Padşah, qurbanın olum, sən qızının qiymətini niyə aşağı salırsan, o ki, mənim gəlinim olacaq, gərək onun ağırlığı özü qədər qızıl yox, hələ bir az da üstəlik gümüş də ola.

Padşah əvvəl dediyi sözdən dönə bilməyib, qarıya hə verir. Qarı sevincək özünü yetirir Molla Qasıma.

Molla Qasım ata yükləyib gətirdiyi qızıl-gümüşü çəkir padşahın həyətinə, hələ bir az da artıq verib deyir:

- Allah mübarək eləsin!

Padşah görür ki, bu bir ədəbli adamdı. Bir söz demədən elə səhəri günü toy eyləyib qızı Gühər xanımı ağır cehiznən Molla Qasımın ixtiyarına verir.

Halallaşıb gedən vaxt Gühər xanım deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

- Ata, xahiş edirəm, mənim qulluqçumu özümə ver aparım.

Amma bu qulluqçu elə bir qulluqçu idi ki, alt dodağı yer süpürürdü, üst dodağı göy.

Molla Qasım Gühər xanımı da, onun qulluqçusunu da götürüb vətənə qayıdır.

Əmbə qarını gətirməyir, deyir:

- Hər vaxt yolum düşdükcə gələrəm, bir qədər də qarıya xərclik verib orda qoyur.

Molla Qasım evinə çatan kimi hay düşüb, bütün şəhər əhli yığılıb gəlir.

Molla Qasım yenidən qırx gün, qırx gecə toy eləyib, Gühər xanımı Məhəmmədlə evləndirir.

Gəlin gələn gecəsi Məhəmməd boş pərdənin dalına keçəndə görür ki, burada bir əcayib adam oturub, onun nişan verdiyi gəlindən əsər-əlamət yoxdur. Qayıdıb gəlir.

Bir həftədən sonra, gəlib baxdıqda yenə də əvvəlki kimi o, əcayib məxluqatı görür. Özünə söz verir ki, bir il tamam olmayınca həmin gəlinin otağına ayaq basmasın. Amma bu işdən nə kişinin xəbəri varıydı, nə də arvadın.

Sən demə qul gəlib oturub Gühərin dalında. Alt dodağı Gühərin sifətini gizlədir. Odur ki, Məhəmməd qızın üzünü görmürmüş.

Aradan bir ilə yaxın keçirdi, amma qız hələ Məhəmmədin üzünü, sir-sifətini görməmişdi.

Günlərin birində qonşuluqda toy olur. Toy sahibi Molla Qasımı külfət ilə qonaq dəvət eləyir. Molla Qasım da oğlu olandan çox əlaçıq bir insan olmuşdu. Qəti çağrıları yerə ar eləməzdi, çağrılmayan yeri dar. Bir xeyir-şər işindən qalmazdı. Kasıbın da toyuna gedərdi, varlının da. Odur ki, bütün kül-külfətini, gəlinini, oğlunu, arvadını, hətta qulu da götürüb özünnən gətirir toy evinə.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Məhəmməd bu vaxta kimi nişanlısının üzünü görməmişdi. Bir də baxdı ki, xudaya, bu bir təhərsiz gözəlmiş. Amma yanındakı bir əcayib quldur. O dəqiqə məsələni başa düşür ki, qul qızı alt dodağının altında gizlədibmiş.

Məhəmməd böyük səhv elədiyini indi başa düşürsə də, heç kimə dərdini açıb bükə bilməyir.

Deyir:

- Eybi yoxdur, qayıdanda könlünü alaram.

Toyda məclis əhli Molla Qasımdan xahiş edir ki, icazə versin, gəlini oynasın.

Molla Qasım məclis əhlinin sözünü yerə salmayır. Göhər xanım qollarını qaldırıb məclisin ortasında dürüst süzməyə başlayır. Amma yanıq verirmiş kimi hərdən gülər sifətini Məhəmmədə göstərir.

Məhəmməd qızın gözəlliyinə təzədən aşiq olur. Dəli-divanə kimi yerində otura bilmir.

Gühər xanım oyunu tamam eliyəndən sonra yastı tellərindən üç tel ayırıb basır əl dəyməmiş nar məmələrinin arasına, qafıyəynən bu sözləri oxumağa başlayır.

Ağır ellərdən gəlmişəm,
Mən burda məskən salmışam.
Bir tərlana tor qurmuşam,
Yaramadım yarıma mən.

Mən gürcüyəm, səy eylədim,
Hardan belə pay eylədim.
Özümü qula tay eylədim,
Yaramadım yarıma mən.

Adım Gühər, səyim çoxdu,
Haqq yanında payım yoxdu.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Gözəllikdə tayım yoxdu,
Yaramadım yarıma mən.

Söz tamam olan kimi hamı bərəkallah deyir. Molla Qasıma belə gəlin tapıb gətirdiyi üçün afərin söyləyir.

Məclis əhli dağılandan sonra Məhəmməd heç kimi gözləmədən bir başa evə gəlir. Boş pərdənin dalında oturub Gühər xanımın yolunu gözləməkdə olur. Aradan bir xeyli keçmiş, Gühər xamm gəlir ki, öz yerində uzansın, görür Məhəmməd onun yerində oturub, həmsöhbət olmaq fıkrindədir. Odur ki, Məhəmmədə belə deyir:

- Ay oğlan, bir il mən səni gözləmişəm, gəl bu gecəni də sən məni gözlə, sabah hərəmiz bir at minib keştə çıxaq. Bu gün yorğunam, bağışla, orada kamımıza çatarıq.

Məhəmməd deyir:

- Xanım, sənin o nazik dilinə mənim canım qurban, necə bilirsən, elə edək.

O gecə Məhəmməd Gühər xanımla mülaqədə olmayır. Öz yerində uzanıb, səhəri gözləməyə başlayır.

Üzümüzə xeyirliklə açılsın, səhər açılan kimi, ata süvar ölub, bir böyük meydana çıxırlar. Şəhərdən bir xeyli aralandıqdan sonra Gühər xanım üzünü Məhəmmədə tutub deyir:

- Daha salamat qal, mən gedirəm.

Atını qamçılayıb vətəninə doğru sürməyə üz qoyur, qul da ona qoşulub at sürürlər. Məhəmməd görür bu qayıdana oxşamır, haraylayıb deyir:

- İndi ki gedirsən, ayaq saxla, sinəmə bir-iki xanə söz gəlib, onu deyim sonra get.

Gühər xanım da bir söz demir, ayaq saxlayır. Alır görək "Qaraçı" havasında Məhəmməd Gühər xanıma nə deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bu səhrada nə gəzirsən,
Canımın bağrın əzirsən.
Nəbələdsən yol azarsan,
Yolun altı duman, Gürcü!

Bu səhrada gəzə-gəzə,
Sən olmusan güldən təzə.
Körpəcəsən, həmi təzə,
İşim oldu yaman Gürcü!

Məhəmmədəm, bir murada,
Sığınnam qədir ustada,
Allah özü yetsin dada.
Ağlım oldu kəm an, Gürcü!

Söz tamam olan kimi Gühər xanım öz qulu ilə yoluna davam edir. Məhəmməd də geri dönməyib qarabaqara onların izi ilə getməyə başlayır. Bir neçə mənzil getdikdən sonra göy çəmənlikdə üzləşirlər. Gühər xanım deyir:

- Məhəmməd, niyə gəldin, axı biz səni öldürə bilərik.

Deyir:

- Xanım, gəldim, halallaşaq.

Məhəmməd başlayır "Ovşarı" havasında qıza yalvarmağa:

Başına döndüyüm, qurban olduğum,
Halal eylə, hümmət eylə yar, gedək.
Alışan oduna büryan olduğum,
Halal eylə, hümmət eylə, yar, gedək!

Bu yalvarmağın qabağında aldı görək qız ona nə cavab verir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Başına döndüyüm, qurban olduğum,
Halal eylə, hümmət eylə, mən gedim.
Alışan oduna büryan olduğum,
Halal eylə, hümmət eylə, mən gedim.

**Oğlan**

Bizim evdə səni yaxşı görmüşəm,
Həsrətindən yəqin bil ki, ölmüşəm.
Bir ildi ki, sənə çörək vermişəm,
Halal eylə, hümmət eylə, yar, gedək.

**Qız**

Cavansan sən ölmə, qoynan mən ölüm,
Yəqin bil ki, yar qədrini yar bilim.
İstərsən çörəyinin haqqını verim,
Halal eylə, hümmət eylə mən gedim.

**Oğlan**

Məhəmmədəm, neyləmişəm, neylərəm,
Xəncər ilə bağrın başın teylərəm.
Bir canım var yara qurban eylərəm,
Halal eylə, hümmət eylə yar, gedək.

**Qız**

Mən Gühərəm, kol dibində bitmərəm,
Qayıtsam da orda qərar tutmaram.
Assalar da, daha sənə getmərəm,
Halal eylə, hümmət eylə mən gedim.

Söz tamam olan kimi Gühər xanım məhəl qoymayır, atını sürüb vətəninə doğru getməyə üz qoyur. Məhəmməd



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

də əlini üzməyib qızın dalınca düşür. Bir az gedəndən sonra Gühərlə qul bir çobana rast olur, qonaq düşürlər.

Məhəmməd isə çobanın daxmasının yaxınlığında bir təpəyə çıxıb sazını sinəsinə basır. Çoban bunun aşıq olduğunu görüncə:

- Ay adam, mənim iki nəfər qonağım var, gəlib onlara saz çalarsanmı? - deyir.

Məhəmməd razı olur, daxmaya girir. Götürür görək nə deyir:

Başına döndüyüm, qurban olduğum,
Sən Allah, sən Tanrı, mənə göz eylə.
Alışan oduna büryan olduğum,
Sən Allah, sən Tanrı mənə göz eylə.

Ala gözlüm, niyə mindin kəhəri,
Mövlam içirdibdir mənə zəhəri.
Məhəmmədəm, mən sevirəm Gühəri,
Sən Allah, sən Tanrı mənə göz eylə.

Söz tamam olur. Sən demə, çobanın arvadının da adı Gühər imiş. Çomağı hərləyir Məhəmmədin boynuna bir çomaq vurub deyir;

- Nə hədd ilə mənim arvadımın adını dilinə gətirirsən.

Bunu görən Gühər xanımın ürəyi kövrəlir.

- Allah kəssin sənin çayını da, çörəyini də, deyib bayıra çıxır, qulu ilə atlanıb yola düşürlər. Xeyli at sürüb Qəli şəhərinə çatırlar. Burada bir dövlətli kişiyə qonaq qalırlar.

Məhəmməd də gəlib həmin şəhərə çıxır. Şəhərdə gəzişirdi ki, görsün Gühər xanımgil harada qalır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Elə bu halətdə dövlətli şəxs Məhəmmədin qolunda saz görüb deyir:

- Aşıq, iki nəfər mehmanım var, bıri çox gözəldir, biri də onun əksinə çox çirkindir, salladodaqdır, üzünə baxanda zəhləm gedir, gəl gedək bizə, onlara bir az saz çal.

Məhəmməd o dəqiqə başa düşür ki, gözəl Gühər xanımdı, çirkın salladodaq da quludıır.

Razılaşıb bir yerdə evə gəlirlər. Axşamüstünə yaxın idi. Kişi arvadına tapşırır ki, qonaqlar yoldan gəlib, yer rahatla, qoy bir az aşığa qulaq asıb dincəlsinlər.

Ev arvadı Məhəmmədə yeri başqa bir otaqda, qulnan Gühər xanıma da ayrı bir otaqda saldırır.

Bunu görən Məhəmməd alır görək gözəlləməynən ev yiyəsinə nə deyir:

Başına döndüyüm, ay ev yiyəsi!
Yar da yardan ayrı gorün yatarmı?
Şən olsun ev yiyəsinin dəyəsi,
Yar da yardan görün ayrı yatarmı?

Kişi deyir:

- Ay arvad, bu aşıq cinlidir, gedib orda-burda bizi biabır eləyər, yəqin bizim yerimizi ayrı görüb onun üçün deyir. Dur yerimizi aşığın yanında sal.

Məhəmməd görür ki, ev yiyəsinin arvadı ərinin yerini aralı salır, öz yerini aşığın yerinə yaxın salır. Alır Məhəmməd dübarə:

Kim idi ev yiyəsinin sayağı,
Həzrət Əli ev sahibinin dayağı.
Başıma söykənib yarın ayağı,
Qonaq da qonaqdan ayrı yatarmı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Yuxardan endirdim sədəfli sazı,
Mən kimə eyləyim ərkinən nazı.
Arvadı demirəm, istərəm qızı,
Yar da yardan görün ayrı yatarmı?

Kişi deyir:

- Ay arvad, bu bizə hardan rast oldu, bizim qızın da yerini gətir onun yanından sal, görək axırı nə olur.

**Aldı Məhəmməd**

Gəl öldür aşığı canım qurtar,
Ev yiyəsi gedib ziyarət tapar.
Get ayrı otağa, qulu da apar,
Məhəmməd heç ləzzət ilə yatarmı.

Ev yiyəsi indi başa düşdü ki, bu aşıq elə bu gözəl qızın aşığıymış. Tez aparır qulu salır soyuq bir otağa, Məhəmmədnən Gühər xanımın da yerini bir otaqdan salır.

Amma, Məhəmməd nə qədər eləyirsə, Gühər xanım ona bir cavab vermir. Səhər üzünüzə xeyirliklə açılsın, açılan kimi, yenə qul ilə Gühər xanım atlanıb Gürcüstan deyib getməyə üz qoyurlar.

Uzun müddət at sürüb Gürcüstan sərhəddinə çatırlar. Baxıb görürlər ki, Məhəmməd də dallarınca gəlir. Bir bulaq başında nahara otururlar. Elə bu halət də Məhəmməd gəlir özünü yetirir.

Qulun acığı tutur. Məhəmmədi götürüb aparır bir mağaraya salır, ağzına da yekə bir daş qoyur. Bu vəziyyətdən can qurtara bilməyəcəyini görür, haray salır kı, bəlkə yolnan gedənlər eşidib harayına çatar.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Yaman yerdə mən qalmışam,
Haray, qardaşlarım, haray.
Canımı oda salmışam,
Haray, qardaşlarım, haray.

Molla Qasımın oğluyam,
Sinəsi əlvan dağlıyam.
Donuz damında bağlıyam,
Haray, qardaşlarım, haray.

Elə bu halətdə Məhəmmədin səsini yolnan gedən iki ovçu eşidir. Səs gələn tərəfə doğru gedib görürlər, bir donuz mağarıdı. Salıb ağzına da bir iri daş qoyublar. Güc-bəla ilə daşı itələyib yana salırlar. Məhəmmədi azad eləyirlər. Alır görək o sözünü necə tamamlayır:

Məhəmmədəm, aman, aman,
Sağ qalmağa yoxdu güman.
Dada yetiş, sahib əl zaman,
Haray, qardaşlarım, haray.

Məhəmməd sözünü bitirir. Başına gələn halı-qəzanı ovçulara nağıl eləyir.

Ovçular məsələdən halı olan kimi, sallaqdodaq qulu tutub əl-qolunu bağlayırlar, gətirib həmin mağaraya salırlar, ağzına da bir neçə iri daş qoyurlar.

Gürcü qızından da xahiş eləyirlər ki, bir işdir olub, günah onda olmayıb, sallaqdodaq qulda olub, Məhəmmədin günahından keç.

Gühər xanım da görür doğrudan da Məhəmməddə taxsır olmayıb, onun günahlarını bağışlayır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Barışıb əl-ələ verirlər. Ovçular da xeyir-dua verib halallaşırlar.

Şirvana doğru at sürürlər. Gəlib evlərinə çatandan sonra, Məhəmməd başına gələnləri yenidən ata-anasına danışır. Təzədən də üç gün, üç gecə toy eyləyirlər.

Xoş-beşnən, gülər üznən ömür sürürlər. Sizin də ömrünüz uzun olsun, muradınız hasil. Məhəmməd deyir:

- Gühər xanım, elə bilmə ki, mən səni gözəl bilmirəm, gərək bu toyumuzda sənin gözəlliyini özüm sazımnan deyəm.

Ara sakitləşir Məhəmməd sazı sinəsinə basıb, görək Gühər xanıma nə cür gözəlləmə deyir:

Mən ki, səndən ötəri,
Olmuşam divanə, gözəl!
Zülfünə şana çəkib,
Tökürsən hər yanə, gözəl!
Yaz vaxtında min nazilə,
Çıxırsan seyranə, gözəl!
Dərdindən olmuşam xəstə,
Döngünən loğmanə, gözəl!

Qaşlarm yayə bənzər,
Gərdənin minayə bənzər,
Mən ki, sənə aşiq oldum
Səni sevdim bil ki, əzəl.
Payız gəlib düşən vaxtı,
Bağlarımız tökdü xəzəl.
Görməmişəm, bu cahana,
Sən kimi gəlməyib, gözəl.
Qüdrətdən xəlq olunub
Növrəstə cavan, a gözəl!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Dərdindən olub xəstə,
Şirin qurban xan gəlinə.

Sözüm yox, can qurbandır
Evləri yıxan gəlinə.
Yetmiş iki millət gəlsə,
Gərək desin can gəlinə.
Qulaq asır əhli-arif
Hüriyi, qılmana, gözəl!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## HEYRATDI QASIM

## USTADNAMƏ

Bir adam ki, sənnən ülfət eyləyə,
Yəqin onun əsl-zatı yaxşıdır.
Namərd Leylü-nahar plov yedirtsə,
Mərdin quru məhəbbəti yaxşıdır.

Dad-hazar əlindən pəryarsız sazdan,
Ver qurtar əlindən nəzri-niyazdan.
Gəzəyən gəlindən, güləyən qızdan,
Söyləyən qandan lotu yaxşıdır.

Hərcayi sözlərdən dəng olduq başdan,
Sallabaş adamdan, çiyəri daşdan,
Bədnəzər qonşudan, yaman yoldaşdan,
Qədir bilənlərin iti yaxşıdır.

Aşıx Söyün deyər sözünü sağdan,
Şam yanar piltədən, mey çəkər yağdan.
Çörəksiz otaxdan, səbsəsiz bağdan
Çölün çəmənliyi, otu yaxşıdır.

Ustadlar ustadnaməni bir deməz, iki deyər, biz də deyək – iki olsun, düşmənin ömrü gül tək solsun.

Əlli mənəm, altmış mənəm, yüz mənəm,
Dərya mənəm, qəvvas mənəm, üz mənəm.
Yüz il keçsə, əlim səndən üzmənəm
Desələr də yarın getdi yad elə.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Hər kişinin nazlı yarı olmalı,
Yaşamağa dövlət-varı olmalı.
Sevgisinə etibarı olmalı,
Onda bil ki, əli dəyməz yad ələ.

Aləm bilir, sən Əlinin gözüsən,
Yaxşı saxla yaşmaq altda sözü sən,
Necə qoydun sinəm üstə közü sən,
Demədinmi, ya yandıra, ya dələ.

Bəli Ustadlar ustadnaməni iki deməz üç deyər, biz də deyək üç olsun, düşmənin ömrü puç olsun.

Dedim könül nanəcibdən kənar gəz,
Bulunmaz odlara atacaq səni.
Nanəcibə bel bağlama dünyada,
Düşmən bazarından satacaq səni.

Yüzüzlü yaltaqla sən çıxma yola,
Başına gətirər bulunmaz bəla.
Quyruğun kəsməklə qurd olmaz tula,
Xainlər dəstinə qatacaq səni.

Növrəs İman, olmaginən diləfkar,
Qarğa laçın olmaz, yüz etsə şikar.
Müxənnət adama etmə etibar,
Axır dar ayaqda atacaq səni.

Bəli, mənim əzizlərim, günlərin bir xoş günü Heyratdı Şahzadə Qasım at belində bir dəstə qoşunla şikara çıxır. Təsadüfən şikarda Qasımın qarşısına bir ceyran çıxır. Qasım



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

yoldaşlarına buyurur ki, ceyranı mühasirəyə alsınlar. Ceyran kimin üzərindən sıçrayıb qaçsa, vay o kəsin halına.

İş elə gətirir ki, ceyran Şahzadənin özünün başının üstündən sıçrayıb qaçır. Şahzadə ərəb atını onun dalınca salır, yoldaşlarına da tapşırır ki, heç kəs mənim dalımca gəlməsin. Ceyranı mən özüm qovub tutmalıyam. Sən demə, bu ceyran Hind padşahının qızı Əsmail Pəri imiş. Sehr ilə ceyran sifətinə giribmiş.

Əsmail Pəri görür ki, ərəb atın əlindən qurtarmayacaq, tez bir bulaq başına çıxıb yenidən insan şəklinə düşür, gəcavəsinə girir. Qasım bulağa çatar-çatmaz ceyranı gözündən itirib deyir:

– Nə qədər ömür varsa, buradan ayağımı kənara atan deyiləm.

Atından enib bulaqda əl-üzünü yuyur, dincini almaq üçün bulağın yanında əyləşir.

Xifət dəryasına qərq olmuş bir halda oradaca yuxuya gedir. Bunu görən Əsmail xanım gizləndiyi yerdən çıxıb Şahzadə Qasımın üstünə gəlib deyir:

Sarvanın dilindən ixtiyar aldım,
Oyan oğlan, sənlə söhbət eyləyək.
Səni görcək heyva kimi saraldım,
Oyan oğlan, sənlə söhbət eyləyək.

Kaş kəsəydim yastığının yanını,
Sanayaydım kirpiklərin sanını.
Gəl atginən çöl yuxusun kanını,
Oyan oğlan, sənlə söhbət eyləyək.

Görürəm qolların kəmərbəstədi,
Görən deyər bu divanə xəstədi,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bir cüt narınc, turunc sinəm üstədi,
Oyan oğlan, sənlə söhbət eyləyək.

Sən mənim soltanım, sən mənim xanım,
Sənə qurban olsun bu şirin canım.
Adım Əsmaildi, Hinddi məkanım,
Oyan oğlan, sənlə söhbət eyləyək.

Qız görür ki, oğlan yenə də oyanmadı, bu sözləri bir kağıza yazıb altda da, əlavə eyləyir ki:

– Mən Hind padşahının qızı Əsmail xanımam, ceyran cildinə girib qarşına çıxdım, sən arxamca gələndə qorxdum və gizləndim. Bulaq başında səni nə qədər oyatdımsa, oyanmadın. İndi isə əlacsız qalıb vətənimə qayıdıram. Yeddi il yolunu gözləyəcəyəm, əgər gəlsən, nə qədər mərdanələr varsa, onların papaqları başına olsun, yox əgər gəlməsən, küçə qadınlarının ləçəyi başına olsun.

Əsmail xanım məktubu oğlanın qoltuğuna qoyur, onun üzündən bir cüt öpüş alıb ayrılır.

Əlacsız gəcavəsinə minib Hində doğru yola düşür.

Şahzadə Qasım yuxudan ayılır, görür başının altında bir məktub var. Məktubu oxuyur, tez özünü gəcavənin yoluna salır. Ərəb atı mahmızlayıb gəcavəyə çatır, onun qabağını kəsir. Sarvana nə qədər saxla deyirsə, o, qulaq verməyib karvanı yavaş-yavaş çəkir. Şahzadə Qasım götürür görək sarvana nə deyir, deyək eşidin:

Sarvan, and verirəm, səni Allaha,
Əylə gəcavəni, yarı görəyim.
Sən bilirsən, gəcavənin fəndini,
Əylə gəcavəni, yarı görəyim.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Açа idim qızıl düymə arasın,
Görsə idim eşq odunun yarasın.
Gəcavənin sən bilirsən çarasın.
Endir gəcavədən yarı görəyim.

Gəcavə dikləndi yoxuş başına,
Doldu didələrim qanlı yaşına
Əylə sarvan, qoy dolanım başına,
Endir gəcavədən yarı görəyim.

Şahzadə görür ki, sarvan qulaq asmır, ox-yayını endirir onun çiynindən, yenə də oxumağa başlayır:

Mən Qasımam, yollar üstə duraram,
Gah ağlaram, gah boynumu buraram.
Endirməsən sənə bir ox vuraram,
Endir, gəcavədən, yarı görəyim.

Sarvan ox adı eşitcək dəvələri də buraxıb qaçır. Əsmail xanım isə yeddi cunanı üzündən alıb aşağı enir. Onu görən Qasım özündən gedib bihuş olur. Bu halda sarvan da qayıdıb gəlir, dəvələrin başını çəkib gəcavəni saxlayır. Qız da məcbur olub gəcavədən enir.

Şahzadənin halı dəyişir, bihuş olur. Elə bu vaxt onu axtara-axtara gələn atasının vəziri Muxtar üstünə çıxır. Muxtar vəzir onu oyadır, niyə belə hala düşməsini soruşur. Şahzadə özünə gedib cavab verir:

Əxtər gəcavədən durdu, yeridi,
Siyah zülflər dal gərdəni bürüdü.
Tarix qoyub tovuz şahın yarıdı,
İnsafdımı gül həmdəmə xar olsun?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

İndi billəm, bahar idi, yaz idi,
Göllər dolu sona idi, qaz idi.
Özü yazıb, Hind şahının qızıdı,
Necə deyim, el içində ar olsın.

Daha danışıban gülə bilmərəm,
Ağlayıb, göz yaşım silə bilmərəm.
Vəzir, xalq içinə gələ bilmərəm,
Ağla, Qasım, şirin dilin lal olsun.

Vəzir bu sözləri eşitcək Qasıma öyüd-nəsihət verir ki, bu bir çətin iş deyildir, o, şah qızıdırsa, sən də şah oğlusan. Hələ bir gedək ata-ananı arxayın et, onlar səndən nigarandılar.

Qasım Muxtar vəzirlə vətənə qayıdır. Ata-anasına qovuşan tək, ona nə qədər üz vururlarsa, şahzadə öz fikrindən dönmür.

Şahzadənin anası Bəyim xanım ağlaya-ağlaya oğluna deyir:

– Oğul, indi ki, fikrin getməkdədir, mənim bu nəsihətimi unutma:

Al məndən bir dua, duasız getmə,
Uçar quşlar kimi yuvasız getmə.
Həyalıya getsən həyasız getmə,
Götür qiryət, namus, arı yanınca.

Hər yana gedəndə saxla fərmanı,
Əyər xəstə görsən, eylə dərmanı.
Əlinə alarsan tülək tərlanı,
Tərlan da götürməz sarı yanınca.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bəyim sənə desin sözün sərasər,
Saxla sözlərimi sənlə bərabər.
Ləbləri şirinsə, dili də kövsər,
Ləl götürər bil gövhəri yanınca.

Qasım alır görək anasına nə deyir, deyək şad olsun.

Sevmişəm ellər eyini
Sinəm çəkibdi düyünü.
Ağlar qoymaram Bəyimi,
Ana, halal, hümmət eylə.

Mən sevdim bir qaşı hilal
Qaşı dürdü, gözü zülal.
Ana, südün eylə halal,
Halal eylə, hümmət eylə.

Qasımam, oldum divana,
Bağrım oldu şana-şana.
Gərək gedəm Hindistana,
Halal eylə, hümmət eylə.

Şah görür oğlu inadkarlıq edir, yolundan qalmayacaq, vəzirinə deyir:

– Vəzir, bu işə bir tədbir tök ki, Qasım getməsin. Vəzir cavab verir ki, şah qurbanın olum, Qasımı otuz atlı ilə göndər, atlıları da öyrət ki, hər gecə biri qaçsın, o vaxt şahzadə xofa düşüb özü də qayıdar.

Şahın bu tədbirdən xoşu gəlir, vəziri də oğlu Qasım ilə getməyə hazırlayırlar və deyirlər ki, atlılar qaçıb gələndən sonra sən onun başını tövlə, onu al dillə qaytar gətir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Şahzadə otuz nəfər atlı ilə yola düşür və şahın tapşırığı ilə hər gecə on nəfəri qaçır, dördüncü gün isə Qasım görür ki, vəzirdən başqa heç kim başında qalmayıb, əlüstü başa düşür ki, bu hiylə vəzirin tədbirilə qurulmuşdur. Vəziri söyüb qovur, deyir:

–İtil gözümün qabağından, sən elə bilirdin ki, onlar qaçmaqla mən də qorxudan qayıdacağam?

Babama de gözləsin tacı-taxtını,
Əhdim budur, qayıtmaram bu yoldan.
Məşvərət etmişəm yarın bəxtini,
Əhdim budur, qayıtmaram bu yoldan.

Söz vermişəm, o gözləyir yolumu,
Sınamışam qılınc vuran qolumu,
Bilin sizdən mən üzmərəm əlimi,
Əhdim budur, qayıtmaram bu yoldan.

İskəndər tək cəng libasın götürrəm,
Götürübən göz önündən itirrəm,
Mən özümü nazlı yara yetirrəm,
Əhdim budur, qayıtmaram bu yoldan.

Söz tamama yetən kimi Qasım naməni büküb vəzirə verir. Vəzir də naməni alıb geri qayıdır. Şahzadə isə yoluna davam edir. Bir neçə gündən sonra Qasım bir qalaçaya tuş olur. Qalaçanın qıfılını sındırıb içəri girdikdə görür ki, yeddi mərmər axur var, içləri dolu arpa-samandır, amma atlar yoxdur. Diqqətlə otaqlara bir-bir nəzər yetirdikdən sonra, qalaçanın üstündəki küləfirəngidə ağ-çağ, totux-motux, kəllə minar, cahallar görsə umar, döşlər qızıl qab içində az qala ipək köynəyi yırtar bir qız görür. Amma zülfləri də pərakən-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

dədir. Bunu görən Şahzadə Qasım özünü itirir. Götürür görək bu gözəl xanıma nə deyir:

Qəsrdə əyləşən gözəl,
Niyə təksən, elin yoxdur?
Niyə pozqundur tellərin,
Əl şanada telin yoxdur?

Qız başını bulamağa başlayır. Qasım fikir eyləyir ki, qız laldır. Ona görə də başını bulayır. Alır Qasım gerisini:

Mən gəlirəm dağı-daşdan,
Ürəyim yandı ataşdən,
Ayrılıbsan yaşılbaşdan,
Quba qazsan, gölün yoxdur?

Dərdini Qasıma söylə,
Tiğ alıb bağrımı teylə.
Qonağam, xoş gəldin eylə,
Yoxsa lalsan, dilin yoxdur?

Xanım qız on dörd yasəmən telindən dörd tel ayırıb, basır şux məmələrinin üstünə, görək nə deyir:

Tülək tərlan dövr eyləyər havada,
Əlim əldə qalmış, dilim duada.
Qırx gündür ki, qardaşlarım davada,
Bu qəmli könlümlə nə deyim-gülüm?

Dost-dostundan əlbət alar ənamı,
Təbibim ol, qayıt, bağla yaramı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bizə yağı olub Eyvaz haramı,
Bu qəmli könlümlə nə deyim, gülüm?

Qasım soruşdu:
– Ay qız, nə üstə qardaşların davaya tüncar olmuşlar?
Alır görək qız bu suala nə deyir:

Gözüm qaldı gözlərinin məstində,
Ovçu olan oxu tutar şəstində.
O davalar mən çəpəlin üstündə,
Bu qəmli könlümlə nə deyim, gülüm?

Qız aşağı enib oğlana əl verib yuxarı aparır. O, gecəni onunçun yemək hazır edir. Yumşaq təxtixabında yatırdır, səhəri xeyir-dua ilə qardaşlarının dava yerini də nişan verib yola salır. Şahzadə Qasım cəng meydanına gedib, görür ki, qız dediyi yeddi qardaşdan birini öldürüblər. Altısı isə hələ salamatdır. Bunlardan biri tütəyi keçəldir, elə keçəldir ki, başına milçək qıçı da dəysə qanar. Çünki keçəllər cürbəcürdür. Vəzifəm sizə onları ərz etməkdir: Keçəl var noxudu keçəl, keçəl var qiyamatı, keçəl var nazəhri, keçəl var kəsələ, keçəl var hul-hulu, keçəl var nəftalı, keçəl var şəftalı keçəl, keçəl var milçəgi... və s.

Qasım tütəyi keçəl – İbrahimin növbəsinə meydana girib haramılardan mübarizə istədi. Eyvaz haramı iki nəfər göndərdi ki, gedin o oğlanı çağırın. Rəşadətli oğlana bənzəyir. Gəlsin, mən onu sərkərdə təyin edəcəyəm.

Xəbərçilər Qasıma yaxın gəldikdə onları iki əlli qalxızıb havada bir-birinə vurub cəhənnəmə vasil eyləyir.

Eyvaz haramı nərə çəkib deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Ey nakəs, niyə onları öldürdün? İndi bax gör mən səni elə zülm ilə yox edim ki, dəryada nəhənglər, meşədə pələnglər, ərşdə fələklər sənin ovhalına ağlasınlar.

Qasım dil ilə dediyi kimi, saz ilə də Eyvaz həramini başa salmaq istəyir. Alır görək hərbə-zorba ilə "Koroğlu" havasında nə deyir, deyək şad olun:

Bu necə davadı, bu necə işdi,
Əcəl gəlib göz önündə dolanır.
Bilmirəm zahirdir, yoxsa da quşdur?
Əcəl gəlib göz önündə dolanır.

Saralıbsan gül irəngin solubdu,
Qaynayıban peymanələr dolubdu.
Bu yeddi qardaşın biri ölübdü,
Əcəl gəlib göz önündə dolanır.

Söz tamam olan kimi Eyvaz haramı qabağa düşüb, Qasıma neçə qılınc vurursa da, Qasım onların hamısını cəddübədal eyləyir.

Sonra da atını cövlanə gətirib bir həmlə ilə Eyvaz həramini atı ilə bərabər qılıncla tən bölür. Həramilər tərəfindən ahü-fəqan sədası asimana bülənd olur. Buna görə qardaşlar Qasımı özlərinə mehman eyləyirlər.

O gecə Qasım yemək-içməklə məşğul olub, qardaşlarla söhbət edir. Səhər çağı şahzadə Qasımı altı qardaşlar yola saldıqda qardaşların bacısı Gözəl xanım irəli yeriyib deyir:

– Ey oğlan, sən ki, qardaşlarımı həramilərin əlindən almısan, çox sağ ol, amma izn ver, bir azca ayaq saxla, iki kəlmə sözüm var, deyim, sonra genə də get.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qasım ayaq saxlayıb dillənmir. Bunu görən Gözəl xanım alır görək Şahzadəyə nə deyir:

Yaxşı olur yazda baxça, təzə bar,
Dərmək üçün təzə heyva, təzə nar.
Qürbət eldə şirin olur təzə yar,
Getməyəsən, əylənəsən, qalasan.

Qasım görür ki, cavab verməsə yaxşı düşməz, deyir:

Gözəl, mən gedirəm eynim qalar eynində,
Tər Şamama bəsləyibsən qoynunda.
Sən bilirsən, deyim vardır boynumda,
Ağlama, sevdiyim, gözlə, yar, məni.

**Gözəl xanım**

Bizim yerdə söhbət olu, saz olu,
Sizin yerdə bahar olu, yaz olu.
Mən tək gözəl yer üzündə az olu.
Getməyəsən, əylənəsən, qalasan.

**Qasım**

Sənə qurban ollam dağlar lalası,
Eşqin piyalası, meyin badası.
Ağlamaynan, gedər gözün qarası,
Ağlama, sevdiyim, gözlə, yar, məni.

**Gözəl xanım**

Gözəl deyər, mənim dərdim bilərsən,
Ağladıban çeşmim yaşın silərsən.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

De görüm, sevdiyim, haçan gələrsən?
Getməyəsən, əylənəsən, qalasan.

**Qasım**

Qasım deyər saralıban solmasam,
Səndən qeyri danışıban gülməsəm,
Əcəl tərk eyləyib əyər ölməsəm,
Ağlama, sevdiyim, gözlə, yar, məni.

Deyişmə tamam olandan sonra, Qasım altı qardaşla bərabər Hindistana tərəf səfər edir. Neçə gün, neçə ay, neçə həftə yol qət etikdən, uzun məcaralardan sonra Hindistanın iki ağaclığında dayanırlar. Burada altı qardaşla Şahzadə Qasım görüşüb halallaşır. Altı qardaş geri qayıtmaqda olsun sənə deyim Şahzadə Qasımdan.

Şahzadə Qasım bir az dincəldikdən sonra yoluna davam edib Hindistana doğru yol alır. Bir az keçmiş, o, yolda paltarlarını dəyişir, üst-başını düzəldib Hindistan sərhəddini keçmək istərkən bir yığın pəhlivana rast gəlir. Bu pəhləvanların başçısı bütpərəst Keyqubad idi. Onun yeddi min yeddi yüz yetmiş yeddi dəlisi vardı. Özü də çox qəddar bir pəhləvan idi. Hindistan yolunu kəsərək gəlib-gedənləri qətlqarət edirdi.

Bir səhər çağı Keyqubad öz bağında gəzərkən, görür bir oğlan onun bağından keçib getmək istəyir. Keyqubad təcili üç qoçaq pəhləvan göndərir ki, gedin bu saat o oğlanı tutun mənim hüzuruma gətirin. Yəqin o, bütpərəstdir.

Pəhləvanlar Şahzadə Qasıma yaxınlaşarkən Qasım onlardan ikisini öldürür, biri isə qaçıb canını qurtarır. Keyqubad məsələni başqa cürə başa düşüb hökm edir ki, onu mühasirəyə alsınlar.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Pəhləvanlar dörd tərəfdən Qasımı əhatə edirlər. Qasım atına süvar olub yerindən belə tərpənmədən Keyqubadın özünü gözləyir ki, hesablaşsın. Keyqubad Şahzadənin yanına gəlib onunla üzləşir. Görür yox, bu cavanın pəhləvanlıq sikkəsi alnına həkk olunub. Bunu görən Keyqubad Qasıma deyir:

Ov ovladım, oylağıma sar gəldi,
Alan yoxdu, səni satam burada.
Baş endirmək sənə namus, ar gəldi,
Qolunu qoluna çatam burada.

Qasım gördü, Keyqubad ona hərbə-zorba gəlir. Dedi yox, buna cabab verməsəm, olmayacaq. Odur ki, alır görək nə deyir:

Bilmək olmaz qəfləmiyin halını,
Hind elinə getməliyəm, sövdəkar!
Nəvələndəm, nişan verin yolumu,
Hind elinə getməliyəm, sövdəkar.

**Keyqubad**

Sözlərin ox kimi kar eylər cana,
Səni göndərrəm vətəninə, nişana,
Gəl burada qul ol, pişxidmət mana,
Al geydirrəm, sallanginən arada.

**Qasım**

Pəhləvanlar səf-səf olub dursunlar,
Çoxusu da boyunların bursunlar.
İndi mənim hünərimi görsünlər.
Hind elinə getməyliyəm, sövdəkar.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**Keyqubad**

Sizin alimlərin işləri aldı,
Səfərə çıxmağın düz on bir ildi.
Yetmiş iki bütdən xəbərin oldu,
Gəl olnan büdpərəst sərdar, burada.

**Qasım**

Qasımam, işlərin sallam çətinə,
Yandı qara baxtım, döndü tütünə.
İnanmıram yetmiş iki bütünə
Tanrı birdi, iki olmaz, Keyqubad.

Keyqubad gördü bununla iş aşmır. Üzünü qoşununa tutub deyir:

Xəbər alın büdpərəstin zatını
Çapın kəlləsini, alın atını.
Çünki sevdin büdpərəstin bütünü,
Gəl sərdar ol, sallanginən arada.

**Qasım**

Qasım aslan kimi girər meydana,
Ərəb at da yaman gələr cövlana.
Yüz min tülkü neylər bir ac aslana,
Tanrı birdi, iki olmaz, Keyqubad.

Gördülər deyişmədən bir şey çıxmır. Əlbəyaxa oldular. Hər iki pəhləvan bir-birinin kəmər-zəncirindən üç gün qurşaq tutdu amma, heç biri qalib çıxmadı.

Keyqubadın sevdiyi Fəxfur Pəri adında bir qız var idi. Həmin qız Keyqubadı sevmirdi. Hər vaxt dua edirdi ki, ay Allah, məni bu qurbağa yiyən məlunun əlindən xilas elə!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Sən demə, Keyqubadla Şahzadə Qasımın vuruşmasına bu qız da gəlib tamaşa edirmiş. O, arzu edir ki, Qasım üstün gəlsin. Bəlkə ona ərə getmək vüsalı çata.

Keyqubadla Qasım qurşaq tutmaqdan əl çəkib nahara oturdular. Fəxfur xanım gizlincə bir sini xörək öz kənizindən Qasıma göndərir. Şahzadə Qasım isə şübhələnərək xörəyi məcmuəsilə tullayır, kənizin üstünə.

Nahardan fariq olandan sonra Keyqubadla Qasım yenidən güləşməyə başlayırlar. Bir neçə saatdan sonra Qasım bir nərə çəkərək Keyqubadı götürüb yerə vurur, sinəsinə çöküb boğazını üzür. Hər tərəfdən oxlamaq istəyirlər ki, Fəxfur pəri tez özünü meydana salıb atası vəzirə deyir:

Ağa vəzir, o bütləri sevərsən,
Öldürməyin bu cavanı, heyifdi.
Nabələdə yol göstərmək ar olmaz,
Yol azıban bu məkana gəlifdi.

Fəxfur pərinin atası vəzirə yalvarması Şahzadə Qasıma ar gəlir. Götürür, görək ona nə cavab verir:

Lalədən qönçədən artıq rəngi var,
Şad olginən, Fəxfur pərim, ağlama.
İki nərin maya üstə cəngi var,
Kəlmə gətir, tacı-sərim, ağlama.

**Faxfur Pəri**

Enim gəcavədən, gedim yanına,
Canım qurban o cavanın canına.
Qılınc çəksin büdpərəstin qanına,
Ay şəbüxan eyləsin, il, gün hayıfdı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**Qasım**

İlahinin yazısını görən var,
Siyah zülfün dal gərdəndə hörən var
Olar çoxsa, mənə kömək verən var,
Kəlmə gətir, din-imanım, ağlama.

**Fəxfur Pəri**

Fəxfuram xub canmı qaldı canında,
Sümüyümdə, iliyimdə, qanımda.
Qiyamət günündə, haqq divanında,
Məhşər haqdı, bizim üçün ayıbdı.

Fəxfur pəri kəlmə gətirəndən sonra şahzadə Qasım nərə çəkib "Ya Allah, səndən mədəd" deyib özünü hərami-lərin leşkərinə vurub qoşunu darmadağın edir. O gecə Fəxfur pərinin yanında qalır.

Gecənin bir aləmində Qasımın yadına Əsmail xanım düşür, halı pərişan olur. Fəxfur pəri oğlanın qəmginliyinin səbəbini soruşduqda Şahzadə Qasım səfəri Hindistan padşahının qızı Əsmail xanımın yanına olmasını və ona olan eşqini Fəxfur pəriyə söyləyir. Fəxfur bu cavabı eşitdikdə oğlana qəti ümid olur və deyir:

– Ay oğlan, sən ki, bu çeşid Keyqubad pəhləvanı öldürmüsən, həmin o pəhləvan isə yenə də Hind yolunu kəsən Cəlali pəhləvanın qorxusundan gecələr gözünə yuxu getmirdi.

– Ay xanım, qurddan qorxan qoyun saxlamaz, mən Əsmail xanımın yolunda canımdan keçmişəm.

Fəxfur götürur görək nə deyir:

Fəxfur Pəri ərzin mənə söyləsin,
Dili tutmur, beşcə xanə söyləsin.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Sənin tək pəhləvan ona neyləsin,
Qayıt bu sevdadan, Qasım, sən, getmə.

Alır cavabında Qasım görək nə deyir:
Mən Qasımam, dediyimi edərəm,
Qara bağrım caynağımla didərəm,
Qayıtmaram bu sevdadan, gedərəm,
Ağlama sevdiyim, gözlə, yar məni.

**Fəxfur Pəri**
Dost dostun yolunda canından keçər,
Ağı oxuyanlar qaranı seçər.
Cəlali yamandı, qanını içər,
Qayıt bu sevdadan, qayıt, sən getmə.

**Qasım**
Dağıtdın dövləti, xanımanımı,
Bu yollarda qurban dedim canımı,
Qoy bacarsa, içsin mənim qanımı,
Qayıtmaram bu sevdadan, gedərəm.

**Fəxfur Pəri**
Fəxfur pəri saralıban solacaq,
Ağlayıban ahu-zara qalacaq,
Səni Hində doğru yola salacaq,
De görüm, sevdiyim haçan gələcək?

**Qasım**
Mən Qasımam, indi özüm bildirrəm,
Ağladaram, göz yaşını sildirrəm,
Yüz pəhləvan olsa, tamam öldürrəm,
Qayıtmaram bu sevdadan, gedərəm.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Səhər olan kimi şahzadə Qasım Fəxfurla vidalaşıb Hində yola düşür. Üç gündən sonra Cəlali pəhləvanın çadır xanəgahlarına yetişir. Amma çadırları bomboş görür. Bir yuxulamış aşbazdan və dəmə qoyulmuş plov qazanlarından savayı heç nə gözə çarpmır. Ehmallıca Qasım Cəlaliyə hazırlanmış plovu həzmi-rabidən keçirir.

Aşbaz bir də oyanır ki, iş işdən keçib. Cəlalinin xörəyini qəvi heykəl cavan yeyib. Özü də qıvrılıb yatıbdı.

Bir az keçəndən sonra Cəlali pəhləvan gəlib aşbazdan yemək tələb eyləyir. Aşbaz Qasımı göstərib ərz eyləyir ki, həmin oğlan sənə hazırladığım xörəyi yeyib yatıb.

– Haydı, oyat görək nə millətdi?

Aşbaz Qasımı oyadıb Cəlalinin hüzuruna çağırır. Şahzadə Qasım oyanıb Cəlalinin qarşısında durur, götürür görək nə deyir:

İnsaf eylə kəsmə Hindin sədasın,
Hind elinə getməliyəm, pəhləvan.
Eşqə salıb, mən içmişəm badəsin
Hind elinə getməliyəm, pəhləvan.

**Cəlali**

Mən ovçuyam, əldən qoymam ovumu,
Başın gedər, leşin qalar arada.
Bu meydanda əldən qoymam ovumu
Başın gedər, leşin qalar arada.

**Qasım**

Pəhləvanlarda vardır bir gözəl adət,
Burada seçilər mərd ilə namərd.
Boynuna biçdirrəm ağdan bir xələt,
Hind elinə getməliyəm, pəhləvan.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**Cəlali**

Cəlaliyəm bu ölkənin mərdiyəm,
Aslanıyam, pələngiyəm, qurduyam.
Sən gedərsən, mən bir ağır orduyam,
Qılınc çallam, qan tökülər burada.

**Qasım**

Qasım da bil qorxmaz bir belə sözdən,
Keçmişəm bahardan, mövsümü yazdan.
Belə pəhləvandan olsa da yüzdən
Hind elinə getməliyəm, pəhləvan.

Deyişmə tamam olan kimi Cəlali deyir:

– Növbə sənindir, endir zərbəni.

Qasım isə razı olmayıb qalxanı başına çəkir, Cəlali zərbi dəstilə Qasımın başına elə qılınc çalır ki, qılınc qalxanı, xas külahı kəsir, iki barmaq da alnına keçir.

Qasım tez atından enib yerin turabından bir ovuc torpaq alıb yarasına basır, yenə də atına qalxır. Cəlali bu işə heyrətlənib deyir:

–Oğlan, afərin səni doğan anaya, hələ bu vaxta qədər mənim zərbimdən qurtaran olmamışdı.

Növbə Qasıma çatanda qılıncını havada oynadıb Cəlaliyə vurmaq istədikdə Cəlali onun qolunu elə göydə qılınc əlində tutub sıxır. Qılınc Qasımın əlindən yerə düşür. Bu zaman Qasım təklif edir ki, qurşaq tutsunlar. Cəlali razı olur, qurşaq tutmağa başlayırlar. Güləş zamanı Qasımın əlinə Cəlalinin sinəsinə yumşaq bir şey dəydisə də, Qasım bir şey dərk etməyib, qızmış nər kimi onu havaya qaldırır, arxası üstə yerə vurur, istəyir ki, başını kəssin, ancaq Cəlali ağlayır.

Qasım soruşur:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

–Ay pəhləvan, əyər can şirinsə, bəs nə üçün bu qədər qan töküb gələn-gedənin anasını ağlar qoyubsan?

Cəlali cavab verir ki, oğlan, mən Yəmən pəhləvanının oğluyam, döşümə bir tilsim bağlamışam, onu aç özünə götür, o sənə lazım olar.

Qasım Cəlalinin döşünü açanda görür ki, iki dənə şux məmələr, türpi-gülüstan, cifti çıxıb bir yaxadan, məndə qoymur can məmələr.

Bunu görcək şahzadənin rəngi saralır, dili pəltək çalır. Cəlali deyir:

– Ey cavan, mən əhd etmişəm, kim məni bassa, ona ərə gedəcəm. Deməк, mənim qismətim sənsənmiş.

Qasım bu gündən etibarən bir neçə gün Cəlali ilə bir çadırda eyş-işrətlə məşğul olur. Amma Əsmail xanımın camalı onun yadından heç çıxmırdı. Məsələni Cəlaliyə açmağa ürək etmirdi. Nəhayət Cəlali oğlanı belə bikef gördükdə soruşur:

Nə üçün rəngin qaçıb, saralıb-solursan?

Qasım bu sual qarşısında Əsmailin məktubunu ona verir. Cəlali məktubu oxuyub məzmunundan halı olduqdan sonra deyir:

–Elə bundan ötərimi qəmgin olmusan, bu asan işdir. Hindistan yumsam yumruğumda, açsam ovcumdadır, günü sabah sevdiyin qızı sənə yetirrəm, – deyib qılıncı saz əvəzinə sinəsinə basır:

Çəkmə bu dünyanm ahı-zarını,
Yolunda qoyaram dövlət-varımı,
Hind elindən gətirərəm yarını,
Ağlama sevdiyim, fikir eyləmə.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bu yollarda mən qoymaram canımı,
Bülbüləm dağıtmam o gülşanımı.
Hində salsam özüm öz nişanımı,
Ağlama sevdiym, fikir eyləmə.

Cəlaliyəm, girsəm Hindin elinə,
Heç kim dözməz mənim fitnə-felimə.
Yarının əlini verrəm əlinə,
Ağlama sevdiyim, fikir eyləmə.

Saralıban heyva kimi solaq biz,
Hər ikimiz bir xəyala gələk biz,
Dur ayağa at belinə dolaq biz,
Ağlama sevdiyim, fikir eyləmə.

Hər iki rəşid-cavan at minib, durma gəldim, – deyərək Hind ölkəsinə yürüş edirlər.

Bunlar getməkdə olsun, sizə xəbər verim Əsmail Pəridən. Əsmail xanım əmisi qızı Gözəl xanımla Gülşən bağını keştə çıxmışdı. Qulluqçulara da tapşırmışdı ki, kim mənə bir aşıq tapıb gətirsə, ona müjdə verəcəm.

Çin qaravaşı – Qeyqaşı bir də görür ki, Gülşən bağının qapısından bir aşıq əlində sazı içəri girir, tez ona çatıb soruşur:

– Ay oğlan, aşıxsanmı?

– Bəli, aşığam.

– Səni xanımım çağırır, bir zəhmət çəkin gedək. Şahzadə Qasım Qeyqaşın yanına düşüb Əsmail xanımın hüzuruna gəlir.

Cəlali isə qapını kəsir ki, Qasıma zərər toxunmağa qoymasın.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Əsmail xanım şahzadəni tanıyıb təklif eyləyir ki, bir neçə xanə söz oxusun. Qasım götürür "Gözəlləmə havasında" görək nə deyir:

Bahar fəsli, yaz ayları gələndə,
Yaylaqlardan qar almağa gəlmişəm.
Könül ovlar gözəllərin bağçasın,
Müştəriyəm, nar almağa gəlmişəm.

Qız sənin qarşında kəba küncüdü,
Ala gözlərinə kim yovuncudu?
Ləbin qönçə, dür dəhanın incidi,
Mən sərrafam, dür almağa gəlmişəm.

Hər kim sevər isə o gözəl şahı,
Ərənlər sərvəri, o qibləgahı.
Mən Qasımam, budur sözün kütahı,
Müxtəsəri, yar almağa gəlmişəm.

Gözəl xanım görür ki, yox, iş başqa cürədir, deyir:
- Əmi qızı, xeyir olsun, deyəsən qohum çıxmısız.
Əsmail xanım oğlana göz eyləyir ki, bir az sər-hesab olsun. Sonra Gözəl xanım üzünü aşığa tutub deyir:

Aşıq deyil, yalançısan,
Xırmalara talançısan.
Qapı-qapı dilənçisən,
Mənmi gözəl, omu gözəl?

**Qasım**

Qasım tərif edər sizi,
Səni, onu – ikinizi.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Hər ikiniz əmi qızı,
Sən də gözəl, o çox gözəl.

**Gözəl xanım**
Aşıx, sən məni yandırdın,
Axar sular bulandırdın.
Yoxsa rüşvətlə qandırdın,
Mənmi gözəl, omu gözəl?

**Qasım**
Qoynundakı nə bağçadı,
Üzün ağardan axçadı.
Əsmail səndən yaxçadı.
Sən də gözəl, o çox gözəl.

Gözəl xanım acığı tutub hökm elədi ki, qızlar salsın onu çubuq altına. Onun fikrincə, biz öküz ombasıyıqmış.

Qızlar hərəsi bir ağac qapdıqda Qasım Cəlalini səslədi. Cəlali qapı ağzından elə bağırdı ki, qızların hamsının əllərindən ağac yerə düşdü, özləri də qaçdılar. Şahzadə Qasım Əsmail xanımı götürüb bayıra çıxdı.

Cəlali deyir:

– Qasım, sən qızı apar mənim çadırıma, mən isə səni izləməyə bir nəfər də olsun qoymaram.

Qasım Əsmaili aparıb Cəlalinin çadırına qoyub qayıtdıqda görür ki, Cəlali böyük bir qoşunun içində nərə çəkə-çəkə dava eləyir. Tez özünü leşkərin bir tərindən salıb başlayır bu da bir tərəfdən qoşundan qırmağa. Vuruşma əsasında Qasım Cəlalilə naqafil toqqaşır. Cəlalinin gözünü qan tutduqdan Qasımı tanımayıb onun köhnə yarasının üstündən bir yara da vurur. Qasım atdan yıxılır. Cəlali baxıb görür ki,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

atdan yıxılan Qasımdır. Peşmanlıq çəkir Qasım "Bayatı" havasında oxumağa başlayır:

Canım göy at, gözüm göy at,
Qurtar məni bu meydandan!
Kam almadım bu virandan.
Gözlərim doldu al-qannan.

Aman cəllad, kəsmə başım,
Ümmana döndü göz yaşım.
Hanı Cəlali yoldaşım,
Bu günümdə çıxa yandan.

Qasım deyər, hanı yarım,
Günbəgün artdı azarım.
Xəbər alsalar məzarım.
Soruşsunlar Hindistandan.

Bunu eşidən Cəlali "Koroğlu" havasında alır görək nə deyir:

Çətindir bu işlər, gec gələr başa.
Oyan, bax, əzizim gör nələr oldu.
Dərəni, təpəni doldurdum leşə,
Oyan, bax, sevdiyim, gör nələr oldu.

Səf-səf olub Hind elində yeridi,
Çeşmim yaşı giribanı çürüdü.
Qılınc çəkdim, qan meydanı bürüdü,
Oyan, bax, sevdiyim, gör nələr oldu?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Mən qızmış nər kimi döndüm tavana,
Mən baxmadım yaxşı ilə yamana,
Cəlali dönmüşdü bir ac aslana,
Oyan, bax, sevdiyim, gör nələr oldu.

Cəlali davadan fariq olmuşdu, oydu ki, Qasımı yaralı-yaralı atının tərkinə alıb öz çadırına apardı. Şahzadə Qasım burada iyirmi gün müalicə olunur, iyirmi gündən sonra ata yurduna getmək fikrinə düşür və Cəlaliyə deyir:

Qürbət eldə düşdüm xəstə,
Yerim silkib salan yoxdu,
Hər tərəf, işdər qafilə,
Bu diyara gələn yoxdu.

Mən dediyimi edərəm,
Bağrının başın didərəm,
Ata-ana deyib gedərəm,
Bu sözümdə yalan yoxdu.

Heyratdı Qasımı dindir,
Günahım boynuma mindir.
Öldürrürsən, özün öldür,
Canı səndən alan yoxdu.

Cəlali deyir:

– Qadan alım, gedək, bəs mənim başımda olan qızları nə edək?

Aldı Qasım görək nə cavab verir:

Dəli könlüm yenə Vətən arzular,
Gəl dağıdaq bu yığnağı, Cəlali.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Əlbət yazılıbdır belə yazılar
Gəl dağıdaq bu yığnağı, Cəlali.

Sinə ağdı, Savalanın qarıdı,
Sinən şuxdu Gürcüstanın narıdı.
Fəxfur Pəri Keyqubadın yarıdı
Gəl dağıdaq bu yığnağı, Cəlali.

– Əyə, haramzadə, yoxsa bizim ikimizdən başqa yenə də ayrı yarın var?

Hələ harasıdı, dalına qulaq ver:

Fələk verdi mənə dərdin gücüdü,
İndi getdi şirin, ağzım acıdı.
Gözəl xanım – yeddi qardaş bacıdı
Gəl dağıdaq bu yığnağı, Cəlali.

Cəlali öz qızlarını çağırıb deyir:

– Qızlar, bu vaxta qədər siz mənə qulluq etdiyiniz üçün mən sizdən çox-çox razıyam. İndi mən gedər oldum, siz isə mənim bu ev-eşiyimdə qalın, onların hamısını sizə halal edirəm. Halal xoşunuz olsun.

Cəlali, Qasım bir də Əsmail xanım buradan atlanıb Fəxfur pərinin yanına gedirlər. Üç gün burada eyş-işrətlə məşğul olurlar. Dördüncü gün Şahzadə səfər meylində olub götürür "Şikəstə" havasında görək nə deyir:

Bir quş olub qonaydım uca damınıza,
Saqi olum mey doldurum camınıza.
Oturanlar, ərz edirəm hamınıza,
İntizardı gözü yolda yar, gedək.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bülbül olan tərk eyləməz gülləri,
Şəkərdən şirindir bahar dilləri.
İntizarda o gözdüyür yolları,
Buraxmayaq qeyrət, namus, ar gedək.

Qasım deyər, Gözəl xanım ağlayır,
Ağlayıban bağrım başın dağlayır.
Verdiyim o əmanəti saxlayır,
Qoy götürək həm də dövlət, var, gedək.

Bunlar buradan Fəxfur Pərini də alıb yola düşürlər. Bunlar getməkdə olsun. Gözəl xanım rəm atıb görür ki, Qasım qayıdır. Qardaşlarına Qasımın gəlməsini xəbər verir. Altı qardaşın altısı da müsəllah pişvaza çıxır, onları qarşılayıb, böyük təmtəraqla Şahzadə Qasımı yoldaşları ilə bərabər evlərinə aparırlar.

Gözəl xanım isə özünə təravət verib qarşıya çıxır "Firəngi" havasında görək nə deyir:

Olum boynuna sadağa,
Gözəl, xoş gəldiz, xoş gəldiz.
Qurbanam siz tək qonağa,
Gözəl, xoş gəldiz, xoş gəldiz.

Qədəm bas, gedək otağa,
Gözəl, xoş gəldiz, xoş gəldiz.
Gözəl xanım qurban sizə,
Gözəl, xoş gəldiz, xoş gəldiz.

Gözəl xanım qurban sizə,
Sizin kimi ala gözə,
Qədəm basdız gəldiz bizə,
Gözəl, xoş gəldiz, xoş gəldiz.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qızıl gülün xiridarıdı,
Yıxıq evlər pərkarıdı.
Gözəl Qasımın yarıdı,
Hamı xoş gəldiz, xoş gəldiz.

Söz tamam olur, düşmənin də ömrü tamam olsun. Bunlar gəlhagəldə Gözəl xanım evlərə bir zinyət vurmuşdu ki, gəl görəsən. Elə onları da bu otaqlara dəvət edir. Üç-dörd gün qonaq saxlayır. Beşinci gün tamam olanda Qasım vətən xülyasına düşür, "Bayatı" havasında görək nə deyir:

Elimiz, obamız, çıxarmı yaddan
Siz qalxın ayağa, getmək vaxtıdı.
Bir şirin danışaq, söyləyək pünhan.
Siz qalxın ayağa, getmək vaxtıdı.

Heyrat dedicəyin badi-səfadı,
Yolunda çəkdiyim cövrü-cəfadı.
Heç vaxtı demərəm yar bivəfadı.
Siz qalxın ayağa getmək vaxtıdı.

Qasımam, peymanım dolhadoldadı,
Saralıb gül rəngim solhasoldadı.
Atamın-anamın gözü yoldadı.
Tez qalxın ayağa, getmək vaxtıdı.

Altı qardaşlar yol tədarükü görürlər. Şahzadə Qasımın gətirdiyi yoldaşları ilə, öz bacılarını da onlara qoşub Heyrat şəhərinə yola salırlar.

Qasım doğma şəhərinə çatanda görür ki, şəhər əhli qaraya batıb. Rast gəldiyi bir cütcünü dindirib təziyəni kimə saxladığını soruşur. Əkinçi cavab verir ki, ağa, yeddi ildir



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

ki, padşahımızın oğlu səfərə çıxmışdı, amma indi ölüm xəbəri gəlmişdir, ona görə də qara geymişik.

Qasım özünü nişan verib cütcüyə deyir:

–Di, tez ol, qaç şaha xəbər ver ki, oğlun gəlir.

–Ay ağa, qorxuram, birdən yalan olar. Şahın qəzəbinə keçərəm.

–Durma qaç, bədbəxt, taleyin işləyib, muştuluq al.

Cütçü bir əl bir təpə özünü yetirir şahın hüzuruna, deyir:

–Sənin oğlun, sağ-salamatdı, gəlib çıxıb.

Şah soruşur ki, harada, necə gördün, bir nəql eylə görək, bəlkə yanılmısan.

Sevinə-sevinə əl ağacını sinəsinə basıb "Şikəstə" havasında padşahı necə başa salır:

Ərz eyləyim gözəl şahım,
Umudum sənsən pənahım.
Belə gördüm qibləgahım,
Ver müjdəmi, oğlun gəldi.

Xeyli ağıl kamalınnan,
Gözəllər çox hilalınnan.
Ağır yığnaq cəlalınnan,
Ver müjdəmi, oğlun gəldi.

Bülbüllər uçmaz gülündən,
Gözəllər şirin dilindən.
Gəliflər Hindin elindən,
Ver müjdəmi, oğlun gəldi.

Fəqir Əhməd de neyləməz,
Bağrının başın teyləməz.
Şaha ki, yalan söyləməz,
Ver müjdəmi, oğlun gəldi.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Fətəli şah xəbərçini dama saldırdı, Pişvazlar vəziri sədr əzəmi göndərdilər. Şahzadənin qəsrinə payəndazlar döşənir. Qasım qızları ilə bərabər qəsrin pilləkənlərindən çıxarkən Əsmail Pərinin rübəndini yel vurub üzündən açır, vəzir isə onun gözəlliyini görüb bayılır, dığarlanıb pilləkənlərdən başı aşağı yumarlanır.

Şah soruşur ki, vəzir niyə yıxıldın, ayağını yerə düz basa bilmirsənmi?

– Şah sağ olsun, mənim ombamın altından bir sancı qalxıb. İndi isə elə ağrıyır, ayağımı yerə basa bilmirəm. Elə isə götür bu ixtiyar üzüyünü get, bu günlüyə taxta çıx, fərman ver. Mən Qasımla hal-əhval xəbər alacağam.

Vəzirin də elə axtardığı bu idi. Taxta çıxan kimi hökm verib padşahı tutdurub həbsə saldırır. Qasımın isə gözlərini çıxartdırıb cadu bağına saldırır. Qızlar bu işdən xəbərsiz idi.

Cadu bağında iki göyərçin bir ağaca qonub bir-birinə belə deyir:

– Bacılı-bacılı.

– Can bacılı.

– Biz buradan uçanda bizdən bir lələk düşəcək, əyər onu oğlan götürüb gözünə sürtsə, onun gözləri həmişəkindən də sağlam olacaq.

–Əlbəttə, Əlbəttə.

Qasım bu sözləri eşidirdi. Quşlar uçandan sonra onlardan düşən lələkləri alıb gözlərinə sürtür. Gözləri yerinə gəlir. Ayağa qalxıb bağdan çıxarkən könlü coşa gəlir. "Osmanlı divanisi" ilə götürür görək nə deyir.

Virana dəryalar cuş eyləməkdən,
Bu qəmli könlümü xoş eyləməkdən.
Seyraqub sözünü nuş eyləməkdən,
Can üzüldü, ömr azaldı, gün keçdi.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bir gün çıxdım Cəlalinin dağına,
Əl uzatdım şamamanın tağına,
Qasımı atdılar cadu bağına,
Can üzüldü, ömr azaldı, gün keçdi.

Çox da çəkdim dörd gözəlin cəfasın,
Zalım vəzir qoymaz sürəm səfasın.
Bir görəydim Cəlalinin vəfasın,
Can üzüldü, ömr azaldı, gün keçdi.

Qasımın bu cür ürək yanğısı ilə oxuduğunu yaxınlıqda olan bir dəyirmançı eşidirmiş. Gəlib birbaş Qasımın yanına çıxır. Onu lüt-üryan görür, yazığı gəlir, bir baş evinə gətirir. Qasım dəyirmaçının evində görür ki, kişinin ailəsi bir-birinə qarışıb ağlayırlar.

Niyə ağlayırsan? – deyə, soruşduqda, dəyirmançı deyir:

– Oğul, Allah Fətəli şahın oğlunun evini yıxsın. Hindistandan bir zırpı adam gətiribdir ki, şəhərdə əlinə keçəni öldürür, tarimar edir. Padşahın nə qədər qoşunu varsa, hamısını qılıncdan keçirib. Bu gündə mənim növbəmdir. Bilirlər ki, sağ qayıtmayacağam, ona görə də ağlayırlar.

Şahzadə Qasım deyir:

– Ata, get ixtiyar al, gəl. Qoy sənin əvəzinə məni göndərsinlər.

Dəyirmançı gedib öz əvəzində Qasımı davaya göndərmək ixtiyarı alıb geri qayıdarkən, Şahzadəyə at da, silah da gətirir. Qasım müsəlləh olub atına süvar olur. At belində özünü çatdırır vəzirin qabağına, "Koroğlu" havası ilə deyir:

Nuş tökülüb bu meydana qoxunur,
Mərd igidlər bir-birinə toxunur.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ömrüm qabalası bu gün oxunur
Ağa vəzir, şah babamı neylədin?

Sığınmadın namusuna, arına,
Allandın qızların xoş pərgarına,
Onları saldırdın gəc ambarına,
Ağa vəzir, şah babamı neylədin?

Eşitmədin söhbətini, səsini,
Onlar ağasının tutar yasını?
Atdırdın caduya fəqir Qasımı,
Ağa vəzir, şah babamı neylədin?

Qasım buradan ötüşüb, əvvəlcə qızları görmək təmənnasında olur. Cəlali yolda bunun qabağına çıxıb görür Qasımdı. Amma yenə də ehtiyat edir. İrəli buraxmır deyir:

– Ay oğlan, Təs külahını açmasan, səni elə oradaca doğrayacağam.

Qasım onun fikrini anlayıb başını açır. Hər iki cavan eşq sitəmilə bir-birinə sarmaşır. Bu vüsaldan sonra Cəlali Qasımı o biri qızların yanına aparıb onlara belə müjdə verir:

Sənə deyim, Gözəl xanım,
Müjdə verin, Qasım gəldi.
Sənə qurban şirin canım,
Müjdə verin Qasım gəldi.

Hörmət edin qonaqlara,
Bəzək verin otaqlara.
Şəkər səpin dodaqlara,
Müjdə verin, Qasım gəldi.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Sənə deyim, Fəxfur Pəri,
Gülab tək məmənin təri.
Yolunda qoymuşam səri,
Müjdə verin, Qasım gəldi.

Sən də baharın yazısan,
Aşıqlar söhbət-sazısan.
Hind padşahının qızısan,
Müjdə verin yarın gəldi.

Mən də bir ləbiballıyam,
Ağ üzü qoşa xallıyam.
Cəlaliyəm, zən əhliyəm,
Müjdə verin yarın gəldi.

Qızlar sevindiklərindən təəccüblə Cəlalini süzürlər. Hamı onu qız ola-ola böyük hünər sahibi olduğuna heyrətlənərək alqışlayırlar. Sonra da Qasımı araya alıb ac dəvə qanqala suyulan kimi onu qucub öpməyə başlayırlar. Qasım deyir:

– Cəlali, axı vəzir intizardadır, onu qaydası ilə qarşılamaq lazımdır.

Hər ikisi vəzirin hüzuruna gedib onu cəhənnəmə vasil edirlər. Şəhər əhli yığılıb şahzadə Qasımı atasının yerinə padşah seçir, onun əvəzinə taxtda oturdurlar, adına da sikkə çalırlar. Fətəli şahı zindandan azad edirlər, dəyirmançı ilə muştuluqçuda dünya malından qane olunur. Qırx gün, qırx gecə toy çalınıb, böyük şadyanalıqla Qasım şaha gətirdiyi qızları gəlin köçürürlər. Məclisə hörmətli bir aşıq gətirdirlər. Gələn aşıq onların toyun belə başlayır:

Ariflər yaxşı baxın,
Qarşıda duran gözələ.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ay qabıq, lalə yanaq
Qaşları kaman gözələ.
Ya huridir, ya pəridi
Behiştdə qılman gözələ.
Bu surətdə, bu sifətdə,
Kim deyər insan gözələ.

* * *

Kərəmin girdiyarı,
Bir belə bəzər yaradıb.
Küreyişin nurudur bu,
Hüri-münəvvər yaradıb.
Şəms olub gözəlliyi,
Aləmdə aşkar yaradıb.
Bel nazik, bədən nazik,
Qaməti ər-ər yaradıb.
Gör necə zinət verib,
Xaliqi-sübhan gözələ.

* * *

Ləbləri şərab-kövsər,
Behiştin zülalından betər,
Xoş sözü, xoş kəlməsi,
Təbrizin balından betər.
Çəkilib qələm qaşı,
Qüdrət hilalından betər.
Hüseynin xoşuna gəlib,
Bağlayıb dastan gözələ.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## HÜSEYN - PƏRİ XANIM

Dastana başlamazdan əvvəl ustadlar ustadnamə deyərlər. Ona görə biz də dastana başlarkən icazə verin ustadların yolu ilə gedərək, ustadnamə deyək:

Bahar gülür, günəş gülür, el gülür,
Nazlı dilbər, dövran gülür, sən də gül!
Çəmən gülür, çiçək gülür, çöl gülür,
Lalə, nərgiz, reyhan gülür, sən də gül!

Ötür azadlığın xoş təranəsi,
Hər budaq üstündə bir quşun səsi.
Baxdıqca insanın gəlir həvəsi,
Cüyür, maral, ceyran gülür, sən də gül!

Gülşəndə şövq ilə ötür bülbüllər,
Çəməndə gül dərir türfə gözəllər.
Toy-bayram keçirir obalar, ellər,
Qoca gülür, cavan gülür, sən də gül!

Yenə könül ilham alır Göy-göldən,
Gözəl Qarabağdan, Muğandan, Mildən.
Görürsənmi, nə xoş gəlir il-ildən,
Qazax, Şəki, Şirvan gülür, sən də gül!

Şakirin qəlbində gülür arzular,
Ölməz bu günləri görən sənətkar.
Qəlbimizdə xoş günlərin eşqi var,
Məhsul verir, hər yan gülür, sən də gül!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ustadlar ustadnaməni bir deməz, iki deyər, biz də deyək iki olsun, düşmənin ömrü gül tək solsun:

Sevgilim, gəl gəzək güllü vətəni,
Sevilək, sevilmək eldə azaddır.
İndi nə Məcnun var, nə də ki, Fərhad,
Bülbülün sevdiyi gül də azaddır.

Məhəbbət eşqilə çırpınsın ürək,
Əbədi sevgiyə biz ilqar verək.
Gəl mənim gözəlim, xoş dövran sürək,
Oyanıb oxumaq, dil də azaddır.

Bağban olan gül bitirər bağında,
Şamaması bar yetirər tağında.
Salahlı Paşanın odlu çağında,
Könlümün sazında tel də azaddır.

Ustadlar ustadnaməni iki deməz üç deyər, biz də deyək üç olsun, düşmənin ömrü puç olsun:

Hər görünən yaşıl bağa getmə gəl,
Bağ odur ki, ağacında bar olsun.
Hər ucalan dağa çıxma dağ deyə,
Dağ odur ki, zirvəsində qar olsun.

Qoy var olsun təbiətdən doymayan,
Şan-şöhrətə, var-dövlətə uymayan.
Dövranını, zamanını duymayan,
El yanında görüm hər vaxt xar olsun.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qədir deyir, el qədrini bilənlər,
Dost güləndə sevinənlər, gülənlər,
Tikəsini dostlarla tən bölənlər
Qoy yaşasın uzun illər var olsun.

Əziz eşidənlər, qulaq asanlar, indi sizə ərz eyliyim İsfahan şəhərindən, Qibleyi-aləmnən.

Günlərin bir günü Şah Abbas vəziri Allahverdi xana deyir:

– Vəzir, görəsən elə bir yer varmı ki, mənim şahlığımı bilməyə?

Vəzir cavab verir ki,

– Qibleyi-aləm sağ olsun, Zud adlı şəhərin camaatı heç bilmir ki, siz şahsınız, yaxud yerin torpağısınız.

Şah Abbas həmin dəqiqə əmr verir ki, həmin vilayətə yürüş edilsin, gedib baxım görüm o necə vilayətdir ki, mənim şahlığımı tanımasın. Qoşun fərmana hazır olub, Şah Abbas başda olmaqnan Zud şəhərinə tərəf turaba ayaq qoyurlar. Bir neçə gün yol qət edəndən sonra gəlib qoşun bir meşəliyə düşür. Qoşun əhli xörək və çörəkdən sonra su içmək istəyir. Ha axtarırlar yaxınlıqda su tapmırlar. Şaha da susuzluq çox təsir edir. Şah buyurur ki:

– Hər kəs mənə bir içim su tapıb gətirsə, onu dünya malına qane eliyəcəm.

Qoşun əhli dağılıb su axtarmağa başlayır. Bir müddət o ətrafları dolaşdıqdan sonra uzaq bir yerdə bir bulağa rast olurlar. Görür ki, bulağın üstündə bir ceyran otlayır, o qədər göyçəkdir ki, yaqutdan dırnaqları, yəməndən buynuzları, zəbərcətdən tükü olan bir belə heyvandır. O saat şaha xəbər verirlər ki:

– Bəs, Qibleyi-aləm, sağ olsun yaxınlıqda bir bulaq var, amma bulağın üstündə bir göyçək ceyran otlayır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Şah eşidən kimi, hökm eyləyir ki, ətdən qala çəkilsin, ceyranı dövrəyə alsınlar. Şah deyir:

– Vay o kəsin halına ki, ceyran onun başının üstündən qaçsın.

Şahın əmri ilə ceyran qoşun əhli dövrəyə alıb, ətdən qala çəkirlər. Hərənin ürəyində bir gümbultu yaranır ki: xudaya. Birdən mənim başımın üstündən qaçar, halım necə olar?

Odur ki, hər kəs durub, daha ceyrana aman olmur. Ceyran başını qaldırıb görür ki, hər tərəf adamdı, çıxmağa yer yoxdu. Yazıq-yazıq boynunu burub şaha doğru gəlir. Şahın qabağında dal ayaqlarını cüt yerə vurub, qığılcım kimi onun başının üstündən sıçrayır.

Qoşun əhli sevinir ki, nə yaxşı oldu, ceyran şahın öz başından sıçradı.

Bunu görüb şah çox acıqlanır, deyir:

– Bir nəfər də mənim dalımcan gəlməsin, kim gəlsə boynu vurulacaq.

Bir azca da su içib "Xoş qədəm"in belinə sıçrayır, təkcənə düşür ceyranın dalınca.

Şah Abbas atı Xoş qədəmi o qədər yorur ki, ta ceyran gözdən qeyb olur. Şah dumana, çiskinliyə düşüb bir tərəfə çıxa bilmir. Düz üç gün, üç gecə orda qalıb bir yana çıxmır. Üç gündən sonra Şah atı Xoş qədəmə süvar olub deyir:

– Xoş qədəm, sənə and verirəm ağamın düldülünə, məni bu xarabalıqdan bir avadanlığa çıxardasan.

Xoş qədəmin bir xasiyyəti var idi, düşmən görən də, bir də avadanlığa rast gələndə duruxurdu.

Şah qaranlığa düşüb, gecəynən yol gedir. Birdən görür ki, Xoş qədəm dayanıb, tərpənmir. Şah başını qaldırıb ətrafa nəzər salanda görür ki, qabaqda böyük bir şəhər görünür,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

fikirləşir ki, bəlkə elə bura, yad vilayətdi, səni Şah paltarında görüb şübhələnərlər, gəl sən paltarı dəyiş.

Tez atdan düşüb, paltarını dəyişir, dərviş libasına girir. Bir başa atını sürüb şəhərə tərəf gəlir. Şəhərin girəcəyində bir miskin qocaya rast olub, onnan xahiş eləyər ki, onu bir gecəlik qonaq saxlasın.

Qoca kişi cavab verir ki:

– Qardaş, bu nə sözdür danışırsan, Allaha da qurban olum, onun qonağına da.

Nəysə, o gecə Şah Abbas həmin kişiyə qonaq qalası olur. Atdan düşüb, həyətə girir, görür ki, ev sahibinin iki nəfər elə gözəl qızları var ki, Allah təalanın Kərəmi qeyşə gələndə bunlar tapşırır:

– Əyə, paccaha layiq bir xörək hazırla, qonağımız nəcib adama oxşayır.

Arvad durub, qızları çağırır, düyünü tökür onların qabağına, yaxşı bir əmlikdə kəsdirib, bişirtdirib yanına qoyur. Xörəyi hazır olan kimi gətirirlər qoyurlar Şahın qabağına.

Şah Abbas xörəyi yeməkdən imtina eləyir.

Ev yiyəsi əlini xörəyə uzadıb deyir:

– Qonaq, bismillah elə!

Şah Abbas deyir:

– Yox, Əlhəmdüllah.

Deyir:

– Niyə, bəs ac deyilsənmi?

Deyir:

– Ac olmağına acam, ancaq ürəyimdə bir mətləbim var. Əyər onu bitirsən, xörəyini yeyərəm, yoxsa, yox!

Kişi deyir:

– Əyər, mənnən asılı iş isə, gözüm üstə, buyur!

Şah deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Bax, bayaq, bura mənim üçün xalça, palaz gətirən qızlar kimdilər, mənə de.

Deyəndə, kişi deyir:

– Ağrın alım, Allahdan gizlin döy, bəndədən nə gizlin olar. Oğlan zuriyyətim yoxdur, iki qızım var.

Deyir:

– Bəs onların adı nədir?

Deyir:

– Ay dərviş qardaş, ninersən bu sorğu-sualı eliyif, sən bir gecənin qonağısan, xörəyini ye, Allahına şükür eylə.

Şah deyir:

– Xeyir, heç mümkün döy, onların adlarını deməsən, xörəyini yemiyəcəm, demişəm!

Ev yiyəsi necə demişdik, üç gündür ki, qonaqsızlıqdan ağzına xörək dəymir. Ona görə əlacı kəsilib qızlarının adları Xeyransa və Mələknisə olmasını söyləyir. Burada Şah Abbas deyir:

– Kişi, Mələknisə heç, Xeyransanın əqdini mənə oxutsan, fəat yeyəcəm, yoxsa, yox.

– Dərviş ağa, onun məndən başqa saxlayanı var, gedim xəbər alım görüm anası nə deyir.

Qoca arvadının yanına gedir, deyir:

– Arvad, evi yıxılmış qonaq bir belə söhbət başlayıb, deyir ki, Xeyransanı mənə versən, çörək yeyəcəm, olmasa yox!

Arvad cavab verir ki, kişi bu söz hər adamın hünəri deyil ki, süfrə başında belə söhbət açsın. Di get sən qabaqca, mən bir baxım görüm o necə adamdır. Arvad kişinin dalınca dərvişə nəzər salıb deyir:

– Kişi, get deynən qızı verirəm.

Qoca, süfrə başına oturub, deyir:

– Qonax, inşallah mətləbin hasil olar, çörəyini ye!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Şah Abbas qızın şəninə dəvə dabanı basıb bir iki şapalaqda sininin dibinə çatır. Süfrə qabaqdan götürülən kimi Şah Abbas deyir:

– Qoca, de dur qızın nigahını mənə oxut.

Qoca cavab verir ki:

– Ay qonax, indi bu gecə vaxtı axund molla haradan tapım ki, qoy sabah açılsın, hər şey yoluna qoyular.

Şah etiraz edib deyir:

– Heç mənim tək nikah kəsən hələ anadan olmayıb. Xurcunu yaxına çəkib qələm davatını çıxardır, elə ənkəhtu başlayır ki, qocanın tükləri papağını qaldırır. Qoca dərvişin bu qiraəti ilə nigah kəsməsindən sonra dərhal gedib qızı Xeyransanı onun yanına gətirir, qapıları bağlayır, öz otağına gedir. Beləliklə, Şah Abbas öz-özünə fikir eləyir ki, bu nə iş idi, mən düşdüm. İndi qoşun qayıdıb, elə bilirlər ki, mən tələf olmuşam, vəzir-vüzəra, sərkərdələr öz aralarında padşahlığa namizəd seçirlər. Mən nə ağılla burada dururam.

Ona görə də Şah tövləyə girib atını yəhərləyir və küçəyə çəkmək istədikdə Xeyransa atın cilovundan tutub deyir:

– Dərviş, sənin insafın haradadı, məni tay-tuşun içində bədnam edib hara gedirsən? Qulaq as, gör nə deyirəm.

Alır Xeransa görək nə deyir, deyək sağ olun!

**Zarıncı havasında**

İyitlər iyidi, iyitdər xası,
Getmə, qonax, mənə zülümdür, zülüm!
Çıxar sən könlündən qaralı pası,
Getmə qonax, mənə zülümdür, zülüm!

Atamın taxtını yıxa bilmərəm,
Anamın üzünə baxa bilmərəm,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Tay-tuşlar içinə çıxa bilmərəm,
Getmə qonax, mənə zülümdür, zülüm.

Qız fikir verir ki, dərvişin vaxtsız getməsinə səbəb özündə qüsurun tapmasıdır. Ona görə deyir:

Xeyransayam cavahirdən geyinim,
Aləm çəkə bilməz mənim deyinim.
Qılcan ayıb görsən gəl vur boynum,
Getmə qonax, mənə zülümdür, zülüm!

Şah Abbas Xeyransa xanımın sözlərindən bir qədər müəssir olub, deyir:

– Xanım, mən səndə heç bir qüsur görmədim, mənim getməyimin başqa səbəbi var.

Xeyransa deyir:

– Bəlkə, məni özünə layiq bilmirsən, onunçün gedirsən?

Şah Abbas deyir:

– İndiki belə oldu qulaq as:

Aldı "təcnis"lə görək Xeyransa xanıma nə deyir:

Çox gözəl şöyqün düşüb cahanə.
Görmədim sənin tək gözəl, gözanə.
Yox, aşığam cahanə,
Cahan qurban cahanə
Yaradan yaradıb
Salıb cahanə.
Görmədim sənin tək gözəl gözanə.

Xeyransa xanım ayrı söz gözləyir. Görür yox, dərviş onu tərif edir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Deyir:
– Bu qarpızları mənim qoltuğuma vermə, düşüb qızlar.
Şah Abbas deyir:
– Xanım, dalına qulaq as:

Əgər bağbanısan bağ işini gör,
Bağ bəsdə, bağ becər, bağ işini gör.
Yox aşiq bağ işini gör,
Bağ becər bağ işini gör,
Nə yatmısan ay ovçu,
Səksən maral baxışını gör.
Bu tərlan gözdünün baxışını gör,
İstər ki, canımı, gözəl gözanə.

Mən Abbasam sözüm deyim sənə yar,
Tutu dilli, mina boylu sona yar,
Yox aşiqəm sənə yar,
Sənəm verrəm sənə yar.
Qış otaxda, yaz bağda
Mehman ollam sənə yar.
Gəzdim keşt elədim neçə sənə yar,
Görmədim sənintək gözəl gözanə.

Söz tamam olan kimi, Şah Abbas bir bazubənd çıxardıb Xeyransaya verir, tapşırır ki, əyər oğlum olsa, bağlarsan qoluna, gəlib məni tapar, qız olarsa oğulbə oğul xərclə, halal xoşun olsun, – deyib atını mahmızlayır. Bir gün gecə-gündüz at sürüb gəlib çatır İsfahana. Qırmızı geyinib taxta çıxır. Tez əmr verir ki, xəzinəsindən bir bazubənd itib, hər kəsdə tapılarsa, hüzura gətirilsin.

Şah Abbas şahlığında olsun. İndi sizə xəbər verim Xeyransa xanımdan.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Xeyransa xanım şahdan barı həmli qalır. Doqquz ay, doqquz gün, doqquz saat, doqquz dəqiqədən sonra, o ban həmlini qoyur yerə. Xeyransa xanımın bir oğlan uşağı olur. Uşağa ad qoymaq üçün qarılar, dünya görmüş kişilər yığılır. Qarılardan biri uşağın adını Örkənqulu qoymağı təklif edir ki, ömrü uzun olsun, o birisi isə Sicimqulu qoyub deyir, ömrü daha da sicim kimi uzun olar.

Bu qarıların hər ikisini də döyüb çölə çıxardırlar. Üçüncü qarı isə əvvəlkilərə qarğıyıb uşağın adını kitab üzü qoymağı təklif edir. Uşağın adını molla çağırıb Hüseyn qoyurlar.

Hüseyn yeddi yaşına çatan kimi onu verirlər məktəbə. Hüseyn hələ birinci günü əlifbeydən dərs almaq əvəzinə əmmədən oxuyur. Haman məktəbdə bir tacirin oğlu yeddi il idi dərs alır.

Tacirin oğlu mütaliə edən vaxt Hüseyn:

– Elə yox, o hərfi səkkiz oxumaq lazımdır – deyə mübahisəyə girişir. Molla da Hüseynin sözünü təsdiq etdikdə tacirin oğlu kitablarını götürüb atasının yanına gedib şikayət eliyir ki, bu necə olan işdir ki, mən yeddi il diz qatlayıb dərs oxuyuram, amma bir qonaqdan əmələ gələn bir gün məktəbə gəlməklə mənim oxumağımdan qələt tutsun, molla da onun sözünü təsdiq etsin.

Tacir bu sözü eşidən kimi bir əl bir təpə gəlir mollanın yanına deyir ki, niyə oğlumu başqa bir bij uşağı üstgün edir.

Molla arz eləyir ki, bir səbr elə, uşaqlar nahara çıxıb, onlar gələndə kamallı ilə elmsiz sənə məlum olar.

Tacir gözləyir ki, uşaqlar gəlib toplansın. Uşaqlar da birbəbir gəlib salamsız-kəlamsız döşənirlər. Molla bir tavağa kağız Hüseynin altına, yeddi tavağa da tacirin oğlunun altına qoyub, müntəzir idi ki, uşaqlar toplasınlar.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Tacirin oğlu qapıdan xoş-xoşuna girib salam vermədən yerinə oturub mütaliyəyə başlayır. Ən axırda Hüseyn qapıdan girib kəlami-ədəblə salam verdikdən sonra diz üstə yerinə əyləşir. Bir yerə, bir göyə baxmağa başlayır.

Molla deyir:

– Oğlum, niyə dərsini oxumayıb, yerə-göyə baxırsan?

Deyir:

– Molla əmi, bir iş var, qorxuram sizə deyəm.

Dedi:

– Qorxma, de.

Dedi:

– Molla əmi, bilmirəm yer bir tabağa yuxarı qalxıb, yoxsa, göy bir tabağa aşağı enib, yerim heç əvvəlki yerimə oxşamır.

Molla deyir:

– Bərakallah, oğlum, biz səni sınayırdıq.

– Molla üzünü tacirə tutub deyir:

– Di gör, sənin oğlunun mərifəti, yoxsa Hüseynin mərifəti çoxdur?

Tacirin oğlu özünü saxlaya bilmir, irəli gəlib atasının yanında durub deyir:

– Mənim atam sənsən, bəs onun atası kimdir ki, ona mərifət versin?

Hüseyn bu sözləri eşidən kimi şey-şüyünü yığışdırıb ağlaya-ağlaya gəlir anasının yanına.

Hüseynin anası hər dəfə qapının ağzmda oturub oğlunun yolunu gözləyirdi. Bu gün də qapı ağzında oturmuşdu. Bir də gördü ki, oğlu ağlaya-ağlaya gəlir. Tez Hüseynin qabağına yeriyib onu qucaqlayır, ağlamağının səbəbini soruşur:

Hüseyn deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Mənim atamı mənə göstər, yoxsa baş götürüb bu vilayətdən gedəcəyəm.

– A bala, sənin atan mənim atamdır.

Dedi:

– Xeyir, sənin atan olan mənim babam olar, düzünü de!

Xeyransa xanım deyir:

– Oğlum, indi ki, düzünü istəyirsən biləsən, səbr elə, özü gəlib çıxar, sövdəyə gedib.

Hüseyn deyir:

– Hansı şəhərə gedibsə, de mənə, gedib tapım. Xeyransa xanım gördü ki, yox, can qurtara bilməyəcək, naəlac qalıb, yalandan deyir:

– Oğul, düzünü gəzirsənsə, sənin atan ölübdür.

Hüseyn deyir:

– Ana, Əyər atam ölübsə, onda gedək qəbrini göstər.

– İndi ki, üz basırsan, qulax ver düzünü deyim:

Sənin atan dərviş Abbas idi. Özü də İsfahana gedibdir. Əyər getmək fikrində isən mənim bu sözlərimi unutma, fikrindən daşın.

**"Zarıncı"**

Canım oğul, gözüm oğul,
Gəl getmə oğul, amandı!
Unutma sərindən ağıl
Gəl getmə oğul, amandı!

**Hüseyn**

Canım ana, gözüm ana,
Ana qoy məni, qoy gedim,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Əmmişəm sözünü mən qana-qana
Ana qoy məni, qoy gedim

**Xeyransa**
Bağçamızı bağlar qoyma,
Gəl sinəmi dağlar qoyma,
Ananı da ağlar qoyma,
Gəl getmə, oğul, amandı!

**Hüseyn**
Nə deyirsən mənə, ana,
Yandı bağrım döndü qana,
Atam gedib İsfahana,
Ana, qoy məni,qoy gedim

**Xeyransa**
Xeyransa, xanımlar xası,
Çıxar könlündən bəd pası.
Tapmazsan atan Abbası,
Gəl getmə, oğul, amandı!

**Hüseyn**
Hüseynin xanədir qanı,
Gəzərəm Azərbaycanı,
Atasız neylərəm canı,
Ana, qoy məni, qoy gedim.

Xeyransa oğlunun höcətini duyaraq, gedib evdən atası verən bazubəndi gətirir, Hüseynə verib deyir:

– Oğul, indi ki, gedirsən bu bazubəndi də qoluna bağla, atandan yadigardır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Ana, belə şeylər padşahlara layiqdir. Çox qiymətli şeydir, bəlkə də oğurluqdur.

– Oğul, ondan heç bir zərər çatmaz, aparmalısan.

Xeyransa bazubəndi oğlunun qoluna bağlayıb xeyir-dua ilə Hüseyni yola salır. Günə bir mənzil meyyu-münəzil, vaxtı aynan-ilnən, bu zaman müxtəsər dilnən özünü yetirir İsfahana. İsfahan şəhərində soraqlaşıb dərviş Abbası axtarır. Hüseynə qırx lotuların mənzilini göstərib. "Bu adam mənim evimdə olur" deyirlər. Hüseyn qırx lotuların başçısının yanına gedib salam verir və deyir ki, mən sizin oğlunuz Hüseynəm.

Lotubaşı onu evdən qovub deyir:

– İtil başımdan, mənim başıma kələk açmaqmı istəyirsən?

– Bu necə, sizin adınız dərviş Abbas deyil?

– Çox da Abbasdır, bax o kişinin də adı dərviş Abbasdır. Get gör bəlkə səni əkib?

Hüseyn özünü çatdırır həmin dərvişin yanına.

– Səlamü əleykum ata, deyib içəri daxil olur.

– Sən kimsən ki, mənə ata deyirsən?

– Necə kimsən, bəs oğlun Hüseyni tanımırsan?

– Cəhənnəm ol, aləmə biz lotuluq gəlirik, bizə isə sən?

Xəbər o biri lotulara yetişdikdə qırx lotunun qırxı da yığılıb o ki var Hüseyni əzişdirirlər.

Hüseyn burada döyüləndən sonra özünü çatdırır bir dükanın qabağına. Bu dükan Qəndab Məhəmməd adlı bir şəxsin dükanı idi.

Qəndab Məhəmmədin dükanını üç yol kəsmişdilər. Ona görə Qəndab Məhəmməd şah Abbasa şikayətə getmişdi. Qəndab Məhəmməd şikayətdən qayıtdıqda gördü ki, bir nəfər dükanın ətrafında dolanır. Tez onu əyləyib deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Nakəs oğlu nakəs, üç dəfə bu dükanı yardın, ürəyin ah eyləmədi, bir-iki dənə iynə-düymə qalıb, istəyirsən onu da oğurlayasan?

Hüseyn ona saznan-söznən “Qaraçı” havasında görək nə deyir:

Qapına düşübdü, baba güzarım,
Baba, mən qəribəm axşam bazarı,
Günü-gündən artıb dərdim, azarım,
Baba, mən qəribəm axşam bazarı.

**Qəndab Məhəmməd**

Qəribsənsə, durma burda, get xana,
Nədi sən qəribin burda güzarı,
Salamat başını salma qovxana,
Nədi sən qəribin burda güzarı?

**Hüseyn**

Oxuduğum əlif idi, bey idi,
Hər qardaş əklicəyinə yey idi.
Qəribə hörmət eləmək ey idi,
Baba, mən qəribəm, axşam bazarı.

**Qəndab Məhəmməd**

Tanımıram nə sultanı, nə xanı,
Verrəm cəlladlara, tökərlər qanı,
Necəsən bu yerdə mən alam canı,
Nədi sən qəribin burda güzarı?

**Hüseyn**

Yəqin bil ki, mənəm o nuri eyni,
Ax vaya düşübdü anamın deyni.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bircə axşam qonaq eylə Hüseyni
Baba, mən qəribəm axşam bazarı.

**Qəndab Məhəmməd**

Qəndab Məhəmmədəm, bağça-barım var,
Qorxma oğul, namusum var, arım var,
Qəribsənsə, gözüm üstə yerin var,
İndiki düşüb sən qəribin güzarı.

Bu sözləri dedikdə Hüseyn Qəndab Məhəmmədi ətəkləyib elə sən mənim atam olacaqsan, mən səni əldən buraxası deyiləm-deyib, ona yapışır.

Qəndab Məhəmməd onu özündən aralayıb:

– A kişi, günahkar olmadım ki, şirin söz dedim. Bax mən səni qonax saxlamalı da olsam, gecələri dükanda saxlayacam. Evə apara bilmərəm, de gir dükana qapını daldan bağla, mən gedim.

Beləliklə, Qəndab Məhəmməd Hüseyni dükana salıb özü evinə qayıtdı və arvadına xəbər verdi ki, bir nəfər qərib oğlan gəlmişdi, adamsızdır, oğulluğa götürək, yoxsa, yox?

– Əlbətdə, saxlayaq, bizim ki, evladımız yoxdur.

O günün sabahı Qəndab Məhəmməd dükanını açıb oğlana diqqət ilə nəzər yetirib görür ki, bu oğlan elə gözəl oğlandır ki, elə bil Allahın kəramı cümə gələndə birinci dəfə bunu xəlq edib.

Deyir:

– Oğlum, mənim yanımda həmişəlik qalarsanmı?

Hüseyn dinməyib o gündən etibarən Qəndab Məhəmmədin yanında şəyirdlik edir.

Hüseyn o qədər gözəl idi ki, müştərilər onun camalına məhbut olub bir manatlıq xirid əvəzinə 50 manatlıq xirid edirdilər.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qəndab Məhəmmədin alveri həddindən aşmaqda idi.

Sizə xəbər verim Şah Abbasın vəziri Qara vəzirdən. Qara vəzirin Pəri adlı bir qızı var idi. Hüseynin gözəllik xəbəri Pərinin qulağına çatan kimi ona qayibanə aşiq olur. Pərinin qaravaşı – Çinli qaravaş, bir gün ət almağa bazara gedir. Orada Hüseyni görüb astanasını kəsir. Axşama kimi onun camalına tamaşaya durur. Qaş qaralanda isə ətdə almağı unudub evə qayıdır. Pəri xanım qaravaşı boş görüb başlayır ki, səni mən nə almağa göndərmişdim ki, bu zaman qayıdırsan, bəs aldığım ət hanı – deyib əmr verir ki, ona qırx çubux vursunlar.

Çinli qaravaş cavab verir ki, xanım, mənəm hələ belə tez gələn, əyər Qəndab Məhəmmədin gözəlliyini sən görəydin, heç indi də gəlməzdin.

Pəri xanım qaravaşın təqsirini bağışlayıb əmr verdi ki, o günün sabahı bazarda Qəndab Məhəmmədin dükanından başqa bir dənə də olsun açıq dükan və başı papaqlı olmasın.

Sabahı günü Pəri özünə yaraşıq verib, başındakı qızlarla bərabər özünü yetirir bazara. Pəri dükanın qabağından içəri baxmadan bir dəfə keçir. Hüseyn onun dalınca çıxıb görür kü, bu bir gözəldir ki, fərşitəm girdar gəl məni gör, dərdimdən öl, əlini vurma, geridə dur.

Qız qayıdıb gələrkən oğlanla tuşlaşıb ağlı başından oynayır. Hüseyn Pərini görən kimi "Çərxatayı" havasında aldı görək nə deyir:

Məni candan usandırdı,
Leyli sitəmkar, yavaş get!
İçmişəm çiçəklərdən badə,
Gözləri xumar, yavaş get.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Oğlan bu sözləri deycək Pəri ayılır, qızlar əl atıb onu qaldırırlar.

**Hüseyn**

Gül dibini alıbdı xar,
Getmə xanım, bir ərzim var,
Sinən bağdı, məməndi bar,
Ağ sinəsi yar yavaş get.

Qonşuluqda ovunubsan,
Öz-özünə deyinibsən,
Qəddi dala geyinibsən,
Al səngəri dar, yavaş get.

Hüseyn deyər ay keçən ah,
Məgər sənsən gülgəz yanaq,
Güc ilə düşdü bir tifaq
Lütf eyləyib bir yavaş get.

Pəri qızlara deyir ki, gəlin siz oğlanı yalandan itələyin, görənlər elə bilsin ki, bizim qəzəbimiz keçdi. Yoxsa bizim üçün yaxşı düşməz.

Haqdan qalma, mıxdan burma qızlar var idi. Onlar o saat özlərini Hüseynə yetirib onu o qədər əllədilər ki, Hüseynin əti çimdik-çimdik oldu. Sonra Pəri xanım evlərinə qayıdıb üzünə zəfəran sürtüb özünü xəstəliyə vurur və atasını yanına çağırtdırır. Vəzir qapıdan girən kimi qızın yorğan döşəkdə görüb onun halını soruşur. Qız kinayə ilə deyir:

– Sənin kimi atası olanın halı bundan yaxşı olarmı? Mənim mənzilimi tikdirmisən İsfahanın ayağında. Su içəndə



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

əvvəl şəhərin eşşəkləri, atları içir, onlardan artıq qalanda da mən içirəm.

– Mənim əhdim olmasın, əhd edənlərin əhdi olsun, sən bu naxoşluqdan qurtar, sən hardan istəsən, orada sənin üçün ev tikdirərəm.

Aradan beş-on gün keçəndən sonra Pəri qızlarla atası-na xəbər göndərir ki, indi bir az üzü bəriyəm, yanıma gəlsin. Atası gəlincə qızları öyrədir ki, əyər bayıra çıxmaq istəsəm, qoluma girib apararsız.

Vəzir qızın yanına gəlib:

– Əlhəmdullah, indi yaxşısan, dur, yer göstər, sənə ev tikdirim.

Pəri qızların köməkliyi ilə bayıra çıxır, əlini gözünün üstünə qoyub deyir:

– Ata, o çəmənlik haradır?

Vəzir cavab verir ki, ora Qəndab Məhəmmədin dükanının dalıdır.

– Ata, orada mənim üçün ev tikdirərsən. Lap yaxşı olar.

Deyərlər var əli – Kərəmi Əlf, yox əli – vərəmi əli. Üç gün keçmir ki, Pəri istəyən yerdə bir gözəl imarət salınır. Pəri şad olub deyir:

– Ata, bu gündən sonra əyər desələr ki, qızın ölüb, heç inanma.

Təzə imarətə köçən kimi Pəri bir kənkan çağırıb öz otağından Qəndab Məhəmmədin dükanına üç saatın içində bir nəqb qazdırır, nəqb Qəndab Məhəmmədin dükanına ça-tanda Hüseyn vəhmələnib durur. Bir neçə rükət namazı qı-lır. Bir az keçənnən sonra baxıb görür ki, yerin torpağı qalxıb, bir qoca əlində külüng və dalınca bir dəstə əli şamlı qızlar yerin altından çıxırlar. Bunu görən kimi Hüseyn istə-yir ki, dükanı açıb qaça. Pəri onu ətəkləyib deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Oğlan, hara qaçırsan, sən o kəs deyildinmi mənə deyirdin:

Gül dibini alıbdı xar,
Getmə xanım, bir ərzim var.

– Bax, bu qazdırdığım yol, düz bizim evə aparır, bu gündən etibarən sən hər gün yer altı mənim yanıma gəlməlisən.

Bunlar nəqblə gedib-gəlməkdə olsun, sizə ərz edim şah Abbasdan

Şah Abbasın bu adəti var idi. Hər vaxt ki, şəhərdə bədbihesabı iş olsa idi, başından ağrı tutardı. Şahın yenə də başının ağrısı tutmuşdu. Odur ki, bayıra çıxıb ətrafa göz əyləndirib görür ki, bütün şəhər əhli yuxudadır, amma Qəndab Məhəmmədin dükanından işıq gəlir. Həmin dükanı nişana alıb gecəni yatır. Səhər tezdən isə dərviş paltarı geyinib Qəndab Məhəmmədin dükanına gəlir və Hüseyndən xahiş edir ki, o gecəni mümkünsə onu qonax saxlasın. Hüseyn razılıq verib şahı içəri dəvət edir və onunla söhbətə məşğul olur. Pəri isə Hüseynin gəlib çıxmadığını görüb qaravaşını göndərir ki, oğlanı çağırsın və desin ki, "təzə xasiyyət öyrənməsin, mən onsuz tam yeyən deyiləm".

Gecənin bir vaxtında yerdən xəlicə qalxıb altından əli şamlı bir qız çıxanda Şah Abbas barmağını dişləyib:

– Aha, işin başım tapmışam, – deyir:

Qız Pərinin sifarişini Hüseynə dedikdə oğlan xəbər göndərir ki, xanım onu bu gecəlik bağışlasın, qonağı qoyub gələ bilməz.

Dübarə qızdan xəbər gəlir ki, Hüseyn qonaxla bərabər gələ bilər. Hüseyn qonağa:

– Mən gedən yerə gəlirsənmi? – dedikdə:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qonaq ki, var ev yiyəsinin dəvəsidir, harda hıxlasa orda yatar, dur gedək.

Hüseyn qabaqda, Şah dalda gedib çıxırlar Pərinin otağına. Pəri Hüseyni görən kimi onu qucaqlayıb o üzündən, bu üzündən öpüb yer göstərir və diqqətlə dərvişə baxıb görür ki, onun gözləri cüt Hüseynin gözlərinə oxşayır. Ona görə də dərvişi yumşaq oturdub hörmət, izzət göstərir. Çörək yeyib içdikdən sonra Hüseyn dərvişə təklif eləyir ki, hansı qızı könlün tutursa, alıb keçsin dal otağa. Şah Abbas çoxdan göz altı etdiyi bir qız var idi, onu çəkib yan otağa keçir.

Səhərə kimi ata ilə oğul kefdə-damaqda qalırlar. Səhər olan kimi hər ikisi dükana qayıdır. Oradan şah əl-təmən edib qəsrinə qayıdır. Vəziri çağırıb deyir:

– Vəzir, evin yıxılsın, yer altından bir canavar peyda olub az qalıb ki, evini başına uçursun.

Axşam olan kimi vəziri də alıb dərviş libasında yenə də Hüseynin yanına gəlir, yalvarır ki, oğlum, dərvişlə aşıx tayfası cahankeş olur. Harda üz görərsə, orada qalağan olur. Bax bu yoldaşımı dünən itirmişdim. Bu gün tapmışam. Əyər mümkünsə, bu gecə də bizi qonax saxla. Sənə çox iltimasımız keçər.

Hüseyn istər-istəməz razı olub dərvişləri dükanına saldı. Şah Abbas bəhanə ilə özünü yuxuluğa vurub mürgüləyirdi, amma vəzirin kürkünə bit düşüb ora bura nəzər yetirirdi. Bir də gördü ki xəlçə yığışıb yerin altından iki nəfər qız çıxdı və oğlana üzlərini tutub, xanımımız üç saatdır sizi gözləyir. Niyə gəlmirsiniz, - dedilər. Hüseyn qızlara:

– Gedin xanıma deyin ki, bu gecə gələ bilmərəm, çünki iki nəfər dərviş qonağım var deyib onları geri göndərdi. Bir az çəkmədi ki, qızlar qayıdıb, xanım, deyir, qonaxlarını al gətir, – deyərək özləri qabaqda şam tutdular. Hüseynlə



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

dərvişlər də dalca gedib qızın yanına çıxdılar. Otağa girəndə vəzir qızını görüb dizləri sındı, nitqi qurudu. Hüseyn Pərini küsən görüb onun halını ələ almaq məqsədilə:

"Çərxatayı" havasında görək nə deyir, deyək şad olun:

Demək ayıb olmasın,
O nədi Pəri qoynunda?
Bimürvət, yola gəlmirsən,
Saxlayıb narı qoynunda

Ölkənizə qədəm basdıq,
Gəldim, budu, qatam dostluq.
Sinən, döşək, məmən yastıq,
Sal yataq, yeri qoynunda.

Məgər aşığından doyubsan,
Bağrımın başın oyubsan,
Hüseyni yetim qoyubsan,
Qalıbdı əli qoynunda.

Pəri tam edə bilməyib qollaruu Hüseynin boynuna salır, onu öpüb yalamağa başlayır. Sonra qonaxlarını əyləşdirib Hüseynə deyir:

– Vallah, o dünənki dərvişin gözləri sənin gözlərindən heç tafoutu yoxdur. Doğrudur, əyər dünənki dərvişin gözləri mənim gözlərimə oxşayırsa, bax bu zorba dərvişin də gözləri sənin gözlərinə oxşayır.

Qız bu sözə qah-qaha çəkib gülür:

– Sənin sözündən elə çıxır ki, bu dərvişlər bizim atamızdır: – deyə, Hüseyni lağa qoymağa başlayır. Xörək ortalığa gələndə Şah Abbas şapalağı elə vurur ki, elə bu damda



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

bankı basırlar, amma vəzirin isə xəcalətindən boğazı tutulmuşdu.

Çimdiklə üç-dörd düyü əlinə alırdısa, onları da ağzına çatınca saqqalının tükləri arasında itirdi.

Yatmaq vaxtı çatanda Hüseyn dərvişlərə deyir:

– Qiyamət o zaman qopar ki, biri yeyər, biri baxar. Hərəniz bir qız götürüb verin özünüzü yan otaqlara.

Şah Abbas vəzirdən qabaq lal qızı götürüb dünənki otağa keçir. Vəzir də bir başqa qızla ayrı otaqda gecələyir. Sübh çağı şahla vəzir Hüseynin dükanına gedib onunla xudafisləşirlər. Hüseyn bunların hərəsinə bir top zərbaf verib deyir:

– Dərviş, aman günüdür, bu sirri heç yerdə açmayın.

Dərvişlər Hüseyni arxayın edib evlərinə qayıtmaq istərkən vəzir çiti tolazlayır. Hüseyn bunu görüb Şah Abbası ətəkləyir.

Deyir:

– Dərviş, olmaya məndən narazı qalmışsınız?

– Xeyir, onun hərəkəti qoy səni heyrətləndirməsin. Sən arxayın ol. Biz sənin sirrini heç yerdə açmarıq.

Dərvişlər ötüşüb getdikdə vəzir şahdan xahiş eləyir ki, bir günlüyə şahlığını ona versin, ta bu işi o özü davam etdirsin.

Padşah razılıq verir. Qəsrə yetirən kimi vəzir tac geyib taxta çıxır və fərrac göndərib Hüseyni gətirdir. Hüseynin qolu bağlı Pərinin evinin qabağından apardıqda Pərinin gözləri abı-leysan kimi yaşarır. Hüseyn qızı görəndə fərraşlara yalvarıb "Zarıncı" havasında görək nə deyir:

Əvvəl gələn dərviş evin yıxılsın,
Çəkib aparırlar dara Hüseyni.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

El yıxılı, iltimasını olmadı,
Qurtarmadım bəxti qara Hüseyni.

Mənə oldu, mənə belə baxandan,
Baxıb qara bağrım oda yaxandan.
Zalım cəllad, nə tutubsan yaxamdan?
Gətirdin amana, zara Hüseyni.

Bu günümdə gələ anam Xeyransa,
Çəkə zülfünü yana o Mələknisə,
Çünki əlim çatmaz, amma Abbasa,
Eyləyə dərdinə çara Hüseyni.

Söz tamam olan kimi Hüseyni istintaq meydanına aparırlar. Hüseyni aparıb yetirən kimi vəzir hökm eləyir ki, onun boynunu vursunlar.

Şah Abbas bu sözü eşidən kimi sıçrayıb yerindən qalxır və vəzirin yaxasından tutub yerə döşəyir:

– Beləmi divan edəcəkdin, əyər ölüm yaxşı şeydi və niyə öz qızını öldürtməyirsən? – deyib hirslənib taxta çıxır, qasid göndərib vəzirin qızı Pərini gətirtmək üçün fərraşlara əmr verir.

Hüseyn qızı gətirməyə gedən fərraşlara deyir:

Qasid, gedər olsan yarın yanına,
Bu naməmi yara əmanət eylə!
Yetircən dur dolan onun başına,
Öp əl-ayağını ziyarət eylə!

Elə ki, oxudu naməni bildi,
Bir şirin dillə tavazə qıldı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Xəbər alsa, deyinən fəqir də öldü,
Dərdi-qəm əlindən şikayət eylə!

Yəqin bil ki, mənəm o piri eyin,
Ax-vaya düşübdü bu canım deyin,
Bir saat görməsəm ölürdü Hüseyn,
Bu gün axşam oldu, şah, mürvət eylə!

Bir o qədəm keçmədi, gedib fərraşlar qızı gətirdilər. Hüseyn Pərini görüb, "Gül" havasında deyir:

Ay ağalar, eynim yaşı sel oldu,
Yan gördüm, əlin verib yad ələ,
Axdı, yaşım zənəxdanda göl oldu,
Tuğu qəmdən, bağrım başın od ələ!

Nər iyit öz vətənində gürz olu,
Vətənsiz iyidin dərdi yuz olu,
Onda iyitlərə ölüm fərz olu,
Çünki yarım əlin verib yad ələ.

Sən Hüseynin bil çeşmisən, gözüsən,
Yaşmaq altda yaxşı saxla sözü sən
Necə qıydın sinəm üstə közü sən,
Demədinmi ya yandıra, ya dələ.

Hüseyn baxıb görür ki, şah qızı öldürəcək, şahdan cəllad amanı istəyir. "Keşiş oğlu"havasında deyir:

Başına döndüyüm ədalət şahım,
Şahım, məni öldür, qoy qız ağlasın!
Məscidim, minbərim, o qibləgahım,
Şahım, məni öldür, qoy qız ağlasın!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Xanənişinsən eylə ənayət,
Aləm sütunusan şahı-səltənət,
Əl mənim, ətək sənin, bimürvət,
Şahım, məni öldür, qoy qız ağlasın!

Hüseyn deyər, yarım, gördüm bidamaq,
Qoyma əndəhbdən gül düşsün iraq,
Sərxoş yeriş, sinə bəyaz, gənc qabaq,
Şahım, məni öldür, qoy qız ağlasın!

Şahın Hüseynə rəhmi gəlib əmr verir ki, onu aparıb uzaq yerdə öldürsünlər. İki cəllad Hüseynin qolunu tutub şəhərdən kənara çıxardırlar. Cavan cəllad çöhrəsini qaldırır ki, oğlanı öldürsün, qoca cəllad onun əlini saxlayıb deyir:

– Heyf deyilmi, belə paltarları qana boyayasan, əvvəl soyundur, sonra öldür.

Oğlanı soyunduran kimi bazubəndi görüb qoca cəllad cavana nəql eləyir ki, hələ o cavan ikən, yadındadır, padşah Zut davasından qayıdan vaxt cəmi İrana səs salmışdı ki, xəzinədən bir bahalı bazubənd itib, hər kəsdə o bazubənd tapılarsa, o adamı incitmədən hüzura gətirsinlər. Ona görə də bu oğlanı padşahın yanına aparmalıyıq, yoxsa şahın bizə qəzəbi keçər.

Cavan cəllad razı olub hər ikisi Hüseyni təkrar şahın yanına aparırlar.

Şah Abbas bazubəndi tanıyıb oğlunu bağrına basır və danlayır ki, niyə öz sirrini şahdan gizləyirdi ki, bu qədər bəlalara düçar olurdu. Şah cəlladlara o qədər xələt verir ki, heç özləri də yeyə durmaq istəməyib çəkinirdilər.

Toy çaldırıb Pəri xanımı Hüseyn üçün gəlin köçürürlər. Sizdə kamınıza yetəsiniz.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## SÜLEYMAN – MƏLƏK

Sizə hardan xəbər verim, Azərbaycanın Bozalqanlı kəndindən. Bozalqanlı kəndi Kürün qırağında,abı-havası ilə seçilən gözəl bir kənddi. Bu gözəl kəndin gözəl camaatı, aşığı, şairi istənilən qədərdir. Amma bunların içində bir murdarı da varimiş ki, adına Paşa bəy deyərmişlər. Çox varı-dövləti varmış. Di gəl xəsislikdə tayı-baravarı yoxmuş. Nökər tutar, haqqını verməz, muzdur tutar, muzdunu kəsər, irəncbərin aylığı borca alar, incidərmiş. Qapısına dilənçi gəlsə, döyüb qovarmış, seyid gəlsə, qarğadarmış. Sən deyən elə bir böyük külfəti yoxmuş. Varı-yoxu, gözünün ağı-qarası altı yaşında gözəl bir qızı varmış. Qızının adı da Mələk imiş.

Paşa bəyin qapısında Hasan adında kasıb irəncbər yaşıyarmış. Paşa bəy bu irəncbərə zülm verir ki, bu işgəncələrə, zülmə dözə bilmir, vaxtından əvvəl canını tapşırır. Qonum-qonşu yığılıb onun meyidini yerdən götürür, dəfn edirlər. Bədbaxtın heçkəsi yox imiş. Onun da gözünün ağı – qarası yeddi yaşın da bir oğlu var imiş. Uşağın adı Süleyman imiş. Atasının ölümündən sonra balaca, yetim Süleyman Paşa bəyin qapısında qalmayıb genimək istəyir. Amma nədənsə Paşa bəy irəhmə gəlib onu başqa yerə getməyə qoymur ki, özüm saxlayacam. Süleymanın onsuzda gedəsi bir yeri yox idi. Ona görə də qalmağa əlacsızlıqdan razılıq verir. Paşa bəy həmən gündən Süleymanı gah mala, gah buzoya göndərir, gah da qapı bacada işlədir.

Aşıq dili yüyürək olar, Süleyman on üç, on dörd yaşına çatır, boylu-buxunlu, gözəl qamətli, yaraşıqlı, həm də zirək bir oğlan olur. Paşa bəyin oğlandan xoşu gəlir. Günlərin bir günü evə gələndə arvadı Nabat xanımı yanında əyləşdirib deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Arvad, gəl bir məsləhət eyləyək, arvad olsan da, ağıl-ağıldan üstün olar. Mən istəyirəm ki, qızımız Mələyi bu Süleymana verək, özünü də oğulluğa götürək. Elə həm oğlumuz olsun, həm də göyümüz.

Arvad deyir:

– Nə deyirəm, ay kişi, sən bilən yaxşıdı, ağıllı fikirdi. Onsuz da Allah-təala bizə oğul vermədi, bizdən sonra kim bilir bu var-dövlət kimə qismət olacaq. Heç olmasa, öz əlimizlə köçürərik, bilərik ki, kimdi. Ağıllı fikirdir, kişi!

Paşa bəy Süleymanı yanına çağırtdırıb deyir:

– A bala, Süleyman, görürük çox qoçaq oğlansan, əldən zirəksən, xoşuma gəlirsən. Bilirsən ki, mənim də oğlum yoxdu, gözümün ağı-qarası bir qızım var, sən də onu uşaqlıqdan tanıyırsan. Bu gündən qızımız Mələk sənin nişanlındı, bir az keçər toyunuzu da elərəm, özümüz də sizin yanınızda rahat dolanarıq.

Belə deyəndə Süleyman fikirləşir ki, nəsə burada bir kələk var. Yoxsa bu qoca kaftar bu qədər var-dövləti ölsə də mənə verməz. Deyir:

– Bilirsənmi, Paşa əmi, atam öləni altı ildir. O vaxtdan mən sənin qapında muzdurluq eləyirəm, hələ bir qəpik də muzd haqqı verməmisən. Qorxuram bundan sonra da işlədib-işlədib axırda da atam kimi məni də quru muzdur eləyəsən, işlədəsən, aldadasan, qızı da verməyəsən.

Paşa bəy deyir:

– Yox, yox! Nə danışırsan? Bu boyda da zarafat olar? Əyər inanmırsansa, lap bu gündən qazını da çağırtdırım, kəbininizi də kəsdirim, qurtarsın, getsin! Hə, nə deyirsən?

– Yaxşı, bir molla çağırtdır, kəbinimizi kəssin!

Süleyman belə deyəndə Paşa bəy tez ayağa durub bir uşaq göndərir ki tez get qazı ağanı bura çağır, denən xeyir işdir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qazı adını eşidəndə Süleyman deyir:

– Ay Paşa bəy, Hacı Axun qonşuluqdadır, uzağa niyə gedirsən! Elə Hacı Axunu çağıraq, gəlib bizim kəbinimizi kəssin.

Paşa bəy cavab verir:

– Oğul, Süleyman, qazının kəbini ilə mollanın kəsdiyi kəbin bir olmaz. Hər halda molladan qazı böyükdür. Sən işində ol.

Süleyman ağlı kəsir ki, qazının kəbini daha möhkəm olar, dinlənmir. Paşa bəy tez uşaq göndərir qazını çağırtdırır. Qazı gəlir. Qapıdan içəri girir, salam verir, salam alır. Paşa bəy onu görüb deyir:

– Xoş gəlibsən, ay Qazı ağa, buralar sənə peşkəşdir!

Paşa bəyin belə şirin dillə qarşılaması qazının xoşuna gəlir, deyir:

– Paşa bəy, nə əcəb xeyir ola?

– Xeyir olmayanda, nə var ki! Bir xeyir işimiz var.

Qazı deyir:

– Nədir o xeyir iş?

Paşa bəy deyir:

– Kəbin işimiz var, mənim qızım Mələyin kəbinini Süleymana kəs, bunun üçün zəhmət vermişəm.

– Hansıdı Süleyman, qız haradadır?

Paşa bəy Süleymanı göstərib deyir:

– Süleyman bu oğlandır, qız da oynamağa gedib, indi gələr.

Qazı deyir:

– Elə isə qızı da çağırın gəlsin.

Mələyi oynamaqdan çağırırlar. Qazı Mələyin kəbinini Süleymana kəsir, o xeyir-dua verir. Mələk yenə oynamağa qaçır. Qazını da hörmət-izzətnən yola salırlar evinə.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aşıq dili yüyürək olar, günlər ötür, aylar, illər gəlib keçir. Süleyman on səkkiz, Mələk də on yeddi yaşına çatır. Qız başa düşür ki, onun kəbinini Süleymana kəsiblər, özünü də ona ərə vermək istəyirlər. Ondan qaçmağa, gizlənməyə başlayır, ona məhəl qoymur. Bunu hiss edən Süleyman qızın anası Nabat xanıma deyir:

– Nabat xanım, bə belə iş olarmı, Mələk məndən qaçır?

Nabat xanım cavab verir:

– A bala, biz neyliyək, indi zamana dəyişib, özünün ağlı kəsir, getmək istəmir. Odur, qaçıb əmisinin evinə.

Süleyman deyir:

– Mən o vaxtı Paşa bəyə deyəndə ki, axı məni aldadıb atam kimi quru muzdur edəcəksən, mənə dedi, elə iş olmaz, mən kişiyəm, sözüm də birdir. İndi özünüz deyin, mən hara gedim, kimin üstünə gedim?

Nabat arvad dedi:

– Nə bilim, ay bala, get gör əmisigildən yanına salıb gətirə bilərsənmi?

Süleyman evdən çıxıb Mələyin əmisigilə gəlir. Görür ki, Mələk çalmaqda, çağırmaqdadır. Süleyman onu çağırıb deyir:

– Mələk xanım, məndən niyə qaçırsan, sənə nə pislik eləmişəm! Neçə ildir sənə görə o evdə muzdurluq eləyirəm!

Mələk xanım ona tərs-tərs baxıb deyir:

– Geni burdan, tez geni ki, gözüm səni görməsin! Sən hara, mən hara! Get öz adamını tap!

Süleyman deyir:

– Ay qız, altı yaşından sənin ucundan canımı çürütmüşəm!

Mələk deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Havayı yerə çürütmüsən! Mən səni nə vaxt görmüşəm ki!

Süleyman deyir:

– Axı hələ bir neçə il əvvəl bizim bir-birimizə kəbinimiz kəsilib, bə buna nə deyirsən?

Mələk deyir:

– Çox nahaq eləyib, mənim kəbinimi kəsən! Mənim ərə gedən vaxtım indidir. İndi də ağlım kəsir, özüm bilərəm kimə gedərəm! Hər halda sənə getmərəm.

Bundan sonra Süleyman orda durmayıb, bir neçə ağsaqqalın yanına gedir, onlara şikayətlənir. Ağsaqqallar töküllüb Paşa bəyin yanına elçiliyə gəlirlər. Nə qədər eləyirlərsə, Mələk xanım iki ayağını bir başmağa keçirib deyir ki, mən Süleyman adlı adama getmərəm!

Minnnətçilər dağılıb gedir. Aradan xeyli keçir. Bir gün yenə fürsət tapıb Süleyman Mələyə deyir:

– Mələk xanım, mən neçə ildir sənin ucbatından canımı haqsız, muzdsuz çürütmüşəm. Gəl sən məni diri gözlü yandırma! Dur varax gedək!

Mələk xanım hirslənib deyir:

– Kəs, natərəst oğlu, natərəst! Bu gündən sonra sən məni bir də görməyəcəksən! Mən özümə baravar bir oğlan tapıb gedərəm.

Süleyman deyir:

– O necə oğlandı, məndən yaxşıdı?

Mələk xanım deyir:

– Görünür sən dilnən başa düşmək istəmirsən, bir az dayan, sazımı gətirim, saznan, söznən deyim, bəlkə başa düşdün.

Mələk xanım qaçıb evlərindən balaca sazını gətirir, tər sinəsinə basıb görək Süleymana nə deyir, Süleyman ona nə cavab verir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**Aldı Mələk xanım**

Tərlanam laçını taparam indi,
Nə olubdu mənə, sara qalmışam?
Yaxşını, yamanı biləndən bəri,
Gecə-gündüz ahı-zara qalmışam.

**Aldı Süelyman**

Sən tərlansan, sar olsam da qəbulun,
Ucundan atanan nökər olmuşam.
Hələ tifil ikən o vaxtdan bəri,
Çəkməkdən dərdini cana dolmuşam.

Mələk xanım söznən dediyi ki, dilnən də dedi:

– Yadında saxla ki, tərlanın sar ilə dostluğu heç vaxt tutmaz! Qulaq ver gerisinə:

**Aldı Mələk xanım**

Tərlan olan sara eyləməz qılıq,
Yığılsa minnətə yerdəki məxluq.
Fəda olum sana, xudayi-xalıq,
Bəyəm mən keçələ, kora qalmışam!

Süleyman bu yerdə özünü saxlaya bilməyib dillənir:

– Ay qız, məyər mən keçələm, yoxsa koram? Ayvımı de, sonra neyləyirsən elə! Mənim bir ayvım varsa, o da kasıblığımdı, onu da sənin ucbatından atana bağışlamışam. Ayrı ayvım varsa, gizlətmə, de!

**Aldı Süleyman**

Gəlməsin minnətə yüz əlli məxluq,
Könülnə şəfəqqət endirsin xalıq!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Danışma tərsinə biz ki qohumuq,
Sənin ucbatından çora qalmışam.

Mələk xanım dedi:

– Qohumluq başqa şeydi, ərnən arvad bir ayrı. Səninlə mənim ər-arvad olmağım heç vaxt tutmayacaq, əmin ola bilərsən!

Süleyman dedi:

– Axı, niyə tutmur? Buna aldım, allatdım deyərlər. Bəs mənim günahım nədi?

Mələk xanım dedi:

– Görünür, sən məni başa düşmürsən, qulaq as deyim:

**Aldı Mələk xanım**

Qohumluq, yanında qalaram beş gün,
Divanə dərdindən mən oldum düşgün.
İstər öləsən ha, qalmaram üç gün,
Sevib bir laçından soraq almışam

Süleyman dedi:

– Sənin sözündən belə çıxır ki, məni bəyənməyib başqasını tapmısan, eləmi?

– Bəli, elədir! Kefinə bax!

Süleyman dedi:

– Eybi yoxdu, onda mən də öz işimi yaxşı bilirəm, indi qulaq as gör nə deyirəm:

**Aldı Süleyman**

Yaxşı ki, bu başdan bildim işini,
Batırram qaraya yazı, qışını!
Mən görürəm itirmisən başını,
Yəqin bil ki, bulut kimi dolmuşam!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Mələk xanım dedi:

– Mən sənnən nə qorxmuram, nə də utanmıram! İstəyirsən lap düzünü deyim? Onda qulaq as.

**Aldı Mələk xanım**

Laçınım var bunu yəqin bilginəm,
Sarsansa sara da mehman olginən.
İstər çatdaginən, istər ölginən,
Tüfəngsizsən, boş qovura qalmışam?!

Süleyman qıza acıqlanıb deyir:

– Qovurumun boş olduğunu nə bilirsən? Mən sənə həmişə halal baxmışam, bəlkə də səhv eləmişəm, amma, məni qınama, axı mən sənə də, sənin ata-anana da inanmışam. İndi də məni quru yurdda qoyursunuz, axı bu insanlıqdan deyil, adamı yandırıb yaxırsınız. Öyünüzdə böyümüşəm, haram iş görməmişəm, ömrümü, günümü çürütmüşəm, indi məni çölə atmağınız insafsızlıqdı. Mən bir söz demirəm, el qınayar sizi.

Süleyman dilnən dediyi kimi sazı sinəsinə basıb söznən də Mələk xanıma cavab verir, görək nə deyir:

**Süleyman**

Sənin ucbatından yetişdim cana,
Çəkdiyim cəfanı etmə əfsana!
Düzəl doğru yola, lənət şeytana!
Yolunda ömrümə külüng çalmışam.

Mələk xanım hirsli-hirsli deyir:

– Natərəst oğlu, natərəst! Mənnən deyişə-deyişə elə burada oturacaqsan? İşin- gücün yoxdu? Çıx cəhənnəm ol,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

sənə bir toy tutaram ki, ömrün boyu yadından çıxmaz. Bax axır sözümü deyirəm, qulaq as, çıx get!

**Aldı Mələk xanım**

Mələyəm, mənzilə yetirrəm indi,
Kəs səsin, hənrini batırram indi!
Başını bədəndən götürrəm indi!
Sənin tək anlamaz xara qalmışam?!

Süleyman üzünü Mələyə tutub deyir:

– Mələk xanım, bu taxsır nə səndədi, nə məndə! Günah sənin atandadı ki, məni qanmaz sayıb, indi də çəkilib kənarda durur.

Bunu eşidər, eşitməz Mələk xanım dedi:

– Bəri bax, sözün var, söz danış, yoxundu, əkil! Yoxsa burda qurd oğlu kimi vəlvəcir oxuma! Sözünün dalını de!

***Aldı Süleyman***

Haqqın Süleymandan üzü dönübdü.
Yapışmır yarına sözü dönübdü.
Mələyin miskindən üzü dönübdü,
Nə bəd-yığval, bəxti qara olmuşam!

Elə ki, söz tamam oldu, Süleyman daha bir söz deməyib bir başa gəlir Paşa bəyin yanına. Paşa bəy Süleymanın üzünə soyuq baxır, düz-əməlli cavab vermir. Bunu belə görəndə Süleyman deyir:

– Paşa bəy, indi ki, mənə bir düz-əməlli cavab vermirsən, üç yarpaq sözüm var, qulaq as deyim.

Görək biçarə Süleyman Paşa bəyə nə deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

İltimas eylərəm, Paşa bəy, səndən,
Yazığam yarımı alma əlimdən!
Nə dedin ki, ondan boyun qaçırtdım,
Cüda salma vətənimdən, elimdən.

Çox çəkdim cafanı, yetmədim başa,
Yatıfdı yığvalım, dönübdü daşa.
Gümanım gəlməyir qohum, qardaşa,
Ayrı salma o növrəstə gülümdən.

Eylə Süleymanın dərdinə çara,
Vurma mana üstü-üstündən yara!
Gecələrin gecə, gündüzüm qara,
Nə dedim ki, inciyibsən dilimdən?!

Söz tamam olur. Amma Paşa bəy bir dəfə də olsun Süleymanın nə üzünə dönüb baxır, nə də ona bir cavab verir. Bunu görüb Süleyman dinməz-söyləməz göz yaşını axıda-axıda, dərd əlindən başını götürüb Paşa bəyin qapısından gedir. Bir daha qayıtmır.

Üç aydan sonra Mələyi varlı bir bəy oğluna ərə verirlər. Bəy oğlu da Mələyin başında bir əkib, üç biçir. Dəlisovluğundan kəndin cavanları ilə yola getmir. Bir gün onun meyidini Kür çayının qırağında tapırlar. Mələk iki uşaqnan dul qalır, alan olmur. Yanına gedib-gələn də azalır. Hamı deyir Süleymanın qarğışıdı, keçib.

Deyirlər, Süleyman da Paşa bəyin qapısından bir başa Gürcüstana gedir. Bir tavadın işinə yarıyır. Tavad onun qoçaqlığını görüb öz qızını Süleymana verir. Süleyman da keçən günlərini unudub, xoş-firavan yaşamağa başlayır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## MARAL XANIM

Sizə haradan xəbər verim, İstanbul şəhərindən. İstanbulda kimdən deyim, Əhməd paşadan. Əhməd paşanın gözünün ağı-qarası bir qızı var idi. Adına Maral xanım deyərdilər. Özü də on beş, on altı yaşında, qənirsiz gözəl idi. Gözəlliyindən savayı, qayət talantlı, hazırcavab bir şairə olduğundan hər yana xəbər göndərmişdi ki, kim mənim suallarıma cavab versə, ona ərə gedəcəyəm.

Bunu eşidən kamil aşıqlar bir ucdan tökülüb gəlirlər İstanbula, Maral xanımın hüzuruna. Hey meydan sulanır, təmizlənir, deyişmə başlanır, amma heç kim Maral xanımın suallarına cavab verə bilmir. Maral xanım şərtə əməl edib bir-bir bağladığı aşığın sazını əlindən alır, özünü də zindana saldırırdı.

Belə-belə gələn aşıqların sayı otuz doqquza çatır. Bağlanan aşıqların içində Dollu Aşıq Mustafanın şeyirdi Nemət də vardı. Nemət öz ustadı Aşıq Mustafadan ayrıldığına çox peşiman olmuşdu. Ona elə gəlirdi ki, daha hər şeyi bilir, hər şeyə qadirdi. Heç kim onun qabağına çıxa bilməz. İndi görür ki, hələ kaldı, dəyməyib. Son peşmançılıq fayda verməz, deyərlər. Aşıq Nemət peşmançılıq çəksə də artıq gec idi, tora düşmüşdü. Özü də cavanlıq toruna. Maral xanımın cavanlığı, gözəlliyi, bir də şairliyi onu bu tora gətirib salmışdı. Gördü əlac ustadına qalıb, yoxsa burdan onu heç kəs qurtara bilməyəcək. Odur ki, Maral xanıma xəbər göndərir ki, mənim ustadım Dollu Mustafadır. Əyər buraya gələrsə, sən onun əlindən qurtara bilməzsən.

Maral xanım Dollu Mustafanm adını eşitmişdi, amma özünü görməmişdi. Şəyirdi Nemətdən də bunu eşidən kimi maraqlanmağa başladı. Götürüb ona bu məzmunda bir məktub yazdı:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Məndən salam olsun, Aşıq Mustafa,
Əyər aşıq isən, bu meydana gəl!
Sən gəlməsən, şəyirdini öldürrəm,
Durma, qəsd eyləyib şirin cana gəl!

Aşıqları mən qol-qola çatmışam,
Şəyirdini bağlayıban tutmuşam.
Qara mal tək onu dama atmışam,
Sən də bu şamlara ol pərvanə gəl!

Mən Maralam, dediyimi danmaram,
Eşq oduna pünhan-pünhan yanmaram.
Hər aşığın kal sözünü qanmaram,
Sən də bu əhdimə et peymanə gəl!

Maral xanım məktubu büküb bir aşığa verir ki, get, harda olur-olsun, Dollu Mustafanı tap, ona çatdır. Aşıq da Maral xanımın nökərlərindən idi. Xanıma təzim eyləyib, tədarük gördü, alatorandan yola çıxdı. Elbəel, kəndbəkənd soraqlaşa-soraqlaşa gəlib Dollu Mustafanın kəndinə çatdı. Ustadı soruşanda dedilər ki, yaxın kənddə toydadı. Aşıq özünü təcili yetirdi toya. Toy məclisində izin istəyir ki, bir ağız sözüm var, deyim gedim. Ona izn verirlər. Aşıq başlayır Maral xanımın Aşıq Mustafaya yazdığı sözləri oxumağa. Aşıq Mustafa aşığa çox diqqətnən qulaq asır, görür, söz ona deyilir. Özünü sındırmadan cavab verir ki:

– Ay aşıq qardaş, indi sən qulaq as, gör mən nə deyirəm, sözlərimi də yadında saxla, qayıdanda mal yeyəsinin pulunu özünə verərsən.

Aldı aşıq Mustafa:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aldım məktubunu, ay Maral xanım,
Qızılgül tək qulluğuna süzərəm.
Ağır qala olsan, ağır bürc olsan,
İskəndər tək təpik vurub pozaram.

Gözəllikdə deyirlər ki, gözəlsən,
Heyif mənə rast gəlmədin əzəl sən.
Mən gəlincə özyoluna düzəlsən,
Saçlarına bənövşələr düzərəm.

Aşıq meydanında şəyird dayanmaz,
Şəyirdə söz desən, eşitməz, qanmaz.
Mustafa da sözlərindən usanmaz,
Hər topuna, tüfənginə dözərəm.

Bəli, söz tamam oldu, Aşıq Mustafa söznən-saznan dediyi kimi dilinən də başa saldı, cavabını yazdırıb gələn aşığa verdi. Sonra məclis əhlinden üzr istəyib, sazını köynəyinə salıb, bir baş özünü yetirdi evinə.

Mustafanın Pəri xanım adlı bir arvadı vardı. Soruşdu:

– A kişi, nə yaxşı büyün belə tez gəlibsən?

Dedi:

– Arvad, İstambuldan namə gəlib, gərək özümü yetirəm, Nemət dardadı.

Arvad soruşur:

– Əşi, nə darlıq, nə Nemət?

Aşıq Mustafa görür ayaqüstü deməklə arvadı başa düşməyəcək, vay-şüvən qoparacaq, əyləşib ağıllı-başlı, ədəb-ərkanla dedi:

– Bilirsən arvad, İstanbullu Əhməd paşanın qızı Maral xanım namə göndərib ki, 39 aşıq bağlamışam, sənin şəyir-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

din Nəmət də bunların içindədi. Əyər özünü tez yetirməsən, qırxı tamamlayıb hamısını dar ağacından asdıracam.

Pəri xanım bunu eşidən kimi dəli oldu, dedi:

– A kişi, dəli olmamısan ki, burdan İstanbula gedəsən, orada da nə ola, nə olmaya?! Yox, qoymaram. Bizi bu gündə qoyub hara gedirsən?

Aşıq Mustafa gördü Pəri xanım onun Maral xanımın cənginə düşməsindən qorxub ağlayır. Xətrini çox istəyirdi.

Özləri də təzəcə evlənmişdilər. Onun ağlamasına razı qalmayıb, sazı köynəyindən çıxarıb, sinəsinə basdı, zilini zil, bəmini bəm eyləyib üzünü Pəri xanıma tutub görək nə dedi, deyək şad olun:

Ala gözlü nazlı ceyran,
Ahu gözlü yar, gedirəm!
Ölsəm, başına sadağa,
Qalsam, intizar gedirəm!

Bülbül arzular gülləri,
Danışar şirin dilləri.
Gəzərəm qürbət elləri,
Axır bu qərar, gedirəm!

Mustafayam, keçdim candan,
Könül dönərmi canandan?
Əl çəkmişəm xanimandan,
Halal eylə, yar, gedirəm!

Sazı yerinə qoyub, dilnən də Pəri xanımı başa saldı ki, getməsəm, deyərlər qorxdu, gəlmədi. El içində izzətimizi itirərik. Onsuz da mən səndən dönən deyiləm. Lap yüz min Maral xanım olsun, arxayın ola bilərsən.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Pəri xanım yumşaldı. Gördü, «yox» deməklə Mustafa inaddı, dediyindən dönməyəcək. Naçar qalıb, ona xeyir-dua verdi. Əl-ələ verib, öpüşüb görüşdülər, halallaşıb ayrıldılar.

Aşıq Mustafa İstambula tərəf üz tutdu. Yolda, alagözlü Pəri xanımı yadına düşdü, çünki, onu ağlaya-ağlaya qoyub gəlmişdi. Sazı köynəyindən çıxarıb üzünü vətənə tərəf çevirib görək nə dedi:

Gözüyaşlı səni qoyub gedirəm,
Yanar ürəyimə od saldın, Pərim!
Mənim günahımdan, ağlım ucundan,
Ağlaya-ağlaya tək qaldın, Pərim!

Baxıram yollara, çınqıldı, daşdı,
Əyri-üyrü yollar mənə yoldaşdı.
Göylü biçənəklər şaldı, qumaşdı,
Ağlımı sərimdən sən aldın, Pərim!

Sənə tay etmirəm min bir nadanı,
Ölləm, eşitməsəm sənin sədanı.
Mustafayam, allam dərdi-qadanı,
Sevdiyim gözəl də sən oldun, Pərim!

Sözünü tamam eyləyib yenə xeyli yol getdi, gəlib İstambulun yaxınlığında dayandı. Fikirləşdi ki, yorulmuşam, bir az dincimi alım, sərinləyim, sonra durub gedərəm. Özü də bərk acmışdı. Pəri xanımın qoyduğu azuqəni heybəsindən çıxarıb qabağına qoydu. Doyunca yedi, yaxınlığındakı axar sudan da su içdi, əl-üzünü tər-təmiz yuyub ayağa qalxdı. Gəlhagəl gəlib Ballı gölə çatdı. Bir az da burada əyləşib dincini aldı. Elə getmək istəyirdi ki, gördü üç gözəl-göycək xanım bağdan gül dərib evlərinə qayıdırlar. Bunlar-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

dan biri sən demə, paşa qızı imiş. Özü də çox dilavər. Aşıq Mustafanı görən kimi ona yaxınlaşıb dedi:

– Əfəndim, yanşaxmısan?

Mustafa onu başdan ayağa süzdü, mahcamalını nəzərdən keçirib gördü ki, çox şütaq qızdı. Dedi:

– Bəli, xanım, yanşağam! Qız dedi:

– Bizə bir qaç söz ayıtamısan?

Mustafa da elə bunu gözləyirdi. Dedi:

– Niyə ayıtamıram, xanım, Sizə sözüm də qurvandı, sazım da!

Tez sazını köynəyindən çıxartdı, «Osmanlı divanisi» ilə görək qızlara nə dedi, qızlar nə eşitdi, deyək şad olun:

Bu bağda bir gözəl gördüm,
Dişləri mərcan kimidi.
Bu bağda gördüyüm qızın
Döşləri fincan kimidi!
Nə ola sarmaşax, yatax,
İkimiz də bir can kimi.
Sən mənim ol, mən də sənin,
Bəzənibsən canan kimi.
Özü bir gül, saçı sünbül,
Qəddi də dal əcəm qızı.

Bu bağda gördüyüm qızın,
Zərlibası narıncıdı.
Gecə-gündüz divanəyəm,
Dərdindən can zarıncıdı.
Kətan köynək, qızıl düymə,
Astaca sıx, nar incidi.
Özü bir gül, saçı sünbül,
Qəddi də dal, əcəm qızı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qürbət eldə Mustafaya,
Verirsən çox əziyyəti.
Qərib yerdə sən də mənə,
Gəl eyləmə heç minnəti.
Ləbləri şəhdi-şəkər,
O, içirtsin bal şərbəti.
Özü bir gül, saçı sünbül,
Qəddi də dal, əcəm qızı.

Mustafanın belə ürəklə oxuması, dediyi sözlər qızların çox xoşuna gəldi. Dedilər:

– Aşıq, bəs nərədən gəlib, nərəyə gediyorsun?

Mustafa bilirdi ki, qızlar mütləq bunu soruşacaqlar. Dedi:

– Gözəl xanımlar, indi ki, soruşdunuz, izin verin deyim.

Sazı sinəsinə basıb görək xanımlara nə dedi:

Sənə ərz eyləyim, ey gözəl xanım,
Maral xanım o divana istəyib.
Çağırıb gedirəm, yoxdu çarası,
Namə yazıb, qana-qana istəyib.

Namə yazıb: qırx aşığı tutmuşam,
Qollarını dallarından çatmışam.
Qul deyibən mən Misirə satmışam,
Qəsd eləyib, şirin cana istəyib.

Mustafa da qorxu bilməz canından,
Əl çəkdim dövlətli xanimanımdan.
Mərdlər qaça bilməz haqq divanından,
Mənsur kimi çəkə dara, istəyib.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qızlar İstambullu Əhməd paşanın qızı Maral xanımın adını, hökmünü eşitmişdilər. Odur ki, mətləbi başa düşdülər. Aşığa da bir az gül verib yollarına davam etdilər. Mustafa da sazı köynəyinə salıb yola rəvan oldu. Gəlib yetişdi İstambul şəhərinə. Soraqlaşa-soraqlaşa gəlib çıxdı Maral xanımın iqamətgahına. Maral xanıma xəbər verdilər ki, qırxıncı aşıq gəlib çıxıb. Adı da Mustafadı.

Mustafa adını eşidən kimi Maral xanım sazını götürüb salamsız-kalamsız onun qənşərində dayandı, meydana çıxdı. Aşıq Mustafa başqa cür fikirləşirdi. Gördü, yox, Maral xanım heç ona məhəl qoymadı, sa-lam da vermədi, dedi:

– Əyə, bu haranın həyasızıdı, mən gəldim, düçar oldum. Gərək buna yaxşı cavab verəm, yoxsa məni də zorlayıb o birilərinin yanına salar.

**Aldı aşıq Mustafa**

Bu yolda keçdim canımdan,
Əl çəkdim xanımanımdan.
Öpərəm dil-dəhanından,
Dərdinə dərman eylərəm.

Maral xanım gördü Aşıq Mustafa bir başa gəraylıya keçdi, bir söz deməyib aldı dübarə:

Görünür doyubsan cana,
Zərbimi göstərrəm sana.
Danışırsan yekəxana,
Canını al-qan eylərəm!

**Aşıq Mustafa**

Hələ cana doymamışam,
Yad gözələ uymamışam.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Baş yastığa qoymamışam,
Dilini şan-şan eylərəm!

**Maral xanım**

Mən Maralam, ağlamışam,
Çoxlarını dağlamışam.
Otuz doqquz bağlamışam,
Səni də sarvan eylərəm!

**Aşıq Mustafa**

Mustafayam, yetişmişəm,
Eşqin badəsin içmişəm.
Yolunda candan keçmişəm.
Gəl, sənə qurban eylərəm!

Söz tamam oldu. Maral xanım dedi:

– Aşıq, yaxşı vaxtında gəlmisən, yazıqlar da, mən də neçə gündür əziyyət çəkirik. Elə səni də indi onlara qataram, şərtim tamam olar. Hamınızı birdən dar ağacından asdıraram.

Aşıq Mustafa rişxəndlə dedi:

– Nə deyirəm, xanım, indi ya şələ lələni basar, ya da lələ şələni.

Maral xanım nökərlərini çağırıb hökm verdi. Meydan sulandı, süpürüldü, düzəldi, sahmana düşdü. Aləm tökülüb gəldi. Vaxt tamam olan kimi Maral xanım özünə də min yerdən ziynət verib girdi meydana. Dedi:

– Aşıq, hazırlaş!

Aşıq Mustafa dedi:

– Xanım, mən çoxdan bərədəyəm, ov gözləyirəm!

Əvvəl sözü Maral xanıma verdi.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**Maral xanım**

Səndən xəbər alım, ay gələn aşıq,
O nədi ağ üstə qara düşübdü?
Neçə şeydən xəlq ediblər insanı,
Əvvəl Adəm nə diyara düşübdür?

**Aşıq Mustafa**

Sənə xəbər verim, ay Maral xanım,
Mürəkkəb - ağ üstə qara düşübdü.
Dörd cür şeydən xəlq ediblər insanı,
Əvvəl Adəm Sərəndara düşübdü.

**Maral xanım**

O nədi ki yemədilər, doydular?
O nədi ki qiyamətə qoydular?
O kimiydi dərisini soydular?
O kimdi quyuda zara düşübdü?

**Aşıq Mustafa**

Behişt meyvəsidir baxıb doydular,
O sorğudu, qiyamətə qoydular.
O Mənsurdu, dərisini soydular,
Loğmandı, quyuda zara düşübdü.

**Maral xanım**

Maral deyər, qurtarmazsan əlimdən,
Baş açmazsan mənim fəndi-felimdən.
Niyə gəldin məkanından, elindən?
Aşıqlar sözümdən zara düşübdür!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**Aştq Mustafa**

Mustafayam, mən çəkirəm bəlanı,
Eşitmişəm çoxdan bəri sədanı.
Polad olsa, dağıdaram qalanı,
Canın da qorxudan nara düşübdü!

Söz tamam olan kimi yerbəyerdən aşıq Mustafaya "əhsən" dedilər. İndiyənə qədər Maral xanımın qabağına çıxan olmamışdı. Aşıq Mustafanın zor aşıq olduğunu bilib sevindilər. Aşıq Mustafa camaatın ona «əhsən» dediyini görüb daha da ürəkləndi. Üzünü Maral xanıma tutub dedi:

– Xanım, izin versəniz, indi söz mənimdi. Maral xanım da özünü sındırmayıb dedi:

– Buyur, görək nə höccələyirsən!

**Aldı aşıq Mustafa**

Sübh zamanı bir məclisə uğradım,
Gəldim, gördüm, nə qovğadı, nə qaldı.
Nə sürahi, nə piyalə, nə camı,
Nə boş saxla, nə yerə qoy, nə oldu.

Maral xanım nə qədər çalışdısa, bu qıfılbəndi aça bilmədi. Dedi:

– Aşıq, o biri bəndini də de, hamısını birdən açacam.

Aşıq Mustafa bir söz deməyib aldı dübarə:

O nədi ki, qız-gəlinlər taxıbdı?
Sərraflar da qiymət qoyub, baxıbdı.
Nə dənizdən, nə dəryadan çıxıbdı,
Nə yaqutdu, nə gövhərdi, nə ləldi?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Maral xanım bu bəndi də aça bilmədi. Amma özünü sındırmadan dedi:

– Aşıq, dalını de, hamısına birdən cavab verəcəm.

**Aşıq Mustafa**

Axır gördüm işlər yetər tamama,
Səccərlər baş tutar, gələr salama.
Bostançı bəsləyib bir cüt şamama,
Nə yetgindi, nə ötgündü, nə kaldı?

Maral xanım bu bəndi də aça bilmədiyindən pərt olub ağladı. Yerbəyerdən aşıq Mustafaya «əhsən» deyildi. Amma aşıq Mustafa Maral xanımın pərt olduğunu duyub ona təsəlli verməyə başladı:

Dollu Mustafayam, sənə qıymaram,
Öz Pərimdən qeyrisinə uymaram.
Gedərgisən, səni burda qoymaram,
Farağat ol, de, yerində nə qaldı?

Söz tamam olan kimi Maral xanımın yanaqları allanmış, pörtmüş bir vəziyyətdə irəli yeriyib sazını yığılanların gözü qabağında aşıq Mustafaya uzatdı, dedi:

– Aşıq Mustafa, mənim canım da, qanım da sənə haladı! Nə istəyirsən elə. Daha mən əhdimə çatmışam. İndiyənə qədər məni bağlayan olmamışdı. Əhd eləmişdim ki, kim məni bağlasa,ona erə gedəcem. İndi ixtiyar sənindi, necə istəyirsən, elə et.

Aşıq Mustafa Maral xanımm sazını əlindən alıb yana qoydu. Dedi:

– Xanım, zəhmət olmasa, əvvəl o zindanın ağzını açdır, qoy o fağır-füğara çıxıb dərdinə, azarına getsin.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Maral xanım o dəqiqə göstəriş verib zindanın ağzını açdırdı. Rəngi-ruhu qaçmış aşıqlar bir-bir zindandan bayıra çıxıb dərin nəfəs aldılar. Nemət hamıdan qabaq gəlib durdu ustad aşıq Mustafanın yanında. Görüşüb öpüşdülər. Dedi:

– Ustad, sən gəlməsəydin, ürək-göbəyimizi yemişdik. Dedik, daha o dünyalığıq. Səsimizə, ünümüzə gələn də olmayacaq, ele bu qürbətdə batıb qalacağıq. Şükür ki, gəlib çıxdın.

Sonra da üzünü Maral xanıma tutub dedi:

– Xanım, bizi uşax-muşax görmüşdün! Gör kü, belələri də var, ha!

O biri aşıqlar da gəlib aşıq Mustafaya baş əydilər, "sağ ol" dedilər. Aşıq Mustafa onların sazlarını da alıb özlərinə verdi. Burada yeddi gün, yeddi gece toy vurdurub Maral xanıma gəlinlik paltarı geyindirdi. Dedi:

– Maral xanım, mənim öydə gözdüyənim var, sən ki, öz ixtiyarını mənə verirsən, mən də səni öz şəyirdim Nemətə bağışlayıram, o subaydı, məndən də cavandı. Gedin xoşbəxt olun!

Maral xanım bir kəlmə də olsun söz deməyib, əlini Nemətə uzatdı. Sonra da kəcavələr yükləndi, hər üçü birlikdə vətənə doğru getməyə başladılar.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## AŞIQ HÜSEYNLƏ REYHAN XANIM

Qulluğunuza ərz eyləyim Naxçıvandan. Naxçıvanda Ağ keşiş deyilən mötəbər bir şəxs olur. Xan, bəy, qubernator ən çətin işlərdə onunla məsləhətləşir, ona qulaq asarmışlar. Elm, savad məsələsində keşişin şöhrəti hər yana yayılıbmış. Onun Reyhan adında gözünün ağı-qarası gözəl bir qızı varmış. Keşiş qızının savadı ilə özü məşqul olur. Təbabət elmləri ilə yanaşı, "İncil"i də ona tamam-kamal öyrədir. Sonra da bir elmli axundun yanına qoyub Quranı da ona öyrətdirir. Qız o qədər savadlanır ki, ən elmli adamlarla mübahisəyə girişir. Keşiş üləmaların söhbətində həmişə qızı Reyhanı da əyləşdirir. Qız böyüdükcə də gözəlləşir. Atası ona həmdəm üçün bir neçə kəniz də tutur. Qızlar Reyhanı qəm-qüssədən qoruyur, ona maraqlı söhbətlər eyləyir, hərdən bir bağa, bağçaya gəzməyə aparırlar. Amma vaxtın çatdığında elmlə gözəllik birləşib qıza təlatüm eyləyir. Reyhan xanım hərdən toylara gedir, aşıqlara qulaq asır, aşıqların söylədiyi eşq dastanlarını öyrənir. Özü də hərdən zümzümə eyleyir. Görür cürəsiz zümzümə də yaxşı səslənmir. Nəhayət, bir cürə də aldırır. Ona yaxşı bər-bəzək vurdurur. Ləmpənin, günün işığında cürənin şövqü Reyhan xanımı gözəlləşdirir, Reyhan xanımın da şövqü cürəni. Reyhan xanımın eşqi topuğuna vurur. Kim də elçiliyə gəlirsə, heç kəsi bəyənmir. Axır eşqin təsirindən özündən nəğmələr qoşub oxuyur, şerlər düzür.

Bir gün Reyhan xanım eşq dastanlarını oxuyarkən eyninə belə bir fıkir gəlir: mən də dastanlardakı qızlar kimi buraya gələn aşıqlarla deyişib sazlarını əllərindən alacam. Hansı da məni bağlasa, ona gedərəm.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bu qədər ki, o, oxumuşdu, doğrusu, eyninə gəlmirdi ki, onu bağlayan olar. Ona görə də kənizlərinə, nökərlərinə göstəriş verir ki, əlinizə aşıq keçən kimi tutun mənim yanıma gətirin! Ya gərək mənimlə deyişə, ya da sazını əlindən alıb, özünü də qabağımda qul edəcəyəm.

Bu minvalla Naxçıvan ətrafında nə ki, aşıq vardı, hamısını bir-bir bağlayıb, sazlarını əllərindən alır. 18 aşığı bəndə salır. Yenə də gözü ovda, quşda olur ki, birdən kamil aşıq gələr. Beləliklə, Reyhan xanımın sözü, söhbəti bütün Qafqaza yayılır. Çox aşıqlar qorxusundan Naxçıvana getmir ki, keşişin qızının əlinə keçər.

İndi sizə deyim bəndə düşən aşıqlardan. Reyhan xanım onlara çox əziyyət verirdi. Gah qapı təmizlədir, gah arx çəkdirir, gah quyu qazdırır, bağ becərtdirir, yer əkdirir. Aşıqlar bu işdən lap təngə gəlirlər. Bir günləri istirahət edərkən fikirləşirlər ki, biz nə vaxta qədər belə qara günlə dolanacağıq. Gəlin yada salaq, görək bizi bu əziyyətdən kim qurtara bilər. Yadlarına düşür ki, Şəmkir mahalında Hüseyn adlı bir aşıq peyda olub. Dünyanın bütün sirlərinə bələddi. Hələ onun qabağına çıxan olmayıb. Bəli, qələm, kağız tapıb Aşıq Hüseynə belə bir məktub yazırlar: "Aşıq Hüseyn, aman günüdü, gümanımız bir sana gəlir, Naxçıvanlı Ağ keşişin qızı gözəl Reyhan xanım bizi bəndə salıb. Gəl bizim canımızı onun əlindən qurtar, özünü də bağlayıb özünə kəbin elə!"

Aşıqlardan biri kağızı yaxın dostlarının vasitəsilə Aşıq Hüseynə göndərir. Namə gəlib Aşıq Hüseynə çatır. Aşıq Hüseynin əlində xeyir iş olduğundan tez-tələsik yola düşə bilmir.

İndi sizə xəbər verim Naxçıvanlı Kəlbah xandan. Reyhan xanımın bu hərəkəti Kalbalı xana bərk toxunmuşdu: necə ola bilər ki, bir keşişin qızı on səkkiz cavan aşığı tora salıb qapısında muzdsuz, haqsız nökər eləsin! Bir nəfər



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

qabağına "İncil" bilən erməni aşığı çıxmır, gələn it uşağının hamısı Sadiq əhlidi! Yox, buna dözmək olmaz.

Amma Kalbalı xan fikirləşir ki, burada zor işlətmək olmaz, bura açılmış bir meydandı, hünər meydanı. Buraya elə bir kamil ustad tapıb gətirmək lazımdır ki, bu on səkkiz aşığın da canı qurtarsın, özü də bu mələyi alıb savaba batsın.

Kalbalı xana xebər verirlər ki, aşıqlar öz talelərini Şəmkir mahalında bir kamil ustad aşıq peyda olub, ona tapşırıblar. Kağız yazıb onu döyüşə dəvət eyləyiblər. Amma bilmirik, Aşıq Hüseyn onların sözünü eşidib gələrmi?

"Aşıq Hüseyn, əgər doğrudan da kamil aşıqsansa, gel, mənim xətrim üçün bu on səkkiz beynavanı buradan qurtar, nə istəsən nəmərini mən verib yola salacam. İmza: Naxçıvanlı Kalbah xan."

Bəli, qasid naməni gətirib Qaracəmirli kəndində Aşıq Hüseynə yetirir. Aşıq Hüseyn bu kağızı da oxumaqda olsun, sizə danışım Keşişin qızı Reyhan xanımdan.

Hardansa öyrənib bütün bunları Reyhan xanıma xəbər verirlər. Xeyli fikirləşdikdən sonra belə qərara gəlir ki, yaxşısı budur Aşıq Hüseynə mən özüm məktub yazıb dəvət eyleyim. Çünki, özü gəlsə, dili mənim üstümdə olar. Qoy elə bilsin, nə aşıqların, nə də Kalbalı xanın namələrindən mənim xəbərim yoxdu.

Tez kənizləri çağırtdırır. Kənizlərindən birinin adı Nərgiz xanım idi. Ona tapşırır ki, ağzımdan nə çıxsa, kağıza köçür, Aşıq Hüseynə göndərəcəyəm.

Qız tez kağız, qələm hazırlayıb Reyhan xanımın oxumasını gözləyir. Reyhan xanım cürə götürüb basır sineyi-sandığa ki, cüre yumru, hər ikisi bir-birinin şövqündən dilə gəlir. Alır görək Reyhan xanım nə deyir, Nərgiz xanım necə yazır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

***Reyhan xanım***

Namə, yetər olsan Aşıq Hüseynə
Baş götürüb bu meydana de gəlsin!
Aşıqlıq elmindən xəbərdar isə,
Qəvvasdırsa, bu ümmana de gəlsin!

Doğrudan da mövlam ona yar isə,
Divani, təcnisdən yükü var isə,
Sinədən deyənsə, təbibdar isə,
Xirid olsun, dür - əfşana de gəlsin!

Xan Arazın doğan dan ulduzuyam,
Məclislərin söhbətiyəm, sazıyam.
Naxçıvanlı Ağ keşişin qızıyam,
Adım bilsin: ol Reyhana, de gəlsin!

Söz tamam olan kimi Nərgiz xanım da yazıb qurtarır. Naməni qoyurlar bir zərfin içinə. Reyhan xanım nökərlərindən bir-ikisini çağırıb tapşırır ki, görün karvansarayda Gəncə adamı varmı?

Nökərlər bir baş karvansaraya qaçıb soraqlaşırlar. Nəhayət, Arabaçı İrza adlı birisi Gəncədən gəldiyini bildirdi. O, buraya duz almağa gəlibmiş. Yükünü tutub, geri qayıtmaq ərəfəsində ikən Reyhan xammın nökərlərinə rast gəlir. Nökərlər onu birbaş Reyhan xanımın hüzuruna aparırlar. Reyhan xanım cibindən çıxarıb ona bir onluq verir, deyir:

– Xahiş edirəm, bu kağızı mən sənə verən kimi sən də öz əlinlə Aşıq Hüseyinin özünə çatdırasan! Özgə əlinə düşməsin, ha, bax, elə şərt kəsirəm ki, samanlıqda davamız düşməsin.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Arabaçı İrza sevindiyindən az qalır Reyhan xanımın əllərindən öpə. Çünki bir dəfə səfərə gələndə on manat qazanmırdı. İndi isə heç yerdən on manat pul verirlər. Dedi:

- Xanım, hələ dilimə yalan gəlməyib, and olsun oxuduğun "İncil"ə! Tam arxayın ola bilərsən. Mütləq çatdıraram.

Arabaçı İrza karvansara sahibinin pulunu da verib, gecə-gündüz dayanmadan yol gedir. Axır gəlib Gəncəyə çatır. Arabanı boşaltmamış arvad-uşağa tapşırıb özünü yetirir Şəmkirə. Orada soraqlaşıb bir baş Qaracəmirliyə gəlir. Aşıq Hüseyni tapır. Bu zaman Aşıq Hüseynin damağının cağ vaxtı idi. Toydan yenicə gəlib, xeyli nəmər də getirmişdi. Birdən adam gəldi ki, səni bayırda çağırırlar. Elə bildi, yenə toya dəvət edirlər. Kişi kağızı çıxarıb Aşıq Hüseynə verəndə Aşıq Hüseynin rəngi qaçdı. Özünün savadı vardı. Tez açıb oxudu. Kağızın Reyhan xanımdan olduğunu görəndə rəngi, urfu qaçmış, arabaçı İrzaya dedi:

– Evin yıxılsın, sən oralarda nə gəzirdin, bu kağızı mənə gətirib çıxartdın?!

Arabaçı İrza da söz altda qalan adam deyildi.

Dedi:

– Belə evin də yıxılsın, çırağın da keçsin! Əgər aşıqsansa, onda get, o aşıqlar da yazıqdır, canlarını zülümdən qurtar!

Arabaçı İrza sözünü deyib geri qayıtdı. Aşıq Hüseyn bir saat özünə gələ bilmədi. Xeyli bayırda qalıb fikirləşdi:

– Mən ustadıma deməmiş, məsləhət eyləməmiş getsəm, düzgün olmaz. Yox, ustadıma deməliyəm.

Aşıq Hüseyinin ustadı Alabaşlı kəndində yaşayan Kərbalayı Bağır idi. Bir müddət aşıqlıq eyləmişdi. Hətta "Məzlum" ləqəbi ilə qoşmalar da demişdi. Amma indi qocal-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

dığından aşıqlıq etmir, dəmirçiliklə məşğul olurdu. Ara bir gözəl şerlər qoşub aşıqlara, şəyirdlərinə verib oxudardı.

Aşıq Hüseyn səhər tezdən durub atını minir, kağızı da götürüb bir baş Alabaşlıya gedir. Atı dəmirçixananın dirəyinə bağlayıb içəri keçir.

– Salam, ay usta, kefin necədi, nə qayırırsan?

– Əleyküm salam, ay bala, bir təhər keçinirik. Sizlərdə bə nə var, nə yox, necə dolanırsınız?

Aşıq Söyünün dili söz tutmadı. Ustad gördü şəyirdinin rəngi arpa çörəyi kimi bombozdu. Yanlarındakı adamlardan çəkinmədən sözə başladı:

– Oğul, mən sənə kefın istəyən zəhmət çəkmişəm. Elə get, gəl ki, şəklin yadımdan çıxmasm. Görürəm, irəngin bərk qaçıb, yəqin qorxubsan. Bir danış görüm, nə var, nə yox?

Aşıq Hüseyn evdən çrxanda sazı da özü ilə götürmüşdü. Dinməz, söyləməz sazı köynəyindən çıxarıb, köklədi. Dedi: Ustad qulaq as, söznən deməyə dilim gəlmir, sazla deyəcəyəm. Amma Məzlum onu qabaqlayıb deyir:

Salam duan gəldi, ey nuri çeşmim,
İstəyibdir, o meydana getginən!
Məndən dərs almısan, tanıram səni,
Oğul, qorxma, sən mərdana getginən!

**Aşıq Hüseyn**

And içdi qasidi gördüm üzünü,
Çox tərif eyləyir işvə, nazmı.
Sən də görsən bəyənərsən özünü.
Çox baş atıb, yekəxana istəyib.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**Məzlum**

Keşiş qızıdırsa, zatı gödəkdir,
Salıbdır araya nə qovğa, cəngdir!
Oxuduğun kitab sənə köməkdir,
Əbruləri ol kamana getginən!

**Aşıq Hüseyn**

Aşıq Hüseyn sözü deyər aşkara,
Sidqimi bağlaram kani səttara.
Mən gedəcəm, əgər olsam səd-para,
Doğrusu ki, tülküyana istəyib.

**Məzlum**

Məzlum səni istər hər leylü-nahar,
Qocalmışam, əldən gedib ixtiyar.
Dağıt qalasını, eylə tarimar,
Əyan eylə, hər divana, getginən!

Düşmənin ömrü tamam olsun, söz tamama yetişir. Aşıq Hüseyn halal-hümmət eyləyib öz ustadından ayrılır. Bir baş gəlir öz evinə. Arvadına deyir:

– Arvad, mənim uzaq səfərim var, yaylaq köçü olanda həmişə piti və fəsəli bişirərlər. Zəhmət çək mənə tədarük gör, uzaq yol gedəcəyəm.

Arvad təəccüblə soruşur:

– Səfərin harayadır, ay Hüseyn?

– Arvad, Naxçıvana gedəcəyəm.

Neçə vaxt idi ki, Aşıq Hüseyn evindən, eşiyindən çıxıb Dərbənd tərəfə toya getmişdi. Oradan da qayıdan kimi bir baş Tiflisə qonaqlığa aparmışdılar. Cəmi bir gün idi ki, gəlmişdi. Yeni arvad-uşaq sevinirdi ki, indi də Reyhan xa-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

nım çağırmışdı. Elə buna görə də arvadın bərk acığı tutur, deyir:

– Sənin bu səfərin heç mübarək olmasın!

Aşıq Hüseyn arvadını çox sevirdi. Bilirdi ki, arvadı da onu sevir. Odur ki, xətrinə dəymirdi. Soruşur:

– Arvad, bu "alqış"ın səbəbini də izah eləsən, pis olmaz.

Arvad deyir:

– Ay rəhmətliyin oğlu, ilimiz üç yüz altmış altı gündür, qırx səkkiz həftədir. Heç olmasa bunun bir həftəsini də öz veranxananda otur dana! Səni teleqramnan, zadnan ki, istəmirlər! Yaxud, boynunun dalında əli qılınclı ha durmur!

Aşıq Hüseyn deyir:

– Axı, ay arvad, birini bilirsən, birini də bilmirsən, olmaz!

– Niyə olmur ki?

– Ona görə olmaz ki, on səkkiz aşığın gözü yoldadır. Məni gözləyirlər. Gərək gedim onları qurtarım.

Bunu eşidəndə arvad bir qədər yumşaldı, deyir:

– Neyləyim, gedirsən, get, uğur olsun!

Tez Aşıq Hüseyn bir-iki beçə öldürür, arvad da əl-ayaq eyləyir, onları soyutma bişirirlər, piti, fəsəli hazırlayırlar.

Hər şey hazır olanda, Aşıq Hüseyinin ürəyi kövrəlir, gəlir arvadının yanına, sazı köynəyindən çıxarıb yanıqlı-yanıqlı oxumağa başlayır:

Yari vəfadarım, gəl halallaşaq,
Hökm budur, Naxçıvana gedirəm.
Bir ağır səfərdir, gedən qayıtmaz,
Dolubdur peymanam, qana gedirəm.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qonum-qonşu, camaatla düz dolan,
Bir həyətə çıxma, çölə az dolan.
Göz yaşınla bağla dəftər, yaz dolan,
Getməz idim, mən peymana gedirəm.

Yar gərəkdir, olsun yara vəfadar,
Ərz edirəm, könlümdə hər nəyim var:
Əbəs yerə çəkmə məndən intizar,
Mərd-mərdana, o meydana gedirəm.

Gəl sənə söyləyim, sözümün düzü,
Sinəmə salıbsan bir yanar gözü.
Alim olsa belə keşişin qızı,
Söz vermişəm, o canana gedirəm.

Söyünəm, söz ilə doludur sinəm,
Yaraşmır o qara gözlərinə nəm.
Tanrıdan bir sağlıq, bir də can istəm,
Mətləbimi qana-qana gedirəm.

Sözünü tamamlayıb, Aşıq Hüseyn atın belinə qalxır, ayaq üzəngiyə, diz qabırqaya qoyub yəhərin üstündə qərar tutur. Günə bir mənzil, təyyi-münəzzil, yol gedib Böyük Yoxuşdan aşır. Gəlib Göyçə mahalına çıxır. Sədənəxas kəndinə çatanda qaranlıq düşür. Gecə burada bir tanışın evində dincəlib, səhəri yenə yoluna davam eyləyir. Axşamatan at sürüb, Göyçə dənizinin kənarındakı Örkülü kəndinə çatır.

Örkülü kürd kəndidir. Gün bathabat vaxtı Aşıq Hüseyn öz-özünə fikirləşirdi ki, burada indi kimə qonaq qalım, dostum yox, tanışım yox. Bu fikirlə kəndin içərisi ilə at sürürdü. Bir də görür ki, bir adam səbətə saman doldurub apa-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

rır. Atını sürüb özünü ona yetirir. Salam verir. Həmin adam Aşıq Hüseynə zəndlə baxıb salamını alır. Deyir:

– Aşıq Söyün, xoş gəlibsən!

Aşıq Hüseyn soruşur:

– Çox sağ ol, qardaş, bəs sən məni nə tanıyırsan?

– Sən bizim kənddə söhbət eyləyəndə görmüşəm. Sənə çox qulaq asmışam. O vaxtdan tanıyıram. Buyur gedək, mənim qonağımsan.

Aşıq Hüseyn sevinir ki, Allah elə yaxşı rast saldı. Mən qonaqçı axtarırdım, bu özü minnətçi oldu.

Kişi Aşıq Hüseyni evinə qonaq aparır, nə ki, lazımdı ona hörmət eyləyir. Yemək - içməkdən sonra iki nəfər oğlan içəri girib qonaqçıya salam verir, onunla öz dillərində nə isə danışırlar. Söhbətin arası kəsəndə Aşıq Hüseyn ev sahibindən soruşur ki, bu oğlanlar kimdir, nə deyirlər?

Ev sahibi deyir:

– Bilirsənmi, Aşıq Söyün, bizim kənddə toy var, buraya gələndə səni görüb tanıyıblar. İndi bu oğlanlar sənin dalınca gəliblər ki, gərək toya gedək.

Aşıq Hüseyn deyir:

– Bilirsənmi, qardaş, mən gedə bilmərəm. Çünki səfərim var.

Ev sahibi deyir:

– Aşıq Söyün, bilirsənmi, toy eyləyən adam bu yerin ağasıdı, əgər getməsən, bir bəhanə ilə mənim tufanamı dağıdar. İndi mən səni məcbur eyləyə bilmərəm, özün bilirsən.

Aşıq Hüseyn əlacı kəsilir, ayağa qalxır, sazını da götürüb gedənlərlə birlikdə, ev sahibini də götürüb toya gedir.

Aşıq Hüseyn toy qapısından içəri girəndə görür camaat taxtda əyləşib onu gözləyirmiş. Oturanlar bir ağızdan:

– Aşıq, xoş gəlmisən! – deyirlər. Zurnaçıların səsini kəsdirirlər ki, siz gedin, bir qədər də arvadların məclisində



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

çalın. Qoyun aşığa qulaq asaq. Zurnaçılar öz dəstəsini arvadlar məclisinə çəkirlər. Aşıq Hüseyn sazını çıxarıb kökləyir, zilini zil, bəmini bəm eyləyib camaata baxır. Görür heç kəsdən səs çıxmır. O da bildiyi, sevdiyi havalardan çalıb oxuyur. Bir vaxt gözünü açıb görür qapıdan bir bölük qız, gəlin içəriyə dolur. Hamısı da al-qumaş, xara, tirmə şal geyinib. Bunları görəndə Aşıq Hüseyn daha da coşa gəlir, ucadan oxumağa başlayır.

İndi sizə xəbər verim bu dəstədən. Bu, Həso xanın qızı Xasa xanımın dəstəsi olur. Eşidirlər ki, kişilərin məclisinə aşıq gəlib, Xasa xanımın təklifi ilə yığışıb buraya gəlirlər. Aşığa diqqətlə qulaq asır, kefləri açılır. Söz-söhbət qurtaranda Xasa xanım belə bir tapşırıq verib gedir:

– Heç kəsin ixtiyarı yoxdur ki, bu gecə aşığı öz mənzilinə aparsın. O, bu gecə mənim qonağımdır.

Camaat dağılanda Aşıq Hüseynin qonaqçası dillənir:

– Aşıq Hüseyn, yedik, içdik, toyumuzu da eylədik, di dur gedək evimizə, dincələk.

Elə bunu eşidən kimi bir nəfər oğlan sağ yandan dillənir:

– Heç kəs bu gecə aşığı aparmasın, aşıq bu gecə Xasa xanımın qonağıdır, tapşırıb gedib.

Aşıq Hüseynin qonaqçısı bir söz deməyib Aşıq Hüseynin üzünə baxır, çiyinlərini çəkir, deyir:

– Aşıq Hüseyn, çağırılan yerə ar eyləmə, get! Bəli, Aşıq Hüseyn də ar eyləməyib gedir. Qapıdan içəri girəndə otağa nəzər salır. Baxır ki, bir bəzək vurublar gəl görəsən, elə bil bayramdı. Sazını bir səmtə qoyub oturmaq istərkən ləyən, aftafa, məhraba gətirirlər. Aşıq Hüseyn əl-üzünü yuyur, qurulayır, keçib əyləşir. Süfrə açılır, xörək, çörək gətirilir. Görür bu süfrə gündə gördüyü süfrələrə bənzəmir, bu çox baha başa gələn süfrədir, dünyada nə nazü-nemət istə-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

sən, burada tapılar. Yeyib, içdikdən sonra süfrə yığışdırılır. Aşıq Hüseyn qulluq eyləyən adamdan soruşur ki, bu evin yeyəsi, mənə bu qulluğu göstərən, qonaqlığı eyləyən kimdir? Niyə görünmür, özü hanı? Həmin adam xoş təbəssümlə cavab verir ki, aşıq, yat sabah görərsən, sənə hər şey aydın olar.

Aşıq Hüseyni fikir aparır. Gecə səhərə qədər yerin içində oyan-buyana dönməkdən təngə gəlir, səhərə yaxın, gözünə bir qədər çimir gəlir. Bir də gözünü açanda görür ki, gün günortaya az qalıb. Tez tələsik qalxır, paltarını geyir, əl-üzünü yuyur, yenə süfrə arxasında əyləşir, çay-çörək yedikdən sonra süfrə yığışdırır. Aşıq Hüseyn öz-özünə fikirləşir ki, bu nə iş idi mən düşdüm? Hara gedirdim, haraya gəlib çıxmışam. Aşıq Hüseyn bu fikirdə ikən birdən sağ yandakı qapı açılır. Bir nazənin sənəm içəri girir. O qədər gözəldir ki, deməklə başa gələn deyil: fəriştə kirdar, gəl məni gör, dərdimdən öl, ürək basan, sərfə kəsən, əlini vurma, gendə durma, boynunu burma, sən orada köksünü ötürmə, mən burada! Aya deyir, mən çıxmışam sən nəyə çıxırsan? Günə deyir: mənim şövqüm dünyaya bəs edər, sən get işinə! Aşıq Hüseyn mat-məəttəl qalır. Nitqi tutulur, bir kəlmə bilmir. Nazənin sənəm özü də bunu hiss edir. Onu bu ağır vəziyyətdən qurtarmaq üçün əvvəlcə özü dillənir:

– Aşıq Hüseyn, haraya gedirsən, səfərin haradır?

Aşıq Hüseyn bir təhər kəkələyə - kəkələyə cavab verir:

– Naxçıvana, keşiş qızı Reyhan xanımla deyişməyə gedirəm.

– Hə, onun adını mən də eşitmişəm, gəl bu yoldan dön, getmə, qal burada sənə nə cah-cəlal deyirsən yaradım.

– Yox, xanım, üz vurmayın, yolçu yolda gərək, yolumu gözləyənlər var, gərək mütləq gedəm.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Məndən təklif etməkdir, cavan adamsan, gedib tora düşərsən, peşman olarsan, gəl getmə!

Qız nə qədər cəhd göstərirsə, Aşıq Hüseyn öz sözünün üstündə möhkəm dayanır. O, hiss edir ki, bayaqdan bəri hüsnü camalına heyran olduğu bu nazənin xanım ona aşiq olub. Ona görə də buraya dəvət eyləyib, öz malikanəsini, səliqəsini göstərmək istəyir. Amma kişidə söz bir olar. Aşıq Hüseyn tamahına üstün gəlib getmək iqtidarında olur.

Qız deyir:

– Aşıq Hüseyn, mən öz təklifimi eylədim, sən də buna razı qalmadın. İndi ki, belədi, onda mənim də bir neçə kəlmə sözüm var, onlara cavab ver, biləк ki, doğrudan da Reyhan xanımı bağlaya biləcəksən!

Aşıq Hüseyn gözləmədiyi bu vəziyyətdən çıxmaq üçün nə qədər bir çıxış yolu axtarsa da, bacarmır, razılaşır. Xasa xanım öz cürəsini divardan endirib sinəsinə basır, alır görək Aşıq Hüseynə nə deyir, aşıq ona nə cavab verir. Biz onların əvəzindən deyək, siz də şad olun!

**Xasa xanım**

Başına döndüyüm, ay əcəm oğlu,
Gəlsən getməyəsən belə yola sən!
On səkgiz aşığı salıbdır bəndə,
Salam verməyəsən o çəpələ sən!

**Aşıq Hüseyn**

Başına döndüyüm, nazənin xanım,
Vətənimdən çıxıb düşdüm yola mən
Əziz yeyib, eziz geyib gəzmişəm,
Tifilkən düşmüşəm eldən - elə mən



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**Xasa xanım**

Bu qarda, boranda, belə ayazda,
Məsləhətin nədir bu doğru sözdə.
Yeddi qaçaq durub Dərələyəzdə,
Qorxuram düşəsən əldən - ələ sən!

**Aşıq Hüseyn**

Qoçdan törəmişəm, qoçaq neyləyər,
Poladam, səngiyəm, bıçaq neyləyər?
Bəzirgan deyiləm, qaçaq neyləyər,
Onları çəkərəm şirin dilə mən.

**Xasa xanım**

Atkaz etmə mən nazənin sözünü,
Haqq çıxartsın düşmənlərin gözünü
Xasa xanım, Həso bəyin qızını
Alıb bizim bu yerlərdə qalasan!

**Aşıq Hüseyn**

İstəməm şahlığı, nə də ki, tacı,
Nə də ərşə-gürşə qılmam meracı.
Aşıq Söyün deyər: sən mənə bacı,
Əlimi vermişəm qeyraz ələ mən.

Aşıq Hüseyn tapşırmasını deyib qurtaranda görür xanımın bərk acığı tutub. Çırtıq vursan, qanı şırıldar. Sazını köynəyinə salmaq istəyəndə Xasa xanım dillənir:

– Aşıq Hüseyn, ölsən də, bir həftə buradasan!

Xasa xanım sözünü deyib qapıdan çıxır. Aşıq Hüseyni fikir aparır. Əlacı kəsilir, gecə yan qaçmaq fikrinə düşür.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Əl-ayaq yığılır, axşam yatan vaxtı yenə Aşıq Hüseynə yer salınır. Aşıq Hüseyn ədəb-ərkanla paltarını çıxarıb yerin içinə girir. Amma gözünə yuxu getmir.

Görür camaat şirin yuxuya gedib. Heç kəsdən səs çıxmır. Səhərin şirin yuxusunda yavaşca yerindən qalxır, pal-paltarını geyir, sazını götürüb bayıra çıxır, atına süvar olub yola düşür.

Aşıq Hüseyn getməkdə olsun, sizə xəbər verim Xasa xanımdan.

Xasa xanım nökərlərinə tapşırmışdı ki, göz-qulaq olun, aşıq icazəsiz buradan çıxıb getməsin. Əgər getsə, dərinizə saman təpdirərəm. Füqərə nökərlər də gecə səhərə qədər yatmayıb aşığı gözləyiblər ki, birdən durub qaçar. Xülase, səhərə yaxın görürlər nə gələn var, nə də bir gedən. Durub ot-alaf dalısıncan gedirlər. Nökərlərdən biri bir qədər ot gətirib tez geri qayıdır. Baxıb görür Aşıq Hüseyn yatan otağın qapısı açıqdı. Tez özünü Xasa xanımın yatdığı otağa yetirib deyir:

– Xanım, aşıq yoxdu!

Xasa xanım tez soruşur:

– Get gör atı tövlədədirmi?

Nökər qaçaraq özünü tövləyə salır, görür, lələ köçüb, yurdu qalıb, at nə gəzir! Cəld geri qayıdıb xəbər verir.

Xasa xanım məsələni başa düşür. Tez bir dəst kişi paltarı geyir, özü ilə bərabər altı nəfər də atlı götürüb kəsə yol ilə Aşıq Hüseynin qabağını kəsməyə gedir. Dərələyəzə çatanda baxır ki, uzaqdan bir atlı gəlir. Atlı bunlara yaxınlaşır. Xasa xanım onu tanıyır. Amma Aşıq Hüseyn onları tanımır. Atını düz onların üstünə doğru sürür. Nökərlərdən biri qışqırır:

– Tərpənmə!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aşıq Hüseynin ürəyinə guppultu düşür. Deyir: elə Xasa xanımın dediyi yeddi qaçaq bunlar olacaq. Sazını çıxarıb onlara doğru uzadır, qışqırır:

– Siz tərpənməyin, yoxsa hamınızı qıraram!

Bu söz Aşıq Hüseynin ağzından çıxan kimi nökərlərdən biri dillənir:

– Ayə, bunun qoçaqlığı da var imiş?

Nökərin bu sözünü Aşıq Hüseyn eşidir. Fikirləşir ki, əgər bunlar məni tanıyırlar, bəs nə üçün qabağını kəsiblər? Elə bu vaxt Xasa xanım səsini çıxardır:

– Kimsən, nə karəsən, haradan gəlib, haraya gedirsən?

Aşıq Hüseyn onu tanıyır, gülümsünür. Xasa xanım isə ona hop-gop eyləyib qorxutmaq istəyir. Aşıq Hüseyn onu tanıdığını büruzə vermək istəmir. Ona görə də deyir:

– Aşığam, Naxçıvana gedirəm. Xasa xanım deyir:

– İndi bilərik necə aşıqsan!

Alır Xasa xanım görək "Misri" havası ilə Aşıq Hüseynə necə hərba-zorba deyir, Aşıq Hüseyn isə ona nə cür cavab verir:

Əcəm oğlu, nə gəzirsən bu yerdə?
Bizim elə gələn bac verib gedər!
Kim ki, eşidibdi adı - sanımı,
Nə cürət eyləyib gec verib gedər!

**Aşıq Hüseyn**

Bilmirəm nəçisən, heç nə karəsən,
Naşı düşdüm, sizin eldən gəlmənəm!
Mən gedirəm Naxçıvana bədgüman,
Bəzirgan deyiləm, bacı bilmənəm!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**Xasa xanım**

Mənəm bu yerlərin şiri, aslanı,
Pəncəmə düşənin qurtarmaz canı!
Gəl sən də nahaqdan tökdürmə qam,
Sərkərdələr gəlsə, fövc verib gedər!

**Aşıq Hüseyn**

Nə həddin var, mənim qanım tökəsən,
Ac qurd kimi dörd yanımı sökəsən!
Gəlsən qəmişini məndən çəkəsən,
Sərkərdan deyiləm, fövcü bilmənəm!

**Xasa xanım**

Xasa xanım ata yurdun itirməz,
Acıqlı sözləri nəbzi götürməz!
Sənin kimsin yüzü gəlsə, ötürməz,
Padişahlar burdan tac verib gedər!

**Aşıq Hüseyn**

Mətahm vardırsa, çıxart bazara,
Qoymaram kimsəni gedə xabara.
Aşıq Söyün bac verməyib xotkara,
Padişah deyiləm, tacı bilmənəm!

Söz tamama yetişir. Xasa xanım Aşıq Hüseynə yaxınlaşıb əl verib deyir:

– Aşıq Hüseyn, bu səfərdir, səni yoldan eləmək istəmirəm. Get, sənə yaxşı yol, ancaq xahiş edirəm qayıdanda buradan gələsən.

– Baş üstə, xanım, qayıdanda bir həftə sənə qonaq qalmağa söz verirəm.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Onlar əl verib xudahafisləşirlər. Xasa xanım öz dəstəsini də götürüb geri qayıdır, Aşıq Hüseyn isə öz yoluna davam eyləyir.

Aşıq Hüseyn yola çıxan vaxt qış ayları olur. Hələ Şəmkirdə ikən ona ustası məsləhət görmüşdü ki, Göyçə dağını keçəndə poçt yoluna düşüb get ki, səni qar, boran görməsin. Bilməzsən, kəsə yolnan gedərsən, Kolanı mahalının dağlarında, Dik piləkəndə, Abdulla gədiyində boran səni öldürər. O idi ki, Aşıq Hüseyn ustasının sözünü yadına salır, poçt yolu ilə bir baş gəlib çıxır İrəvan şəhərinə. Sazı çiynində İrəvanın küçələrilə gedirmiş. Görür bir çayçı dükanından aşıq səsi gəlir. Aşıq Hüseynin ürəyi tel-tel olur. Atı mahmızlayıb tələsik karvansaraya gəlir. Tez karvansara sahibini tapıb, atını ona tapşırığa verir, saz əlində bir baş həmin çayçı dükanına qayıdır. Amma o qədər adam var idi ki, içəri girmək mümkün olmur. Nə qədər oyana, bu yana boylanırsa, bir tanış görmür. İrəli keçmək istərkən biri ona deyir:

– Əyə, bu aşıq evi yıxılmş, qoyun öz ayağı ilə sallaqxanaya gələn kimi belə hayana gəlir, nəyə gəlir?

Aşıq Hüseyn görür sözü ona vururlar. Fikirləşir ki, axı mən mal deyiləm, qoyun deyiləm, bura sallaqxana deyil, bəs bu nə söz idi bu adam dedi? Görünür içəridəki aşıq çox arif adamdı.

Aşıq Hüseyn bu fikirdə ikən yenə biri o birisine cavab vermək məqsədilə dillənir:

– Yəqin xam adamdı, bunun Aşıq Heydərdən xəbəri yoxdur. Elə bilir içəridəki uşaq-muşaqdı!

Bu dəfə Aşıq Hüseyn özünü toxtadıb bir baş içəriyə soxulur, deyir:

– Eşq olsun aşıqlara!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Görür iki nəfər şəyirddir, qabaq-qabağa durub oxuyurlar. Onların üzünə baxır. Onlar da aşığın bu salamına cavab olaraq ikisi də birdən dillənir:

– Eşqi camalın olsun!

Amma Aşıq Hüseynə heç fikir verən də olmur, qalır ortalıqda bir şəxs ona deməyir ki, ay filankəs, gəl burada əyləş! Aşıq Hüseyn görür adam elə sıx oturub ki, əyləşməyə heç yer də yoxdu. Göz gəzdirib baxır ki, məclisin başında bir qırmızı saqqal adam oturub. Sazını çılpağını qabağına dolayı qoyub, Aşıq Hüseyn öz-özünə fikirləşir ki, necə olmasa, yenə həmkarımdı, gedim onun yanında bir təhər əyləşim. Yer olmasa da o, görünür buralara bələd adamdı.

Sazı çiynində bir baş onun yanına gəlir. Amma bu qırmızı saqqal kişi heç yanını da qaldırmır, əhəmiyyət də vermir ki, aya, bu yanıma gələn aşıqdı, yoxsa naxırçı? Aşıq Hüseyn də utandığından geri qayıtmır. Bir dizinin üstə oturur. Sən demə, bu qırmrzı saqqal Aşıq Heydər imiş. Aşıq Hüseynin oturduğunu görən kimi şəyirdlərinə səs eyləyir:

– Dayanın!

Şəyirdlər dayanırlar. Biri mərəkənin bu başında, biri də o biri başında durub ustalarını dinləyirlər. Aşıq Heydər isə üzünü Aşıq Hüseynə tutub deyir:

– Aşıq, sən nəçisən, kimsən ki, heç nırxını soruşmadan buraya soxulursan? Məgər şəhəri boş görmüsən?

Aşıq Hüseyn özünü saxlaya bilməyib dillənir:

– Sizi həmkar deyib yanınıza gəlmişəm. Pulunu ha əlindən almamışam, sənə ha ortaq çıxmamışam! Mənim sizə zərərim nədi, deyin, ödəyim. Uzaq başı gəlmişəm də, gedərəm də!

Aşıq Heydər deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Sən qayıdıb getməyin fikrini edirsən, gör bir mən nə fikirdəyəm. Gərək sazını əlindən alam, özünü də dustaq eyləyəm!

Aşıq Hüseyn burada nabələd olduğundan ona kömək duran olmur. Ürəyində deyir:

– Ölləm, ölləm, qallam da qallam! Daha bəsdir, qara-dan artıq rəng olmaz ki? Əl atıb sazını köynəyindən çıxarır, deyir:

– Buyur, nə ki, kefin istəyir, de gəlsin! Cavabmı ver-məyə hazıram!

Aşıq Heydər ayağa durub hazırlaşana kimi Aşıq Hü-seyn ona tərs-tərs baxıb ürəyində deyir:

– Ay it oğlu, bilmirsən ki, xasiyyətini bilmədiyin atın dalına keçməzlər, dişlərini vurub qarnına salar? Gərək bir saata kimi atam dalına sarıyam!

Aşıq Heydər fürsəti əldən verməmək üçün qabağa özü düşür.

**Aşıq Heydər**

Hər yetən aşıqla sözmü çağırram,
Hərcayıya sirrim açarammı mən?!
Mən gəzdiyim ləli, gövhər kamdı,
Qeyri mətayimi saçarammı mən?

**Aşıq Hüseyn**

Hər yetən aşıqla söz çağırmazsan,
Hərcayıya sirrin açan mənəm-mən!
Ləh gövhər, yaqut, yamən məndədi,
Onlardan afitab seçən mənəm-mən!

Aşıq Heydər Aşıq Söyündən bu sözləri eşidəndə fikir eyləyir ki, gərək mən heç bunu qurdalamayaydım, deyəsən



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

bu cökə pazıdır, çalanda çıxmaz! Əlləri əsə-əsə sazı çalıb oxumağa başlayır:

Aşıq olan aşıq ilə tay gərək,
Dərsin ala ustadından vay gerək!
Mən qorxduğum Araz kimi çay gərək!
Sənin tək çaydan keçərəmmi mən?!

Bunu eşidəndə Aşıq Hüseyni gülmək tutur. Deyir:

–Aşıq qardaş, sənin keçdiyin çay bir başlıq, iki başlıq su olar. Amma mən Araz ilə Kür qarışan yerdən də üç verst aşağıda oluram, gör oradan keçə bilərsənmi, yoxsa yox? - deyib, sazı sinəsinə basır:

Dediyin sözləri çıxarma yaddan,
Almışam mətləbim kamil ustaddan!
Doymamış getmərəm bu xoş həyatda,
Abi-kövsər suyun içən mənəm-mən!

Aşıq Heydər görür bundan xata əksik deyil, götürüb belə bir hərcayı söz deyir ki, qoy xatasını səndən xalı eyləsin.

**Aşıq Heydər**

Aşıq Heydər bu meydana ər gəlib,
Canda hünər bu dünyaya var gəlib.
Uzunqulaq, beymərifət xor gəlib,
Sazını almamış köçərəmmi mən?!

Aşıq Hüseyn bu dəfə üzünü camaata tutub deyir:

– Ay camaat, aşıq da aşığa hərcayı söz deyərmi? İndi siz deyin, mən nə eyləyim?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Yerlərdən belə səs gəlir:

– Aşıq Hüseyn, bu meydandı, nə kefin istəyir de, sənə mane olan yoxdu!

**Aşıq Hüseyn**

Söyün deyər: sənin ölüm vədəndi,
Aşıqlığa sataşmağın nədəndi?
Uzunqulaq, beymərifət dədəndi,
Başına qovğam açan mənəm - mən!

Söz tamam olur. Aşıq Hüseyn deyir:

– Aşıqlığın adətincə qanuna görə indi də mən qabağa düşməliyəm. Sən də mənə cavab verəcəksən. Əvvəlcə dodağımıza iynə düzəcəyik, sonra da dodaqdəyməz deyəcəyik ki, dəyməsin!

Bunu eşidəndə Aşıq Heydərin gözləri kəlləsinə çıxır. Aşıq Hüseyn beş-altı nazik iynə gətizdirib alt dodağına düzür. Sazını sinəsinə basıb təcnislə görək necə deyir:

Qış çillesi, Xıdır İlyas gedəndə,
Yaz gərdişə gələr, ay eylər qıj-qıj!
Qırx sanadıq, yaz ayından keçəndə,
Ərşdən leysan yağar ay eylər qıj-qıj!

Səyağ ilən nə qayırlar nə səngi,
Eşqin artdı hər yandan nəsəngi.
Səngin altdan nə qayırırlar nə səngi?
Ayaqda şəccarə ay eylər qıj-qıj!

Yarı nazəninin qaşı gələndə,
Saxla sadağanı naşı gələndə.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aşıq Hüseynin yarı qarşı gələndə,
Ağıllı sərində ay eylər qıj-qıj!

Söz tamama yetişir. Aşıq Heydər Aşıq Hüseynin bu dodaqdəyməzinin qabağında məəttəl qalır, cavab verə bilmir. Aşıq Hüseyn dodaqlarındakı iynələri sahibinə qaytarır, Heydərin əlindən də sazını alıb sol çiyninə keçirir. Sonra da şəyirdlərini yaxına çağırır. Onların da sazlarını əllərindən alır, qoyur bir yana. Özlərinə deyir:

– Şəyird olanda da, elə ustada şəyirdlik eləyin ki, bir az mərifəti, bir qədər də kamalı olsun!

Camaat görür Aşıq Heydər lap pisikib. Şəyirdləri də sağında boyunlarını büküb dayanıb. Baxanda adamın ürəyi yanır. Dedilər:

– Aşıq Hüseyn, biz gördük ki, sən kamil aşıqsan. Belə aşıqlar həmişə hər şeydə qabil olurlar. Biz səndən xahiş eləmək istəyirik.

Aşıq Hüseyn deyir:

– Buyurun, aşıqların adəti, vəzifəsi camaata qulaq asmaqdı!

– Deyirik ki, Aşıq Heydər bir qoca kişidir. Gərək özünü bu kola soxmayaydı ki, belə də biabır olmayaydı. Daha keçib. Xahiş eyləyirik, onu bizə bağışlayasan.

Aşıq Hüseyn camaatın sözünü yerə salmayıb deyir:

– Bağışladım sizə! Aşıq Heydərdən də xahişim budur ki, gəlib-gedənə dolaşmasın. Ondan ötəri ki, həmkarın bir-birinə hörmət göstərməsi vacibdir.

Camaat bir ağızdan Aşıq Hüseynə afərin söyləyib, təşəkkür etdilər. Yeddi-səkkiz dərdimənd oğlan Aşıq Hüseyni tək buraxmayıb evlərinə aparırlar. Bir neçə gün onu İrəvanda qonaq saxlayırlar. Aşıq Hüseyn Kalvah xana bir məktub



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

yazıb göndərir ki, İrəvandayam, bir neçə günə gəlirəm, gözləyin.

Vədə vaxtı çatanda Aşıq Hüseyn atını minib bir baş Naxçıvana yola düşür. Kalvah xan da Aşıq Hüseynin gəldiyi günü bilib qabağına iki nəfər bələdçi göndərir. Şəhərə daxil olan kimi görür iki nəfər cavan oğlan ona tərəf gəlir. Yaxınlaşıb deyirlər:

– Aşıq Hüseyn əmi, bizim tərəflərə xoş gəlmisən! Səfa gətirmisən! Biz sənin üçün gəlmişik.

Onlar Aşıq Hüseyni günbatan çağı Kalvalı xanın evinə aparırlar.

Aşıq Hüseyn qapıdan içəri daxil olarkən Kalvalı xan ayağa qalxıb, əl verib xoş gəldin eyləyir, qol-boyun olub istirahət otağına keçirlər. Yemək-içmək, kef-damaqdan sonra Kalvalı xan deyir:

– Aşıq Hüseyn, doğrudur səni gətizdirmişəmsə də, amma Reyhan xanımdan qorxuram, çox vələdüzzinadır.

Aşıq Hüseyn cavab verir ki, qorxma, min Reyhan da olsa, qorxma! -Yəqin?

– Lap yəqin!

Kalvah xan nökərlərindən ikisini yanına çağırtdırır, deyir:

– Gedin Reyhan xanımın özünə də, adamlarına da xəbər eyləyin, gəlsinlər.

Nökərlər baş əyib çıxırlar. Sonra Kalvah xan adam göndərtdirib şəhərin hörmətli şəxslərindən də bir neçəsini məclisə dəvət edir. Qonaqlar gəlməkdə olsunlar, sizə xəbər verim Reyhan xanımdan. Reyhan xanım çox bilmiş bir qız idi. Kalvah xanın nökərləri xəbər gətirəndə öz-özünə xeyli götür-qoy eyləyir. Sonra ağlına belə bir fikir gəlir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Kişi paltarı geyib məclisə getmək, bəri başdan Aşıq Hüseyni yoxlamaq lazımdır ki, görək bu kimdir, nə mərifətin sahibidir, necə aşıqdır?

Tez bir dəst kişi paltarı gətizdirir. Altdan geyib üstdən qıfıllanır, üstdən geyib altdan qıfıllanır. Amma nə qədər eyləyirsə, döşlərini gizlədə bilmir. Erməni, müsəlman nə ki var hamısına tapşırır ki, mən məclisə Muxtar bəy adı ilə gedirəm. Hər kəs orada məni Aşıq Hüseynə işarətlə qandırıb eləsə, elimdən qurtarmaz!

Hamı söz verir ki, bu barədə bir kəlmə də olsa danışmayacaq.

Xülasə, dəstə yığışıb bir baş Kalvalı xanın məhləsinə gəlir. Qapıdan içəriyə daxil olurlar. Camaatın ardı-arası kəsilmir.

– Salam əleyküm!

– Əleyküm əssalam!

– Allah saxlasm!

– Saxlasın!

Aşıq Hüseyn içəri girənlərə göz yetirir. Görür elə düz yarım saat salam əleykümlə, Allah saxlasındır. Camaat xoş məhəbbətlə, şirindilliklə əyləşirlər. Kalvalı xan dillənir:

– Bəs görəsən Reyhan xanım niyə gəlməyib?

– Bir azdan gələr, - deyə nökərlərdən biri cavab verir.

Kalvalı xan Aşıq Hüseynə işarətlə qandırır ki, dur məclisi aç, bizim üçün bir qədər söhbət eylə.

Aşıq Hüseyn ayağa qalxır. Sazını əlinə alır, zilini zil, bəmini bəm eyləyir, bir ətrafa nəzər salır. Baxır ki, dostu Kalvalı xan, sıx toplaşmış camaat, zal otaq, altı taxta döşəmə, üstü ləmpə, evin içi cing-cing cingildəyir. Aşıq Hüseyinin özünün də xoşu gəlir, ürəyi coşur. Elə maraqlı söhbət başlayır ki, hamını valeh eyləyir. Söhbətin şirin yerində



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

qəfildən qapı açılır. Üç nəfər cavan oğlan qapıdan içəri girib deyirlər:

– Aşıq, eşq olsun!

Aşıq Hüseyn də cavab verir ki, eşq camalınıza olsun! Əl verib təmənnəşirlər, xoş gəldin eyləyirlər. Amma Aşıq Hüseyn bunlardan birinin əlini sıxanda görür çox yumuşaqdır, heç oğlan əlinə oxşamır. Onun bədəninə sarı yağ kimi meyxoş bir sim yeriyir. Aşıq Hüseyn buna çox məəttəl qalır, deyir:

– Ey dadi-bidad, bu nə sirdir məni qərq etdin? Yeddi kral torpaq gəzmişəm, amma mən kişidə belə yumşaq əl görməmişəm. Görəsən bu nə işdir?

O, ürəyində belə deyirdisə də, amma heç bir şey başa düşməmişdi. Camaat gələnlərə yer göstərir, hörmət, izzətlə qarşılayırdılar. Həmin şəxsi isə hərə bir yandan dəvət edirdi:

– Ay Muxtar bəy, keçin yuxarı başa!

Amma Aşıq Hüseyn gördü bunlar yuxarıya keçməyib, ayaqda əyləşdilər. Aşıq Hüseyn bir təhər fikirini cəm eyləyib söhbətə başlayır. Bir neçə kəlmə də oxuyanda Muxtar bəy dillənir:

– Kalvalı xan, elə arım var, arım var, eşşək arısı?! Kalvalı xan deyir:

– Muxtar bəy, bir şey başa düşmədim, bu nə sözdür?

Aşıq Hüseyn deyir:

– Kalvalı xan, bu söz mənə aiddir, Muxtar bəyin nə sözü var, buyursun desin, mən hazıram!

Muxtar bəy də onu sınamaq məqsədilə deyir:

– Bizim istədiyimiz odur ki, gözləməkdən bir şey çıxmaz, qaşın elə, gözün belə, nə olsun ki? Bunları eşitməkdən qulaqlarımız dəng olub. Doğrudur, aşıq gördüyünü çağırar, amma elə həmişə onun-bunun sözünü əzbərləyib oxuyan



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

aşıqların qiyməti nədir? Biz istəyirik ki, bir elə təzə söz oxuyasan ki, camaatın xoşuna gəlsin, hamı bəh-bəh desin!

Aşıq Hüseyn baş üstə eyləyib, divan ilə özünün "hərgiz" nəğməsini oxuyur. Söz tamama yetişəndə Kalvalı xan soruşur:

– Muxtar bəy, mənim aşığımdan ağlın bir şey kəsdimi?

– Kalvalı xan, aşığın lap yaxşı aşıqdı, doğrusu heç pis demək olmaz.

Kalvalı xan bu kəlmələri Muxtar bəydən eşidəndən sonra Aşıq Hüseynə him-cimlə qandırır ki, özünü yığışdır, camaata bir nəzər yetir, diqqət elə! Aşıq Hüseyn də sazını kölgəsilə, qoltuğunun altından diqqətlə baxanda görür camaatın içərisində bu üç nəfər sonra gələnlərdən ədəblisi, mərifətlisi, gözəli heç görünmür. Üçü də cavan, bir-birindən gözəl. Üçü də çərkəzi paltar geyib, əyinlərində də kabardindən yapıncıları var. Deyir:

–Yox, burada nə isə bir iş var, deyəsən işlər əngəldir.

Aşıq Hüseyn həmin üç nəfərə bir de zəndlə diqqət yetirir. Baxır ki, birisinin döşləri narın ucu düymələnib, neştərə oxşayan vaxtı kimi az qalır sinəsini dəlib ortaya çıxsın!

Aşıq Hüseyn bunu belə görəndə coşa gəlir, camaata deyir:

– Ay camaat, siz dura-dura aşıq öz-özünə sifariş verə bilməz! Amma izin verin, birinci sifarişi özüm verim, özüm də oxuyum. Təzə, bakir bir söz demək istəyirəm.

Hərə bir tərəfdən dillənir ki, aşıq, buyur, söz sənindir! Amma təzə söz olsun ki, hamıya xoş gəlsin! Alır Aşıq Hüseyn görək təzə nə deyir:

Boyun sürahidir, bədənin büllur,
Oxşatdun saçların mara, a Reyhan!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aşiftə zülflərin pərişan olub,
Çək şana dəstinə, dara, a Reyhan!

Aşıq Hüseyn bu qoşmanı deyəndə Muxtar bəy yapıncısını çiynindən tullayır, ayağa qalxıb deyir:

– Aşıq Hüseyn, burada Reyhan yoxdur, amma sözünü cavabsız qoysaq, bizləri bəyənməzsən, qulaq as, gör nə deyirəm:

Sənin ismin hər şəhərdə söylənir,
Heyif gəldin bu diyara, Hüseynim!
İreyhan arifdir, tayı tapılmaz,
Eylər səni para-para, Hüseynim!

Aşıq Hüseyn qət edir ki, Muxtar bəy deyilən uzun işdir, dərinlərə əl apara bilər. Deyir:

– Neyləyim, camaatın içərisində buna deyəcəksən ki, zənənsən, daha da acığı tutar, mən də bir qərib adamam. Yaxşısı budur ki, anladım. Getsin öz paltarını geyib gəlsin. Ondan sonra ol əmalli başlı, uzun saçlı, sürmə gözlü, qələm qaşlı nazənin. Başımı tutum qarşında, deyim ki, vur yarılsın! İstəyirsən öldür, istəyirsən asdır.

**Aşıq Hüseyn**

Beylə nəzakətlə yandırma bizi,
Məgər insafın yox, mürvətsiz qızı?
İstifa nimtənə, cəfkən qırmızı,
Gülləcəsi güllü, xara a Reyhan!

**Muxtar bəy**

Yetircəyin o sazını alacaq,
Ahban kəllənə vurub çalacaq.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aşıqlarla bir zindana salacaq,
Eyləyəcək günün qara, Hüseynim!

**Aşıq Hüseyn**

Ey tuba qamətli, boyu növrəstə,
Qullaba saçların gərdənin üstə.
Qoynunda nar bəslə, Hüseyn xəstə,
Rəhmin gəlsin mən bimara, a Reyhan!

**Muxtar bəy**

Dil yetişməz o zalımın dilinə,
Səni salar yüz min fitnə, felinə.
Bir düşəsən İreyhanın əlinə,
Dadanıbsan mən Muxtara, Hüseynim!

Söz tamama yetişir. Yerlərdən hamı "afərin" söyləyir. Aşıq Hüseyn qət edir ki, heç o yan bu yanı yoxdur, deyəsən elə Reyhan xanım bunun özüdür ki, var.

Muxtar bəy kələfin ucu açıldığını duyub aradan çıxmaq istəyir. Üzünü Kalvalı xana tutub deyir:

– Kalvalı xan, bu aşıq bilmirəm dostundur, bilmirəm qardaşındır, tanışındır, hər nəyindir, özünüz bilərsiniz, amma onu səndən istəyirəm. Bax, sonra qaçıb eyləyər, onda bizdən inciməyəsən. Özüm də gedirəm Reyhan xanımın məclisinə.

Kalvalı xandan əvvəl Aşıq Hüseyn dillənir:

– Xətircəm ola bilərsiniz, Aşıq Hüseyn heç yana qaçan deyil, qoyub qaçmağa gəlməyib, aparmağa gəlib.

Xülasə, bir az da söz, söhbət eyləyir. Məclis dağılır. Muxtar bəy də çıxıb gedir. Evdə Aşıq Hüseynlə Kalvalı xan tək qalanda Kalvalı xan Aşıq Hüseyni sınamaq məqsədilə deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Aşıq Hüseyn, birdən Reyhan xanımın qabağında pisikməzsən ki? Əgər gücün çatmayacaqsa, gəl səni gecə ikən yola salım, çıx get. Reyhan xanımdan ehtiyat eyləyirəm. Çox bilikli, danəndə qızdı.

Aşıq Hüseyn özünü saxlaya bilməyib dillənir:

– Qorxma, məndən tam arxayın ola bilərsən. İstəyir bir yox, yüz Reyhan xanım olsun, vecimə gələn deyil.

Gecə xeyli keçir. Bunlara yer salınır. Kalvalı xanla Aşıq Hüseyn yatmaqda olsunlar, sizə deyim Reyhan xanımdan.

Reyhan xanımın iki şəyirdi varmış. Biri Naxçıvan əhli, bir müsəlman qarısı, o biri isə öz əmisi qızı Nərgiz xanım. Reyhan xanım qarını yanına çağırtdırıb deyir:

– Qarı, aman günüdür, get gör, topla, gopla Aşıq Hüseyni bir təhər buradan qaçıra bilərsənmi? Deyəsən, ondan bizə xeyir gəlməyəcək.

Qarı səhəri, gün çıxana kimi sazı da götürüb Kalvalı xanın evinə gəlir. İçəri girir, salam verir, xəbər alır ki, burada Aşıq Hüseyn kimdir?

Aşıq Hüseyn bunu eşidib yan tərəfdən dillənir:

– Mənəm, ay nənə, bizim üçün nə qulluq?

– Mən Reyhan xanımın şəyirdiyəm, gəlmişəm, baxaq görək sən mənə cavab verə bilərsənmi ki, hələ bir Reyhanın məclisinə də hazırlaşırsan?

Aşıq Hüseyn baxır ki, bu doğru danışır, əlində qara cöyüzdən bir saz da var. Deyir:

– Ay qarı nənə, ağbirçək vaxtında gəl mənə bənd olma, məni bərkə, boşa salma!

Qarı deyir:

– Mənə çörək verib saxlayan Reyhan xanımdır, sən deyilsən. Uzun danışma, sazını götür, qabağıma çıx, vəssalam!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aşıq Hüseynin əlacı kəsilir, sazı köynəyindən çıxarıb deyir:

– Götür deyirsən, götürək də. De gəlsin, görək nə deyirsən?

Alır qarı nənə görək dübeyti havası ilə Aşıq Hüseynə nə deyir:

De görüm, əslin haralı,
Çıxartginən sazı, oğlan!
Nə iraq yerdən gəlibsən,
Söylə görüm sözün, oğan!

Aşıq Hüseyn:

– Ay qarı nənə, sənə cavab verməzdim, çünki bir söz deməyibsən ki, ona da cavab verəm. Amma əlac yoxdu, gərək cavabını verim, sonra Reyhan xanıma aparарsan ki, Aşıq Hüseyn deməyə söz tapmadı, – deyib, sazı sinəsinə basdı.

Mənim əslim Şəmkirdəndir,
Gəncəbasar elim, nənə!
Çox qovğalar çəkmişəm,
Uzaq düşüb yolum, nənə!

**Qarı nənə**

Yoxsa sözdən naçarmısan?
Qıfılbəndim açarmısan?
Gecə durub qaçarmısan?
İzlədərlər izin, oğlan!

Aşıq Hüseyn görür ki, qarı onun qaçmasına işarə vurur, hirslənib deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qarı, bu işdə naçaram,
Qıfılbəndini açaram.
Gözləmə ki, mən qaçaram,
Kəssələr də dilim, nənə!

Qarı da görür bu qaçan aşıqlara oxşamır. Özü də kamil bir aşıqdı. Aşıq Hüseyn də bu ara əlini cibinə salır, bir qızıl onluq çıxarıb qarının ovcuna qoyur. Qarı bunun müqabilində deyir:

Xoş gəlibsən Naxçıvana,
Dərdini söylə cahana.
Aparram seni Reyhana,
Danışginən özün, oğlan!

**Aşıq Hüseyn**

Aşıq Hüseyn Şəmkirstani,
Gəldim gördüm Naxçıvani.
Bir də görsəm ol Reyhani,
Dərdim yoxdu, ölüm, nənə!

Qarı daha bir söz deməyib, kip-kirimişcə sazını da qoltuğuna vurub qapıdan çıxır, birbaş özünü yetirir Reyhan xanımın yanına. Reyhan xanım ondan tez soruşur:

– Hə, qarı nənə, nə oldu, necə oldu, danış görək?

– Pis xəbər gətirmişəm.

– Söylə, görək bu pis xəbər nədir?

**Qarı**

Reyhan, sənə xəbər verim,
Tapılmaz tayı Hüseynin.
Ərənlərdən badə içib,
Yetişib payı Hüseynin.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Reyhan xanım bərk hirslənir:

–Mən sənə dedim ki, get, gəl Aşıq Hüseyni mənə tərif elə? İndi ki belə oldu, al cavabım! - deyib, cürəsini sinəsinə basır:

Hərcan söyləmə, qarı,
Əcəmdə nə kamal olar?
Danışarlar yekəxana,
Saatda min xəyal olar!

**Qarı**

Bir at yükü kitabı var,
Çox bulunmaz hesabı var.
Dəryalar qədər təbi var,
Coşğundur çayı Hüseynin.

**Reyhan xanım**

Mən odlaram kitabını,
Özüm billəm hesabını.
Verə bilməz cavabını,
Danışan dili lal olar.

**Qarı**

Mən istərəm İreyhanı,
Reyhan da istər cahanı.
Səhər yığın Naxçıvanı,
Tutulsun toyu Hüseynin!

**Reyhan xanım**

Mən Reyhanam, Naxçıvanı,
Oxudum, İncil, Quranı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ona göstərrəm zindanı,
Tutular dili, lal olar!

Söz tamama yetişir, Reyhan xanım görür qarıdan kar aşmadı, öz əmisi qızı Nərgizi çağırıb deyir:

– Nərgiz, qarı gedib daha da Hüseyni öyrədib gəlib. Özün get, gör onu buralardan qova bilərsənmi? Yoxsa ondan bizə xeyir gəlməyəcək.

Nərgiz dinməz-söyləməz sazını qoltuğuna vurub, gəlir Kalvalı xanın evinə. Qapıdan içəri girib görür axtardığı buradadır.

– Allah saxlasın!

–Allah saxlasın! Kirvə qızı, buyurun əyləşin! -deyib, Aşıq Hüseyn ona yer göstərir. Baxır ki, bu cavan, 18 yaşında bir qızdı, elə gözəldir ki, dünyada tək-tək misli tapıla bilər.

–Buyurun, mənim üçün qulluğunuz! Nərgiz də qarı deyən kimi deyir:

–Mən Reyhan xanımın şəyirdiyəm, gəlmişəm səninlə deyişməyə. Bilmək istəyirəm görüm qabında bir şeyin var, yoxsa elə bəzi aşıqlar kimi sən də hap-gopsan!

Aşıq Hüseyn:

- Gəlibsən, xoş gəlibsən! Buyurun, söz sizindir. Kimin qabında nə olduğu indi bilinər.

Nərgiz cürəsini basır 14 yasəmən hörüklərinin arasına. Barmaqlarının birini taziyanə eyləyir, öz gözəl səsi ilə görək Aşıq Hüseynə nə deyir, aşıq ona necə cavab verir.

**Nərgiz**

Məndən salam olsun, ay Aşıq Söyün,
Zəri-zerbaf mətayindən seç indi!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ya budur ki, meydana çıx, cavab ver,
Ya da bu meydandan durma qaç indi!

**Aşıq Hüseyn**

Al cavabın verim, ay Nərgiz xanım,
Zəri-ziba mətayindən seç indi!
Eşq əlindən zülmü eşqə-düşmüşəm.
Mən durmuşam bu meydanda qoç indi!

**Nərgiz**

Çox sənin kimisin sazın almışam,
İxtilatın kəsib bəndə salmışam.
Dəryayi-ümman tək qarşı durmuşam,
Həddin varsa, gəl üstümdən keç indi!

**Aşıq Hüseyn**

Dərin-dərin dəryalar tək tutaram,
Hər nə desən, mən də ondan betərəm.
Saz yerinə qoşa narı tutaram,
Ay camaat, varmı məndə suç indi?!

Aşıq Hüseyn belə deyəndə Nərgiz fikir eyləyir ki, Reyhan bunun qabağında davam gətirməyəcək. Yaxşısı budur, gəl sən bunu sözlə, him-cimlə başa sal, qoy Reyhandan əvvəl, indiki sənə bənd olub, qoy elə səni alsın. Reyhan qalsın yana-yana.

**Alır Nərgiz**

Necə gördün Naxçıvanda Nərgizi,
Badədir lebləri, mezədir üzü.
Gəl edək zümzümə, tutaq pəhrizi,
Təşnəsən badədən gəl al, iç indi!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aşıq Hüseyn başa düşür ki, Nərgiz aşkarca deyir: "gəl dön, xaç as, məni də al!" Bunun müqabilində görək Aşıq Hüseyn nə deyir:

Aşıq Söyünü çəkmə qeyri yola sən,
Keşkə mənim gizlin dərdim biləsən!
Nə xaçpərəst, nə də islam olasan,
Kara yetmir kilsə ilə xaç indi!

Söz tamam olur. Nərgizin deməyə bir sözü qalmır. Xudahafisləşir, cürəsini də qoltuğuna vurub, bir baş Reyhan xanımın yanına gəlir.

Reyhan xanın belə fikirdə idi ki, əmisi qızı Nərgiz əli boş qayıtmaz, Aşıq Hüseynin canına bir vəlvələ salar, ya bağlar, ya da qaçırdar. Nərgizin yolunu səbirsizliklə gözləyir. Bu ara Nərgiz içəriyə daxil olur. Reyhan xanım sevinmiş onun qabağına gelir. Hal əhval soruşanda Nərgiz ona heç bir cavab verməyib, cürəsini sinəsinə basır, deyir:

Mürdəşir səni yusun,
İşimiz yaman olacaq!
Görərsən əvvəl-axır,
Ortalıqda qan olacaq!

Aşıq deyil, Rüstəm-Zaldı,
Fikri, zikri qalmaqaldı.
Məni də avırdan saldı,
Sənə də tufan olacaq!

Dilnin üstə bitib dillər,
Odur Araz kimi sellər.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Nərgizin başına küllər,
Sinəsi viran olacaq!

Nərgizin bu sözlərindən Reyhan xanım daha da qorxuya düşür. Nərgiz də acıq eyləyib gedir, Reyhan xanım qəmə qərq olub fikrə gedir.

Reyhan xanım fikirləşməkdə olsun, sənə deyim Cahan qarıdan. Cahan qarı Reyhanın töhmətli sözlərindən üç gün özünə gələ bilmir. Bərk hirslənir. Tez cürəsini əlinə alır, altdan, üstdən geyinir, özünü yetirir Aşıq Hüseynin yanına, deyir:

– Aşıq Hüseyn, əgər sözün qurtarmayıbsa, bir də qabağıma çıx, sənə deyiləsi bir-iki kəlimə sözüm var, onlara cavab ver, sonra neyləyirsən elə!

Aşıq Hüseyn oturanların üzünə baxır. Hərə bir tərəfdən Aşıq Hüseynə işarə eyləyir ki, ayağa dur, qan çox zoddu gəlib, yoxsa səni camaat içərisində tüncar edər. Hər ikisi meydana çıxır. Aşıq Hüseyn sazı sineyi-sandığma basır, qan da öz telh cürəsini basır nöyüt bardağı məmələrinin üstünə.

**Aşıq Hüseyn**

Başına döndüyüm nənə,
De görüm nə xəbərin var?
Ol Reyhandan nə gətirdin?
De görüm nə xəbərin var?

**Qarı**

Sana qurban olum, oğul,
İreyhanı qorxutmuşam.
Vəsfini car eyləyib,
Ürəyini ürkütmüşəm.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**Aşıq Hüseyn**
Özü məndən söz açdımı?
Əlin ələ dolaşdımı?
Yoxsa sənlə dalaşdımı?
De görüm nə xəbərin var?

**Qarı**
Mətəl qalma sən bu işə,
Düşmə qeyri bir təşvişə.
Poladı çaxmışam daşa,
Dörd yanını bərkitmişəm.

**Aşıq Hüseyn**
Aşıq Hüseynəm, əcəm elli,
Adı Reyhan, şirin dilli.
Buta qamət, incə belli,
De görüm, nə xəbərin var?

**Qarı**
Mənə demə "nənə-nənə",
Cahan olsun sənə ana.
Bir müjdə verginən mənə,
İşini möhkəmlətmişəm!

Söz tamama yetişir. Qarı çıxıb gedir. Aşıq Hüseynlə Kalvalı xan oturub söhbət eyləyirlər, deyib gülürlər. Elə bu ara xəbərçi içəri keçib Kalvalı xana deyir:

– Kalvalı xan, Reyhan xanım sabah aşığımızla bərabər sizi məclisinə dəvət edir.

Xəbərçi çıxıb gedəndən sonra Kalvalı xan Aşıq Hüseynə deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

–Aşıq Hüseyn, gəlsənə bunun meydanına çıxmayaq. Səni el içində, mərəkə içində rüsvay edər.

Aşıq Hüseyn deyir:

–Kalvalı xan, onun qabağına çıxmamaq, çağırışına getməmək özü rüsvayçılıqdan da pis olar. Yaxşısı budur, ehtiyat eləmə, xəbər göndər, sabah səhər saat səkkizdə bazar-dükan bağlansın. Sazımı götürüb gələrəm. Sən məndən qabaq orada ol.

Səhərisi bazarlar bir qədər tez bağlanır. Dükandarlar tez alveri kəsib, meydana qaçırlar. Hər yana səs düşür. Naxçıvan meydanı süpürülüb təmizlənir, camaat yığışır, aşıqları gözləyirlər. Əvvəlcə Reyhan xanım öz dəstəsilə gəlir. Bu tərəfdən də Kalvalı xanın adamları başda eyləşib gözləyirlər. Aşıq Hüseyn də sazını götürüb bir bələdçi ilə meydana gəlir. Reyhan xanımın yanında dayanıb salam verir. Hər ikisi görüşüb danışdıqdan sonra sazları köynəklərindən çıxarır, meydana girirlər. Aşıq Hüseyn deyir:

–Reyhan xanım, növbə sənindir, yoxsa mənim?

Reyhan xanım deyir:

–Sən kişi, mən arvad. İxtiyar mənimdir, qabağa mən düşürəm. Hər ikisi razlaşır. Sazları sinələrinə basıb deyişməyə başlayırlar.

**Reyhan xanım**

İki aşıq bir meydana varanda,
Oturub sazları düzərlər bir-bir!
Cavab verib cavabını alanda,
Duruban meydanı gəzərlər bir-bir!

**Aşıq Hüseyn**

Aşıqlıq elmindən xəbərdaram mən,
Hər yerdə görmüşəm meydanı bir-bir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Kamil bir ustaddan dərsim almışam,
Gəl sənə söyləyim əyani, bir-bir.

**Reyhan xanım**

Ustad aşıq deyilməmiş söz deyər,
Biri deyər, o birisi gözləyər.
Birisi çox deyər, biri az deyər,
Deyişə-deyişə qızarlar bir-bir!

**Aşıq Hüseyn**

Aşıq bəlli olar ad ilə sandan,
Gəlmişəm meydana Şəmkiristandan.
Aşıqları buraxginən zindandan,
Kamil ustadlan gəl tanı bir-bir!

**Reyhan xanım**

Kimi hündür deyər, kimisi alçaq,
Yoxdur özüm kimi bir kəndi qoçaq.
Çoxların salmışam meydandan qaçaq,
Gəldiyi yolları azarlar bir-bir!

**Aşıq Hüseyn**

Sona kimi sığal verib telinə,
Qəndi şəkər əzdiribsən dilinə.
Düşməyibsən arif ustad əlinə,
Çəkdirərik sənə cəzanı bir-bir!

**Reyhan xanım**

Mən Reyhanam, tapmamışam tayımı,
Cəngli-Sultan haqq veribdi payımı.
Katiblər qeyd edir haqqı-sayımı,
Dediyim sözləri yazarlar bir-bir!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**Aşıq Hüseyn**

Yetmək olmaz Aşıq Hüseynin işinə,
Belə sözlər heç girərmi huşuna.
Alım qucağıma, basım döşümə,
Sənin kimi gözəl cananı bir-bir!

Söz tamam olanda Aşıq Hüseyn istəyir bir neçə kəlmə də bu desin. Amma Reyhan xanım fürsəti əldən verməyib, sazın havasını kəsmədən çevirir, yenə də qabağa düşür.

**Reyhan xanım**

Sənə xəbər verim ay Aşıq Söyün,
O nədir ki, cəmi bir il yaşar hey?
Nə kağızdır öz-özünə yazılar?
O nədir ki, günü-gündən coşar hey?

**Aşıq Hüseyn**

Al cavabın deyim a Reyhan xanım,
Səməndərdir bir il ancaq yaşar hey!
Sinə dəftər öz-özünə yazılar,
O eşqdir ki, gündən-günə coşar hey!

**Reyhan xanım**

O nədir ki, nəfəsi var canı yox?
O nədir ki, cəsədi var, qanı yox?
O kimdir ki, dünyada imanı yox?
O kimdir ki, öz yolunu çaşar hey?

**Aşıq Hüseyn**

O körükdür, nəfəsi var, canı yox,
O arıdır, cəsədi var, qanı yox,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Yalançıdır, insafı, imam yox,
O şeytandır, düz yolunu çaşar hey!

**Reyhan xanım**

O nədir ki, yemədilər, doydular?
O kimdir ki, dərisini soydular
O nədir ki, qiyamətə qoydular?
O nədir ki, atəşi yox, daşar hey?

**Aşıq Hüseyn**

O nemətdir, yemədilər, doydular,
Nəsimidir, dərisini soydular.
Xeyir, şəri qiyamətə qoydular,
O zəmzəmdir, atəşi yox, daşar hey!

Söz tamamlanır. Hərə bir yandan afərin söyləyir. Bu dəfə qabağa Reyhan xanım düşmür, sözü Aşıq Hüseynə verir.

**Aşıq Hüseyn**

Səndən xəbər alım, ay Reyhan xanım,
O nədir ki, axırında puç olar?
Nə insandı, nə heyvandı, nə də ot,
İldə iki dəfə bir-birinə tuş olar?

Reyhan xanım mat-məhəttəl qalır. Bilməyir nə cavab versin. Başlayır ki, ay camaat, Aşıq Hüseynin bu sözünün içində bir mətləb, məna yoxdu ki, ona mən cavab verim.

Aşıq Hüseyn deyir:

– Əgər bu sözün mənasını özüm açsam, onda ixtiyarım varmı ki, şərtimizə əməl edim?

Reyhan xanım deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

–Razıyam!

Aşıq Hüseyn sazı sinəsinə basıb, dediyi qıfılbəndi açmağa başlayır:

Sana xəbər verim, ay Reyhan xanım,
O dünyadır axırında puç olar.
Nə insandı, nə heyvandı, nə də ot,
Gecə-gündüz iki dəfə tuş olar.

Qıfılbəndi açıb deyir:

–Reyhan xanım, hələ gerisinə qulaq as:

O kim idi nicat tapdı dəryadan?
O kim idi xilas oldu xətadan?
Kimlər idi əl çəkdilər dünyadan?
O nədir ki, hesabında beş olar?

Reyhan xanım bu qıfılbəndi də aça bilməyir. Dinməz-söyləməz sazını Aşıq Hüseynə uzadır. Hamı yerdən Aşıq Hüseyni alqışlayır. Reyhan xanım göstəriş verir, zindandakı aşıqları da azad eyləyirlər. İki şərt yerinə yetirilir. Qalır bir şərt: şərtə görə gərək Reyhan xanım ehd-peymana əsasən Aşıq Hüseynə öz razılığı ilə ərə getsin. Aşıq Hüseyn deyir:

–Reyhan xanım, hazırlaşın, sizi aparacam. Reyhan xanımın nitqi tutulur, mat-məhəttəl qalır, öz əhd-peyman bağladığı üçün bir kəlmə dillənə bilmir. Amma onun adamları irəli yeriyib deyirlər:

–Aşıq Hüseyn, sən haqlısan, ancaq onun atası keşişdir, qızı səne getsə, tufan qoparar. Sənin də arvadın var. Gəl onu bizə bağışla, əvəzində üç min qızıl pul verək, Reyhan xanım qalsın.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Kalvalı xan kənardan diqqət edirmiş. Görür burada qalmaqal çıxacaq, deyir:

–Gəlin Aşıq Hüseynlə Reyhan xanımı bu gecə mənə zamina verin, mən bu məsələni bu gecə yoluna qoyaram.

Kalvalı xan hörmətli bir adam idi. Ona görə də hamı ona inanır, razı olur. O gecəni Kalvalı xana qonaq qalırlar. Üzünüzə xeyirliklə açılsın, səhər açılır. Aşıq Hüseyn Reyhan xanıma deyir:

– Reyhan xanım, indi ki biz ayrılası oluruq, dayan sənə bir neçə kəlmə sözüm var, deyim halallaşaq!

Aşıq Hüseyn sazım köynəyindən çıxarır, sinəsinə basıb, alır görək nə deyir:

Ahuyi sərxoş niyarım,
Məni candan elədin!
Aparıb əqli huşum,
Din-imandan elədin!
İtiribsən təbimi,
Gövhəri kandan elədin!
Salıbsan biyabana,
Bil xanimandan elədin!
Tutulubdur nitqim, dilim,
Fəsih zəbandan elədin.
Ya mənə bir qehr elə,
Şərbətimi zəhr elə!
İşimi bir tehr elə!
Ya mənə qəzəbə gəl!
Ya öldür, əzaba gəl!
Ya qurtar, insafa gəl!
Xallan göyçək,
Çəməndə çiçək.
Top qara birçək.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ağ buxaqdan aşağı
Bir cüt bustandan elədin!

Tikilib qolla, bədən,
Sərindəki şalına qurban!
Danışır tuti kimi,
Şirin, şəkər dilinə qurban!
Qurşayıbdu kəməri,
O incə belinə qurban!
Görünür ağ üzündə,
Bir cüt qoşa xalına qurban!
Tökülüb bulud kimi,
Görəndə telinə qurban!
Ay gülüzarım,
Türfə niyarım!
Kəsmə qərarım,
Gərdəni mina,
Sərində cuna,
Yaşıl baş sona,
Yanağı əhmər,
Sərvi qələmkər,
Həmişə meyl edərdim,
Büllur fincandan elədin!

Sallanıb ceyran balası,
Necə gedir düzdə, görün!
Belə yerişi yeriməz,
Ördək ilə qaz da, görün!
Dediyim xub yaraşır,
Qamətinə söz də, görün!
Tanrmı istərsiniz,
Mən görmüşəm, siz də görün!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Açılıb gül, yasəmən,
Bahar fəsli yazda, görün!
Açılmış xoş yazı var,
Qumru tək avazı var.
Söhbətilə sazı var.
Əlində saz çalandı,
Qəmzəsi can alandı,
Elə talan salandı,
Bax bu talana,
Canlar alana,
Məhbub olana,
Sən ha məhbub olmuşdun,
Məni canandan elədin!

Geyinib zər libasın,
Sallanıb nazınan gəlir,
Asıbdır zənglərini,
Katibi xəzinən gəlir.
Elə bil şeyda bülbüldü,
Bahar-yazınan gəlir.
Başında var dəstə gözəl,
Qırx incə qızınan gəlir.
Qız, sana qız deyirəm,
Gözlərini süz deyirəm,
Yəni tərif az deyirəm?
Tərifini çox deyirəm,
Kirpiyinə ox deyirəm,
Daha tabım yox deyirəm!
Gözlərin şəhla,
Qaşların mehrab.
Yoxdur məndə tab!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Əridibsən ciyərimi,
Cismimi candan elədin!

Mənə cəfalar verməyə
Yoxdurmu arın, bu qədər?
Tökülüb dal gərdənə,
Telləri marın bu qədər!
Dolanasan başına,
Sinəsi qarın bu qədər.
Yenicə baş veribdir,
Xırdaca narın bu qədər.
Alasan qadasını,
Bir belə yarın bu qədər.
Yar yara baxar,
Kipriyin qaxar.
Odlara yaxar.
Ciyərim pişdi,
Ürəyim keşdi.
Yadıma düşdü:
Gülgəz yanağın,
O gül dodağın,
Xoş danışmağın.
Aşıq Hüseyni dərdə salıb,
Şövketi şandan elədin!

Aşıq Hüseyn bir neçə gün də Naxçıvanda qonaq qalır, hörmət izzət və məhəbbətlə keçindikdən sonra yenə də Şəmkirə qayıdır. Yolda yadına düşür ki, xan qızı Xasa xanıma söz vermişəm. Bir neçə gün Xasa xanıma qonaq olur. Başına gələnləri ona nəql eyləyir. Şirin, şəkər söhbətdən sonra Aşıq Hüseyn camaatla da görüşüb xudahafisləşir, günə bir mənzil, təyyi münəzzil özünü yetirir Şəmkirə. Qo-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

hum, qardaş, dost, aşna yığılıb onlara gəlir. Aşıq Hüseyn əhvalatı təfsilatı ilə onlara danışır. Üç gün üç gecə qonaqlıq olur, bu ağır səfərdən kefi saz, damağı çağ gəldiyi üçün hamı Aşıq Hüseyni təbrik edir, alqışlayır. Bundan sonra Aşıq Hüseynin şöhrəti birə beş artır, həmişə ən böyük məclislərə onu dəvət edirlər.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## MEHDİ BƏYİN DASTANI

Bəli, keçmiş ustaddara rəhmət. Ustadlar söhbətdən qavax bir neçə nəsihətlər deyir, onnan sonra dastanı başlayır. Bizim xeyrimiz-bəhrəmiz də ustaddara rəhmət dedirtməhdi. Bəli, görəh ustad burada nə deyif:

Doğurdan, yalannan dərs verdin bizə,
İşdərin çıxmadı bir yana, dünya.
Nə mənzilin bəlli, nə də məkanın,
Cadalar tüşüfdü hər yana, dünya.

Gələnnər gəlincə bir səni bildi,
Çoxunda ağladı, azında güldü;
Nə gedənnər gəldi, nə gələn qaldı,
Budu etivarın insana, dünya.

Bir gün olar əsər məhşər yelləri,
Göyərdirsən, çürüdürsən gülləri.
Pünhan olur murğuların dilləri,
Sultan Süleymannan bu yana, dünya.

Əzəli görəndə eylədin rəftar,
Binəsif[1] olmadı yapdığın tufar,
De görüm nejoldu verdiyin ilqar,
Onnardan bizə bir nişana, dünya.

Ağır səltənətdi, təxdi-divannar,
Övliya,[2] əmbiya,[3] dini-imannar,

-----------------------

1. Binəsif - münasib
2. Övliya - müqəddəs pirlər.
3. Əmbiya - peyğəmbər.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Turaba[1] qarışdı neçə min cannar,
Xakə bülənd oldu yeksana, dünya.

Rüzquda bəllidi fəsildə yaylar.
Ömrümüzdən keçir günnərnən aylar,
Gəlir xəyalıma əlvan saraylar,
Dönüfsən qızıla, mərcana, dünya.

Murazı mətləbdə tərtibi-atdı,
Axır körpülərin qıldan siratdı,
Qılıncın qınsızdı, qolun qüvvətdi,
Baxmadın qojuya, cavana, dünya.

Şair Nəvi cəhd eylədi cafana,
Ömür keçdi sarınmadı safana,
İnnən belə inanmaram bafana,
Sıdıqınan sığınnam sübhana, dünya.

Bəli, ustaddar bir demir, iki deyir. Biz də deyək iki olsun, namərdin də ömrü gül təki solsun.

İnsan oğlu yetişəndə həddinə,
Cavannıx bir işdi qönçə-gül oldu.
Eləsi var xoş nişanı xudadan,
Eləsi var başı keçəl-gil olu.

Eləsi var ibadətdi zikiri,
Eləsi var bijdihdədi fikiri,

----------------------------
1. Turab - torpaq.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Eləsi var dildən qoymaz şükürü,
Yavan çörəh dəhanında bal olu.

Eləsi var onnan olur bədnəzər,
Eləsi var oxuyuf dərsin yazar,
Eləsi var çəhi-çöürə dözər,
İşi-güjü qazma, külüng, bel olu.

Eləsi var el içində öyünü,
Eləsi var bəd xavara söyünü,
Eləsi var uca görüf boyunu,
Pəhlivantək qol-qolada fil oldu.

Eləsi var öy içində söyülər,
Eləsi var öz-özünə öyülər,
Eləsi var  baltasını bülöylər,
Fəryad çəkən ormannarda kol olu.

Eləsi var töylədən çəkər atı,
Eləsi var nura bənzər sufatı,
Eləsi var cəhd edər getməz baxtı,
Vurar baxtı qara dövlət sel olu.

Eləsi var yer üzünün astanı,
Eləsi var işə getməz, pastanı.
Şair Nəvi tamam etdi dastanı,
Görün adamlıxda necə yol olu.

Bəli, ustaddar üçətən deyif. Birini də deyim olsun üç, namərdin də ömrü qoy olsun puç.

Ağılnan eşq hər adamda var, çünki ağıl insanı düz yola çəkir, eşq həmişə uçuruma aparır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bir gün eşq ağıla dedi:

– Ağıl, daha mən sənin sözünə baxmıram, çünki mana zaral elliyir. Ağıl dedi:

– Bə, neyliyəh?

Eşq dedi:

– Deyişərik, əyər sən bağlasan, mən sana tabe olaram, mən bağlasam, sən mana.

Ağılnan eşq meydana girdilər. Ağıl dedi:

– Bə bizim sözümüzü kim təsdiq edəjək?

Eşq dedi ki, gə bir şair çağırax, o təsdiq elləsin.

Ağıl dedi:

– Yaxşı, eşq, de görüm fırsant sənindimi, mənimdimi?

Eşq dedi:

– Biz fırsantı tüşmənə verrik, qavaxda əkə-əkə get, gerdə xərəh-xürəh qalsa, mən qardan çəkərəm.

**Aldı Ağıl**

Ağıl dedi, doğru sözün kökü var,
Səcərində[1] necə pudax yaxşıdı?
Sərrafı çağırax, dürdana seçəh,
Yamanı içinnən atax, yaxşıdı.

**Aldı Eşq**

Eşq dedi ki, bəyənmədim sözünü,
Rəyasət elmini tapax, yaxşıdı.
Yanımda gərəhdi neçə növcavan,
Cəhd edif dünyəni çapax, yaxşıdı.

---------------------

1. Səcər - budaq



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**Aldı Ağıl**

Ağıl dedi, eşq, gəl həddini tanı,
Məhşər günü yaman üzdər utanı,
Koroğlu, Rüstəm-Zal qəhrəman hanı?
Nə üçün günaha batax yaxşıdı?!

**Aldı Eşq**

Eşq dedi, gəl nəfsimizdən söylüyəh,
Pünhan-pünhan yara qaş-göz eyliyəh.
Yol vermiyək, gözəlləri əyliyəh,
Üç-doqquz üzünnən öpəh yaxşıdı.

**Aldı Ağıl**

Axı, yoxdü, bu işdərin binəsi,
Yaxşı oldu ömürrərin sənəsi,
Həqiqətdən ləli-gövhər dənəsi,
Qədir bilənlərə satax yaxşıdı.

**Aldı Eşq**

Altımda gərəhdi narınc, bədöy at,
Haramnan qazanam, aləm qala mat;
Yellənə qapımda malınan döylət,
Qoyun, quzu, çənbər köpəh yaxşıdı.

**Aldı Ağıl**

Ağıl dedi, niyə oda düşəlim?
Riya üçün çəbəlləri[1] aşalım?
Yaz olanda əyri kotan qoşalım,
Qış olanda əlvan otax yaxşıdı.

----------------------

1. Çəbbələr - dağlar.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**Aldı Eşq**

Mən istərəm bu dünyədən bac alam,
Bu doğrudu, qorxum budu qojalam,
Heç kəs də bilmiyə qarnı aj olam,
Əlvan silah, qırım papax yaxşıdı.

**Aldı Ağıl**

Ağıl dedi, ağlar yazıx canımız,
Azreil gələndə gedər qanımız,
Rəhm elliyər gənə ol sübhanımız,
Mövlam karvanına çatax yaxşıdı!

Şair Nəvi, var bu sözün laf əsli;
Tarix yetər, ruh bədənnən kəsili,
Saxla təharəti,[2] unutma qüslü,
Oruc tutax, namaz qılax yaxşıdı!

Xoşbaxt olun, ustaddara da min rəhmət.

İndi sizə "Mehdi bəyin dastanı"nı çatdıracam.

Bəli, sizə hardan xavar verim, Qalaça şəhərinnən. Qalaça şəhərində Nejdi Məmməd adlı bir xan varıydı. Həmən xanın baş taciri Söyün adlı bir kişiydi. Söyünün öylad sarıdan varı-yoxu Mehdi bəy addı oğluydu. Tacir ölənə yaxın oğlunu yanına çağırtdırıf dedi:

– Oğul, dünyada nə qədər istəsən döylətim var. Özünə də bəsdi, nəticənə də. Özün də mədrəsəyi qurtarıfsan. Bircə murazım qalır ki, səni öyləndirməmişəm. İndi vəsiyyətim budu ki, sən də xanın yanında mənim kimi etibarrı baş tacir olasan. Oğul, onsuz da öylənəssən, amma siftə yoxluyursan, əsli-

----------------------

1. Təharət - təmizlik



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

nəcabətdi yerdən qız alarsan ki, adımıza-sanımıza yaraşsın. Bir də cümədən cüməyə qavırımın üstündə quran oxuyarsan. Yadında saxla ki, bir alverə, bir oyçuluğa qoşulan adam gej qojalar. Oğul, mən dünyadan köçürəm, axırıncı bir vəsiyyətim də budu ki, anıyın sözünə qulaq as, çünki sənin əziyyətini mənnən çox o çəkif.

Bəli, tacir ömrünü sizə bağışladı. Onu urvattı götürdülər, dəfn ellədilər. Oğlu da hər cümə axşamı onun qavırı üstündə Quran oxudu. Aradan bir il keçdi. Oğlan iyirmi iki-iyirmi üç yaşa çatdı. Bir gün anasına dedi:

– Ana, atamın vəsiyyətidi, baş tacir ola bilməsəm də, heç olmasa balaca tacir olum. İndi mən səfərə çıxmalıyam.

Anası dedi:

– Oğul, o ki, belədi, onda de görüm hansı vilayətə getmək istiyirsən?

Mehdi bəy dedi:

– Ana, bu gün karvansarıya getmişdim, traxtında (yanı çayxanada) Gürcüstan tacirləri varıydı. Oraları elə gözəl söylədilər. Gürcüstana səfər elliyərdim.

– Ay bala, doğrudu, Gürcüstanı elə təərifliyillər, amma oranın bir ayrı işi də var.

– Nə olajax, ana?

– Oğul, eşitdiyimə görə oralar gözəllər məskənidi. Nə ki, burdan gedən oluf hamı orda əylənif qalıf. Gözümün ağı-qarası bir oğlumsan, səni nejə buraxım orya?!

– Ana, and içirəm, Qurana ki, bir ilə gedif qayıdajam. Oğlu çox dedi, ancaq anası razılıq vermədi. Axırı oğlunun xətrini qırmaq istəmədi.

Dedi:

– Oğul, and iç ki, bir ilə gedif gələjəhsən.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bəli, oğlan bir ilə qayıdajağına and içif, qəflə-qatır hazırratdırdı. Tirməyi şaldan, aldan-yaşıldan, qəvli-qortdan, Hindistan yaqutundan yeddi dəvə yühlətdi. Anasınnan halal-hümmət elliyif, qəflə-qatırnan yola tüşdü. O zaman aynan, ilnən, indi müxtəsər dilnən tüşərgələr keçdilər, gəlif Gəncə şəhərinə yaxınnaşdılar. Baxdılar ki, bağlı-bağatdı bir gözəl şəhərdi. Bir sərin bulağın üstündə sarvannara əmr ellədi ki, dayanın, qəflə-qatır bir az dincəlsin. Yeməh hazırrıyın, savax burda nahar elliyək. İndi dincəlin, mən atdanıf gedim, görüm, bu nejə şəhərdi. Bəlkə bir az mal-mətah satax. Mehdi bəy atdanıf, gəldi şəərə. Baxdı ki, bir oğlan bağ bejərir. Dönüf salam verdi:

– Qardaş, Allah quat versin! Salamını əlyek aldı.

– Bu hası şəhərdi belə, qardaş?

– Qardaş, bura Gəncədi, dəəsən qarıv adamsan, özün də tacirə oxşuyursan?

– Bəli, tacirəm, mal-mətahıfm var. Burda elə dam-daş olarmı mal-mətahımı yerrəşdirəm. Nejə bilirsən, burda sata bilərəmmi? Bu şəhər yaman xoşuma gəldi.

– Hə, eləmi satarsan, lap yaxşı.

– Bə, dam-daş məsələsi nejə olar?

– Çoxdumu, qardaş, malın-mətahın?

– Yeddi dəvə yüküdü.

– Düzü, mənim dam-daşım var, amma bir özgəsinə vermişəm. Elə yüz manat peşman pulu verərsən, sana verrəm.

– Baş üstə, adını bağışda?

– Adım Məhəmmədəlidir. Sizin adınız nədir?

– Mana da tacir Mehdi bəy deyillər.

– Di, buyurun gedəh.

Gedif dama-daşa baxdılar. Şəhərin içi Mehdi bəyin daha çox xoşuna gəldi. Çıxardıf yüz manat peşman pulu verdi. Atını sürüf, qayıtdı geri. Sarvannara əmr edif dedi ki, qəflə-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

qatırı çəkin gedəh, yer-yurd tapmışam. Gətirif malı-mətahı boşaltdılar satmağa. Parçanın arşını o şəhərdə bir abbasıya satılırdısa, bunnar iki şaya satırdılar. Məhəmmədəli tacirin çox zoşuna gəldi və ondan soruşdu:

– Qardaş, sənin qardaşın-zadın varmı?

– Xeyr, təkəm.

– Elə, mən də təkəm, gəlsən qardaş olax?

– Yaxşı olax.

– Amma gərəh bir molla çağırasan ki, siğə qardaşı olax.

– Baş üstə, bu saat molla Cabbarı çağırram.

Bəli, molla Cabbar gəlif, siğə oxudu. Bunnar da şəhadət barmağını qanadıf, bir-birinin qanını sordular. Beləjə siğə qardaşı oldular. Başdadı tükənnəri çağbacağ işdəməyə. Şəhərdə bütün tükənnər dayanmışdı, bircə bunnarınkı işdiyirdi.

Mehdi bəy burda alverindəydi. Məhəmmədəli bazara çıxmışdı. Baxdı ki, bəylərdən bir neçəsi danışır ki, əyə, İranın bir tatı gəlsin bizim tükənnəri bağlatsın? Ona bir tələ qurmax lazımdı.

Məhəmmədəli bunu eşidən kimi özünü Mehdi bəyin yanına saldı:

– Əyə, qardaş, iş yaman ayrı cürdü.

– Əyə, nə təhər, qardaş, nə oluf?

– Ə, ağaların, bəylərin tükənnəri bağlanıf, xavarın varmı? Sana tələ qurmax isdiyillər.

– Bə, nağayrax, nə təhər eliyəh?

– Qardaş, çörəh kəsmiyəni, qılınc kəsməz. Gəl belə eliyəh. Gündə beş bəy, üç ağa çağırax, qonaxlıyax, bunnarnan dostdux elliyəh, bəlkə işimiz yaxşı ola, yoxsa səni xaraf eliyəllər.

– Baş üstə, qardaş, xarc mənnən, çağırmax sənnən.

Elə də başladılar, gündə bəylərdən, ağalardan beşbir, üç-bir çağırıf, yedirdif-içirdif dostdux elləməyə. Bir gün Mə-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

həmmədəli gəlif dedi ki, savağa on dörd ağa, bəy qonax çağırmışam.

– Çox yaxşı, tezdən əmr ver, xörəh-mörəh hazırransın. Mən də hamama gedif gələjəm. Çünki savax cümə günüdü.

Savax tezdən Mehdi bəy hamama getdi. Gedəndə nə görsə yaxşıdı – hamamnan bir dünya gözəli çıxıf, faytona doğru gəlirdi, yanında da kənizi. Amma qız deyirəm, qızdırma demirəm, ağız püstə, burun fındıx, göz piyalə kimi yanır. Qədəminnən yer xof çəkir. Elə bil ki, qəfil qızın iki qaşının arasınnan bir ox çatıldı, Mehdi bəyin sinəsindən dəydi, ürəyinin başında düyün bağladı. Yeri də başladı dolama kimi zoqquldamağa. Elə bu vaxt oğlanın da qaşınnan bir ox çıxdı düz qızın iki məməsinin arasına dəydi. Sizə məmə deyirəm – Gəncənin narı, baxçanın barı, cavannarın ilqarı. Yalan deyənin də öyü yıxılsın, inanmayanın da. Baharın çiçək-çəmən bir-birini çağıran vaxtıydı, bülbül öz gülünü tərif edən vaxtıydı. Qız da Mehdi bəyə bir könuldan min könülə aşiq olmuşdu. Əlində bir dəstə gül varıydı. Barmağından üzüyünü çıxardıb həmən gülün birinə sancdı, faytona minəndə oğlana tulladı. Fayton getdi. Elə bil ki, oğlanın ürəyi də onnan bavar getdi. Ağıl başdan çıxdı. Xeyli donuf qaldı. Birdən əlindəki gülə baxdı, üzüyün qaşını oxudu ki, "Nazdı xanım" yazılıf. Daa hamama da getməyif, qayıtdı geri.

Hər şey hazırıydı, bəylər də gəlmişdi. Amma Məhəmmədəli baxdı ki, Mehdinin rəngi dəyişif.

– Ə, qardaş, rəngin niyə belə oluf, özün də tez gəlddin hamamnan, bu nətəər işdi, xeyir ola?

– Qardaş, dəəjəm, amma hələ falımı açma. Qoy bəylərnən görüşüm, gəlirəm. İçəri girif bəylərnən təmannaşıf çıxdı.

– Aya, bir de görüm nə oluf, qardaş, ürəyim yerinə gəlsin.

– Qardaş, məni yaman vurdular.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Əyə, nejə?

Çıxartdı üzüyü göstərdi. Deməzsənmi bir qız faytona mindi, bu gülü də mana atdı, üstündə də üzüh, adı da yazılıf, amma bilmirəm kimin qızıdı.

– Qardaş, qorxma, qardaşın ölmüyüf. İçəri girəjəm, bəylərin içində dəəjəm. Əyər qızın atası bunnarın içindədisə, elə burda elçiliyəh. Yoxdusa, bu on dörd ağadan, bəydən xaiş elliyəjəm, özüm də başda, kimin qızı olduğun biləh, elçi düşəh. Məhəmmədəli içəri girif başdadı söyləməyə.

– Əziz bəylər, Mehdi bəyin başına bir iş gəlif. Bu qız kimin qızı olar, adı da "Nazdı xanım".

Biri dedi Alının qızıdı, biri dedi Vəlinin qızıdı, biri dedi Pirqulunun qızıdı, tapa bilmədilər. Amma əyaxlıxda bir qoja pirani oturmuşdu, ağa-zad da döyüldü, qonuşdan gəlmişdi.

Dedi:

– Tapa bilmədiniz, o Qara xanın qızıdı, Gəncə xanının.

– Əyə, doğrumu deyirsən?

Dedi:

– Bəli.

Ağalardan, bəylərdən xaiş elədi ki, durun elçi gedəh. Hamısı bir yerdə elçi getdilər.

Qara xan qonaxları xoş-beşnən qavıl ellədi. Nə yaxşı bəylər gəlif, buyurun deyif xoş üz görkəzdi. Oturdular, çay-çörəh tökdülər.

Qara xan dedi:

– Di buyurun.

– Xeyir, yemiyəjiyih.

– Niyə?

– Biz mətləvə gəlmişik, düzəldərsən, çörəyini kəsərih.

– Xoş gəlifsiniz, məndə tapılan şeydimi?

– Bəli, səizdə tapılan şeydi.

– Onda elə bilin ki, civinizdədi.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

O saat bəylər dedi:

– Əyə, aldıx, buyurun.

Başdadılar yeməyə. Amma bu söz Qara xanın ürəyini dəlirdi. Öz-özünə dedi:

– Bunlar nəyə gəlmiş olar. Hamısı varlı adamlardı. Vara gəlməz, pula gəlməz, nəyə gəlmiş olallar? Qızıma gəliflərsə, bunnarın yeddisinin öylənəsi oğlu yoxdu, qalan yeddisininki də öylənif.

Qara xan üzünü onnara tutuf dedi:

– Əyə, bəyax söz sizin qarnınızı dəlirdi, indi də mənim qarınımı dəlir, deyin görüm nə işə gəlifsiniz, təmənnanız nədi?

– Allahın əmrinnən, peyğəmbərin şəriətinnən qızın Nazdı xanımı, tacir Mehdi bəyə diləyirih.

– Əyə, o İranni Mehdi bəyəmi?

– Bəli, bəli o Mehdi bəyə.

Fikirrəşdi ki, indi qızımı buradan İran tacirəmi verim. Gəl elə bir şey istə ki, onu başarmasın.

– Noolar, – dedi, – Çox gözəl, mənim qızımın bir kəlmə sözü yüz tümən qızıl puldu. Əyər cürdəyi çıxardırsa, yaxın gəlsin.

Deyəndə, bəylər başını aşağı saldı ki, bu qədər haqq-hesavın qavağında durmax olmaz. Amma Məhəmmədəli işin içindən halıyıdı, bilirdi ki, bunu Mehdi bəy başarar. Oydu ki, dedi:

– Xan sağ olsun, mana yarım saat möhlət verərsənmi, cavaf gətirim?

Dedi:

– İki saat möhlət verrəm.

Məhəmmədəli özünü yetirdi Mehdi bəyə ki, əyə, qardaş, əhvalat belədi. Amma Mehdi bəyin bir kalça dərisi ləli-cavahiratı varıydı. Bir hambal çağırıf belinə yıxdı, dedi, apar.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Yox olsun yoxsulluğu - var olsun kərəm əli, yox olsun vərəm əli. Məhəmmədəli hambalı qavaxlıyıf gətirdi kalça dərisi dolu cavahiratı Qara xanın öyünə. Saya bilərsən, – dedi. Xan görən kimi gözü təpəsinə çıxdı. Götürdü ayrı ota-ğa apartdırdı. Açdırdı, baxdı ki, hamısı ləli-cavahiratdı. Tez ağzını bağlıyıf, bəylərin yanına gəldi. Amma Məhəmmədəli bəylərə göz ellədi ki, gətirmişəm. Bəylərin irəngi açıldı. Qara xan içəri girdi, dedi:

– Əyə, mən zarafatnan bir söz dedim, siz də inanıf o qədər haqq-hesaf gətirifsiniz.

– Xan sağ olsun, sənin bir sözün iki olmaz ki, gətirməliydih.

– Onda, nişanı da onun içindədi, toyu da. Bunnan qurtardıx.

Nişan ellədilər, toya da vaxt qoydular. Amma gəl gör ki, Mehdi bəy fikrə düşüf nagüman olmuşdu: "Ayə, olmuya bu işi pozalar, xəzinə də gedə, qız da. Burda da elə bir arxam yoxdu". Hər savax qalxanda Qara xanın bağına tərəf baxır. Hərdən qızı orada görürdü. Bir savax Mehdi bəy gördü ki, Nazdı xanım yeddi qələmnən özünə sığal verif saçını darıyır. Savax yeli də yavaş-yavaş qoğalıyır. Məhəmmədəliyi çağırdı:

– Əyə, Məhəmmədəli, burya gəl. Amma yeddi telli bir tavar sazı da varıydı. Hərdən otağında çalırdı.

– Əyə, qardaş, bir qələm, kağız götür. Mən dəəjəm, sən yaz.

– Əyə, de görüm nə görüfəsən?

– Qulaq as deyim. Aldı Mehdi görəh nə dedi:

Bağ tərəfdən qəfləm istər nigarın,
Gözdərəm yolların amandı, aman.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Badi-səba mənim üçün yağıdı,
Dağıdar tellərin, amandı, aman.

O boy ki, səndədi, səlmim, amandı,
Tərk eylə yerişi, öldüm, amandı;
Zülfünü tez dara, başa dolandır,
İncidər bellərin amandı, aman.

Söyda Mehdi sənnən qaldı begüman,
Kətan köynəh belin qucar hər zaman.
İnnabı  yanağın, mirvari məmən,
Əməllər ləblərin, amandı, aman.

Kağızı yazıf, Nazdı xanıma göndərdi. Nazdı xanım oxuyuf çox qəmgin oldu. Dedi ki, dəəsən bu işin pozulmasınnan qorxur. Götürüf on dörd siyah teldən birini çəkdi, nar məmənin üstünə. Sonra kənizinə dedi:

– Ağız, qələm hazırla, mən dəəjəm, sən yaz.

– Götürüf nə dedi:

Başına döndüyüm, vəfalı yarım,
Ah çəkmə, ay oğlan, səninəm, sənin.
Seyrəqiflər pozmaz, vardı ilqarım,
Ah çəkmə, ay oğlan, səninəm, sənin!

İnanma ki, namusumu ataram,
Beilqar tək özgəsini tutaram;
İnşallah ki, mətləbimə çataram,
Ah çəkmə, ay oğlan, səninəm sənin!

Nazdı xanım deyər, ilahi haqdı,
Atam hökmdardı, varı da çoxdu.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Demə mühacirəm, kimsəm də yoxdu,
Ah çəkmə ay oğlan səninəm, sənin.

Bəli, bu namiyi alannan sonra Mehdi bəyin ürəyi dincəldi. Toy hazırrığı görüldü. Təmtəraxnan toy eliyif gəlini gətirdilər. Nolajax, oğlan cavan, qız cavan, var-hal da ki, çox. Beləjə anası yaddan çıxdı.

Deyillər üç il tamam olmağa bir on-on bir gün qalmışdı. Bir gejə yuxusunda anasını gördü. Baxdı ki, anası deyir: "Oğul, Qurana and içdin, andı pozdun, Quranı əyəxlədın, adam ilqara xilaf çıxarmı? Bə o dunyədə mana nə cavaf verəssən?"

– Ana, ağlama, ana, ağlama, – deyə-deyə Mehdi bəy öylə ki yuxudan oyandı, Nazdı xanım özünü yetirif soruşdu:

– Mehdi bəy, Mehdi bəy, sana nə oldu?

– Nazdı xanım, mən buraya gələli neçə vaxtdı?

– Nə bilim, toyumuzu elliyəndə dedin yeddi aydı İrannan gəlmişəm.

Toydan bəriyi də hesafladılar. Baxdılar ki, üç il tamam olmağa on bir gün var. Dedi:

– Xanım, öyümü yıxmışam.

– Nə təər?

– Qulaq as deyim. Mehdi bəy höykürüf ağladı, dedi:

Nə müddətdi bu qürbətə düşmüşəm,
Əziz anam yada düşüf, ağlaram.
Bir ilə and içif yola düşmüşəm,
Əziz anam yada düşüf, ağlaram.

Varıydı atamın cahı-calalı,
Dağılmaz qalası, döyləti, malı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Neçə ildi bu diyarda qalalı,
Əziz anam yada düşüf, ağlaram.

Mehdi bəyəm, bu qürbətdə qalmışam,
Qohumnan, qardaşdan, eldən olmuşam.
Saralıbam, yarpaq kimi solmuşam,
Əziz anam yada düşüf ağlaram.

Nazdı xanım dedi:

– Mehdi bəy, olmuya elə fikirləşirsən ki, xan qızıdı, mənnən getməz. Arvad dediyin kişinin dəvəsidi, oysarımnan tutuf harya desən, aparar.

– Nazdı xanım, bə indi neyniyək?

– Gedəh, atamnan icazə alax. İcazə versə də gedəjəm, verməsə də. Amma deməh yaxşıdı.

Oydu ki, Mehdi bəy fayton çağırdı. Layıxlı töhfəynən Qara xana qonax getdilər. Qız əhvalatı belə danışdı:

– Ateyi mehriban, Mehdi bəyin bircə anası var, icazə ver gedəh onu yoxluyax.

Qara xan gördü ki, daha Mehdi bəy qalası döy. Onnarı layıxlı yola saldı, xeyir-dua dilədi.

Nazdı xanımnan Mehdi bəy İrana yola düşdülər. Gəlif Qalaça şəhərinə yaxınnaşdılar. Qəflə-qatır gəlməhdə olsun, Mehdi bəy atdanıf Nazdı xanımnan irəlilədi. Anasına müjdə getdi ki, oğlun gəlir. Anası yeddi cöngə kəsdirif, oğluynan gəlinini onların arasından keçirdi. Cəmi-həsrətdər bir-birinə yetişsin. Oğul-ana bir-birinə qoyuşdu və yeddi gün, yeddi gejə toy vuruldu. Mehdi bəy anasına üzürxahlıx ellədi, anası da günahınnan keçdi. Ancaq daa Mehdi bəyi qırax eldə tacirlik elləməyə buraxmadı... O da çox gəzmiş, görmüş adam olduğundan öydə darıxırdı. Axırı anasına dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Ana, məni qırağa, tacirriyə getməyə qoymursan, bə mən neyniyim ki, darıxmıyım.

– Oğul, atayın məsləhəti yadındadımı?

– Ana, vallah, dəəsən yadımadn çıxıf.

– Atan deyərdi ki, oyçulux adamı qojaltmaz.

– Doğru deyirsən, ana, rəhmətdik atam onu mana demişdi. Oydu ki, Mehdi bəy bir tarlan quş, bir yay-oxu, iki dənə də tazı aldı, yaraxlanıf-yasaxlanıf oya çıxdı. Gündüzlər gedif oyluyıf, quşduyur, axşamlar öyə qayıdırdı. Həmişə də Nazdı xanım külənfirəkdə duruf onun yolunu gözdüyürdü. Mehdi bəy darvazaya yaxınlaşanda, nökər-naifdən qavax özü düşüf onu qarşılıyır, qol-boyun imarətə girirdilər. Bir neçə vaxt bu ədəbnən, bu şirinnihnən dolanmaxda olsunlar, sizə kimdən xavar verim, şəhərin xanı – Nejdi Məmməddən. O da öz vəzirinnən səyahətdən gəlirdi. Belə baxanda Mehdi bəyin imarətdə bir dünya gözəli gördü, elə bil ki, on dörd gejəlih aydı, buluddan çıxmışdı. Xudavəndi-aləmin boş vaxtına düşüf, bircə bunun qəddi-qamətinə qələm çəkif.

– Vəzir, öyün yıxılsın, bu kimdi belə, məni yay-oxuynan vurdu?

– Xan sağ olsun, tacir Söyün bəyin oğlu Mehdi bəyin Gəncədən gətirdiyi dünya gözəlidi.

Kirimiş gəldidər divanxanıya. Xan dedi:

– Vəzir!

– Bəli.

– Anasını satdığım, bu işə bir dava elədin – elədin, eləmədin, dərini davanından çıxardajam.

Vəzir düşdü azara. Fikirrəşdi: – Nağayrım? Özünü qazının yanına yetirdi.

– Qazı, aman günüdü, başım cəlladdadı, bu işə bir çara qıl, xannan da böyük ənamın var.

Qazı çox yaşamış, dünya görmüş bir qarı tafdı, dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Nənə, bir belə əhvalat var, əlinnən nə gəlir?

– Ziyankarlıxdan savayı əlimnən heç nə gəlməz. Gündə yeddi öy yıxıram, heç birini də tikəmmərəm. Amma sənin baxtınnan üç gündü tova demişəm.

Vəzir qazıya lazımi qədər qızıl vermişdi. Oydu ki, genə bir ovuc qızılı qarının oycuna basdı. Qarının gözü qırxillik qəssaf pişiyinin gözünə döndü. Dedi:

– Üç gündü tova demişdim, onnan keçməy olar, amma haja gedəjəm, bə onu neyliyəh?

Qazı bir oyuc da qızıl verdi.

– Bu da haj pulun.

Qarı dedi:

– Əşşi, mən ölmürəm, haj köçmür, bu il olmaz, yenidə gedərəm. İndi de görüm, o kimdi?

– Gərəh tacir Söyün bəyin oğlu, Mehdi bəyin arvadı Nazdı xanımı Nejdi Məmməd xana düzəldəsən.

– Hə, elə işdər, – dedi, – mənim oycumun içində. Mana Tülfənisə qarı dəəllər, bir qazana çalası töksəm, qırxı uyuşar, oyusnnanıf bir küpüyə girsəm, qırxı onun dalınnan göyə çıxar. Arxeyin ol, – deyif işə başdadı. Qarı qulançar qoması kimi yüz dənə çuvux kəsdi. Bir sini gətirif, səbzəvad doldurdu. Bir qoma çuvuğu da onun içinə qoydu. Bir küpə oysunnadı, özü də sininin içinə mindi, Mehdi bəyin qapısına girdi. Orda düşüf, sinini aldı başına. Nazdı xanım eyvandaydı, Mehdi bəyi yenijə yola salmışdı. Baxdı bir qarı "Nazdı xanım" – deyə başına da bir sini töhfə qışqırır. Kənizlərdən soruşdu:

– O kimdi məni çağıran?

Kənizlər baxdı ki, bir qarıdı.

– Nə buyurursan, ay nənə?

– Kor olsun nənəyin gözü, Nazdı xanım hardadı, a bala, onu istiyirəm.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Kəniz qayıtdı ki, Nazdı xanım, bir qarıdı, səni soruşur. Dedi:

– Buraxın, gəlsin. Qarı özünü yetirdi. Nazdı xanımın yanına, töhfüyü verdi kənizdərə ki, yuxarı çıxartsınnar. Qarı Nazdı xanımı qucaxladı:

– Nənən ölsün, ay bala, gəldiyini yenijə eşitmişəm.

– Nazdı xanım qarıyı öz otağına çıxartdı. Qarı nənə başdadı ağlamağa ki, ay bala, bilirsənmi mən kiməm? Qara xanın mamasıyam. O vaxtdan burya düşmüşəm. Mana dedilər ki, gələn Qara xanın qızıdı. Qara xan da ölmüş qardaşımın oğludu. O, etivarsız heç gəlib məni yoxlamır. Xannıx da belədi dana, ay bala, baş qarışır, yaddan çıxırıx.

Kənizdər nahar gətirdi. Qarı dilinin altında bir surə oxudu. Fırsat tapıf Nazdı xanımın çayına üfürdü. Qarı çayı içən kimi başdadı ağlamağa.

– Nənə, niyə ağlıyırsan?

– Səni ağlıyıram.

– Məni niyə ağlıyırsan, ay nənə?

– Kor olaydı gözlərim, səni görmüyəydim.

– Niyə?

– Nejə ağlamıyım, Qara xan kimi bir xanın qızı bir quş qoyluyana ərə gəlif. Sən padşaha, xana layıxsan, gözəlsən.

Deyəsən, oysununnu su öz işini görmüşdü. Qız dedi:

– Nağayrım, ay nənə, məni ona yazanın qələmi qırılaydı. Qız da başdadı ağlamağa.

– Ağlama, qızım, ağlama. Nənən ölmüyüf.

– Nənə, bə mən neyniyim, bu işə nə çara qılırsan?

– Nə çara olajax, gənə deyirəm, nənən ölmüyüf, səni şəhərin xanına verəjəm.

– Bə nağayrım, burdan nejə çıxım?

– Yolunu öyrədəjəm, burda yüz çuvux var. Bunun birini çıxardıf qoyajam bu sininin üstünə. Mehdi bəy gələndə qar-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

şısına çıxmazsan, qara bulud kimi oturarsan. Çuvuğu alıf səni qurdalıyajax ki, dur, o saat dinməz-söyləməz düz məscidin qavağına gəl, səni orda gözdüyəjəm.

Mehdi bəy o günü nəysə axşamüstü gəlif çıxdı. Eyvana baxdı ki, Nazdı xanım görünmür. Öz-özünə dedi: Görəsən nə işdi, büyün eyvana çıxmıyıf. Tez atdan tüşüf yuxarı çıxdı. Nazdı xanım fikirrəşdi ki, ay Allah, kor oluydu gözlərim, Mehdi bəyi görmüyüydü. Mehdi bəy içəri girdi, baxdı ki, Nazdı xanım bahar buludu kimi elə doluf ki, deyirsən bu saat yağajax.

– Qadan alım, Nazdı xanım, sana nooluf, olmuya naxoşduyufsan. İstədi üzünnən bir busə alsın, Nazdı xanım onu itələyif, üzünü o tərəfə çöördü. Mehdi bəy belə baxdı ki, bir sini, içində bir bağlama çuvux var. Çuvuxnan Nazdı xanımı qurdaladı ki, "Əşi, sana nooluf, niyə dərdini mana demirsən?" Nazdı xanım fıral qalxıf qapıdan çıxdı. Düz gəldi qarı dediyi yerə. Mehdi bəy fikirrəşdi ki, yağın mənnən küsüf. Elə bildi o biri otağa keçdi. Qarı da qızı götürüf qazının yanına apardı.

– Qazı əfəndi, – dedi, – bu mənim qohumumun qızıdı. Əri ağzına söyüf, yüz dənə də çuvux vuruf. Bu şəraitdə varmı?

Dedi:

– Yox, kim ellif onu?

– Tacir Söyün bəyin oğlu Mehdi bəy.

Qazı o saat işi başa tüşdü, iki fərraş çağırıf göndərdi ki, gedin Mehdi bəyi gətirin. Mehdi bəyi gətirdilər qazının yanna. Qıznan qarı da pərdənin dalına girdi. Mehdi bəy gəlif salam verdi:

– Qazı əfəndi, – dedi, – buyurun, məni qulluğunuza niyə çağırıfsınız?

– Oğul, eşitdiyimə görə quranı oxumuş oğlansan.

– Bəli, oxumuşam.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Şəriətdən halısanmı?

– Bəli, qazı əfəndi, halıyam.

– Çox gözəl, oğlum, arvadı bir dönüşə yüz çuvuxnan döyüf, ağzına söysən, onun kəbini boşdu, ya dolu?

– Əlbəttə, qazı əfəndi, boşdu.

– Onda, oğul, öz əlinnən burya yaz ki, arvadı yüz çuvuxnan döyüf, ağzına söysən, onun kəbini boşdu.

Mehdi bəy bunnarı yazıf, qol çəkdi.

– Qazı əfəndi, kim olar o adam?

– Mən?

– Bəli, sən.

– Mən elə iş elləməmişəm, bu nə sözdü?

– Az, a bala, burya gəl.

Nazdı xanım pərdənin dalınnan çıxdı.

– Bala, əhvalat nejə oluf?

Qız başladı söyləmyə.

– Qazı əfəndi, bu məni yüz çuvuxnan döydü, ağzıma da söydü. İnanmırsansa, çuvuxlar öydədi, fərraşı göndər, gətirsin.

Qazı fərraşı göndərif çuvuxları gətirtdirdi. Mehdi bəy qaldı mat-mətəl. Qazı onun kəbinini geri oxuyuf dedi:

– Gedə bilərsən.

Mehdi bəy kor-peşman düz anasının yanına qayıtdı. Anası gördü ki, heç özündə döylü. Soruşdu:

– Oğul, nooluf?

– Ana, öyün yıxılsın, hanı gəlinin?

– Oğul, otağında, nədi ki?

– Gəlinin, odu, qazının yanda. Buralara gələn-gedən olufmu?

– Mənim xavarım yoxdu. Kənizdərdən soruşdular. Kənizdər dedi ki, bir qarı gəlmişdi. Mehdi bəy bildi ki, elə o qarı



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

yıxıf bunnarın öyünü. Dərinnən bir ah çəkif, aldı görəh nə dedi:

Ah çəkmədən ahım dala yetişdi,
Nejə tav gətirim bu ah-vaya mən?
Hövsəliynən hərcayinin yolunda,
Ömrümü vermişəm xub fənaya mən.

Bu gün oldu halım yaman pərişan,
Yarəbb, özün eylə, dərdimə dərman,
Mən dönərəm, könül dönməz canannan,
Mat qalmışam indi bu söydaya mən.

Bəd gəldi bu günüm çəkirəm fəriyad,
Qəmli könlüm hicrannan olmaz azad,
Mən Mehdiyəm, kimsədən yoxdu imdad,
Üz tutuban yalvardım xudaya mən.

Savax açıldı, vəzir gəlif, qızı apardı Nejdi Məmməd xanın hüzuruna. Qazı da, qarı da öz ənamını almışdı. Xan başdadı cah-cəlalnan toy elləməyə. Hər yerə səs yayıldı ki, xan təzə arvadnan toy elliyir. Bu xavarı Mehdi bəy də eşitdi. Dedi:

– Ana, bu işə bir çara? Divanxanalarda heç qohum-əqrəbam varmı? Bə burda qohumlarım kimdi?

– Oğul, burda bir əmin varıydı, o da öldü. Üç nəfər yetim əmin oğlannarı var. Onnar da hələ uşaxdılar. Onnardan sana nə köməh?

– Bə hası divanxanıya gedim,kimnən imdad istiyim?

– Oğul, bir qohumun da var, amma uzaxdadı. Əşi, neynirsən bu işin dalına tüşüf, sana onnan da yaxşı qız alajam.

– Yox, ana. Hansı divanxanada qohumum varsa de.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Oğul, Tehranda Mustafa vəzir mənim ana qardaşımdı. Nə bilim o köməy elliyə-elləmiyə.

– Ana, nə qədər yol alar burdan Tehrana?

– Oğul, yəəx[1] bir aylıx yoldu, atnan on-on beş günnüh.

– Ana, mən getməliyəm Tehrana.

Mehdi bəyin Tehrana getmək xavarı əmiuşaxlarına da çatdı. Onnar da ağlaşıf yalvardılar ki, getmə uzax yoldu, -noolar, noolmaz. Mehdi bəy dedi:

– Əmiuşaxları, getməliyəm, amma Nazdı xanıma bir qarğış verəjəm. Siz "amin" deyin, salavat çöörün. Çünki siz yetimsiniz, yetimin duası tez qavıl olur. Götürüf Mehdi bəy burda nə dedi:

Bihəya arvadı bu günnən belə,
Könlümdəkş qəməfxara tafşırdım.
Şədidi-cədidə qıldım halımı,
Şahlar şahı hökmdara tafşırdım.

Tavalı bəladan həsrət gətirən,
Həcəri vəsfinə namə yetirən,
Cəbrayıl şanına vəhy gətirən,
Üç yüz on dörd peyğəmbərə tafşırdım.

Qərq oldum dəryaya, qərq oldum selə,
Bülbülüydüm, həsrət qaldım mən gülə,
Həzrəti Eyyuba yetirən bala,
Mənsuru zar edən dara tafşırdım.

------------------
1. Yəəx – yəni piyada.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Mehdi bəy, şanına düşərmi zulüm,
Xudam versin ona sərvəsər ölüm;
Yarəbbi, yanında günahkar qulam,
Aşiqlərə yetən pirə tafşırdım.

Yetimlər "amin" deyif, salavat çöördülər. Mehdi bəy bunnarnan halal-hümbət elliyif, yola tüşdü. O zaman aynan, ilnən indi aşıxların müxtəsəri dilənnən gedif çatdı Tehrana, dayısının hüzuruna. Amma dayısı onu tanımadı. Çünki dayısı onu iki yaşında qoyuf getmişdi. Həm də gedənə kimi dərddən Mehdi bəyin irəngi saralmışdı, başının tükü ağarmışdı. Dayısı soruşdu:

– Oğul, sən kimsən?

– Dayı mehriban, bə məni tanımırsanmı? Tacir Söyün bəyin oğlu döyləmmi?

– Əyə, olmaya Pürzə xanımın oğlusan?

– Bəli, dayı.

– Əyə, bə niyə belə olufsan, a bala, özün cavan oğlansan, amma irəngin solğun, başıyın tükü də dümağ?

– Dayı mehriban, qulaq as deyim:

Üzü qara, iki dilli hərcayı,
Keçən günü heç yadına salmazmı?
Fərzəndə ayrılıx olsa da müqər,
Adam öz yarını xavar almazmı?

– Ayə, nooluf, bir açıx de görüm?

Dedi, qulaq as deyim:

Günü-gündən məni dərdə salarsan,
Gündə bir dərdimi artıx qılarsan.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Əbəs əhvalımı xavar alarsan,
Hicran çəkən bə saralıf solmazmı?

Mehdi bəyəm, ulusumnan avara,
Baş götürüb gəldim qürvət diyara,
Öz əlimnən yarı verdim əğyara,
Bə qocalıf başa küllər olmazmı?

Mehdi bəy əhvalatı danışdı. Dayısı bütün söhbəti dinləyənnən sonra dedi:

– Oğul, daa burdan bir yana tərpənmə. Mən şahın yanına gedif, əmr götürüf qayıdajam. Gərəh onun başına bir od əliyəm ki, qıyamata qədər yadınnan çıxmıya.

Dayısı birbaşa getdi şahın yanna. Amma Mehdi bəy dözə bilmədi. Baş götürüf geri, Qalaçıya qayıtdı. Gənə də Nazdı xanımnan ürəyi dönmürdü. O, gəlməhdə olsun, sizə xavar verim Nazdı xanımnan. Nejdi Məmmədxan tələsik toy elədi. Gəlini gərdəy otağına apardılar. Elə bu vaxt gəlinin göydəsində yara əmələ gəldi, qurt tüşdü. Gejə oldu, Nejdi Məmməd gərdəy otağına qədəm basdı. İçəri girəndə nə görsə yaxşıdı. Baxdı ki, qızın halı hal döylü. Göydəsini yara bürüyüf, iy verir. Əmr elədi ki, həkim, loğman, cərrah gəlsin. Amma bunnarın xeyri olmadı, günü-günnən yara çoxaldı. Gəlinin yeddi qədəm həndəvərinə hərrənməh olmurdu. Axırı əmr verdi ki, götürün atın küçüyə. Mehdi bəyin əmisi uşaxları, əhvalatı onun anasına xavar verdilər. Mehdi bəyin anası Pürzə xanım namısına sığışdırmayıf, qul-qaravaşa tafşırdı ki, Nazdı xanımı öyə gətirin, Nazdı xanımı gətirif bir xana bağçıya qoydurdu. İki kənizə əmr verdi ki, ona yaxşı baxsın. Amma Nazdı xanım gejə-gündüz ağlıya-ağlıya Mehdi bəyi diliyirdi. Nazdı xanım beləjə burda qalmaxda olsun, sizə xavar verim Mehdi bəydən. Mehdi bəy Qalaça bağlarının arasınnan gələn-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

də Nazdı xanım yadına düşdü: Ah çəkdi, götürüf dərdli-dərdli nə dedi:

Bir qasid yox, yar yanına göndərəm,
Əlim yar əlinnən üzüldü, haray.
Nə əl çəkə billəm, nə üz döndərə,
Bağrım qəm əlinnən əzildi, haray.

Dan yelləri sinəm üstə əsəndə,
Dal qılınclar başım üstə kəsəndə,
Nazdı dilbər bizə qədəm basanda,
Çuğullar arıya düzüldü, haray.

Mehdi bəyəm, bezar oldum canımnan,
Cəsədim boyanıf əlvan qanımnan,
O zaman ki, Nazdı getdi yanımnan,
Gör necə növrağım pozuldu, haray.

Mehdi bəyin bu nalası Nazdı xanıma ayan oldu. Kənizdəri çağırdı ki, Mehdi bəyin səsini eşitdim. Onnar inanmadı ki, belə şey olmaz. Nazdı xanım birtəhər dirsəhlənif aldı görəh nə dedi:

Bir səda yetişdi mənim guşuma,
Gedin, baxın, Mehdidimi bu gələn?!
Öz əlimnən zəhər qatdım aşıma,
Gedin, baxın, Mehdidimi bu gələn?!

Əzəlinnən qarı gəldi yanıma,
Bir söz dedi, tufan düşdü canıma,
Necə çıxım mən yarımın önünə,
Gedin, baxın, Mehdidimi bu gələn?!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Mən Nazdıyam azdırmışam yolumu,
Fələh qırdı qanadımı, qolumu,
Yar yanında gödəh etdi dilimi,
Gedin, baxın, Mehdidimi bu gələn?!

Uşaxlar, yanı, həmən yetimlər yüyürüf, Tehran yoluna çıxdılar. Baxdılar ki, doğurdan da Mehdi bəy atnan gəlir. Mehdiynən qucaqlaşıf öpüşdülər və dedilər: gözün aydın olsun, duamız qavıl oluf. Nazdı xanım bir haldadı ki, yeddi qədəm həndəvərinə hərrənmək olmur. Əhvalatı olduğu kimi Mehdi bəyə danışdılar. Mehdi bəy söyünüf dedi:

– Uşaxlar, Allaha şükür olsun, heç olmasa, nəfəsi varmı?

– Nəfəsi olmaxnan heç yanna yaxın getməy olmur. Öyə çatmamış əvvəl draxdına getdilər. Camaat tökülüf, gəldi. Baxdılar ki, Mehdi bəyin irəngi saralıf, saçdarı da dümağ. Mehdi bəy ah çəkif dilləndi:

– Niyə məni qınıyırsınız, qulaq asın, deyim:

Ey ariflər, niyə məni qınarsız,
Nə zamandı mən o yarı görmərəm,
Eşqə düşənnəri mən də qınardım,
Eşq əhlində indi karı görmərəm.

Al-yaşıl geyinif seyrə çıxasan,
Baxannarı yandırıban yaxasan,
Kor ol gözüm, özgəsinə baxasan,
Tarlan duran yerdə sarı görmərəm.

Mehdiyəm, ürəhdə qaldı bu zədə,
Haq bilir ki, gözüm yoxdu kimsədə.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Dili məndə oldu, qəlbi özgədə,
O səbəbdən biilqarı görmərəm.

Çünki ona da ayan olmuşdu ki, Nazdı xanım gejə-gündüz Mehdi deyif, Mehdi eşidir.

Bəli, oydu ki, yetimlərin biri öyə muştulux apardı ki, Mehdi bəy gəldi. Nazdı xanım adam göndərif dedi ki, Allahı istiyirsə yanıma gəlsin, bircə yanıma gəlsin, bircə dəfə üzünü görüm, daa heç nə istəmirəm.

Mehdi bəyi gətirdilər Nazdı xanımın qarşısına. Nazdı xanım kənizdərə dedi ki, sizi and verrəm Allaha, məni bir az qaldırın. Ağlaya-ağlaya götürüf Mehdi bəyə nə dedi, Mehdi bəy ona cavab verdi. Özü də "Kərəmi" üstə. Tərəfindən ərz elləyim, xoşbax olun:

Ey ariflər, bu gün məhşər günüdü,
Nə müddətdi əlim, yardan üzgündü.
Gündə beş yol dindirdiyim cananı,
Görəmmirəm xeyli vaxtdı yüz gündü.

Nazdı xanımın ağlamağına Mehdinin ürəyi yandı. Nazdı xanım da fikirləşdi ki, ay Allah, görən ürəyi mənnən təmiz dönüfmü? Götürüf burda Mehdi bəy nə dedi:

Qan ağlaram qara baxtın əlinnən,
Mən bülbüləm gülşanımnan olmuşam.
Bir gülüydü, tüşdü nadan əlinə,
Ayrılıx mədəni kannan olmuşam.

**Nazdı xanım**

Düz deyillər, heç əyri qəlb düz olmaz,
İblis tova qılsa gəlif düz olmaz,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Sözü qavıl olmaz, mətləv düz olmaz,
Namərd qapısında qalıf yüz gündü.

**Mehdi bəy**

Varmı mənim kimi qəmlər paşalı,
Əli dəstə güllü, tər bənövşəli,
Nazdı dilbər, səndən ayrı düşəli,
Vallah, tamam din-imannan olmuşam.

**Nazdı xanım**

Eh, Nazdıyam, susamışam dərdə mən,
Gör ki, şəfa bulmamışam dərdə mən,
Eyyub kimi tuş olmuşam dərdə mən,
Heç deyən yox, Mehdi gəlif, üzgündü.

**Mehdi bəy**

Mehdiyəm, rast gəldim müşkül bir işə,
Fələh yaman çaldı, qayıya, daşa,
Qorxuram bu söyda gəlməsin başa,
Heyva kimi saralıban solmuşam.

Söz tamama yetdi, deyillər, Nazdı xanımı hamama apardılar. İsti suynan çimizdirdilər, yaxşı kisə çəkdilər. Bir həftənin içində anadangəlmə oldu. Gözəlliyi yeddiydisə, indi doqquz oldu. Xavar çıxdı ki, Mehdi bəyin dayısı Mustafa vəzir doqquz yüz sarvaznan Qalaçanın dörd yannı kəsif. Nejdi Məmmədxan, vəzir-vəkili qaça bilmir. Mustafa vəzir hökmranlığı ələ alıf, çarmıx qurudurdu. Mehdi bəyi çağırtdırdı. Nejdi Məmmədxanı, vəzirini, qazı əfəndiyi, Türfənsə qarıyı də gətizdirdi.

Nejdi Məmmədxanı çarmıxa çəkdirif tafşırdı ki, gündə bunnan bir tikə ət kəsin. Vəzirnən, qazı əfəndiyi də gərgiyə verdi. Dedi, bunnarın əyəxlərinnən soyun. Gündə Nejdi



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Məmmədxanın kəsdiyiniz ət boyda soyun. Qaldı qarı, yeddi illik bir xam gətizdirdi. Qarıyı da qatırın quyruğuna bağlatdı ki, bunun havasını da qatır çəksin.

Mustafa vəzir bajısınnan görüşdü, Mehdi bəyə təzədən qırx gün, qırx gejə toy çaldırdı. Xanın, vəzirin əti, gönü qurtaran vaxt Mehdi bəyin toyu da qurtardı.

Mustafa vəzir camaatı yığıf, Mehdi bəyi xan qoydu. Amma o vaxtıydı ki, bu tərəfdən Qara xan arvadıynan, o tərəfdən qardaşı da Məhəmmədəli Gəncədən gəlirdilər. Mehdi bəy qardaşı Məhəmmədəliyi özünə vəzir qoydu. Əmisi uşaxlarını da kəmərbəstə. Məhəmmədəli Gəncədən burya köçdü. Bir aşıx tafdılar, bir də məclis qurdular. Aşıx bunnarın toyunu belə tutdu:

Xəstə konlum səhət buldu,
Sevdijiyim, sən gələndə,
Açılıf bulut zülflərin,
Qamətinə tən gələndə,
Gözdərim tüşdü gözünə,
Mən oldum heyran gələndə,
Havalandı konlum quşu,
Hürüynən-qılman gələndə,
Baharın tər bənöyşəsi,
Ey bağı gülşən gələndə.
Şikəst könlüm safa buldu,
Bir belə cavan gələndə.

Çoxları ziynət verif,
Tüşüf gözəllik bəhsinə,
Yaqutdan irəng alıf,
O cəvahir düyməsinə,
Yaxasınnan zər işdənif,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qıfıllanıf sinəsinə,
Xavar aldım əhvalını,
Yetik oldum binəsinə,
Dil-dil ötən kəhliyidin,
Oyçular duruf səsinə,
Kirpikləri müjgan oxu,
Qaşdarı kaman gələndə.

Nəvinin oylağıdı,
Əzm edər mahallara,
Xubların qaydasıdı,
Karvanı çıxar yollara,
Sərində sığal verər,
Əbrişim-siyah tellərə,
Durna kimi qatarranıf,
Sonalar üzür göllərə,
Tərifinə dastan dedim,
Tüşsün dillərdən-dillərə,
Şairlərin qaydasıdı,
Tərif deyər gözəllərə,
Ün tüşər biyavana,
Cütünnən ceyran gələndə.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## DASTANLARIN TOPLANMASINA DAİR QEYDLƏR

**1. Qaratel və Aşıq Cəlal.**

**2. "Şah Səməd - Şəmsi xanım"** dastanı Tovuzlu Aşıq Qedirdən toplanmışdır. Aşıq Qədirin dediyinə görə, həmin dastanı ona Bozalqanlı Xəyyat Mirzə danışmışdır.

**3. "Cəmşid - Gülsabah"** dastanını bizə 1986-cı ildə Sancallı Museyib Əli oğlu Cəfərov söyləmişdir.

**4. Bikəs – Nazlı xanım** dastanı Qazax rayonunun Canallı kəndində yaşayan Məqsəd İsmayıl oğlundan toplanmışdır. Onun dediyinə görə, həmin dastanı Qazax rayonunun Ağköynək kəndində yaşayan Aşıq Məmmədyar söyləmişdir.

**5. Gürcü qızı. "Gürcü qızı"** dastanını Qazax rayonunun Poylu qəsəbəsində yaşamış Dursun Qara oğlundan toplamışıq. Onun dediyinə görə, həmin dastanı Ağstafa rayonunun Dağkəsəmən kəndində yaşamış Aşıq Ədhəm Ərəbovdan öyrənmişdir.

**6. "Heyratdı Qasım"** dastanı 1974-cü ildə Tovuz rayonunda yaşayan Aşıq **Əkbər Cəfərovdan toplanmışdır.**

**7. "Hüseyn - Pəri xanım"** dastanını bizə Poylu stansiyasında yaşayan Dursun Qara oğlu danışmışdır. Deyilənə görə bu dastanın müəllifi Ağkilsəli Aşıq Musa olmuşdur.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**9. "Süleyman - Mələk"** dastan-rəvayəti Tovuzlu Aşıq Əkbər Cəfərovdan toplamışıq.

**10. Maral xanım. "Maral xanım - Mustafa"** dastan-rəvayəti bizə el şairi Dursun Qara oğlu söyləmişdir.

**11. "Hüseyn - Reyhan xanım"** dastan-rəvayəti Aşıq Əkbər Cəfərovdan toplamışıq.

**12. Mehdi bəyin dastanı.** Dastan Borçalı Şair Nəbinin «Eləsi var...» kitabından (Bakı, "Ağrıdağ" nəşriyyatı, 2003) götürülmüşdür.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# MÜNDƏRİCAT


Qaratel və Aşıq Cəlal....................................................3

Şahsəmədlə Şəmsi xanımın dastanı...........................32

Cəmşid – Gülsabah.................................................64

Bikəs – Nazlı xanım................................................85

Gürcü qızı.............................................................106

Heyratdı Qasım…...................................................125

Hüseyn-Pəri xanım.................................................160

Süleyman – Mələk..................................................186

Maral xanım...........................................................196

Aşıq Hüseynlə Reyhan xanım.................................209

Mehdi bəyin dastanı...............................................257

Dastanlarin toplanmasina dair qeydlər....................288




PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**Azərbaycan folkloru külliyyatı,**
**XXVII cild, Dastanlar (XVII kitab),**
Bakı, "Elm və təhsil", 2011.

Nəşriyyat direktoru:
**Prof. Nadir Məmmədli**

Nəşriyyat redaktoru:
**Elçin Abbasov**

Kompyuterdə yığdı:
**Ruhəngiz Əlihüseynova**

Korrektor:
**Həbibə Hüseynova**

Kompyuter tərtibçisi və
texniki redaktoru:
**Ramin Abdullayev**

Kağız formatı: 60/84 1/32
Mətbəə kağızı: №1
Həcmi: 292 səh.
Tirajı: 500
Qiyməti müqavilə ilə.

Kitab Azərbaycan MEA Folklor İnstitutunun
Kompyuter Mərkəzində yığılmış, "Elm və təhsil" NPM-də
ofset üsulu ilə çap olunmuşdur.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com